**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ŞAMİL SALMANOVUN ELMİ-ƏDƏBİ İRSİ

İxtisaslar: 5716.01 – Azərbaycan ədəbiyyatı
5715.01 – Ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid

Elm sahəsi: Filologiya

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş

**D İ S S E R T A S İ Y A**

İddiaçı:________________ **Rəqsanə Hidayət qızı Zeynalova**

Elmi rəhbər:____________ **filologiya elmləri doktoru, dosent**
**Məhəmmədəli Bayram oğlu Mustafayev**

**Bakı-2022**

# Mündəricat


Giriş ........................................................................................... 3

I fəsil. Şamil Salmanovun elmi-ədəbi irsində poeziyanın təhlil prinsipləri........................................................................ 9

1.1. Şamil Salmanovun yaradıcılığında ənənə və novatorluq kateqoriyalarına elmi-nəzəri baxış............................................... 9

1.2. Şamil Salmanovun tədqiqatlarında poeziyanın əsas təhlil istiqamətləri........................................................................ 28

II fəsil. İctimai-ədəbi mühitdə ədəbi şəxsiyyət amili................................. 41

2.1. Şamil Salmanovun ədəbi-estetik ideyaları............................. 41

2.2. Tənqidçi üslubunun fərdiliyi................................................. 54

III fəsil. Şamil Salmanovun elmi irsində ədəbi tənqidin nəzəri, estetik problemləri........................................................................ 75

3.1. Şamil Salmanovun elmi irsində ədəbi tənqidin metodoloji problemləri........................................................................ 75

3.2. Tənqid tariximizə müasir elmi baxış...................................... 92

3.3. Şamil Salmanovun ədəbi-nəzəri fikrində tarixilik və müasirlik........................................................................ 101

Nəticə ........................................................................................... 120

İstifadə edilmiş ədəbiyyat siyahısı................................................................ 125

# Giriş

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Milli humanitar fikrin öyrənilməsi bu gün sürətlə qloballaşan dünyada milli-mənəvi dəyərlərin qorunması işinin tərkib hissələrindəndir. Azərbaycan humanitar fikir tariximizin geniş miqyaslı, çəkili və zəngin sahələrindən biri də ədəbiyyatşünaslıq elmimizdir. Bu elmin düşüncə sistemi, tədqiqat üsulları dövrünün istər siyasi-ideoloji, istərsə də mənəvi-mədəni tərəfləri haqqında çox şey deyir. Buna görədir ki, ədəbiyyatşünaslıq tədqiqatlarının araşdırmalar müstəvisinə çıxması həm milli-mənəvi dəyərlərimizi, həm tarixi-mədəni inkişafın dialektikasını, həm də dövrün həqiqətlərini öyrənmək baxımından əhəmiyyətlidir.

Məlumdur ki, ədəbiyyatşünaslıq elmi milli humanitar fikrin bir sahəsi kimi ayrı-ayrı tədqiqatçıların elmi-nəzəri irsində yaranır. Yaranan irslərin ədəbiyyatşünaslıq elminin çərçivəsində qalmayıb milli humanitar fikrə qoşulması, sadəcə hər tədqiqatçının yaradıcılığında baş verən hadisə olmayıb, tədqiqatların elmi-nəzəri sistemi, estetik görüşləri miqyasında gerçəkləşir. Azərbaycan ədəbiyyatşünaslığında M.F.Axundov yaradıcılığı ilə başlayan bu yolda səmərəli fəaliyyət göstərən alimlərimizdən biri də prof. Şamil Salmanovdur. Odur ki, Şamil Salmanovun elmi-ədəbi irsini araşdırmaq milli humanitar fikri öyrənmək, sovet dövrü ədəbi-tarixi prosesinin problem və istiqamətlərini tədqiq etmək, yeni ədəbi-tarixi mərhələyə - müstəqilliyə keçidin şərtləndirdiyi reallıqları dərk etmək baxımından aktuallıq kəsb edir. Dövrün mürəkkəb sosial-siyasi mənzərəsini və ziddiyyətlərini nəzərə alsaq, onda mövzunun aktuallığı daha da aydın görünər.

Ş.Salmanovun elmi-ədəbi irsi ədəbiyyatşünaslıq elmimizin ədəbi-nəzəri sisteminin zənginləşməsində əvəzsiz rol oynamışdır. Keçən əsrin altmışıncı illərində bu elmə gələn Şamil Salmanov yarıməsrlik fəaliyyətində ədəbiyyatşünaslıq elminin müxtəlif sahələrində tədqiqatlar aparmış, fərqli ədəbi problemlər üzərində araşdırmalar etmişdir. Bu araşdırmaların dövrün ədəbi hadisələrini öyrənmək, onu istiqamətləndirmək baxımından kəsb etdiyi əhəmiyyət bu gün də öz aktuallığını itirməmişdir.

Şamil Salmanovun ədəbi tənqidə gəldiyi keçən əsrin altmışıncı illərində ədəbiyyatda demokratikləşmə prosesi gedir, yeni ədəbi meyillər yaranırdı. Bədii yaradıcılıqla yanaşı, ədəbi tənqid də yeniləşir, öz nəzəri-estetik bazasını gücləndirir, müasir ədəbi meyarlardan çıxış edirdi. Şamil Salmanov hələ gənc olsa da, yeni ədəbi meyil və təmayülləri vaxtında və düzgün müəyyənləşdirir, ilk məqalə və monoqrafiyalarında ədəbi prosesin nəbzini tutmağa çalışırdı. Beləliklə, Şamil Salmanovun elmi və bədii yaradıcılığını tədqiq etmək, eyni zamanda, 1960-cı illərdə fəaliyyətə başlayan "yeni ədəbi nəsl"in yaradıcılığının spesifik xüsusiyyətlərini müəyyənləşdirmək, dövrün ədəbi tənqidinin onlara elmi-nəzəri münasibətini, ədəbi təhlil maneralarını və üsullarını araşdırmaq deməkdir.

Şamil Salmanov yarım əsrdən də çox bir müddətdə ədəbi fikrimizin yaradıcılıq istiqamətlərinin müəyyənləşdirilməsinə, müasir ədəbi irsin mənəvi dəyərlərinin üzə çıxarılmasına çalışıb. Özünəqədərki elmi-ədəbi ənənədən bəhrələnən Ş.Salmanov özü də ədəbiyyatşünaslığımızın daim yenilənən ənənələrinə töhfələrini vermişdir. Bu irsin mövzu-problem zənginliyi, elmi dərinliyi, nəzəri bazasının gücü onu ədəbiyyatşünaslığın mühüm tədqiqat predmetinə çevirir.

Ş.Salmanov ədəbiyyatşünaslığımızın elə nümayəndələrindəndir ki, onun tədqiqatlarında bədii yaradıcılığın yalnız təhlil və təsviri deyil, həm də ədəbi prosesin inkişafında müşahidə olunan yeni təmayülləri və mərhələləri geniş şərhini tapmışdır. Alimin problemə analitik təfəkkür müstəvisində yanaşmaq tərzi onun elmi-ədəbi irsini müasir ədəbiyyatşünaslıq araşdırmaları üçün aktual edən səbəblərdən biridir.

Ümumiyyətlə, Ş.Salmanovun elmi-ədəbi irsi dövrünün ədəbiyyatşünaslıq elminin inkişaf qanunauyğunluqlarını, düşüncə sferasını özündə ehtiva etdiyindən onun elmi-nəzəri müstəvidə araşdırılması həm də bu elmin problemlərinin dərkini şərtləndirir. Demək, alimin irsinin öyrənilməsi Azərbaycan ədəbiyyatşünaslıq elminin fundamental məsələlərinə münasibət bildirmək baxımından da əhəmiyyətli və aktual səciyyə daşıyır.

Müasir ədəbiyyatşünaslıq elmi özünəqədərki təcrübəni öyrənmədən, ondan bəhrələnmədən inkişaf edə bilməz. Ş.Salmanovun elmi-ədəbi irsi müasir

ədəbiyyatşünaslıq üçün təcrübə mənbələrindən biridir. Alimin elmi-nəzəri və ədəbi irsi yeni nəsil tədqiqatçıları üçün bir məktəbdir və bu irsi mənimsəməkdən ötrü onu elmi araşdırma müstəvisinə çıxarmaq zəruri və əhəmiyyətlidir.

Bu gün istər klassik, istərsə də çağdaş ədəbiyyatın araşdırılmasına Ş.Salmanovun elmi konsepsiyasının, tədqiqat üsullarının tətbiqi səmərəli nəticə verə bilər, ona görə də bu konsepsiyanın, üsulların dərki zərurəti onlara elmi araşdırma mövzusu kimi aktuallıq qazandırır.

Şamil Salmanovun elmi-ədəbi irsi bu günə qədər ədəbiyyatşünaslıq elminin diqqətində olmuş, bu irsin elmi-nəzəri xüsusiyyətlərinə ədəbiyyatşünaslıq problemləri ilə bağlı ayrı-ayrı tədqiqatlarda fraqmental şəkildə toxunulmuş və yaxud məqalə janrının imkanları daxilində araşdırılmışdır. Bu araşdırmalar bəzən icmal xarakteri daşımış, bəzən isə onun irsində bu və ya digər problemin tədqiqindən o tərəfə getməmişdir. Alimin yaradıcılığı fraqmental və yaxud panoram xarakterli müstəvinin sərhədlərini adlayaraq, indiyə qədər küll halında heç bir elmi-nəzəri, monoqrafik araşdırmanın tədqiqat predmetinə çevrilməmişdir.

Şamil Salmanovun elmi-ədəbi irsinin öyrənilməsinə bu gün olan maraq və zərurət hələ əvvəlki onilliklərdə də özünü göstərmişdir. Bəkir Nəbiyev, Yaşar Qarayev, Nizaməddin Şəmsizadə, Teyyub Qurban, Elnarə Akimova kimi ədəbiyyatşünaslar onun ədəbi fikrimizdəki rolu və mövqeyini müəyyənləşdirməyə çalışmışdırlar. Bəkir Nəbiyev "Tənqid və ədəbi proses" adlı tədqiqatında Şamil Salmanovun poeziya və nəsr tənqidimizə gətirdiyi yeniliklər, onun ədəbi tənqiddə tutduğu mövqe barədə konkret fikir formalaşdırıb, poeziya tənqidinin müəyyən məcraya yönəldilməsindəki, ənənə və novatorluğun müəyyənləşdirilməsindəki mövqeyinə toxunub. Yaşar Qarayev "Şamil Salmanov – 50" məqaləsində alimin elmi-ədəbi fəaliyyətini yığcam şəkildə ictimaiyyətə çatdırmış, onun yaradıcılığında tənqidçi nüfuzunun yüksəlməsinə imkan verən cəhətlərə xüsusi diqqət yetirmişdir. Elnarə Akimovanın "Müstəqillik dövründə Azərbaycanda ədəbi tənqid (90-cı illər)" tədqiqatında sovet dövrü ədəbiyyatının dövrləşdirmə konsepsiyasının prinsiplərinə və əsas müddəalarının elmi-nəzəri aspektlərinə, həmçinin müstəqillik dövrü ədəbi-tarixi mərhələsinin ilk onilliyinin cari

ədəbi prosesinə Ş.Salmanovun baxışı araşdırılmışdır. “Alimliyin təsdiqi” məqaləsində Teyyub Qurban milli tənqid ənənələri üzərində dayanaraq, Əli Nazim, Mehdi Hüseyn, Məmməd Arif, Məmməd Cəfər kimi alimlərimizlə yanaşı, Azərbaycan tənqid məktəbinin yeni ənənələrinin yaranması və formalaşmasında Şamil Salmanovun da xüsusi xidmətləri olduğunu xatırladıb.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini prof. Şamil Salmanovun elmi-ədəbi irsi, ədəbi tənqid və ədəbiyyatşünaslıq sahəsində apardığı tədqiqatlar təşkil edir. Tədqiqatın predmeti isə Ş.Salmanovun ədəbiyyat tariximizin müxtəlif mərhələlərində yaşayıb-yaratmış sənətkarların yaradıcılıqları barədə elmi-nəzəri araşdırmaları, ədəbi prosesin aktual problemləridir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Azərbaycan ədəbiyyatşünaslıq elmində ədəbi-nəzəri görüşlər sistemi formalaşdırmış Şamil Salmanovun elmi-ədəbi irsini öyrənmək tədqiqat işinin başlıca məqsədidir. Bu məqsədə çatmaq üçün aşağıda göstərilən elmi problemlərin şərhi tədqiqat işinin vəzifəsinə çevrilmişdir:

- Şamil Salmanovun elmi-ədəbi fəaliyyətinin formalaşdığı tarixi-mədəni şəraitin xüsusiyyətlərini öyrənmək;
- Alimin elmi-nəzəri görüşlərinə ədəbi-tarixi şəraitin və ideoloji təzyiqin təsirini aşkarlamaq;
- Şamil Salmanovun elmi irsinin milli ədəbiyyatşünaslıqdakı mövqeyini müəyyənləşdirmək;
- Şamil Salmanovun ədəbi-nəzəri görüşlərinin konseptual istiqamətlərini müəyyən etmək;
- Şamil Salmanovun elmi irsində ənənə və novatorluq probleminə baxışını və problemin tədqiqində alimin gəldiyi qənaətləri öyrənmək;
- Alimin ədəbi tənqid sahəsinin və onun tədqiqat metodologiyasının öyrənilməsi ilə bağlı təcrübəsini araşdırmaq;
- Şamil Salmanovun elmi irsinin ədəbi-nəzəri fikrin inkişafına təsirini öyrənmək.

**Tədqiqat metodları.** Tədqiqat işinin yerinə yetirilməsi zamanı müxtəlif elmi

metodlara – təsvir etmə, tarixi-müqayisəli, analiz və sintez, sistemli yanaşma metodlarına müraciət edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. Ədəbi-estetik kateqoriya olan ənənə və novatorluğun qarşılıqlı əlaqəsini, vəhdətini, müasir ədəbi-tarixi prosesdəki rolunu üzə çıxarmaq;

2. Poetik yaradıcılığın çağdaş ədəbi-nəzəri fikirdə dərkinə aydınlıq gətirmək;

3. Şamil Salmanovun ədəbi-estetik prinsiplərini dəyərləndirmək və bu kontekstdə milli ədəbi tənqidin estetik axtarışlarını təyin etmək;

4. Müasir ədəbi-nəzəri fikrin əsas istiqamətlərini aşkara çıxarmaq və Şamil Salmanovun yaradıcılığı zəminində tənqid və ədəbiyyatşünaslığın bütöv bir mərhələsinin elmi axtarışlarını təhlil etmək;

5. Ədəbi-tarixi prosesdə aparıcı rol oynayan tarixilik və müasirlik kateqoriyalarının dialektik vəhdətini konkret ədəbi-estetik nümunələr əsasında müəyyənləşdirmək;

6. Milli humanitar siyasətin müəyyənləşməsində tənqid və ədəbiyyatşünaslıq konsepsiyalarının rolunu müəyyən etmək.

**Tədqiqatın elmi yeniliyi.** Təqdim olunan dissertasiya işinin elmi yeniliyi aşağıdakı amillərlə şərtləndirilir:

- Dissertasiya işində ilk dəfə olaraq, Şamil Salmanovun tənqid və ədəbiyyatşünaslıq sahəsindəki fəaliyyəti sistemli və ardıcıl şəkildə izlənilir, alimin elmi-ədəbi irsi haqqında bitkin fikir formalaşdırılır;
- Alimin elmi tədqiqatlarının metodologiyası müəyyənləşdirilir;
- Şamil Salmanovun araşdırmalarının ədəbi-nəzəri xüsusiyyətləri və istiqamətləri sistemləşdirilir;
- Bu sistemin elmi mahiyyəti və dəyəri müasir meyarlar çərçivəsində qiymətləndirilir;
- Alimin tədqiqatlarında ənənə və novatorluq, müasirlik kimi kateqoriyaların elmi-nəzəri şərhi araşdırılır;
- Milli ədəbi-nəzəri fikrin inkişaf qanunauyğunluqları Şamil Salmanovun

elmi irsi çərçivəsində izlənilir;

- Azərbaycan ədəbiyyatşünaslığının inkişafında Ş.Salmanov irsinin rolu üzə çıxarılır.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Azərbaycan ədəbiyyatşünas-lığının ədəbi-estetik prinsiplərinin və inkişaf qanunauyğunluqlarının öyrənilməsi, bir sıra ədəbi-nəzəri problemlərə aydınlıq gətirilməsi dissertasiya işinin nəzəri əhəmiyyətini müəyyənləşdirir. Tədqiqat işi Ş.Salmanovun elmi-ədəbi irsini, ümumiyyətlə, ədəbiyyatşünaslıq problemlərini araşdıranlar, eyni zamanda, ali məktəblərin filologiya fakültələrinin tələbə və magistrantları, ədəbiyyatşünas-tənqidçilər üçün gərəkli ola bilər. Dissertasiya işindən müxtəlif elmi məqalələrin, monoqrafiyaların, dərslik və dərs vəsaitlərinin, metodik vəsaitlərin və s. hazırlanmasında istifadə etmək olar.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiya işi Sumqayıt Dövlət Universitetinin Azərbaycan və xarici ölkələr ədəbiyyatı kafedrasının tədqiqat istiqamətlərinə uyğun olaraq yerinə yetirilmiş, tədqiqat işinin mövzusu Filologiya Problemləri üzrə Elmi Şurasında təsdiq olunmuşdur. Əldə edilən elmi nəticələr, dissertasiya işinin əsas məzmunu, tədqiqat konsepsiyası Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının müəyyənləşdirdiyi elmi jurnallarda, iddiaçının beynəlxalq konfranslardakı çıxışlarında öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Sumqayıt Dövlət Universitetinin Azərbaycan və xarici ölkələr ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, üç fəsil və ayrı-ayrı elmi problemlərin izah və şərhini nəzərdə tutan paraqraflardan, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

Tədqiqat işi ümumilikdə 223339 işarədən ibarətdir. Giriş 1068 işarədən, birinci fəsil 60472 işarədən, ikinci fəsil 66432 işarədən, üçüncü fəsil 86398 işarədən, nəticə isə 8969 işarədən ibarətdir.

## I Fəsil
## ŞAMİL SALMANOVUN ELMİ-ƏDƏBİ İRSİNDƏ POEZİYANIN TƏHLİL PRİNSİPLƏRİ

### 1.1. Şamil Salmanovun yaradıcılığında ənənə və novatorluq kateqoriyalarına elmi-nəzəri baxış

Tarixən formalaşan ədəbi-bədii təcrübənin inkişaf və təkamülündə ənənə və novatorluq önəmli rola malik nəzəri-estetik kateqoriyalar sırasında mühüm yerlərdən birini tutur. Məlumdur ki, bu iki anlayış bir-birini tamamlayan, biri digəri üçün yeni yaradıcılıq impulsu yaratmaq gücünə qadir olan vasitələrdəndir. Ədəbiyyatşünaslığa dair ensiklopedik soraq kitablarında ənənəyə məxsus səciyyəvi cəhətlər belə xarakterizə olunur: *"...köhnə ədəbi hadisə ilə yeni ədəbi hadisə arasında ardıcıl varislik əlaqəsi; bir və ya bir neçə yazıçının yaradıcılığının sonrakı yazıçılar tərəfindən öyrənilən və inkişaf etdirilən ideya-sənətkarlıq xüsusiyyətləri. Məsələn, dahi Azərbaycan şairi Nizami Gəncəvi yaradıcılığında Şərqin böyük söz ustaları Firdovsi və Əttarın, Füzuli isə Nizami, Nəvai, Həbibi və Nəsiminin şeir ənənələrini davam və inkişaf etdirmişdir. C.Məmmədquluzadə, Ə.Haqverdiyev, M.Ə.Sabir, M.Möcüz realizminin ideya-bədii kökləri M.F.Axundzadə və Q.Zakirin realist ənənələri ilə üzvi surətdə bağlıdır"* [49, s. 83].

Göründüyü kimi, ənənə daha çox zaman-zaman qazanılan yaradıcılıq təcrübəsindən öyrənməyin, yararlanmağın hesabına formalaşan bir əlaqə və bağlılığı göz önündə canlandırır. Ədəbi təcrübədə mütərəqqi meyillər, mövzu və ideyalar aləmində özünü büruzə verən xüsusiyyətlər daha sonralar yaranan ədəbi gedişata təkan vermək, onun sənətkarlıq baxımından zənginləşməsinə əsaslı surətdə təsir göstərmək xassəsini qoruyub saxlaya bilir. Əlbəttə, burada klassik üslubda və ənənəvi janrlarda yaradılan nümunələrin yüksək sənətkarlıqla ərsəyə gətirilməsi də mühüm şərtlərdən biri kimi ön plana çəkilir. Obrazlılıqdan, bədiilikdən, insani hiss və duyğulardan uzaq, onun düşüncəsinə və qəlbinə təsir göstərməkdən məhrum ədəbi fakt oxucuya yüksək ideyalar, emosional ovqat aşılamadığı kimi, bir küll halında

ədəbi təcrübəyə də, ayrı-ayrı sənətkarların yaradıcılıq axtarışlarına da təsir göstərmək iqtidarında olmur. Digər tərəfdən, belə bir yaradıcılıq əlaqəsi və təması əgər yüksək sənətkarlığa, bədii düşüncə və təxəyyülün intəhasızlığına geniş meydan açmırsa, novator axtarışlarla cilalanmırsa, bu artıq təqlid və epiqonçuluğa gətirib çıxaran fəsadlara rəvac verə bilər.

Bu mənada ənənə və novatorluğun elmi-nəzəri aspektdən araşdırma predmeti kimi seçilməsi də təsadüfi hesab edilməməlidir. Hər iki nəzəri-estetik kateqoriyanın aktuallıq qazanması əslində ədəbi təcrübənin inkişaf qanunauyğunluğundan irəli gələn bir məziyyətdir.

Filologiya elmləri doktoru, professor Şamil Salmanov ənənə və novatorluq problemini araşdıran tanınmış tədqiqatçılardan biridir. O, hələ keçən əsrin 60-cı illərindən başlayaraq üzərində işlədiyi "Azərbaycan sovet şeirinin ənənə və novatorluq problemi (1920-1932-ci illər)" mövzusundakı namizədlik dissertasiya-sında problemə konkret bir yaradıcılıq təcrübəsinin ədəbi-bədii fakt və hadisələri əsasında münasibət bildirməyə çalışmış, sovet ideologiyasının ədəbiyyat siyasətinin ayrılıqda götürülən bir mərhələsinin timsalında poeziyanın nail olduğu başlıca mövzu və sənətkarlıq məsələləri ətrafında sistemli tədqiqat aparmışdır. Sözsüz ki, müəllif yeri gəldikcə elmi həllinə cəhd göstərilən problemləri keçmiş ümumittifaq miqyasındakı mövcud yaradıcılıq axtarışları ilə tarixi-müqayisəli aspektdə nəzərdən keçirməklə yanaşı, Şərq və türkdilli xalqların poetik təcrübəsinə də müraciət etməyi məqsədəuyğun hesab etmişdir ki, bu da tədqiqatın daha əhatəli qaynaqlara və mənbələrə istinadını gerçəkləşdirməyə real zəmin yaratmışdır.

Tədqiqat işində ənənə və novatorluq məsələlərində yeni məzmun və mündəricənin bir aparıcı xüsusiyyət kimi mövqeyini aydınlaşdırmaq, bu istiqamətdə yaradıcılıq təcrübəsinin təbiətindən və xarakterindən irəli gələn məqamlara diqqət yönəltməyin əsas məqsəd və niyyətə çevrilməsi də bu mənada təsadüfi deyildi. Müəllif burada ənənə dedikdə, yalnız mövzu, məzmun və mündəricə kimi bədii strukturdakı zəruri komponentlərlə kifayətlənmir, doğru olaraq, onu forma əlamətlərindən təcrid olunmuş şəkildə təsəvvürə gətirməyin qeyri-mümkünlüyü

barədə yekdil qənaətə gəlir. Şamil Salmanov fikrini əsaslandıraraq, əruz vəzninə münasibəti təhlil edir, ondan istifadə edərək yeni mövzularda əsərlər yaradanları və əksinə yeni mövzuların əruzun sərhədlərinə sığmadığı üçün onu tənqid edənləri haqlı hesab edir, bunun qanuni olduğunu yazırdı. O, hər hansı bir ənənəvi milli formaya tənqidi sənətkarın subyektiv meyli hesab edərək, belə tənqidi böyütməyin əleyhinə çıxış edirdi.

Şamil Salmanovun ənənə və novatorluq problemini elmi-nəzəri dərkini son dərəcə mürəkkəb bir dövrün-proletkultçuluq və yeni ədəbiyyat siyasəti kimi mübahisəli bir mərhələnin kontekstində araşdırması da polemikalarla, fikir ayrılıqları ilə müşayiət olunan ərəfənin ədəbi mənzərəsini, onun konturlarını dəqiq və prinsipial meyarlar əsasında müəyyənləşdirməyə əsas verir.

Alimin haqqında söhbət gedən problemləri sosialist realizmi kimi bir yaradıcılıq metodunun nəzəri müddəalarından, prinsiplərindən çıxış edərək izah və şərh etməsi indiki dəyişən və yeniləşən yanaşmalar prizmasından müəyyən mübahisələrə səbəb olsa da, burada sənətin, yaradıcılıq aləminin qanunauyğunluqlarından irəli gələn mühüm cəhətləri də görmək mümkündür. Dövrün bədii təcrübəsinin, eyni zamanda elmi-nəzəri fikrinin ənənə və novatorluğa münasibətindəki bir çox yeni və bəzən də inkarçı meyilləri üzə çıxarmaq üçün Şamil Salmanovun təşəkkül dövrünün ədəbi tənqidində bu məsələlərin qoyuluşunda nəzərə çarpan yanaşmaları sərf-nəzər etməməsi problemin ciddi və mürəkkəb polemikalar zəminində yozumundan xəbər verir.

Belə bir əlamətdar cəhətin poeziyanın vəzn sistemindəki yeniliklərlə izah olunması, dövrün poetik fikrini düşündürən və narahat edən məsələlər kimi şərh edilməsi də təbii təsir bağışlayır. Burada ənənəvi vəzn hesab olunan əruzdan üz döndərilməsinə edilən çağırışları, ona alternativ kimi seçilən sərbəst şeirə geniş meydan verilməsini tələb edən iddiaları da birmənalı şəkildə qəbul etmək çətindir. Bunu uzun onilliklərdən sonrakı yaradıcılıq təcrübəsi də əyani surətdə təsdiqlədi.

Maraq doğuran bir cəhəti də xüsusi olaraq qeyd etmək lazımdır ki, Şamil Salmanovun bir ədəbiyyatşünas-tənqidçi kimi sonrakı elmi-nəzəri fəaliyyətində bu iki

prinsipial ədəbi-estetik kateqoriyanın müddəalarından yararlanmasını müşahidə etmək mümkündür. Məsələn, onun xalq şairləri Süleyman Rüstəm, Məmməd Rahim və Rəsul Rza kimi şairlərin yaradıcılığına həsr olunan məqalə və tədqiq xarakterli yazılarında adları çəkilən sənətkarların yaradıcılıq fərdiyyəti məhz belə meyarlar əsasında üzə çıxarılır.

Xalq şairi Süleyman Rüstəmin həm ənənəvi klassik janrlarda qələmə aldığı poetik nümunələrdə, həm də sərbəst vəzndə yazdığı şeirlərdə bu cəhətin yaxından izlənilməsi belə bir qənaətə gəlməyə yetərincə əsas verir. Qəzəl janrının sadə bir dildə və üslubda yeni nümunələrinin yaradılmasını əslində klassik formada və poetik qəlibdə novatorluq əlamətlərinin yeni məzmun və mündəricədə ifadəsinin real təzahürü kimi dəyərləndirmək olar. Fikrimizcə, qəzəlin poetik strukturuna gətirilən belə yeniləşmə, əlbəttə, sənətkarın istedad və yaradıcılıq təcrübəsindən irəli gələn bir məziyyətdir.

Rəsul Rzanın poetik irsinin mahiyyətində dayanan yeni özünüifadə imkanlarını və yanaşma meyillərini şərh edərkən Şamil Salmanov mütləq şəkildə novatorluq anlayışından çıxış edərək bir sənətkar kimi onun yaradıcılıq palitrasındakı bu özünəməxsusluğun fəlsəfi-estetik mahiyyətini belə açıqlayır: *"Novatorluq – poeziyaya dövrün yeni faktını, yeni materialını, onun səciyyəvi, mənəvi-əxlaqi sifətlərini gətirməkdir, o şeyi gətirməkdir ki, həyatın özündə yeni və sağlamdır, fəal və mütərəqqidir. Novatorluq – poeziyanı əsrin böyük həqiqətinin, mürəkkəb mündəricəsinin tərcümanına çevirməyi bacarmaqdır"* [98, s. 135].

Bu mülahizələr Şamil Salmanovun Xalq şairi Rəsul Rza yaradıcılığı haqqında qələmə aldığı silsilə məqalələrin birindən götürülüb. Burada bir tənqidçinin şairin sənət kredosunu müəyyənləşdirmək istiqamətindəki axtarışlarında prinsipial meyardan çıxış etmək əzmini qabarıq şəkildə görmək və yaxından müşahidə etmək olur.

Şamil Salmanov ənənə və novatorluğu müasir ədəbi proses üçün də zəruri vasitələrdən biri hesab edirdi, çoxsaylı məqalə və rəylərində bu iki nəzəri-estetik kateqoriyanın prinsiplərindən çıxış edərək fikir söyləmək təşəbbüsü özünü açıq-aydın

göstərirdi. Müasir poeziyanın yaradıcılıq problemlərinin çözülməsində də Şamil Salmanov belə bir meyar və prinsipdən çıxış edərək təhlil və ümumiləşdirmələr aparmış, bu onun bir tənqidçi kimi bütövlükdə poeziyaya dair görüşlərinə, məruzələrinə və icmal xarakterli yazılarına sirayət edən başlıca xüsusiyyətlərdən biri olmuşdur.

Bədii ədəbiyyatda ənənələrə yenidən baxmaq və yeni ənənə qurmaq prosesi, adətən, ədəbi tənqiddə mübahisəli-müzakirəli bir ortam ilə müşahidə olunur. Bədii yaradıcılıqda görünən hər yeni faktın özünü yenilik kimi təsdiqləməsi həm bədii inkişaf qanunauyğunluqlarında, həm də ədəbi tənqidi müzakirələrdə müəyyənləşir. *"Ədəbiyyatda bütün yeni şeylər novatorluq deyil. Novatorluq sənətin əhəmiyyətli dərəcədə dəyişikliyidir, o, böyük istedad və zamanın tələbini dərindən duymağı tələb edir. Məsələn, sentimentalizmin nümayəndələrinin insanın şəxsi həyatına və onun duyğular aləminə müraciəti novatorcasına idi. Dünya ədəbiyyatının Homer, Dante, Şekspir, Servantes, Puşkin, Şevçenko kimi böyük yazıçıları novator olmuşlar. Onlar yeni tərzdə ətraf reallıqlara baxa, onda baş verən prosesləri dərk edə və oxucu üçün yeni janrlar, mövzular, obrazlar, bədii ifadə vasitələri yarada bilmişlər"* [163].

Ədəbiyyatımızda görünən "yeni"lərin "yenilikmi?" deyə sual doğurduğu, ədəbi tənqidin qızğın müzakirələrinə səbəb olduğu dövrlərdən biri də keçən əsrin 20-30-cu illəridir. Ənənələrə aqressiv, loyal, mühafizəkar və s. münasibətlərin olduğu və "yeni"lərin bir axın şəklində ədəbiyyata daxil olduğu bu dövrün problemləri bir çox müstəvilərdə, o cümlədən də Şamil Salmanovun "Azərbaycan sovet şeirinin ənənə və novatorluq problemi" monoqrafiyasında öz həllini tapmışdır. Əsərdə 1920-1932-ci illər Azərbaycan ədəbi tənqidi və ədəbiyyatşünaslığında ənənə və novatorluq probleminin həlli əsas tədqiqat predmeti kimi götürülüb. Müəllif yeni Azərbaycan şeirində novatorluq meyillərini dövrün, zamanın diqtəsi kimi qəbul etməklə yanaşı, ədəbi ənənələrin qarşılıqlı əlaqəsinə və ədəbi-tarixi varisliyə də eyni qayğı və həssaslıqla yanaşıb.

Keçən əsrin 20-30-cu illəri milli ədəbiyyatşünaslığın və ədəbi tənqidinin daha da canlanması, təşəkkülü və ədəbi-tarixi prosesdə özünütəsdiq mərhələsidir. Bu dövrdə yeniliklə köhnəlik, ənənə və novatorluq, sosial-siyasi proseslərlə ədəbi-mədəni inkişaf bir vəhdət halında ədəbiyyatın inkişaf istiqamətlərini müəyyənləşdirdi. *"Özünü bədii ədəbiyyatın həm məzmununda, həm də formasında göstərə bilən ənənə"* [23, s. 71] üzərində varislik prinsiplərinin yeni təmayüllərinin yaranıb formalaşmasına münbit imkanlar açdı. Bu baxımdan mədəni inqilabın ictimai həyata gətirdiyi yeniliklər bəzi hallarda mühafizəkarlıqla qarşılansa da, forma və məzmun axtarışları davam edir, yeni məqsəd, yeni ruh bir sıra janrların yaranmasına, keyfiyyətcə yeniləşməsinə gətirib çıxarırdı. İctimai düşüncənin poetik əksi, köhnəliyin tənqidi, yeniliyin təbliği 1920-30-cu illər Azərbaycan poeziyasının başlıca mövzularından birinə çevrildi. Son dərəcə maraqlı, ədəbi mübarizələrlə müşaiyət olunan bu dövrün tənqid və ədəbiyyatşünaslığında yeni şeirin ideya-poetik təcrübəsinin ümumiləşdirilməsi, marksist estetikanın prinsipləri və bunun ədəbi prosesə tətbiqi, tənqidin klassik irsə münasibətdə mövqeyi Ş.Salmanovun "Azərbaycan sovet şeirinin ənənə və novatorluq problemi" kitabında diqqəti cəlb edən cəhətlərdəndir.

Bu illər poeziyasında ənənə və novatorluq məsələsi əsasən yeni mövzular və köhnə poetik qəliblər ətrafında müzakirə edilirdi. Sovet ədəbiyyatı ilə bağlı fundamental tədqiqat kimi 1957-ci ildə çapdan çıxmış "Azərbaycan ədəbiyyatı tarixi"ndə sözügedən problemlə bağlı yazılır: *"Digər janrlarda olduğu kimi, yeni şerin ilk nümunələrini də klassik ənənələr əsasında yeni məzmunlu əsərlər yaratmaq istəyən demokrat şairlər vermişlər. M.S.Ordubadi, Əli Nəzmi, A.Şaiq, C.Cabbarlı və başqalarının şeirləri mətbuat səhifələrində inqilabın ilk illərindən görünməkdədir"* [6, c. 3, s. 41].

Adları çəkilən və onlarla eyni dövrdə fəaliyyət göstərən digər müəlliflərin əsərlərində də yeni həyatın tərənnümü, inqilabi ideyalar yüksək pafosla tərənnüm olunur, mürtəce adət-ənənələr, cəhalət və avamlıq kəskin tənqid atəşinə tutulurdu. Prof. Bədirxan Əhmədov bu məsələ ilə əlaqədar yazır ki, *"bu dövrdə Ə.Nazim,*

*S.Rüstəm, İ.Katib, İ.Hafiz, Ə.Fövzi, M.Rəfili, M.Rahim, M.Müşfiq, A.İldırım, S.Vurğun və b. şeirləri sənətkarlıq baxımından zəif olsa da, mövzu və problematika baxımından yeniliyi əks etdirirdi"* [21, s. 205]. Yeni məzmunun tələbləri ilə bədii forma və poetik üslub hələ ayaqlaşa bilməsə də, ədəbi-tarixi prosesin inkişaf istiqamətləri getdikcə özünə yol açır, yeniləşmə meyilləri ədəbi-mədəni həyata daha dərindən nüfuz edirdi. Lakin onu da qeyd etmək lazımdır ki, bir sıra hallarda yeniliklə köhnəlik süni şəkildə üz-üzə qoyulur, inqilabdan əvvəlki poeziya ilə, inqilabdan sonrakı şeirin arasında lüzumsuz sədlər çəkilirdi. Elə həmin illərdə dövrün qabaqcıl ziyalıları bu cür ifratçılığa qarşı çıxış edir, belə meyillərin yolverilməz olduğunu göstərirdilər.

Şamil Salmanov ayrı-ayrı şairlərin poetik irsini də bu istiqamətdə təhlilə cəlb edirdi. Həm də bir qayda olaraq ədəbiyyatımızda hadisəyə çevrilən, yeni cığır açan, ədəbi istiqamət yaradan məsələlərə münasibət bildirir, bu barədə problem yazılarla çıxış edirdi.

Diqqət etsək görərik ki, Şamil Salmanovun ilk elmi əsərləri M.Müşfiq, S.Vurğun, N.Hikmət yaradıcılığını əhatə edir. Bütün bunlar təsadüfi deyildi. 1920-30-cu illərdə milli poeziyanın yaradıcılıq axtarışlarında, poeziyanın estetik mövqeyinin müəyyənləşməsində bu üç sənətkarın rolu böyük idi. Onların poetik irsinin, sənətkarlıq xüsusiyyətlərinin öyrənilməsi prosesində tənqidçinin özünün də ədəbi tənqidi konsepsiyası müəyyənləşir, konkretləşir, ədəbi zövqü formalaşır və cilalanırdı. Elə bu istiqamətdə yaradıcılıq axtarışlarını davam etdirən Şamil Salmanov sonrakı dövrün poetik yaradıcılığına – R.Rzanın, S.Rüstəmin, N.Xəzrinin, B.Vahabzadənin, M.Arazın, Ə.Salahzadənin, Ə.Kərimin bədii irslərinə eyni ədəbi prinsipdən müraciət edir, tənqidçi fəallığını təmin edirdi.

Dövrün ədəbi tənqidi sənətkarlardan yeni həyatı materialist istiqamətdə təsvir və tərənnüm etməyi tələb edir, bu qəbil əsərlərə üstünlük verirdi. Ancaq bu yaradıcılıq metodunun bədii yaradıcılığa bürokratik, zorakı təsirlərinə baxmayaraq, o, həyat həqiqətinə əsaslanıb, ədəbi ənənələrdəki sağlam cəhətlərdən imtina etməyib.

Şamil Salmanov ənənəyə heç vaxt statik, donuq bir fəlsəfi kateqoriya kimi yanaşmır. Belə ki, həyat həqiqətinə sədaqətin əhəmiyyəti bədii yaradıcılıq üçün kifayət deyil. Həyatla sıx əlaqədə olan incəsənət təkcə mündəricə nöqteyi-nəzərindən zənginləşmir, eyni zamanda incəsənət tarixində hər bir epoxa həm də onun yeni imkanlarının kəşfi ilə səciyyələnir. Dövrün hadisələri, əsrin yeni məzmunu bədii yaradıcılığa öz təsirini göstərir. Yəni ənənədən gələn ideya və sənətkarlıq məsələləri yeni dövrün standartları ilə vəhdət təşkil edir, tarixiliklə müasirlik birləşir, ədəbiyyat və sənət yeni mərhələyə daxil olur. XX əsr Azərbaycan poeziyasına da Şamil Salmanov bu mövqedən yanaşır, yeni əsrin ədəbiyyatının özünəməxsus sənət keyfiyyətlərini, milli və ümumbəşəri dəyərlərini müəyyənləşdirirdi.

Bədii yaradıcılıqda novatorluq probleminə toxunan tənqidçi onu yalnız məzmun və ideya ilə əlaqələndirməklə kifayətlənmir, novatorluğu geniş və spesifik keyfiyyətli yaradıcılıq prinsipi kimi tədqiq edirdi. Sosialist realizmi ədəbiyyatında ənənə və novatorluq problemini təhlil edən Ş.Salmanov məsələnin sovet ədəbiyyatındakı izləri və təsirləri ətrafında geniş elmi diskussiyalar apararaq, dövrün poeziyasında yeni və köhnə təcrübələrin qarşılıqlı əlaqəsini aşkara çıxarmağa çalışırdı.

Sovet hakimiyyəti dövründə yeni yaranan ədəbiyyat və incəsənətin mahiyyətinə nüfuz etməyə cəhd edən Şamil Salmanov o illərdə sənət və ədəbiyyatı qayğılandıran ədəbi mübahisələrə qayıdır, yeni yaranan proletar ədəbiyyatını bəşəriyyətin əsrlərdən bəri əldə etdiyi mənəvi dəyərlərdən təcrid etmək istəyənlərin əsassız iddialarına qarşı çıxır, bu sahədə proletkultçuların və futuristlərin göstərdikləri cəhdlərin boş olduğunu bildirirdi.

Ənənə ilə novatorluğun əlaqəsi, vəhdəti sovetlər birliyinin ədəbi-nəzəri fikrində daim mübahisə predmeti olmuş, A.Tvardovski, B.Brext, İ.Bexer, S.Vurğun, M.Auezov, M.Tursunzadə, L.Leonov, Ç.Aytmatov, H.Mehdi, M.İbrahimov, K.Yaşen kimi tənqidçi və ədəbiyyatşünaslar, bədii söz yaradıcıları bu barədə qiymətli fikirlər irəli sürmüşdülər.

Milli ənənə və fərdi bədii üslub Şamil Salmanovun diqqət mərkəzində idi. Təbii ki, ədəbi ənənə təkcə ədəbi-tarixi prosesi istiqamətləndirməklə məhdudlaşmır, həm də fərdi üslubların müəyyənləşməsi, formalaşması prosesində də fəal iştirak edir. Bəzi ədəbiyyatşünaslar fərdi üslublarından bəhs edərkən, bunu ədəbi ənənədən təcrid etməyə əsassız cəhdlər edir, əsas diqqəti ənənənin təsirlərini məhdudlaşdırmağa yönəldir, novator meyillərin mənbəyini isə kənarda axtarır. Şamil Salmanov ədəbi hadisəyə bu cür yanaşma meyillərinə qarşı çıxır, problemin şərhində K.Zelinskinin mövqeyi ilə polemikaya girirdi. K.Zelinski "SSRİ xalqlarının ədəbiyyatı" kitabında "Şərq üslubu"ndan bəhs edərkən yazırdı: *"Qəşəng, dəbdəbəli danışmaq, həm fonetik, həm ritorik, həm də məcazla zənginlik baxımından zərif cilalanmış üslubu kulta çevirmək – bütün bunlar yalnız saray poeziyasının yox, demokratik və şifahi xalq poeziyasının da məziyyəti idi. Bu, Şərqin bir çox xalqlarına xas bir cəhət olmuşdur"* [159, s. 267].

O, başqa bir əsərində - "Oktyabr və milli ədəbiyyat" məqaləsində isə Zaqafqaziya xalqları ədəbiyyatlarının sosialist inqilabı ərəfəsində feodal orta əsrlər ədəbiyyatını xatırlatdığını yazır və iddia edirdi ki, bu gerilik həmin ədəbiyyatların sosialist realizmi yaradıcılıq metoduna keçmələrinə əngəl törədir. Belə çıxır ki, Qafqaz xalqlarının ədəbiyyatı öz feodal-patriarxal keçmişindən əl çəkməli, kosmopolit ədəbiyyata çevrilməlidir. Şamil Salmanov ümumittifaq səviyyəsində aparılan bu tərz ədəbi polemikalara qoşulur, Şərq ədəbi ənənələrinə qarşı çıxanlara tutarlı cavab verirdi: *"Əgər belə düşünsək, onda biz bu ədəbiyyatların milli bədii mənbələrini, spesifik ənənələrini istər-istəməz sosialist realizminin qəbul etdiyi zəngin bədii ənənələr sırasından kənar etmiş oluruq. Sosialist realizmi keçmişin mütərəqqi, faydalı və canlı bədii hadisə və ənənələrinin yeni və yüksək dərəcədə inkişafının davamıdır. Vahid və eyni cür təsəvvür edilən, bütün Şərq və Orta Asiya respublikaları ədəbiyyatları üçün eyni dərəcədə qanuniləşdirilən "Şərq üslubu", "Şərq formalizmi" və s. bu kimi anlayışlar isə bu ədəbiyyatların zənginliyini görməyə imkan vermir"* [73, s. 22].

Şamil Salmanov "Şərq formalizmi", "feodal orta əsr" istilahlarını qəbul etmirdi. O düşünürdü ki, bir halda ki, bu xalqlar yeni əsrdə novator ədəbiyyat yarada biliblər, o halda bu ədəbiyyatların tarixi keçmişi, ictimai-mədəni ənənələri olmuşdur. Tənqidçi bu cür suallara cavab axtararkən, Şərq xalqları ədəbiyyatında romantik üslubun aparıcı rol oynamasını məhdudluq kimi yox, orijinal səviyyəsi və ideya-məzmun xüsusiyyətləri ilə bədii-estetik zənginlik kimi qiymətləndirirdi.

Novatorluğu hər cür ədəbi ənənəyə qarşı qoyanlara etiraz edən Şamil Salmanov əruzun imkanlarından bəhs edir, hətta XX əsr ədəbiyyatında əruzun imkanlarının tükənmədiyini qətiyyətlə bildirir, ancaq yeni forma axtarışlarının da aparılmasını təqdirəlayiq hesab edir, sabitləşmiş şərti poetik qaydalardan yeni formalara keçidi müsbət cəhd kimi dəyərləndirirdi.

Bildiyimiz kimi, sovet ədəbiyyatının əsas yaradıcılıq metodu sosialist realizmi olduğundan, başqa yaradıcılıq metodları, xüsusən romantizm tədqiqatdan kənarda qalır, onun nəzəri-estetik sisteminə daxil olan şərtilik, romantika, simvolika, obraz tipologiyası az öyrənilirdi. 1930-cu illərin əvvəllərində Aleksandr Fadeyev bunu məqbul hesab etmir, bu çətin novator ədəbiyyatın üslub, yaradıcılıq tərzi və forma baxımından müxtəlifliyini, onun estetik zənginliyini vacib şərt kimi öyrənməyi tələb edirdi. Fadeyevə görə, poeziyada İ.Selvinskidə olduğu kimi Allahla kinayəli söhbət də etmək, N.Hikmətin əfsanəvi motivlərindən də bəhrələnmək olar. Səməd Vurğun da sosialist realizmi metodunun romantikadan imtinasının əleyhinə idi: *"Sovet yazıçıları öz qəhrəmanlarını böyük Nizami kimi və bəlkə daha artıq qüvvə ilə romantikləşdirməyi bacarmalıdırlar, xüsusən ona görə ki, sovet adamı öz ideyalarına və əxlaqi sifətlərinə görə ən insanpərvər, deməli, ən romantik adamlardır... Bizim bəzi əsərlərimizin zəifliyi ondan irəli gəlir ki, biz inqilabi romantizmin qüvvətinə həmişə lazımınca qiymət verə bilmirik, halbuki, Aleksey Maksimoviç Qorkinin dediyi kimi, bunsuz sosialist realizmi ola bilməz"* [134, c. 5, s. 202].

Şamil Salmanov da sosialist realizmi estetikasında müəyyən şərtilikdən, romantik və simvolik formalardan, poetik rəmzlərdən istifadə olunmasını vacib şərt kimi irəli sürürdü. Birxətli, yeganə yaradıcılıq metoduna əsaslanan bədii yaradıcılıq

uğur qazana bilməz. Sovet ədəbiyyatında sosializm realizmi yeganə yaradıcılıq metodu kimi qəbul edildiyi üçün bu uzun müddət onun ideya-estetik əsaslarına mənfi təsir göstərmişdir.

Ş.Salmanov sənətdə əsil yeniliklərin öz rişəsini milli ədəbi yaddaşdan aldığına inanır, ona mexaniki şəkildə ötürülən yeniliklərin əleyhinə çıxırdı. Əslində ənənə novatorluq üçün müəyyən stimul yaradırsa, novatorluq da yeni bir ənənənin yaranmasında və zənginləşməsində mühüm rol oynayır. *"Ənənə və novatorluq bu bədii təcrübənin bir nəsildən digərinə verilməsidir. Ənənəni davam etdirmək – sələflərinin təcrübəsini yaradıcı şəkildə mənimsəmək və daha irəli getmək deməkdir. Sənətdə hər yeni addım həmişə qazanılmış estetik təcrübəyə əsaslanır..."* [165].

Azərbaycan ədəbiyyatının estetik təcrübəsində romantik sənət ənənələri daima ön planda dayanırdı. Şamil Salmanov da milli ədəbiyyatın romantik ənənələrini daim izləyir, təkcə poeziyada deyil, nəsrdə, dramaturgiyada da bu ənənələrin davam etdirilməsini vacib bilirdi. Hətta dramaturgiyada belə romantik səhnələri, epizodları görmək istəyən tənqidçi 1970-ci illərdə dramaturgiyada bu ənənələrin zəifləməsini təəssüflə qarşılayır, ictimai inkişafın, mənəvi-intellektual tərəqqinin səhnədə təcəssümünü istəyirdi. Alim haqlı olaraq qeyd edirdi ki, qəhrəmanlıq motivləri, romantik ənənə, həyata fəlsəfi baxış Azərbaycan dramaturgiyasının əsas cəhətlərindən olmuşdur. Lakin son illərin dramaturgiyasında bu mühüm cəhətlərin zəiflədiyi müşahidə olunur. Daha sonra Ş.Salmanov göstərir ki, çağdaş dramaturgiyamızın uğurları xalqımızın ictimai həyatı, mədəni-intellektual inkişafı ilə sıx bağlıdır. Dramatik əsərlərin səhnə təcəssümü bu inkişafın özünəməxsus təzahürü, yeni yaradıcılıq axtarışlarının nəticəsidir.

Beləliklə, milli ədəbiyyatın romantik ənənələrinin cəmiyyətimizin müasir vəziyyəti ilə, insanların mənəvi-intellektual səviyyəsi ilə bağlı olduğu bir daha təsdiq olunur.

Ədəbi prosesi illər, onillər üzrə təhlilə cəlb edən tənqidçi əvvəlki mərhələlərdə olduğu kimi, 1980-ci illər Azərbaycan ədəbi-tarixi prosesini də ənənə və novatorluq meyarları ilə öyrənirdi. O, XX əsrin 80-ci illər poeziyasından bəhs edərkən göstərirdi

ki, *"yeni və köhnə, irs və novatorluq, ənənə və axtarış, tarixilik və müasirlik poetik prosesin inkişaf qanunauyğunluqlarını xarakterizə edən mühüm kateqoriyalardır"* [104, s. 79]. Göründüyü kimi, tənqidçi ədəbi-nəzəri fikrin meyar axtarışlarında ənənə və novatorluğun vəhdətinə önəm verirdi.

Şamil Salmanov bədii yaradıcılığa tələbkar yanaşmaqla kifayətlənmir, ədəbi tənqiddən də prinsipiallıq, ədəbi ənənəyə həssas münasibət və novator axtarışlar tələb edirdi. Belə ki, yazıçı cəmiyyətdəki yeni meyil və təmayüllərə diqqət yetirməli olduğu, ədəbi ənənəni yeni şəraitə uyğunlaşdırmağı bacardığı kimi, ədəbi tənqid də yeni ədəbiyyatın ideya istiqamətini, estetik mövqeyini müəyyənləşdirməlidir. Şamil Salmanov ədəbiyyatın novatorluğunu zəmanənin ruhunu duymaqda, yeni məzmunu yeni formada ifadə etməkdə görürdü. Öz fikirlərini alman şairi İ.Bexerdən gətirdiyi bir sitatla tamamlayırdı ki, ədəbiyyat həyatın yeni hadisələrini kəşf edir və biz həyatımızın mənası haqqında düşünərkən o, bizə yeni cavablar verir. Ədəbiyyata yeni insan, yeni gerçəklik daxil olduqda ədəbiyyat haqqında, bədii yaradıcılığın predmeti və vəzifəsi haqqında müasir fikir, müasir konsepsiya yaranır.

Əvvəldə də qeyd etdiyimiz kimi, Şamil Salmanovun ədəbiyyatda ənənə və novatorluqla bağlı tədqiqatlarının bir hissəsi XX əsrin 20-30-cu illərini əhatə edir. Bu dövrün ədəbi prosesini daha çox diqqətdə saxlamaq zərurəti sovet ədəbiyyatının metodoloji mövqeyini müəyyənləşdirmək baxımından maraqlıdır. Digər bir tərəfdən sosial-siyasi həyatda olduğu kimi, ədəbi-mədəni mühitdə də yeniliklə köhnəliyin mübarizəsi, bədii-estetik düşüncədə əmələ gələn dəyişikliklər cəmiyyətin ayrılmaz tərkib hissəsinə çevrilmişdi və belə xüsusiyyətlər bu və ya digər dərəcədə ayrı-ayrı sənətkarların əsərlərində öz əksini tapırdı. Cəmiyyətin yeni siyasi-ideoloji əsaslar üzərində qurulması ədəbiyyat və incəsənətin də qarşısına mühüm vəzifələr qoymuşdu. Söz sənəti də ictimai reallıqları əks etdirmək prosesinə qoşulmuşdu. Marksist estetikanın formalaşması ənənə və novatorluğa yeni, fərqli münasibətin ortaya çıxması ilə müşayiət olunurdu. Bir sözlə, 1920-ci illərin sonunda yeni cəmiyyətin sürətli təşəkkül prosesi gedir, sosialist şüuru xalq gerçəkliyinə ən dərin və güclü bir şəkildə nüfuz edirdi.

Marksist estetika həm klassik, həm də müasir ədəbi irsə, romantik poeziyamızdakı sufi sənətə, ilahi eşqə sinfi nöqteyi-nəzərdən yanaşır, sənətdən, ədəbiyyatdan ictimai mündəricə tələb edirdi. Şamil Salmanov da buna uyğun olaraq, M.Füzuli sənətinə 1920-ci illərdəki “mədəni inqilab” mövqeyindən yanaşırdı.

Şamil Salmanov sosialist realizmi sənətinin məhdud cəhətlərini görür, bu sahədə vulqar sosioloji və nihilist mövqeləri də kəskin tənqid edirdi. Bunun başlıca səbəbini o, 1920-ci illərdə tənqid və ədəbiyyatşünaslıq sahəsində vahid konsepsiyanın olmaması ilə əlaqələndirir, marksist fəlsəfənin bir sıra müddəalarını qeyd-şərtsiz olaraq ədəbiyyatda, sənətdə təkrar olunmasını tələb etməyi düzgün hesab etmirdi. Klassik ədəbi irsə münasibətdə tənqidçi iki mövqeyə öz münasibətini açıq ifadə etməyi zəruri hesab edirdi. Birincisi, tənqidin idealist estetik mövqedən çıxış etməsi, ikincisi, klassik irsə ifrat sosioloji tələblər mövqeyindən yanaşılması. Hər iki mövqeyə Şamil Salmanov tənqidi yanaşır, obyektiv-tarixilik prinsipindən qiymət verməyə çalışırdı. Ancaq Şamil Salmanovun Azərbaycan romantik poeziyasını marksist estetika mövqeyindən təhlil edən İsmayıl Hikməti və onun həmfikirlərini idealist estetika baxımından qiymətləndirməsini qəbul etmək mümkün deyil.

İ.Hikmət klassik poeziyanı sufi, ilahi eşq mövqeyindən təhlil edir, M.Füzuli yaradıcılığına da bu mövqedən qiymət verirdi. Şamil Salmanov bunu Şərq şeirinin canlı həyatla əlaqəsini şübhə altına almaq, onun fəlsəfi əsasını təsəvvüfdən ibarət hesab etmək kimi qiymətləndirirdi. Şamil Salmanov Füzuli kimi nüfuzlu bir şairin ələm, kədər, bədbinlik, hicran, göz yaşı şairi adlandırılmasını çox yanlış hesab edirdi. Tənqidçiyə görə, 1920-ci illərdə yaradıcılığa başlayan şairlərə Füzulinin bu cür təqdimatı çox zərərlidir. Çünki ölməz sənətkarın yaradıcılığı yeni nəsil gənclərə nümunə ola bilərdi. Alim İ.Hikmətin Füzuliyə münasibətini doğru və dərin hesab etmirdi.

Fikrimizcə, İ.Hikmətin dərin elmi təhlil mövqeyindən M.Füzuli sənətinə verdiyi qiymət tənqidçi tərəfindən düzgün şərh olunmur, sənət və ədəbiyyat məsələləri marksist ideologiyasının tələbləri çərçivəsində qiymətləndirilirdi.

Şamil Salmanov İsmayıl Hikmətin bu cür mövqeyini 1980-ci illərdə yanlış hesab edir, bu məsələdə inqilabi ədəbiyyatın marksist tənqidin mövqeyinə üstünlük verir, İsmayıl Hikmətin M.Füzulini "ələm və hicran", "kədər və göz yaşı" şairi hesab etməsini düzgün qiymətləndirmir. Məsələ bundadır ki, tənqidçi özü də M.Füzuli yaradıcılığının ilahi eşqlə bağlı olmasını qəbul etmir, Məcnun eşqini real həyatla bağlamağa çalışırdı. Şübhəsiz ki, sovet ideologiyasının hələ də güclü olduğu 1980-ci illərdə başqa mövqedən çıxış etmək o qədər asan olmadığı üçün Ş.Salmanov da ədəbi-tənqidi mülahizələrində sosialist realizminin prinsiplərinə əsaslanırdı. O, İ.Hikmətin M.Füzuli poeziyasına verdiyi qiyməti doğru hesab etmir, onun sufizmlə bağlı mülahizələrini tənqid edərək alimi Füzuli şeirinin əsil mahiyyətini düzgün anlamamaqla təqsirləndirirdi. Ş.Salmanov Füzulinin lirik qəhrəmanını ziddiyyətli bir obraz kimi səciyyələndirməyə çalışır, onu ilahi məhəbbətin cazibəsindən ayıraraq dünyəvi hisslərlə, real həyatla bağlayırdı. Təsəvvüf terminologiyasını, sufilərin keçdiyi kamillik mərhələlərini, gizli işarə və rəmzləri ateist baxışlara uyğun təhlil edir, şairin yaradıcılığında ilahi eşqin deyil, bəşəri məhəbbətin başlıca tərənnüm obyekti olduğu qənaətinə gəlirdi.

Beləliklə, Şamil Salmanov Füzuli yaradıcılığını klassik ürfani ənənələr, sufi, təriqət poeziyasından ayırır, ona dünyəvi mahiyyət verməyə çalışır, sistematik təhlillər edirdi. Bu da sosialist realizmi ədəbi tənqidinin bariz bir nümunəsi kimi onun yaradıcılığında özünü göstərir.

Ancaq M.Füzuli yaradıcılığına bu cür münasibət Şamil Salmanovun elmi-ədəbi irsində davamlı deyil. Ümumiyyətlə, o, daim öz üzərində işləyən, dinamik inkişaf edən, müntəzəm olaraq tənqid bazasını genişləndirən alim idi. Bu keyfiyyəti onun bütün yaradıcılığında müşahidə etmək olar.

M.Füzuli irsinin öyrənilməsində də o eyni mövqe nümayiş etdirərək, nəhayət, İsmayıl Hikmətin XX əsrin əvvəllərindəki fikirləri ilə həmrəylik ifadə edir. "Məndə Məcnundan füzun...." məqaləsində Ş.Salmanov şairin yaradıcılığındakı tarixi-mifoloji, tarixi-əfsanəvi, əfsanəvi obrazları təqdir edir, öz tədqiqatını tarixi poetika istiqamətinə yönəldirdi. Əgər əvvəlki tədqiqatlarında tənqidçi bu cür görüşləri – yəni

təriqət ideyalarını əsərin və qəhrəmanın ziddiyyətli tərəfi kimi göstərirdisə, bu məqalədə bütün bunların bir sistem şəklində olması etiraf edilir. *"Bəzən Füzuli lirikasındakı eşqin, məhəbbətin real, dünyəvi eşq, məhəbbət olmadığını israrla söyləyirlər. Bunun əksini düşünənlər isə məsələnin belə olmadığını iddia edirlər, Füzuli eşqinin xalis dünyəvi mahiyyət daşıdığını sübut etməyə çalışırlar. Söz yox ki, Füzuli poeziyasında, o cümlədən, hətta lirikasında sufi poetikasının və dünyagörüşünün, sufi psixologiyasının ünsürləri və xüsusiyyətləri vardır. Füzuli sufizm fəlsəfəsinin geniş yayıldığı bir zamanədə və mühitdə yaşamışdır"* [91, s. 3].

Bunu da qeyd edək ki, Şamil Salmanov ənənə və novatorluq məsələsində sosialist realizmi ədəbiyyatının məlum standartlarını heç də məqbul hesab etmir, xüsusən, klassik ədəbiyyata münasibətdə inqilabi ədəbiyyatın ifrat tələblərini nihilist mövqe kimi dəyərləndirirdi.

Bədii yaradıcılıqda ənənə və novatorluq probleminə münasibətdə Şamil Salmanov klassik təcrübədən bəhrələnir, ədəbiyyatşünaslıq elminin son nailiyyətlərini nəzərdən keçirərək, ümumiləşdirmələr aparır, problemin mahiyyətini açıb göstərirdi. O, müasirlik kateqoriyasını gerçəkliyin bədii inikası kimi dəyərləndirir, yeni ictimai və mənəvi gerçəkliyi dərk etmək kimi qəbul edirdi. Bu cəhətdən 1960-cı illər Azərbaycan roman yaradıcılığını xüsusi qeyd edərək, H.Mehdi, M.İbrahimov, İ.Əfəndiyev, İ.Şıxlı nəsrinin müasir həyatımızla bağlı olduğunu, eyni zamanda ədəbi ənənələrdən qaynaqlandığını qətiyyətlə bildirirdi.

Şamil Salmanov novator poeziya haqqındakı ədəbi konsepsiyasını daha çox R.Rza yaradıcılığı ilə bağlı məqalələrində ətraflı şəkildə şərh etməyə müvəffəq olmuşdur. Ümumiyyətlə, novator poeziyanın məzmunu, poetik məqamı, forması həmişə ədəbi tənqidin diqqət mərkəzində dayanıb. Problemin aktuallığından və müasir həyatımızla bağlı olmasındandır ki, müxtəlif onilliklərdə məsələnin elmi izahına ehtiyac yaranıb. Şübhəsiz ki, novatorluq məsələsi ilə əlaqədar aparılan müzakirələr, fikir müxtəlifliyi nəticəsiz qalmır, problemin həllinə yardımçı olur və yeni elmi axtarışların istiqamətini müəyyənləşdirir.

Ş.Salmanov elmi araşdırmalarında bədii strukturda yenilik, ideya-məzmunda isə müasirlik məsələlərini diqqətdə saxlayırdı. O, bir ədəbiyyatşünas fəhmi ilə dərk edirdi ki, ədəbiyyat yalnız ənənə üzərində inkişaf edə bilməz, onun inkişafı üçün həm də yeni ənənələrin qurulması şərtdir. Milli ədəbi prosesi məhz bu tendensiya üzərində izləmək istəyən alimin araşdırmalarının böyük bir qismi sərbəst şeirlə bağlıdır. O da xüsusi qeyd olunmalıdır ki, sərbəst şeirin yaranmasında Mikayıl Rəfilinin böyük rolu olmuşdur. N.Hikmətin təsirinin açıq-aşkar hiss olunduğu M.Rəfili yaradıcılığının əsrin ilk onilliklərində sənətə gələn şairləri öz ardınca aparmaq gücünə sahib olduğunu gözləmək olardı. Azərbaycan ədəbiyyatında sərbəst şeirin Mikayıl Rəfili yaradıcılığı ilə bağlı olmasını da ilk dəfə ədəbiyyatşünaslığımızda elmi şəkildə Şamil Salmanov əsaslandırıb. Onu da qeyd edək ki, yeni yaranan sərbəst şeirdən yazanda da bir qayda olaraq, professor ədəbi ənənəni unutmur, sərbəst şeirin milli ənənələrlə bağlarını aşkara çıxarmağa çalışırdı.

1920-ci illərdə yeni ədəbiyyat, müasir poeziya haqqında qızğın mübahisələr gedirdi. Bəziləri ənənəvi şeirin vaxtının keçdiyini, yeni, novator poeziyaya keçməyin zəruri olduğunu əsaslandırmağa cəhd edirdi. Hətta ənənəvi şeir formasında yazanların da bir qismi sərbəst şeirdə qələmini sınayır, novator sənətkar kimi görünməyə çalışırdılar. Əhməd Cavad, Almaz İldırım, Səməd Vurğun, Mikayıl Müşfiq, Süleyman Rüstəm və başqaları həm ənənəvi, həm də sərbəst formada yazmağa üstünlük verirdilər. Nazim Hikmət və Rəsul Rza isə sırf sərbəst şeir nümayəndələri kimi tanınırdılar. Xüsusən, Ə.Nazimin N.Hikmətin yaradıcılığı ilə bağlı "Günəşi içirik günəşlənirik" məqaləsindən sonra sərbəst şeir yaradıcılığına maraq daha da artmışdı. Ş.Salmanov 1920-30-cu illər ədəbi prosesində gedən hadisələri diqqətlə izləmiş, "ədəbi döyüşlər" (M.Hüseyn) dövrünün poeziya yaradıcılığı ilə bağlı müəyyən təsəvvür formalaşdırmağa nail olmuşdur. Şamil Salmanov bu mübahisələrə münasibətini belə bildirir: *"... yenilik heç vaxt birdən-birə, asanlıq və razılıqla qarşılanmadığı kimi köhnələn ədəbi üsullar və şəkillərin, metod və ifadə vasitələrinin də təzəyə öz yerlərini mübarizəsiz tərk etməsi qeyri-mümkündür. O biri tərəfdən bu da aydındır ki, incəsənətdə yenilik müəyyən keçici, zahiri, hətta ifrat meyillərdən də*

*azad olmur; ümumiyyətlə, bütün və hər cür axtarışlar novatorluğa aparıb çıxarmır"* [73, s. 123].

Burada Şamil Salmanovun novator poeziyaya, onun klassik ənənələrlə bağlı olmasına aydın, konkret münasibəti ifadə olunmuşdur. Alim hər cür yenilik axtarışlarının novatorluğa gətirib çıxarmadığını, sərbəst şeir anlayışının cəmiyyətdə asan qəbul edilmədiyini vurğulayır. Lakin yeni novator poeziyanın ənənəvi şeir formasını mübarizə yolu ilə sıradan çıxarması haqqında fikirlər yerinə düşmür. Çünki zaman göstərdi ki, milli poeziya həm klassik, ənənəvi formada, həm də sərbəst şeir anlayışı istiqamətində inkişaf edə bilər. M.Şəhriyar, B.Vahabzadə, S.Rüstəm və başqalarının yaradıcılıqları göstərdi ki, hətta əruz vəznində də novator poeziya yaratmaq mümkündür. Xüsusən, M.Şəhriyarın ənənəvi şeir qəlibləri ilə dünya şöhrəti qazanan şeirlər yaratması bu fikirləri tamamilə alt-üst etdi. Aydın oldu ki, şeir qəlibləri nə qədər möhkəm, qanunları nə qədər dar çərçivədə olsa da, bu, şairi səfərbər edir, poeziyanın keyfiyyətinə müsbət təsir göstərir.

1920-30-cu illərdə sovet cəmiyyətində kommunizm ictimai quruluşu yeni cəmiyyət, yeni ədəbiyyat yaratmağa üstünlük verirdi. Bu zaman milli ədəbiyyatların ədəbi ənənələrinə biganə münasibət bəslənilir, klassik ədəbi irsin öyrənilməsində ancaq proletar cəmiyyətinin mənafeyi əsas götürülürdü. Şamil Salmanov inqilabi ədəbiyyatın ideya-bədii yeniliyini üzə çıxararkən ədəbi irsə münasibətdə "süniliyin" əleyhinə idi. Onun fikrincə, klassik ədəbiyyata müraciət edib, inqilabi ədəbiyyatın üstünlüyünü göstərmək olmaz. O, klassik ədəbiyyata müraciət edəndə onun nəyi görə bildiyini yox, nəyi görə bilmədiyini üzə çıxarmağın əsas olduğunu deyirdi.

Aydındır ki, monoqrafiyanın yazıldığı 1980-ci illərdə marksist ədəbi tənqidin ideoloji-siyasi prinsiplərini obyektiv mövqedən tədqiqata gətirmək mümkün deyildi. Müstəqillik dövrünün tədqiqatlarında isə bu haqda yazılır: *"Azərbaycan poeziyasının 20-ci illər mərhələsi uzun müddət ədəbi tənqid və ədəbiyyatşünaslıq tərəfindən düzgün qiymətləndirilməmişdir. Bu dövrün poeziyasından danışarkən sovet tədqiqatçıları proletar şeiri və onun nümayəndələrinin yaradıcılığını önə çəkmiş, poeziyanın döyüşkən, mübariz, gələcəyə inam, köhnə dünyaya üsyankarlıq ruhunu*

*təqdir etmişlər. Milli ruhu ifadə edən, kədərli, bədbin və yaxud istiqlal poeziyasının isə ya adını çəkməmiş, ya da bu cür parçaları tənqid hədəfi etmişlər"* [21, s. 188].

1920-30-cu illərdə yeni ədəbiyyat, ədəbiyyatda novatorluq məsələlərinə Ə.Nazimin tədqiqatlarında daha çox toxunulduğundan Ş.Salmanov dövrün ədəbi prosesində ənənə və yenilik probleminə məhz onun elmi irsi üzərindən daha çox müraciət etmişdir. Əli Nazimin yeni formalaşan sovet ədəbiyyatında yenilik axtarışlarının izinə düşdüyü "Yeni həyat və yeni ədəbiyyat" məqaləsinə istinadən Şamil Salmanov belə qənaətə gəlir ki, *"Ə.Nazim yeni ədəbiyyatın nə demək olduğunu, özündə nəyi təmsil etdiyini göstərərkən onun üçün əsas çıxış nöqtəsi həyat idi; daha doğrusu, tənqidçi "yeni ədəbiyyat nədir?" sualına cavab axtararkən, hər şeydən əvvəl, "yeni həyat nədir?" məsələsini izah və dərk etmək lazım gəldiyini başa düşür, ədəbiyyatın materialist anlayışı mövqeyində dayanırdı"* [98, s. 65].

Ə.Nazim "Ədəbiyyatmı? Xalqmı?" məqaləsində yeni yaranan ədəbiyyatda klassik ədəbiyyat ənənələrinin özünü göstərməsinə etirazını bildirir, proletar sənəti, ədəbiyyatı saf, şəffaf bir yaradıcılıq kimi qiymətləndirirdi. Şamil Salmanov marksist estetikanın həmin mövqeyini vulqar sosioloji baxış kimi dəyərləndirirdi. Alim yeni ədəbiyyatla köhnə ədəbiyyat arasındakı əlaqələrə toxunaraq, yüksək bədiiliyi bunları bir-birinə bağlayan başlıca cəhət kimi qiymətləndirirdi. O, köhnəlik damğası ilə klassik irsdən imtina edənlərə qarşı çıxaraq göstərirdi ki, cəmiyyətin mənəvi tərbiyəsində, köhnə ədəbiyyatın da özünəməxsus rolu olmuşdur və bu cəhətin üstündən xətt çəkmək, ona qeyri-obyektiv münasibət bəsləmək ədalətsizlikdir.

Əli Nazim istər müasir ədəbi prosesə, istərsə də klassik ədəbi irsə sufilik nöqteyi-nəzərindən "burjuaziya ruhunun tərcümanı kimi" yanaşdığına görə bədii yaradıcılığa əsil dəyərini verməkdə çətinlik çəkirdi.

XX əsrin 20-30-cu illərində bədii yaradıcılıqla, ədəbi tənqiddə pantürkizm, panislamizm məsələləri meydana çıxandan sonra klassik Azərbaycan ədəbiyyatında milli təfəkkürlə, islam dünyagörüşüylə bağlı nə vardısa başdan-ayağa ciddi tənqidlərə məruz qaldı. Şərq ancaq gerilik, ətalət, mistika, fanatizm biçimində təqdim olundu. Böyük sənətkarların yaradıcılığı qəsdən təhrif edildi, islam dinilə, mənəvi dəyərlərlə

əlaqədar olan bədii parçalar "təftiş" olunaraq, qiymətli bədii yaradıcılıq nümunələrindən çıxarıldı. Şamil Salmanov məhz bu cür antihumanist ideoloji-siyasi ədəbi konsepsiyaya qarşı çıxır, "Azərbaycan sovet şeirinin ənənə və novatorluq problemi" əsərində marksist ədəbi konsepsiyaya əsaslansa da, özünün obyektiv tənqidi münasibətini ifadə etməkdən çəkinmirdi.

Sənətə, ədəbiyyata vulqar-sosioloji münasibətin güclü olduğu bir dövrdə Ş.İ.Xətayi, M.Füzuli, N.Vəzirov, M.F.Axundov kimi tanınmış ədəbi simalara, onların zəngin ədəbi fəaliyyətlərinə qarşı əsassız iddialar irəli sürülür, əsərlərinin nəşri, təbliği ciddi maneələrlə qarşılaşırdı. "Azərbaycan sovet şeirinin ənənə və novatorluq problemi" əsərində Şamil Salmanov klassik və müasir ədəbi irsə qarşı olan bu haqsız elmi münasibətə tutarlı faktlara cavab verib, 1920-30-cu illər poeziyasının milli-mənəvi dəyərlərini üzə çıxarmaqla yanaşı, bu dövrün ədəbi-tənqidi yaradıcılığı haqqında da fundamental fikirlər səsləndirib. B.Nəbiyev Ş.Salmanovun bu tədqiqatı ilə bağlı yazır: *"Monoqrafiyada şeirin öz inkişaf prosesi ilə yanaşı, lakin bundan daha artıq onun tənqiddəki inikası müfəssəl tədqiq olunur. Bu da elmi-nəzəri fikir baxımından əsərin maraqlı çıxmasına səbəb olmuş, onun əhəmiyyətini artırmışdır"* [58, s. 193].

Həmin dövrdə cəmiyyətdə sinfi və siyasi toqquşmalar daha kəskin xarakter almışdı. Köhnə hesab olunanın sökülməsi, yenilik adı ilə güclə xalqın düşüncəsinə yeridilməsi cəmiyyətdə, ictimai-ədəbi mühitdə toqquşmalara səbəb olmuş, çoxsaylı ziddiyyətlər yaranmışdı. Şamil Salmanova görə bu cür mürəkkəb bir şəraitdə poeziya öz inkişafını davam etdirir, cəmiyyətdəki ziddiyyətlər bədii nümunələrin süjet xəttində əsas yer tuturdu.

Alim Azərbaycan sovet ədəbiyyatının formalaşma mərhələsində poeziya, nəsr, dramaturgiya sahəsində apardığı tədqiqatlar nəticəsində ənənə və novatorluğun həm nəzəri problemlərinin şərhinə nail olmuş, həm də ədəbiyyatımızın çox əhəmiyyətli bir dövründə yeni ənənələrin qurulmasına tarixi-metodoloji müstəvidə nəzər salmış, o dövr ədəbiyyatşünaslığına xas olan ənənə və novatorluğun elmi əsaslarını sistemləşdirmişdir.

## 1.2. Şamil Salmanovun tədqiqatlarında poeziyanın əsas təhlil istiqamətləri

Şamil Salmanov ədəbi fəaliyyətə XX əsrin 60-cı illərindən başlamışdı. Uzun müddət tənqid və ədəbiyyatşünaslığımızın fundamental elmi məsələlərinin izahında xüsusi fəallıq göstərmişdi. Alimin Azərbaycan ədəbiyyatşünaslığının aktual problemlərinin, xüsusən poeziya tənqidinin, tənqidin nəzəriyyəsinin işlənməsində mühüm xidmətləri olmuş, milli poeziyanın yaradıcı ədəbi simalarının müəyyən istiqamətə yönəldilməsində, gənc istedadların axtarılıb üzə çıxarılmasında əhəmiyyətli addımlar atmışdır.

Belə deyə bilərik ki, Şamil Salmanovun elmi-nəzəri fəaliyyətini üç istiqamət üzrə müəyyənləşdirmək olar: birinci, bədii yaradıcılıqda onun ardıcıl şəkildə tədqiq etdiyi ənənə və novatorluq probleminin müəyyənləşməsi, ikincisi, ədəbi tənqidin tarixi və nəzəriyyəsinin işlənməsi, üçüncüsü poeziya tənqidinin nəzəri və tarixi məsələlərinin tədqiqi. Prof. Arif Səfiyev onun elmi fəaliyyətinin ən əsas sahəsi kimi poeziya tənqidini fərqləndirirdi: *"Tədqiqat dairəsi çox geniş olsa da, yəni ədəbiyyatın bütün janrlarından və müxtəlif məsələlərindən yazsa da, tənqidçinin öz mövzusu var: şeir və tənqid. Şamil ədəbiyyata da şeirlə gəlmişdir. Hətta "Sabahınız xeyir, insanlar" adlı şeir kitabı da çap etdirmişdir. Sonralar janrı dəyişsə də, ruhu dəyişmədi, şeir ruhu tənqiddə davam etdi. Bu, özünü həm şeiri duymaq və təhlil etmək bacarığında, həm də təhlil üslubunda büruzə verir; təhlildə emosionallıqla elmiliyin vəhdəti də, görünür, buradan doğmuşdur və bu, onun tənqidçi "mən"inin özünəməxsusluğunu müəyyənləşdirən əlamətlərdən biridir"* [125, s. 4].

Universiteti bitirəndə diplom işi də M.Müşfiqin poeziya yaradıcılığı ilə bağlı olub. Bu haqda prof. Y.Qarayev yazırdı: *"Onda da Şamil bu üç məsələyə vəhdətdə toxunmuşdu: şairi 30-cu illər tənqidinin və 50-ci illərin ənənə-novatorluq mübahisələrinin fonunda təhlil etmişdi. Bu dörddə bir əsrdə yalnız problemlər yox, onlara maraq və münasibətin təzə-tərliyi də sabit saxlanmışdı. Dəyişən isə təkcə ifadə tərzi, ehtiras və təmkin arasında şərikliyin yeni nisbəti idi. Hələ o vaxtdan- tənqidin və poeziyanın fəal bir dövrü ilə ilk tanışlıqdan tənqidçinin maraq və zövqünün əsas predmeti birdəfəlik müəyyənləşdi: gənc Şamilin az qala yaşıdı olan Müşfiqin həyat və*

*sənət taleyi o illərin həm poeziya, həm də tənqid problemlərinə yenidən qayıtmağı yalnız ədəbi-estetik yox, həm də mənəvi, əxlaqi bir vəzifə kimi həmin nəsil qarşısında irəli sürdü"* [36, s. 6].

1920-30-cu illərdə tənqid və ədəbiyyatşünaslığımızda poeziyada romantika məsələləri, xüsusilə geniş mübahisə predmetinə çevrilmişdi. Təkcə milli ədəbi fikirdə deyil, ümumittifaq ədəbi-nəzəri fikrində də bu məsələlər ətraflı müzakirə olunurdu. M.Qorki, A.Fadeyev, S.Vurğun kimi ümumittifaq ədəbiyyatında tanınan ədəbi simalar poeziyanı romantikasız təsəvvür etmir, mərkəzi mətbuatda bu barədə məqalələr dərc etdirirdilər. Ədəbiyyatşünas alim Şirindil Alışanlı yazır: *"Ümumən, 20-30-cu illər Azərbaycan ədəbiyyatşünaslığında romantizm və realizm ictimai-fəlsəfi, ədəbi-estetik hadisə kimi özünün sistemli elmi şərhini tapa bilmir"* [5, s. 57].

Nazim Hikmət, Səməd Vurğun, Mikayıl Müşfiq haqqında yazdığı məqalələrində Şamil Salmanov milli poeziyada romantikanın yeri və rolu barədə məntiqli elmi fikirlərlə çıxış edirdi. Bəkir Nəbiyev onun bu istiqamətdə elmi fəaliyyətinə nəzər salaraq romantik üslub haqqında alimin fikir və mülahizələrinə yüksək qiymət verir, bu ənənəyə qeyri-elmi münasibət bəsləyənlərə qarşı çıxır, Ş.Salmanovun mövqeyini alqışlayırdı. B.Nəbiyev qeyd edirdi ki, romantik ənənə barədə onun prinsipial mövqeyi problemin mahiyyətini açmaq üçün əhəmiyyətli səciyyə daşıyır.

Müasir Azərbaycan poeziyasının qarşısında dayanan problemlər Şamil Salmanovu daim düşündürürdü. Şeirimizin yeni mərhələsinin inkişaf meyillərini ardıcıl izləyərək yeni imzaları və istedadları üzə çıxarır, onların yaradıcılığının spesifik xüsusiyyətlərini aşkarlayırdı. Yaşar Qarayevlə birlikdə yazdığı "Poeziyanın kamilliyi" (1985) monoqrafiyasında bu cəhətdən Bəxtiyar Vahabzadə yaradıcılığının novator xüsusiyyətlərini müəyyənləşdirmiş, şairin 1943-cü ildən poetik yaradıcılığa başladığını qeyd edərək, onun yaradıcılıq təkamülünün konkret mənzərəsini meydana çıxarmağa nail olmuşdu. B.Vahabzadənin 1946-1949-cu illərdə yazdığı "Ay vəfalı", "Yaşıl çəmən, ağac altı" şeirlərinə diqqət çəkən Şamil Salmanov şairin bu ilk əsərlərində süjetçiliyin, lirik hiss və həyəcanın güclü olduğunu diqqətə çatdırırdı. O,

1950-ci illərin ortalarında ümumsovet ədəbiyyatında əmələ gələn inkişaf meyillərini yüksək qiymətləndirir, bu kontekstdə B.Vahabzadə yaradıcılığının ədəbi-fəlsəfi xüsusiyyətlərini təhlilə cəlb edirdi. Tənqidçi belə bir fikrə gəlirdi ki, 1950-ci illərdən etibarən B.Vahabzadə yaradıcılığı ideya, məzmun, sənətkarlıq baxımından getdikcə güclənməyə başlamış, orijinal və özünəməxsus mahiyyət kəsb etmişdir.

"Poeziyanın kamilliyi" monoqrafiyasından aydın olur ki, B.Vahabzadənin poetik üslubu 1960-cı illərdən başlayaraq getdikcə kamilləşmiş, hətta ümumittifaq poeziyasında ön mövqedə dayanmağı bacarmışdır. Monoqrafiyanın "Mənəvi axtarışlar yolu ilə" hissəsində bu fikir daha dəqiq vurğulanır. *"Bəxtiyar Vahabzadə lirikasını səciyyələndirən xüsusiyyətlər sırasında fikri başlanğıcın, intellektual başlanğıcın bu lirikada çox güclü olduğunu göstərmək lazımdır. Bəxtiyar lirikası narahat, qızğın fikir lirikasıdır, axtarıcı təfəkkür lirikasıdır. Onun çox aydın və parlaq müasirlik ləyaqətlərindən biri də məhz bundan ibarətdir"* [30, s. 78].

Poetik yaradıcılıq prosesinin ideya-bədii baxımdan əsas inkişaf meyilləri və qanunauyğunluqlarının aşkara çıxarılmasında Şamil Salmanov xüsusi həssaslıq göstərir, bədii düşüncənin inkişaf istiqamətlərini müəyyən edən ictimai-sosial amilləri vaxtında və obyektiv qiymətləndirməyi bacarırdı.

Həyatla poetik gerçəklik arasındakı əlaqənin sosial-mədəni aspektlərini daim diqqətdə saxlayan Şamil Salmanov, bir qayda olaraq, ümumittifaq nəzəri-estetik və bədii fikrinin hadisə və faktlarına vaxtlı vaxtında müraciət edir, poeziyada ənənə və yenilik axtarışlarına bu kontekstdən qiymət verirdi. O, "zahiri-sosioloji amillərə" əsaslanıb bədii yaradıcılığı qiymətləndirmək mövqeyində dayanan ümumittifaq tənqidini bu cür fikirlərdən uzaq durmağa çağırırdı. Ş.Salmanov bu sahədə mövcud fikir və mülahizələri ümumiləşdirərək göstərirdi ki, milli ədəbiyyata bir çox hallarda standart sxemlər, şablon ölçülər tətbiq olunur ki, bu da qətiyyən yolverilməzdir. Bu cür yanaşma milli ədəbiyyatın çağdaş inkişafını təmin etmək iqtidarında olmur.

Şamil Salmanov poetik əsərlərdə lirik çalarları, hissi-emosional başlanğıcı yüksək qiymətləndirirdi. O, emosional və mühakiməvi başlanğıcı şairin əsərlərinin başlıca xüsusiyyəti kimi göstərir, lirik poeziya kimi səciyyələndirilən bu əsərləri

1960-70-ci illər Azərbaycan şeirinin əsas istiqaməti hesab edirdi. Tənqidçi B.Vahabzadənin poemalarından bəhs edərkən bu əsərlərdə lirik çalarlarla yanaşı, epik vüsətin də güclü olduğunu təsdiq edirdi. Müasir poemada lirik başlanğıcın daha da güclənməsi səbəblərinə toxunan Ş.Salmanov bunu cəmiyyətin mənəvi-sosial sərvətlərinə, əxlaqi-psixoloji həqiqətlərinə poeziyanın artan, təsirlənən marağı ilə əlaqələndirirdi. Bildirirdi ki, cəmiyyətin, xalqın mənəvi-sosial sərvətlərinə sədaqət onun lirik "mən"ini səciyyələndirən əsas amildir. Bu cəhəti Yaşar Qarayev də yüksək həssaslıqla müşahidə edərək göstərirdi ki, Bəxtiyar Vahabzadənin bənzərsiz poeziyasının başlıca məzmununu narahat duyğu və düşüncələrin, incə lirizmin, fəal vətəndaşlıq mövqeyinin və zəngin obrazlılığın vəhdəti təşkil edir.

Şübhəsiz ki, Y.Qarayevin təqdimatında B.Vahabzadə lirikasının xüsusiyyətləri vəhdət, tamlıq, ölçüsüzlük meyarları ilə dəyərləndirilir. Bütün bunları həssaslıqla qiymətləndirən Ş.Salmanov şairin əsərlərinə bir də ona görə yüksək qiymət verirdi ki, onun şeirlərində və lirik poemalarında həyatın, ömrün adi ötən tərəfləri yox, predmetin daxili, gizli, sehrli məzmunu, mahiyyəti üzə çıxır. Eyni zamanda, B.Vahabzadə lirikası ona görə bu qədər sevilir ki, o, müfəssəl, geniş lirik etirafdan imtina edir, lirik süjeti müəyyən anlayış və predmetlərin qarşılaşdırılması üzərində qurur, predmeti obrazlaşdırmağı bacarır. Məsələn, alim "Bir gəmidə" şeirini təhlil edərək belə fikir irəli sürür ki, şeirdə tufanlı, qasırğalı dəniz içərisində hərəkət edən gəmi müasir dünyanın obrazıdır. Şairin fəlsəfi lirikasının özünəməxsus ədəbi-estetik keyfiyyətlərindən bəhs edən tənqidçi yazırdı ki, *"Bəxtiyar Vahabzadənin lirik "mən"i – təbiətən filosofdur, müdrikdir. Məhz buna görə o özünütəhlilə, özünüidraka meyillidir. Hətta biz deyə bilərik ki, bu hiss onun xarakterində ən qüvvətli, mənəvi keyfiyyətdir"* [30, s. 92].

Lakin bu da qeyd olunur ki, Bəxtiyar Vahabzadə lirik axtarışlarında həmişə uğurlu nəticələr əldə etmir, bu yolda müəyyən çətinliklərlə qarşılaşır. Əgər "Qəlbimizdə dan işığı" şeirində masa üstünə düşən dan işığı ürək, qəlb dünyasının sehrini, möcüzəsini duymaq, kəşf etmək hissinin ifadəsi üçün incə, zərif bir detaldırsa, "Sükutun bir anı", "Dözüm" şeirlərində bu cür detal və təfərrüatlar

poeziyanın sərvətinə çevrilmir: *"Bu şeirlərdə ancaq fikir, ifadə vardır, onun poeziyası, emosional təhlili isə yoxdur. Zənnimizcə, B.Vahabzadənin məhz o yeni şeirləri müvəffəqiyyətlidir ki, onlarda şair müfəssəl sərbəst lirik etiraf, lirik "özünüifadə" formasına müraciət edir. Bu baxımdan "Fikir axtarışı", "Sən hardan biləsən", "Ekran qaralanda" şeirləri, habelə "Xaricə səyahət" silsiləsindən olan "Hayd park", "Kiçik pəncərə", "Ölüm, ya olum" şeirləri müvəffəqiyyətlidir. Bu şeirlərdə şairin lirik "mən"i daxili ruhi ziddiyyətləri ilə təqdim olunur"* [104, s. 22].

Şamil Salmanov monoqrafiya və məqalələrində Azərbaycan poeziyasının inkişaf təkamülünü, onun ayrı-ayrı mərhələlərinin tipoloji xüsusiyyətlərini ardıcıl izləyir, onun 1920-30-cu illər mərhələsini isə xüsusən diqqətlə təhlilə cəlb edirdi. Tənqidçinin bu illərdə poema janrına daha çox müraciət olunmasını ictimai-siyasi mühitin, yeni cəmiyyətin reallıqları ilə əlaqələndirirdi. Alimin "Müşfiqdə lirik epos" (1968) məqaləsi yalnız Mikayıl Müşfiq poeziyasının ideya-məzmunca xüsusiyyətlərinin, şairin yaradıcılıq axtarışlarının özünəməxsus ədəbi-estetik keyfiyyətlərinin təhlili ilə məhdudlaşmır. Ş.Salmanov özünəməxsus tənqidçi təmkini, lakonik araşdırma və ümumiləşdirmə üsulu ilə lirizmlə epikliyin, realizmlə romantizmin vəhdətini M.Müşfiqin poemalarının səciyyəvi xüsusiyyətləri kimi dəyərləndirirdi. Maraqlıdır ki, o, Müşfiqin poema yaradıcılığında müşahidə etdiyi bu səciyyəvi cəhəti keçən əsrin 20-ci illərinin sonlarında meydana çıxan bir sıra poemalara xas estetik keyfiyyət hesab edirdi. "Böyük estetik funksiya daşıyan" bu cür lirik motivləri Ş.Salmanov şairin "Küləklər" kitabındakı lirikadan fərqləndirir, çox doğru olaraq qeyd edirdi ki, onun poemalarında lirik xətlər daha konkret məzmuna malikdir. Bu konkretlik şairin həyata, insana münasibətinin poetik göstəricisi kimi təzahür edir. Həm də bu cür təzahür forması yenilik naminə forma axtarışları ilə deyil, yeni insan axtarışı ilə səciyyələnir. Şairin yaradıcılıq axtarışlarının bu istiqamətini müəyyənləşdirən epik-lirik ünsürlərin sintezi zamanın səsini, onun müasirlərinin hiss və duyğularının bədii ifadəsini əks etdirirdi. Ş.Salmanov M.Müşfiqin epik təsvirə, müfəssəl lirik formaya dönüşünü şərtləndirən başlıca amilin bundan ibarət olduğu qənaətinə gəlirdi. Alim bu cəhətdən M.Müşfiqin

"Səhər", "Azadlıq dastanı" poemalarını xüsusi olaraq fərqləndirirdi. "Səhər" poemasını ona görə yüksək qiymətləndirirdi ki, bu poemada Azərbaycan qadınının mənəvi intibahı yüksək poetik tərənnümünü tapmışdı. Həm də bu əsərdə şair öz lirik qəhrəmanını sərbəst, buxovsuz romantikasının həqiqətə çevrilmiş təsdiqi və rəmzi kimi oxuculara tanıdırdı. Lirika və romantikanın vəhdətini Şamil Salmanov poemanın müsbət məziyyəti kimi qiymətləndirirdi. O, şairin adlarını yuxarıda qeyd etdiyimiz poemalarından bəhs edərkən lirik eposun poetik imkanları, bu formaya münasibət məsələsi üzərində qısaca dayanmaqla göstərir ki, bu qəbil əsərlərdəki lirika eposun müəyyən əlamətlərini özündə daşıyır və poemanın strukturunda da mühüm dəyişikliklər yaradır. Problemə bu aspektdən yanaşan tənqidçi göstərir ki, "Səhər" və "Azadlıq dastanı" poemaları 30-cu illər Azərbaycan epik şeirinin nailiyyətləri sırasına daxil olan əsərlərdən idi.

Lirik-romantik üslubda yazılmış "Səhər" poemasında təqdim olunan Səhər obrazı Azərbaycan qadınının mənəvi intibahını əks etdirir. Ş.Salmanov poemaya bir rəngarənglik və canlılıq gətirən epik ümumiləşdirmələrlə lirik ünsürlərin yaratdığı poetik mənzərəni Müşfiqin yüksək sənətkarlığı hesab edir və belə bir elmi qənaətə gəlirdi ki, M.Müşfiq Səhər obrazını həyati həqiqət kimi oxuculara təqdim edir. Poemanın novator xüsusiyyətlərini səciyyələndirərkən tənqidçi Səhəri lirik vasitələrlə ümumiləşdirilmiş surət kimi xarakterizə edirdi.

Prof. Ş.Salmanov "Azadlıq dastanı" poemasında Müşfiqin beynəlxalq hadisələrə fəal münasibətini, Şərq xalqlarının tarixi taleyinə coşqun sənətkar baxışını şairin poetik yaradıcılığının yeni sənət keyfiyyəti kimi səciyyələndirir. Poemanın lirik qəhrəmanının mənəvi zənginliklərinin sosial-fəlsəfi mahiyyətinin mənalandırılmasında lirik elementlərin, emosional məqamların yaratdığı imkanlardan şairin məharətlə istifadə etdiyini ayrıca vurğulayır. Tənqidçi Hindistanla bağlı hissənin bədii cəhətdən güclü təsir bağışlamasının səbəbini şairin quru və ritorik ifadələrdən qaçmasında, həyat hadisələrindən aldığı təəssüratları lirik-epik təsvirlərlə əks etdirməsində görür. Müşfiqin poemalarının ideya-bədii əhəmiyyətini qoruyub saxlamasını bu əsərlərin dərin müasirliyi ilə bağlılıqda görən Ş.Salmanovun elmi

qənaəti onun çağdaş tənqidçi mövqeyini bir daha təsdiqləyir. Ümumiyyətlə, 1930-cu illər Azərbaycan şeirinin özünəməxsus ədəbi-estetik xüsusiyyətlərini və sosial-fəlsəfi mahiyyətini həssaslıqla müəyyənləşdirməyə çalışan tənqidçi M.Müşfiqin epik-lirik poemalarının qəhrəmanlarının müasir həyata baxışlarını, xalqla, onun mənəvi aləmi ilə bağlı problemlərini də eyni həssaslıqla təhlil və izah edirdi.

XX əsrin 60-cı illərində ədəbiyyatımızda özünü göstərən demokratik meyillər 1970-ci illərdə də davam edirdi. Xüsusən, minillik tarixi olan Azərbaycan poeziyasında yeni ideya-estetik keyfiyyətlər üzə çıxırdı. Həmin dövrün ədəbi prosesini ardıcıl izləyən Şamil Salmanov bu yenilikləri vaxtında görür, ədəbi-tənqidi məqalələrində, müxtəlif icmal yazılarında, monoqrafiyalarında yeni poeziyada tarixilik və müasirliyin vəhdətini aşkara çıxarmağa çalışırdı.

Tənqidçi hesab edirdi ki, dövrün ədəbi mühiti lirik növün janrlarına daha çox üstünlük verirdi. Ona görə ki, yeni dövrün tələblərinə cavab vermək baxımından lirik şeirin imkanları daha geniş idi. Rəsul Rza, Bəxtiyar Vahabzadə, Məmməd Araz, Əli Kərim, Fikrət Qoca, Hüseyn Arif, Musa Yaqub kimi şairlər ictimai-siyasi mühitin yaratdığı şərtlər çərçivəsində öz poetik imkanlarını reallaşdırırdılar. Ş.Salmanov ədəbi-tənqidi məqalələrində bu şairlərin yaradıcılıq nailiyyətlərini yüksək həssaslıqla dəyərləndirir, onların hər birinin əsərlərinin özünəməxsus xüsusiyyətlərini təhlil edirdi. Tənqidçi hər şeydən əvvəl şairlərin fərdi yaradıcılıq üslublarına daha çox diqqət yetirir, ictimai mühitin poetik yaradıcılıqdakı dərkini aydınlaşdırmağa çalışırdı. Bəkir Nəbiyevin doğru olaraq qeyd etdiyi kimi: *"Epik və dramatik növlərə nisbətən lirikada sənətkarın fərdiyyəti, yaradıcının şəxsiyyəti daha bariz şəkildə meydana çıxır"* [65, s. 30].

Söz sənətkarlarının lirik şeirlərində bir tərəfdən təbiətin tərənnümü, Böyük Vətən müharibəsinin poeziyadakı dərki, digər tərəfdən insan və onun mənəvi dünyası, bir fərd kimi onun daxili aləmi, psixologiyası, mürəkkəb mənəviyyatı, təzad və ziddiyyətləri Ş.Salmanovun tənqidçi nəzərindən yayınmırdı.

1970-ci illər ərzində şairlərimizin müasir poeziyada dolğun və səmərəli fəaliyyətlərini nəzərə alan Ş.Salmanov R.Rza, O.Sarıvəlli, S.Rüstəm, Ə.Cəmil,

M.Dilbazi kimi qocaman şairlərlə yanaşı, onların poetik yolunu izləyən orta nəsil nümayəndələri B.Vahabzadə, N.Xəzri, Qabil, Ə.Kürçaylı, C.Novruz, X.Rza, H.Arif, Q.Qasımzadə, N.Gəncəli, A.Zeynallı və başqalarının yaradıcılıqlarını da diqqətlə izləyir, onların poeziyasının əsas xəttini müəyyənləşdirməyə çalışırdı. Ş.Salmanov 1960-70-ci illər poeziyasının inkişafında bu nəslin xidmətlərini yüksək dəyərləndirir, qloballaşan dünyanın aktual problemlərinin həmin dövrün poetik ənənəsində novatorcasına əks olunduğunu xüsusi vurğulayırdı. Prof. Tahirə Məmmədin qeyd etdiyi kimi, Ş.Salmanov *"bir sənətkar və ya alim haqqında tədqiqat apararkən tədqiqat müddətincə özünü onun dünyasında hiss edir və yaradıcılıq prosesindəki yaşantılarını dərk eləməyə çalışırdı"* [47, s. 13].

Eyni və ya müxtəlif ədəbi nəsilləri təmsil edən sənətkarlar haqqında yazdığı məqalələrdə Ş.Salmanovun poetik duyumu, şeirin ədəbi-fəlsəfi mahiyyətinə nüfuz etmə istedadı dövrün tələb və təzadlarından asılı olmayaraq, özünü aydın şəkildə göstərir. Onun "Görkəmli şair, vətəndaş" (1983), "... Bu şeirdir və onu yazan da şairdir!" (1991), "Tənhalıq poeziyası" (1997), "Böyük səfərin başlanğıcı" (1979), "Şair" (2005) və digər məqalələri bu baxımdan səciyyəvidir. Müxtəlif illərdə qələmə alınan bu məqalələrin hamısı üçün xarakterik bir cəhət var: prof. Ş.Salmanovun prinsipial və obyektiv tənqidçi mövqeyi.

Poeziya aləminə keçən əsrin 20-ci illərinin sonlarında gələn Əhməd Cəmil bütün yaradıcılığı boyu az yazsa da, onun şeirləri poetik keyfiyyət baxımından lakonik, mənalı və emosional xüsusiyyətləri ilə seçilir. Ş.Salmanov zamanı poeziyanın məhək daşı kimi qiymətləndirərkən Ə.Cəmilin yaradıcılığına da bu nöqteyi-nəzərdən yanaşır. Tənqidçi şairin qırx ilə yaxın bir dövrü əhatə edən yaradıcılığını Azərbaycan lirikasının inkişaf yolunun ayrılmaz hissəsi kimi qiymətləndirir. Ə.Cəmilin lirikasındakı səmimilik və təbiiliyin, həyati həqiqətlərin zaman keçdikcə dərinləşdiyini, əlvan poetik vasitələrlə ifadə olunduğunu şairin özünəməxsus üslubunun təzahürü sayır. Süjetli lirikada təhkiyənin poetik çalarları, milli kolorit və xəlqilik, lirik qəhrəmanın düşüncə və hisslərindəki emosionallığın obrazlı ifadəsi şairin poeziyasına xas olan əsas xüsusiyyətlərdir. Ş.Salmanov bu

xüsusiyyətlərin üzərində dayanaraq, Ə.Cəmilin birinci dünya müharibəsi ərəfəsində və müharibə dövründə yazdığı şeirləri bu dövrün insan obrazını tipik cizgilərlə əks etdirən poetik örnəklər kimi səciyyələndirir. Şairin "Can nənə, bir nağıl de" şeirində təsvir olunan nənə və nəvənin söhbətində dövrün elə səciyyəvi, tipik və psixoloji lövhəsi yüksək sənətkarlıqla canlandırılmışdır ki, *"burada Ə.Cəmil öz lirikasının xarakterini, intonasiyasını, vəznini, poetikasını sanki birdəfəlik tapmışdı... Şeirdə onun üslubu kamil və özünəməxsus, büllurlaşmış halda təzahür edirdi"* [75, s. 337].

Tənqidçi süjetli lirikanın Ə.Cəmil poeziyasındakı yerindən söhbət açarkən qeyd edir ki, müharibənin törətdiyi fəlakətlərin təhkiyəsi və təsviri lirik qəhrəmanın daxili aləminin poetik ifadəsində təcəssümünü tapır. Bu baxımdan Ş.Salmanov şairin bir sıra şeirlərində həssaslıqla müşahidə etdiyi bu cəhəti onun süjetli lirikasının ayrıca bir sənət keyfiyyəti kimi xarakterizə edərək, Ə.Cəmilin süjetli lirikasını poeziyamızın novator üslub-poetika hadisələrindən biri kimi dəyərləndirirdi. Müəllifin sərrast tənqidçi müşahidəsinə görə Ə.Cəmilin müharibədən sonrakı ədəbi axtarışları onun yaradıcılığının kamil və yeni bir mərhələsini təşkil edir.

Professor Ş.Salmanov ədəbi aləmə Əhməd Cəmildən təqribən iyirmi il sonra qədəm qoyan Novruz Gəncəlinin də yaradıcılığına eyni elmi-nəzəri prinsiplərlə yanaşır. Maraqlıdır ki, xalq şairi S.Vurğun keçən əsrin 40-cı illərində hər iki şairin poeziyası haqqında dəyərli fikirlər söyləmiş, onların ilk qələm təcrübələrini yüksək qiymətləndirmişdi.

Ş.Salmanov Novruz Gəncəlinin ədəbi axtarışlarını və yaradıcılıq uğurlarını həmin nəslə mənsub əksər şairlərdə olduğu kimi, "onların müasir sələflərin cazibə dairəsində olmaqla" novator addımlar atdıqlarında görürdü. Alim şairin "Qardaş, onu tez yetir..." şeirinin müasirliyinə diqqət yetirmiş, N.Gəncəlinin bu şeirində ifadə olunan fikir və hissi poeziyamızın ən qiymətli mənəvi sərvəti hesab etmişdir. Onun fikrincə, həmin günlərdə bu hissin yalnız tarixi mənası yox, həm də dərin müasir mənası, mənəvi dəyər gücü vardır.

O, bu nəcib hissi gözdən salmağa çalışanlara qarşı çıxır, çağdaş oxucunun diqqətini şeirin ədəbi-fəlsəfi mahiyyətini düzgün dərk etməyə yönəldirdi. Bu

məqamda Ş.Salmanov yalnız bir tənqidçi-ədəbiyyatşünas kimi deyil, vətənpərvər və humanist ideyaların carçısı kimi çıxış edirdi.

Ş.Salmanov Novruz Gəncəlinin lirikasında tərənnüm və lövhə yaratmaq sənətkarlığını onun poetik üslubunun özünəməxsus cəhəti kimi səciyyələndirmişdir. Məqalədə müəllifin nəzərə çarpdırdığı məsələlərdən biri də 1950-ci illərdə poeziyanın, xüsusilə lirik şeirin aktuallığının zəifləməsi, mövzu dairəsinin məhdudlaşması və zahiri əlamətlərin poetik mətləbi üstələməsi ilə bağlı idi. Ş.Salmanov N.Gəncəlinin də yaradıcılığında müşahidə olunan bu cəhətlərə 50-ci illər şeirinin ümumi fonunda yanaşır, sonrakı dövrdə poetik prosesdə gedən keyfiyyət dəyişiklikləri ilə əlaqədar şairin lirikasında yaranan yenilikləri şərh edirdi. Ş.Salmanova görə, N.Gəncəlinin "Dalğalar", "Mənim mahnılarım", "İnsan və qızılgül" kitabları lirik "mən"in daxili yaşantılarının, yeni əhval-ruhiyyəsinin ifadəsi idi.

Ümumiyyətlə, Ş.Salmanovun tədqiqatlarında şeirimizin poetik istiqamətləri və mərhələləri bütün dolğunluğu ilə ardıcıl şəkildə izlənilir. Onun "Şair" məqaləsində Famil Mehdinin poeziyasının ümumi mənzərəsi konkret elmi ştrixlər vasitəsi ilə araşdırılır. F.Mehdinin şeirlərinin başlıca məziyyətləri: lirizm, emosionallıq, daxili etirafların ifadəsi və s. təfərrüatları ilə deyil, lakonik fikirlərin əsasında qiymətləndirilir. Şairin lirikasında vətəndaşlıq yanğısı, fərdlə cəmiyyət arasındakı vəhdət və təzadlar onun 90-cı illər poeziyasının yeni bir mərhələsini təşkil edir. Ş.Salmanov bu mərhələni ağrılı və taleyüklü mövzuların ifadəçisi kimi araşdırır və şairin şeirlərindəki sosial iztirabları fərdi yaşantılar kimi deyil, milli dərdlərin təcəssümü kimi izah edir. Tənqidçinin fikrincə, 1960-cı illər ədəbi nəslinin novatorluq axtarışları bəzən birmənalı şəkildə qarşılanmasa da, onların ədəbi mühitə gətirdikləri yeniliklər, orijinal yazı tərzi, forma və məzmun əlvanlığı ədəbi prosesdə yeni poetik istiqamətin formalaşmasında əhəmiyyətli rol oynadı. Ona görə də bu nəsil Azərbaycan poeziyasını yeni ideya və mövzularla, üslubi çaların rəngarəngliyi və milli poetik sənət keyfiyyətləri ilə zənginləşdirirdi.

Bu dövrdə R.Rza əvvəlki illərə nisbətən, mətbuatda daha az görünməyə başlasa da, o, öz yaradıcılıq üslubuna sadiq qaldı, yaradıcılığında lirik-psixoloji məqamların artması ilə ədəbi mühitdə qələm yoldaşlarından fərqlənməyə başladı. Tənqidçi R.Rzanın şeirlərində iki obraz arasında yaranan konflikti önə çəkərək, bu konfliktin – uşaq və müharibə, uşaq və aclıq, uşaq və yetimlik, uşaq və dünyada olan təhlükələr arasında getdiyini, oxucularını böyük ustalıqla bu konfliktə cəlb edərək, körpələrin gələcəyi haqqında düşündürməsini fərqli mövqe kimi qiymətləndirirdi.

Ş.Salmanov R.Rzanın 1970-ci illərdə qələmə aldığı "Janna d`Ark", "Babək", "Yuxuma gəlmişdi Ezop", "Son gecə" əsərlərində Nəsimi, Babək, Ezop kimi tarixi şəxsiyyətlərin sanki, zaman və məkan hüdudlarını aşaraq, günümüzə səslənmələrini göstərir, keçmiş və müasirliyin vəhdətinin sənətkarlıqla əks olunduğu qənaətinə gəlir, öz mülahizələrini yüksək elmi-nəzəri səviyyədə əsaslandırırdı. Şairin vətəndaşlıq lirikasının milli-fəlsəfi mahiyyətini izah edərək, bu qənaətə gəlirdi ki, fəal həyat mövqeyi R.Rzanın şeirlərinin xəlqi və bəşəri meyillərini eyni poetik düşüncə tərzində və məqamda birləşdirir, vəhdət halına gətirir.

Şamil Salmanov nəzərə çatdırır ki, poeziyada mənəviyyat mövzusu çoxşaxəlidir, çox aspektlidir, onun əxlaq və mənəviyyat, fəlsəfi-tarixi, sosial-mənəvi formaları mövcuddur. Milli poeziyamız keçən əsrin ortalarına doğru sosialist realizminin qəliblərini parçalamağa çalışır, odur ki, şeirdə sosioloji mövzu-motivlər azalmağa, ruhi-mənəvi mövzular isə çoxalmağa başlayır. Tənqidçi hesab edirdi ki, poeziyanın lirik qəhrəmanı öz ləyaqətini əcdadlarına sadiqliyi ilə təsdiq edir və cavan poeziyanın ən önəmli məziyyəti də məhz bu sədaqətdədir.

Bu dövrün lirikasında vətəndaşlıq motivi, soykökə qayıdış, insanın zaman və dünya qarşısında mənəvi borc hissi, fərdin mənəvi aləminin zənginliyi daha qabarıq əks olunur. Tənqidçinin fikrincə, xalqın hiss və həyəcanını öz daxili duyğuları kimi əks etdirmək C.Novruzun da yeni şeirlərinin mövzusunda güclü amil kimi özünü göstərir. Ş.Salmanov şairin *"zərif, lirik məziyyətlərlə zəngin "Gecikmiş məhəbbət mahnısı", "Haçan ki, gedirəm o doğma kəndə", "Beşcə qarış torpağında gözüm var", "Mənim xatirələr pedməktəbim var", "İran qadınlarına heyrət məktubu"*

*şeirlərini onun uğurlu sənət nümunələri hesab edir, lakin "Mənim nəyim çatışmır" şeirini nisbətən zəif yazdığını, əsərlərində vəsf etdiyi hissləri dərindən yaşamadığını, duyğularını səthi olaraq qələmə aldığını, sözçülüyə üstünlük vermәsini"* [104, s. 31-32] tənqid edirdi.

Təəccüblü deyildir ki, eyni poetik meyil Ə.Kürçaylı, N.Həsənzadə, X.Rza, D.Ordubadlı, Q.Qasımzadə, H.Arif, A.Zeynallı, N.Gəncəli, Y.Həsənbəy kimi şairlərə də məxsusdur. O, poetik prosesdə fəal iştirak edən istedadlı şair Xəlil Rza Ulutürkün yeni şeirlərinə diqqəti cəlb edir, onun tərcümə sahəsində fəaliyyət göstərməsini, orijinal şeirlərlə yanaşı, xeyli sayda tərcümələrinin də mətbuatda dərc olunmasını maraqlı məqam kimi qeyd edirdi. Tənqidçi X.Rzanın böyük ustad Nizaminin "Sirlər xəzinəsi" poemasını, R.Rojdestvenskinin "İki yüz on addım" poemasını, tatar şairi M.Cəlilin "Moabit dəftəri" kitabını tərcümə etməsini bu illərin ədəbi prosesi üçün uğurlu işlər sırasına daxil edirdi.

Ş.Salmanov X.Rzanın Məhəmmədhüseyn Şəhriyarın fars dilindən Azərbaycan dilinə tərcümə etdiyi "Haqqın səsi" poemasından bir parçanı kitabında nümunə kimi verməklə, şairin orijinal şeirlərində öz əksini tapan hiss və həyəcanını tərcümə etdiyi əsərlərində də böyük ustalıqla ifadə etdiyini göstərir. Ümumiyyətlə, X.Rzanın lirikası eyni zamanda iki mövzunu – vətəndaşlıq və təbiət mövzusunu əhatə edir. Bu mövzular şərti olaraq bir-birindən ayrılsalar da, şairin ən yaxşı şeirlərində bu motivlərin bölünməz olduğu qənaətinə gəlirik. "Çənlibelə dəvət", "İldırım işığında", "Suçu" kimi şeirlər bunun bariz örnəyidir. Ş.Salmanov düşünür ki, şair öz şeirlərində kiçik bağa olan qayğını Vətənə olan qayğıya bənzədərək, lirik təhkiyə ilə oxucularına çatdırır. Alim X.Rzanın "Var səsinlə", "İlham", "Oğlum Təbrizə", "Özbəklər", "Respublikam" şeirlərini də şairin yaradıcılığında müvəffəqiyyətli sənət əsərləri hesab edirdi.

Ümumiyyətlə, Ş.Salmanov Azərbaycan sovet poeziyasının özünəməxsus keyfiyyətlərini səciyyələndirərkən yeni ədəbi düşüncəni və milli mənəviyyat problemini əks etdirən poetik örnəklərə istinad etmiş, ədəbi prosesin ayrı-ayrı mərhələlərində özünü göstərən yenilikçi meyillərin təhlilinə daha çox əhəmiyyət

vermiş, bir qayda olaraq, poetik axtarışları yüksək dəyərləndirmiş, sənətkar və ictimai mühit amilini həmişə diqqətdə saxlamışdır. Bütün bunlar ədəbiyyatşünas alimin yaradıcılığının əhatə dairəsinin genişliyini, milli-mənəvi dəyərlərə sədaqətini, nəzəri-estetik problemlərin mahiyyətinə yaxından bələd olduğunu göstərən mühüm amillərdir.

Şamil Salmanov bütün yaradıcılığı boyu ən çox poeziyanın müxtəlif məsələlərini tədqiq və təhlil etmiş, burada qarşıya çıxan çətinliklərə münasibət bildirmiş, bir tənqidçi kimi poeziyanın prioritet istiqamətlərinə çevik və vaxtında reaksiya verməyi bacarmışdır.

Dissertasiya işinin bu fəslində araşdırılan problemlərə aid əldə edilən nəticələr iddiaçının çap olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır: [140; 141; 142; 144; 145].

## II Fəsil
# İCTİMAİ-ƏDƏBİ MÜHİTDƏ ƏDƏBİ ŞƏXSİYYƏT AMİLİ

### 2.1. Şamil Salmanovun ədəbi-estetik ideyaları

Şamil Salmanov Azərbaycan ədəbi tənqidinin və ədəbiyyatşünaslığının ən tanınmış və nüfuzlu simalarından biridir. O, ömrünü milli ədəbiyyat tarixçiliyinin, ədəbi tənqidin metodoloji istiqamətlərinin müəyyənləşdirilməsi, elmi-nəzəri səviyyənin yüksəldilməsi işinə həsr etmişdir. Alim tədqiqat predmeti kimi götürdüyü ədəbiyyat tarixi materiallarına yüksək estetik mövqedən, dünya ədəbiyyatşünaslığının müasir standartları baxımından yanaşmışdır. Onun filoloji fikrimizin prioritet sahələri, nəzəri kateqoriyaları – bədii üslub, ənənə və novatorluq, bədii metod və janr, tənqid və ədəbi proses, tənqidin ədəbi prosesdə rolu haqqında sistemli tədqiqatları müasir ədəbiyyatşünaslıq və ədəbi tənqid məktəbimizin nəzəri bazasının möhkəmləndirilməsi işində xüsusi çəkiyə malikdir. Vaqif Yusifli Ş.Salmanovun tənqidçi mədəniyyəti və tənqid üslubunun xüsusiyyətləri haqqında yazır: *"...onun fərdi üslubunu müəyyənləşdirən bir cəhəti də qeyd etmək istəyirəm: Ş.Salmanov mübahisə, polemika mədəniyyətinə yiyələnən tənqidçi idi və hətta yanlış bir mülahizə yürütsə də, həmin mədəniyyəti, daha doğrusu, tənqidçi əxlaqını hifz edə bilirdi (xatırlayaq onun 1968-ci ildə M.Arazın "Ömür karvanı" kitabındakı şeirlərlə bağlı o qədər də obyektiv olmayan məqaləsini). Yazı tərzinə gəldikdə, onun təhkiyə üsulu sadə idi, amma bu sadəlik ədəbiyyatşünas-tənqidçi qələminə məxsus sadəlikdi"* [135, s. 5].

1960-cı illərdən ədəbi tənqidə gələn Şamil Salmanov artıq ilk məqalələrində tənqidçi fərdiyyətini sübut etdi. Kamal Talıbzadə 1971-ci ildə Azərbaycan Yazıçılarının V qurultayında ədəbi tənqid haqqında etdiyi məruzədə Y.Qarayev, A.Səfiyev, A.Əfəndiyev, Elçin, A.Hüseynov, A.Dadaşzadə, Ayaz Vəfalı, A.Mikayılov kimi yetişən yeni nəsil tənqidçiləri sırasında Şamil Salmanovun da adını çəkmişdir. K.Talıbzadə həm də bu nəslin nümayəndələri haqqında deyirdi: *"...öz nəsillərinin taleyi uğrunda, tənqid tarixində daha əsaslı yer tutmaları üçün bu nəsil*

*daha ciddi fəaliyyətə başlamışdır"* [129, s. 79]. Göründüyü kimi, K.Talıbzadənin bu məruzədə adlarını çəkdiyi imzalar sonralar Azərbaycan ədəbiyyatşünaslıq elmində özünəməxsus mövqe tuta bilmiş ziyalılardır ki, Ş.Salmanov bu cür elmi-ədəbi mübadilə və rəqabət şəraitində özünü təsdiqləyə, məruzəçidən "ciddi fəaliyyətə" malik tənqidçi statusunu qazana bilmişdir.

Tənqidçi sərbəst şeirin milli ədəbiyyatdakı ilk nümunələri, onların ideya-məzmun və ədəbi-estetik xüsusiyyətləri ilə yanaşı, sənətkarlıq məsələləri ətrafında maraqlı məqalələr yazmış, orijinal fikirlərlə çıxış etmişdi. Şamil Salmanovun humanitar elmi yaradıcılığın tarixilik və müasirlik kateqoriyalarına daim sadiq qalması, ədəbi ənənə və novatorluq haqqında yeni, orijinal fikirlər irəli sürməsi, ədəbi prosesdəki bədii-estetik xüsusiyyətləri daha çox tədqiqata cəlb etməsi, klassik və müasir ədəbi irsdəki mənəvi dəyərləri üzə çıxarmağa çalışması "Müasirlik mövqeyindən", "Poeziya və tənqid", "Akademik Kamal Talıbzadə", "Tənqidçi və ədəbi proses", "Xalq şairi Məmməd Rahim", "Poeziyanın kamilliyi" kitablarında bir daha öz təsdiqini tapdı. Bu əsərlər Azərbaycan tənqid və ədəbiyyatşünaslığının müəy-yən mərhələdəki elmi-nəzəri səviyyəsini göstərmək baxımından da əhəmiyyət daşıyır. Ədəbi prosesin cari vəzifələrinə, novator ədəbiyyatın ideya-estetik təbiətinə, ədəbiyyatımızın yeni tarixi şəraitdə əldə etdiyi nailiyyətlərə diqqət yetirən tədqiqatçı öz orijinal tənqidçi obrazını formalaşdırdı, 40 ildən çox davam edən elmi-ədəbi fəaliyyəti ilə tənqid və ədəbiyyatşünaslıq tariximizə öz imzasını qoydu. Bunun da ən başlıca səbəblərindən biri elmi-nəzəri təhlillərin dərinliyi və obyektiv mühakimələrdir.

Prof. Rafiq Yusifoğlu ədəbi prosesdə tənqidçinin rolundan bəhs edərkən yazır: *"Tənqidçi yüksək intellektə, nəzəri hazırlığa, bədii zövqə, poetik duyuma malik olmalıdır. O, yaradıcılıq psixologiyasını, ədəbi prosesin özünəməxsus qanunauyğunluqlarını, bədii inikasın xüsusiyyətlərini mükəmməl bilməlidir... Tənqidçi təkcə ədəbiyyat nəzəriyyəçisi yox, həm də filosof, psixoloq olmalıdır"* [138, s. 158].

Ş.Salmanov 1960-cı ildən elmi-ədəbi fəaliyyətə başlayıb. Həmin illər AMEA-

nın Nizami adına Ədəbiyyat İnstitutunda ikicildlik ədəbiyyat tarixinin hazırlanması işləri gedirdi. Hələ çox gənc və təcrübəsiz olmasına rəğmən, dəyərli ustadı Məmməd Arif tərəfindən hərtərəfli elmi-nəzəri hazırlığı nəzərə alınaraq ikicildlik "Azərbaycan sovet ədəbiyyatı tarixi" (1967) əsərinin hazırlanması işinə cəlb olunmuşdu. Bundan sonra onun "Azərbaycan sovet şeirinin ənənə və novatorluq problemi" (1980), "Poeziyanın kamilliyi" (1985) (Y.Qarayevlə birlikdə), "Müasirlik mövqeyindən" (1982), "Poeziya və tənqid" (1987), "Akademik Kamal Talıbzadə" (1998), "Tənqidçi və ədəbi proses" (akademik Bəkir Nəbiyevin ədəbi-elmi fəaliyyəti və tənqidi görüşləri) monoqrafiyaları və 100-dən artıq elmi məqaləsi işıq üzü görmüşdür.

Ş.Salmanovun adı və imzası professional ədəbiyyat tənqidçisi statusuna daha çox uyğun gəlir. Keçən əsrin 20-ci illərindən üzübəri Azərbaycan poeziyasının novatorluq tendensiyasının, yeni yaradıcılıq istiqamətlərinin elə bir sahəsi yoxdur ki, o, buna reaksiya verməsin və yaxud bu barədə mətbuatda çıxış etməsin. Alim AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun 1970-80-ci illərdə nəşr etdiyi "Ədəbi proses" məcmuələrində konkret zaman kəsiyində milli poeziyamızın ədəbi-tarixi prosesdə rolu, onun ayrı-ayrı simalarının bədii üslubu barəsində ətraflı və məzmunlu təhlillər aparıb. Həmin illərdə Azərbaycan poeziyasında yeni ədəbi istiqamətlər, sənətin sosial-mədəni həyata fəal müdaxiləsi diqqəti daha çox cəlb edirdi. Alim klassik irsin əhəmiyyətini müasir düşüncə ilə əlaqələndirir, ədəbi tənqidin subyektiv fikir və mülahizələrdən uzaq olanda daha çox elmi və nəzəri əhəmiyyət kəsb etdiyini göstərirdi. Ş.Salmanov bu fikirləri ilə bir tərəfdən klassik irsə münasibətini ifadə edirsə, ikinci bir tərəfdən ənənə və novatorluğun ədəbi-estetik və tarixi-fəlsəfi mahiyyətini oxucu ilə şair arasındakı elmi-ədəbi dərkin təzahürü kimi qiymətləndirirdi. Bu keyfiyyətlərin elmi-nəzəri çalarlarını onun təhlillərində, tənqidçi üslubunda müşahidə olunan ədəbi-estetik ideyaların fərdi əlamətləri kimi səciyyələndirmək mümkündür. Ayrıca qeyd etmək lazımdır ki, Ş.Salmanovun tədqiqatlarında Azərbaycan ədəbiyyatının inkişaf mərhələləri və istiqamətləri, mövzu və problematikası sırf tənqidçi təhlili ilə məhdudlaşmır, alim araşdırdığı obyektə həm də həssas oxucunun dünyagörüşü və ədəbi-estetik zövqünün özünəməxsusluğu

yönümündən yanaşırdı. Azərbaycan poeziyasında sərbəst şeirin ilk nümunələrini yaradanlardan biri olan Mikayıl Rəfili haqqında yazdığı "Mikayıl Rəfili", "Təmənnasız xidmət" məqalələrində Ş.Salmanov həm M.Rəfilinin poetik yaradıcılığına münasibət bildirir, həm də onun ədəbi-tənqidi əsərləri, sənətkarlıq məsələləri barədə orijinal mühakimələr yürüdürdü. O, yalnız Mikayıl Rəfili yaradıcılığının mövzu dairəsindən yox, onun bir şair-alim kimi ədəbi-estetik ideyalarının spesifik xüsusiyyətlərindən bəhs edərək göstərirdi ki, əsil sənət əsəri insanın mənəvi aləmini əks etdirməli, həm də müəllifin fərdi üslubunun, yaradıcılıq axtarışlarının güzgüsünə çevrilməlidir. O, 1920-30-cu illər ədəbi prosesində müşahidə etdiyi meyil və tendensiyaları, heca və sərbəst vəzn barədə mübahisələri həssaslıqla izləyir, bu məsələlərə dövrün tarixi-mədəni mənzərəsindən yanaşaraq obyektiv münasibət bildirirdi. Onun fikrincə, sərbəst şeirin 20-ci illərdə yaradılmış ən yaxşı nümunələri milli poeziyada ciddi keyfiyyət dəyişikliyi baş verdiyini göstərirdi. Köhnə janrların "ləngliyini" daha müvafiq və çevik janrlarla aradan qaldırmaq ehtiyacı yarandığını qeyd edən alim poetik mətndə nəzm ünsürlərinin estetik funksiyasının yeni məna kəsb etdiyini xüsusilə vurğulayırdı.

Ş.Salmanov Mikayıl Rəfilinin "Sərbəst şeir" haqqında ilk söz" məqaləsində qaldırdığı problemləri araşdıraraq, belə bir doğru qənaətə gəlirdi ki, Azərbaycan poeziyasında sərbəst şeirin inkişaf dialektikasını düzgün müəyyənləşdirmək üçün ilk növbədə M.Rəfilinin həmin məqaləsindən başlamalı və "tənqidin ədalətsiz möhürünü onun üzərindən götürməklə" müəllifin sərbəst şeir barədə doğru və səhv mülahizələrini aşkara çıxarmaq lazımdır.

Şamil Salmanov sərbəst şeirin iyirminci illərin yenilikçi cərəyanlarından biri olduğunu göstərərək, qeyd edirdi ki, həmin dövrdə ədəbi tənqidin bu problemə münasibəti ziddiyyətli və bitərəf olmuşdur. O, sərbəst şeir probleminin poeziyamızın inkişafının ana xətlərindən birini təşkil etdiyini bildirir, bu barədə mövcud fikir və mülahizələri yekunlaşdıraraq, belə bir maraqlı nəticəyə gəlirdi: *"Bu poeziya hadisəsi mürəkkəb və ziddiyyətli bir inkişaf yolu keçmiş, indi də qızğın diskussiyaların predmetidir, indi də onun ətrafında mübahisələr gedir; indi də onun səmimi*

*müdafiəçiləri olduğu kimi, qəti şəkildə inkar edənləri də vardır"* [73, s. 158]. Tənqidçinin bu dolğun elmi qənaəti onun bu istiqamətdə gedən müzakirə və diskussiyaları, ədəbi-tənqidi fikri davamlı olaraq diqqətlə izlədiyini və bu cür obyektiv münasibətin təməlində duran tənqidçi müşahidəsini nümayiş etdirir. Dissertasiyanın sonrakı uyğun səhifələrində bu barədə söhbət açılacaqdır.

Ş.Salmanovun ədəbi-estetik ideyaları bir qayda olaraq, Azərbaycan ədəbiyyatının başlıca inkişaf istiqamətlərindən qaynaqlanır. O, klassik və müasir Azərbaycan ədəbiyyatının aktual problemlərini, müxtəlif dövrlərdə yaşayıb-yaratmış ədəbi simaların yaradıcılıqlarını müntəzəm şəkildə araşdırdığı kimi, klassik ədəbi irslə bağlı tədqiqatlara da xüsusi əhəmiyyət verirdi. Onun müstəqillik illərində qələmə aldığı "Nizami yaradıcılığının xüsusiyyətləri Səməd Vurğunun ədəbi-tənqidi görüşlərində" (1994), "XX əsr Azərbaycan dramaturgiyasının tədqiqatçısı" (2000), "Ədəbiyyat tarixi mənəviyyat tarixi kimi" (2005) və s. məqalələrində alimin ədəbi-estetik duyumu, ədəbiyyatın tənqiddə fəlsəfi-estetik dərki aydın və prinsipial meyarlar vasitəsi ilə üzə çıxır.

S.Vurğunun Nizami yaradıcılığı ilə bağlı ədəbi-nəzəri görüşlərini şərh edərkən Ş.Salmanov ilk növbədə ənənə və novatorluq məsələsinə toxunur. Alim S.Vurğunun sənətdə, estetikada mövqeyini müəyyənləşdirərkən qeyd edirdi ki, böyük şair keçmişin ədəbi-estetik təcrübəsinə mühüm əhəmiyyət vermiş, yeni tendensiyaların və ədəbi meyillərin məhz ənənələr üzərində yaranıb formalaşdığını bildirmişdir. O, Nizami Gəncəvi ilə Səməd Vurğun yaradıcılıqları arasındakı oxşar və tipoloji cəhətlərin çox olmasının səbəbini onların obrazlı təfəkkürlərinin genişliyində, yaradıcılıq prinsiplərində görürdü. Alim belə bir fikri əsaslandırırdı ki, S.Vurğun Nizami yaradıcılığı haqqında görüşlərində həmişə müasirlik mövqeyində dayanmış, onun ədəbi-tənqidi fikirləri müasir yaradıcılıq prosesinin tendensiyaları ilə üzvi şəkildə səsləşmişdi. Ş.Salmanov onu da qeyd edirdi ki, S.Vurğunun ədəbi-nəzəri fikirləri konkret bir tarixi-mədəni mühitdə meydana çıxmışdır və bu cəhət mütləq nəzərə alınmalıdır. Onun fikrincə, "Dahi Azərbaycan şairi", "Azərbaycan sovet ədəbiyyatı və Nizami", "Nizami irsi və müasir dövrümüz", "Nizami Gəncəvi" və s.

məqalələrində, bir sıra çıxışlarında S.Vurğun dərin fəlsəfi-nəzəri ümumiləşdirmələr aparmaqla nizamişünaslığı elmi müddəalarla zənginləşdirmişdir.

Alim belə bir məqama ayrıca diqqət çəkirdi ki, S.Vurğun Nizami yaradıcılığının əsas xüsusiyyətlərini: humanizmi, tarix və tarixi şəxsiyyəti, realizm və romantikanı, xəlqiliyi estetik kamilliyin, fəlsəfi dərinliyin göstəriciləri kimi mənalandırırdı. Buna görə də onun Nizami haqqındakı görüşləri həm də yüksək metodoloji əhəmiyyət kəsb edir. Ş.Salmanova görə, S.Vurğunun tənqidi görüşlərində Nizami poeziyasının bədii-fəlsəfi dərki, elmi təhlili sistemli səciyyə daşıyırdı. Bu fikirləri dönə-dönə qeyd edən S.Vurğunun nəzərində Nizami yaradıcılığının müasirliyi sosial quruluşlardan və ideologiyalardan asılı olmayaraq, onun dühasının qüdrətini şərtləndirən başlıca amildir. S.Vurğunun Nizami haqqında fikir və mülahizələrini "sənətkarın sənətkar haqqında görüşləri kimi səciyyələndirən" Ş.Salmanovun fikrincə, *"onun Nizami görüşləri böyük şairin yaradıcılığının əsas məqamlarını, köklü məsələlərini və konsepsiyalarını əhatə edir və işıqlandırır. Buna görə belə hesab etməyə əsas vardır ki, S.Vurğunun bu görüşləri mahiyyət etibarilə bir sistem təşkil edir və bu sistem onun estetik baxışlarının mühüm tərəflərindən biridir"* [75, s. 132].

Prof. Ş.Salmanovun bu fikirlərinə əlavə olaraq deyə bilərik ki, Nizami Gəncəvinin dönə-dönə yubileylərinin keçirilməsi, respublikamızda və onun hüdudlarından kənarda böyük şairin abidələrinin ucaldılması, əsərlərinin nəşri, tədqiqi və təbliği sahəsində görülən işlər, möhtərəm Prezidentimiz cənab İ.H.Əliyevin sərəncamı ilə 2021-ci ilin "Nizami ili" elan edilməsi və s. Nizami yaradıcılığı haqqında S.Vurğun tənqidinin elmi həqiqətlərini və nəzəri səviyyəsinin dərinliyini bir daha təsdiq edir.

Tənqidçi elmi-ədəbi fəaliyyətinin müxtəlif mərhələlərində ədəbi tənqidimizin tarixi və nəzəri məsələləri ilə ardıcıl məşğul olub. "Azərbaycan sovet şeirinin ənənə və novatorluq problemi" əsəri ilə başlayan bu yol alimin doktorluq dissertasiyası olan "Müasir Azərbaycan ədəbi tənqidinin təşəkkülü və inkişaf meyilləri" tədqiqat əsəri ilə davam etdirilmiş, tənqid tariximizin bütöv bir mərhələsinin spesifik xüsusiyyətləri,

mərhələ təsnifatı, nəzəri-tarixi tipi geniş araşdırılmışdır. Elnarə Akimova yazır: *“Müasir Azərbaycan ədəbi tənqidinin təşəkkülü və inkişaf meyilləri” (1997) mövzusunda fundamental tədqiqatın müəllifi Ş.Salmanov 1920-1934-cü illər sovet dövrü ədəbi tənqidinin keçdiyi tarixi inkişaf yolunu, bu inkişafın istiqamətini və yaradıcılıq meyillərini öyrənməklə çoxcəhətli elmi vəzifənin öhdəsindən gəlmişdir”* [1, s. 7].

Ədəbi tənqidimizin bütöv bir mərhələsinin ayrı-ayrı görkəmli şəxsiyyətlərinin: Ə.Nazimin, M.Quliyevin, M.Rəfilinin, H.Zeynallının, M.C.Cəfərovun, K.Talıbzadənin, B.Nəbiyevin ədəbiyyat tarixçiliyimizin və ədəbi tənqidimizin inkişafındakı rolu və mövqeyinə o, müxtəlif tədqiqat əsərlərində dəfələrlə qayıtmış, respublika mətbuatında bu barədə onlarca sanballı elmi məqalələr dərc etdirmişdir.

Ş.Salmanov Azərbaycan ədəbi tənqidində sərbəst şeirin tarixi və nəzəriyyəsi ilə ən çox və ardıcıl məşğul olan bir tədqiqatçıdır. O, sərbəst şeirimizin ilk və ən gözəl nümunələrini yaradan M.Rəfili, R.Rza, M.Müşfiq haqqında dəyərli və qiymətli məqalələr yazmış, müxtəlif illərdə sərbəst şeirə qarşı yönələn total və ifrat hücumlara tənqidçi vaxtında layiqli cavablar vermiş və ədəbiyyatımızda bu yeni meyilin daha da qüvvətləndirilməsinə xidmət etmişdir. Şirindil Alışanlı Ş.Salmanovun elmi irsində poeziya janrının tədqiqat yönləri haqqında yazır: *“Poeziya ilə əlaqədar məqalələrdə tənqidçini bu janrın məzmun və sənətkarlıq etibarilə inkişafını şərtləndirən cəhətlər düşündürür. M.Müşfiq, R.Rza, Ə.Kürçaylı haqqında məqalələrdə də bu şairlərin ümumi yaradıcılıq yolu təhlil predmeti kimi götürülmür. Müəllifi hər üç şairin poetik axtarışları, bu axtarışları reallaşdıran mövzu və janr təzəliyi düşündürür. Belə təhlil üsulu ümumən poeziyanın daxili təkamülü haqqında müəyyən qənaətə gəlməyə imkan verir. Təsadüfi deyil ki, tənqidçi çoxmüxtəlifli müasir şerimizin elə nümayəndələrinin yaradıcılığına müraciət edir ki, onlarda həyatı dərk və ifadə etməyin orijinallığını şərtləndirən yeni düşüncə tərzi üstünlük təşkil edir”* [3, s. 270-271].

Şamil Salmanov yaradıcılığı boyu ədəbi-estetik problemlərə, ədəbi prosesdə aparıcı istiqamət təşkil edən ideyalara xüsusi həssaslıqla yanaşmışdır. O, sənətkarın böyüklüyünü yalnız qələmə aldığı mövzunun aktuallığı və müasirliyi ilə deyil,

başlıcası onun bu mövzuda dövrün ruhunu və həyat həqiqətlərini, fəlsəfi-estetik və əxlaqi-etik mahiyyətini necə əks etdirməsində görürdü. Klassiklərimiz və müasirlərimiz haqqında, tənqidçi və ədəbiyyatşünaslarımız barədə əsərlərində, eləcə də müsahibə və çıxışlarında, yazdığı məqalələrdə bu cəhət qabarıq şəkildə nəzərə çarpır. Hətta onun ayrı-ayrı sənətkarların, ədəbiyyatşünas-alimlərin haqqında qələmə aldığı yubiley məqalələrində belə (onların sayı 20-dən çoxdur – R.Z.) Ş.Salmanov öz ənənəsinə sadiq qalır, ədəbi proseslə sosial həyat, yazıçı ilə oxucu arasındakı əlaqəni möhkəmləndirmək üçün ədəbi-estetik ideyaların carçısı kimi çıxış edirdi.

Elmi-texniki tərəqqinin surətlə inkişaf etdiyi bir dövrdə bəzi ənənəvi mövzuların, klassik janrların köhnəldiyini, müasir oxucunun estetik zövqünü oxşaya bilmədiyini iddia edənlərə qarşı çıxan tənqidçi qeyd edirdi ki, şair hansı mövzuda, hansı janrda yazırsa yazsın, özünün poetik nəfəsini ifadə etməlidir. Tənqidçinin "Vahid qəzəli" (2003) adlı məqaləsi bu baxımdan səciyyəvi məqamlarla zəngindir.

Məlumdur ki, XX əsrdə bir çox sənətkarlar qəzəl janrında yazıb-yaratsalar da, bu janrın ustadı Əliağa Vahid olmuşdur. Ş.Salmanova görə, Ə.Vahid qəzəl janrında özünü tapmış və təsdiq etmişdir. Bu, onun ədəbi nailiyyətlərinin başlıca meyarı olmuşdur. Başqa sözlə, Vahidin yaşayıb-yaratdığı dövrdə bir sıra sənətkarlarımız insanın daxili aləmini, onun fərdi yaşantılarını müxtəlif səpkili mövzularda, rəngarəng ədəbi formalarda əks etdirməyə müvəffəq olmuşlar. Ə.Vahid isə bu işi yalnız bir janrın çərçivəsində: qəzəl janrında ifadə etmiş, qəzəlin spesifik xüsusiyyətlərini qoruyaraq, onun ənənəvi predmetini – məhəbbətin gözəlliyini ədəbi-estetik ideala çevirə bilmişdi. Şairin qəzəllərindəki müasirlik anlayışına bu aspektdən yanaşan Ş.Salmanov doğru olaraq qeyd edirdi ki, Füzuli poeziyasında olduğu kimi, Ə.Vahidin də yaradıcılığında qəzəl həm onu yazanın, həm də oxucusunun müdrikliyini nümayiş etdirir. Qeyd etmək lazımdır ki, bu tezislə Ş.Salmanov həm də tənqidçi müdrikliyini ortaya qoymuş olur, sosial mühitdə ədəbi şəxsiyyəti kommunist ideologiyası meyarları, sosialist realizmi prinsipləri ilə qiymətləndirənlərə qarşı çıxırdı: *"Vahid XX əsrdə, qəzəl üçün münasib olmayan bir ədəbi-tarixi məqamda bu*

*qədim janrı qorumuş, onun ənənəsinə sədaqətli qalaraq janrın estetikasını, fəlsəfəsini və poetikasını hifz və inkişaf etdirmişdir"* [75, s. 303].

Fikrimizcə, Şamil Salmanov müstəqil dövlətimizin humanitar siyasətinin həyata keçirilməsində, filoloji fikrimizin səviyyəsinin yüksəldilməsində yorulmaq bilmədən çalışıb, ədəbiyyatşünaslığımızın və ədəbi tənqidimizin, ədəbi-bədii fikrimizin keşiyində ləyaqətlə dayanıb və bunu elmi fəaliyyətinin aparıcı xəttinə çevirməyə nail olub.

Ədəbi tənqiddə əsası qoyulan yeni düşüncə, yeni təfəkkür tipi 1970-ci illərdə daha da gücləndi. Artıq ədəbi tənqid ədəbi prosesə daha fəal qoşulur, daha güclü mövqe nümayiş etdirirdi. Sov. İKP MK-nın "Ədəbi-bədii tənqid haqqında" 1972-ci il qərarı isə tənqidin mövqelərini bir qədər də möhkəmləndirdi. Artıq yazıçıların əsərləri ilə yanaşı tənqidçilərin də ədəbi topluları nəşr olunmağa başladı. Şamil Salmanov bu illərin tənqidinə də maraqlı münasibət bildirmişdir. O hesab edirdi ki, gələcəyə hərəkət etmək üçün keçmişin təcrübəsinin ciddi təhlili vacibdir. Lakin bununla belə tənqidin əsas işinin bu günün ədəbiyyatı ilə, ədəbi proseslə bağlı olduğunu qeyd edirdi.

Şamil Salmanov doğru olaraq bu qənaətə gəlir ki, 1970-1980-ci illərin sosialist realizmini artıq 1930-1950-ci illərin sosialist realizmi kimi dərk etmək və ədəbi prosesə bu mövqedən yanaşmaq qətiyyən düzgün deyildir. Şübhəsiz, bu tənqidin fəaliyyətinə də təsir göstərirdi. Nizami Cəfərov "Ədəbi tənqid: missiya, yoxsa emosiya?" adlı məqaləsində yazır: *"...sovet dövrünün (və sosializm realizmi nəzəriyyə-ideologiyasının) hələ davam etməsinə rəğmən 60-cı illərdən etibarən sovet ədəbi tənqidi özünün 30-40 illik "nüfuz"unu sürətlə itirməyə başladı. Həmin illərdə (60-cı illərdə) "yeni ədəbiyyat" təşəkkül tapırdı... O ədəbiyyat ki, tədricən əvvəlki onillərin ədəbiyyatının "kommunist sxolastikası"na, "fundamentalizm"inə, "pafos"una qarşı çıxaraq insanı insana qarşı qoyan "sinfi mübarizə"dən deyil, insanı insan edən dəyərlərdən danışmağa başladı..."* [11, s. 329]. Ədəbi prosesin ədəbi tənqidi qabaqladığı, onun "qarşısında hesabat verməkdən" boyun qaçırdığı bir zamanda Ş.Salmanov ədəbi tənqidə gəlmiş, tənqidçi nüfuzu qazanmışdır. Ədəbi

proses və ədəbi tənqid əlaqələrinin çarpazlaşan xətt üzrə davam edən münasibətində Ş.Salmanov yeni tənqid mövqeyindən çıxış edirdi. Belə ki, o, əvvəlki tənqidçilər kimi yazıçını öz qarşısına "məhkəmə"yə dəvət etmir, ədəbi-tənqidi mülahizələrində mühakimələrə yox, analizlərə üstünlük verirdi.

N.Cəfərovun keçən əsrin 60-70-ci illər ədəbi tənqidi haqqında "nüfuz"unu sürətlə itirməyə başladı" fikri heç də ədəbi tənqidin zəifləməsi anlamında işlənməmişdir. Bu fikir ədəbi prosesin üzərində "Damokl qılıncı" kimi asılıb duran sərt sovet tənqidi strategiyasından vaz keçilməsini və dəbin prosesin ədəbi tənqid reseptləri ilə deyil, öz təbii qanunauyğunluqları ilə inkişaf etdiyini ifadə edir. Çünki ədəbi prosesin hərəkətə keçdiyi bir dönəmdə ədəbi tənqid zəifləyə, hərəkətsizliyə keçə bilməzdi. *"...zəif, ölgün ədəbi prosesin ədəbi tənqidi fikrin elmi-nəzəri səviyyə və yeni prinsipial təhlil və yanaşmalara yiyələnməsinə stimul yaratması həmişə şübhə altındadır. Ədəbi prosesdə yaranan yeni meyillər, mövzu, ideya və sənətkarlıq axtarışları bir qayda olaraq ədəbi tənqidi fikri hərəkətə gətirən, bu yenilikləri dəyər və qiymətləndirməyə sövq edən başlıca aparıcı amillərdəndir"* [19, s. 316-317]. Bu mənada keçən əsrin ikinci yarısında milli ədəbi prosesdə N.Cəfərovun dediyi kimi "yeni ədəbiyyat" təşəkkül tapırdısa, yeni ədəbi tənqid də qanunauyğun bir hadisə kimi yaranmalıydı. Ş.Salmanov məhz bu onilliklərin yeni ədəbi tənqid cəbhəsini yaradanlardan idi. Bir tənqidçi kimi o, həmişə qabaqcıl ictimai rəyə əsaslanır, standart ölçü və meyarlardan kənara çıxır, yeni meyil və istiqamətləri müdafiə edirdi.

Şamil Salmanovun ədəbi proses haqqında öz bitkin fikri və mükəmməl ədəbi konsepsiyası mövcud idi. Eyni zamanda, daim ədəbi meyar axtarışlarını davam etdirirdi. Onun düşüncəsi dinamik, mütəhərrik olduğuna görə ədəbi əsərlərin, elmi təfəkkür tipinin dəyərləndirilməsində düzgün mövqedə dayanırdı. O, Bəkir Nəbiyevin ədəbi prosesdəki rolu və mövqeyinə də bu prizmadan yanaşır, "Tənqidçi və ədəbi proses" monoqrafiyasında akademikin tənqidçi obrazını yaratmaqla yanaşı, bütöv bir ədəbi mərhələnin bədii, elmi yaradıcılıq axtarışlarına sağlam mövqedən dəyərləndirməyə imkan tapırdı.

Milli tənqid tariximizin yaranması və təşəkkülünü sistemli şəkildə Ş.Salmanov tədqiqata gətirmişdir. O, 1998-ci ildə "Müasir Azərbaycan ədəbi tənqidinin təşəkkülü və inkişaf meyilləri" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. Dissertasiya işinin əsasında bir monoqrafiya çapa hazırlasa da, kitabın nəşrini görmək ona qismət olmamışdır. Monoqrafiya alimin təxminən 50 illik ədəbi-nəzəri fəaliyyətinin yekunu kimi qiymətləndirilməlidir. Ədəbi prosesi cəmiyyətin ictimai-siyasi həyatının bir hissəsi kimi dərk edən tənqidçi onun müxtəlif mərhələlərini geniş aspektdə tədqiqata gətirmiş, müasir ədəbi-estetik dəyərlərə söykənərək, ədəbi tənqid elmi tarixini yaratmışdır.

Tənqid və müasir ədəbiyyat, tənqid və klassik ədəbi irs kimi ədəbi problemlər haqqında Şamil Salmanov demək olar ki, bütün məqalə və monoqrafiyalarında fundamental fikirlər səsləndirib, orijinal mühakimələr yürüdüb. Bu da təsadüfi deyil. Ona görə ki, tənqidin əsas funksiyası müasir ədəbi prosesi izah və təhlil etməklə yanaşı, klassik ədəbiyyatın tədqiqində ədəbiyyatşünaslığı metodoloji baza ilə təmin etməkdir. Şamil Salmanov belə fikirləşirdi ki, ədəbi tənqid ilk növbədə cari ədəbiyyatın, onun hadisə və meyillərinin inkişaf qanunauyğunluqlarının təhlili və qiymətləndirilməsində əsaslı rol oynayır. O, problemə bu istiqamətdən yanaşır, tənqid və ədəbiyyatşünaslığın fərqini izah etməyə çalışırdı. Fərqi izah etmək üçün Avropa ədəbiyyatşünaslığına müraciət edir, "ədəbi tənqid" anlayışının ifadə etdiyi məna üzərində dayanırdı. Belə ki, İngiltərədə, Amerikada "ədəbi tənqid" anlayışı geniş mənada işlənir, bizdə isə müasir ədəbiyyatı öyrənən estetik fikir kimi qəbul olunur.

Bu da ədəbi tənqidin ədəbi prosesə fəal qoşulduğu 1920-30-cu illər ədəbi prosesi ilə əlaqədar olub. Çünki tənqid bu dövrdə marksist dünyagörüşünün müasir ədəbiyyata tətbiq olunması ilə daha çox məşğul olduğundan, Avropa və Amerikada olan ədəbi nəzəriyyə funksiyasına vaxt ayıra bilməmişdir. Sonrakı dövrlərdə də ədəbi tənqid ilk təşəkkül mərhələsindəki ənənələrini davam etdirməyə üstünlük verərək ədəbi nəzəriyyəni özündə təmsil edə bilməmişdir.

1920-30-cu illərin ədəbi tənqidini Ş.Salmanov yüksək qiymətləndirirdi. O, qeyd olunan dövrün ədəbi tənqidinin başlıca cəhətlərini ümumiləşdirərək, belə

nəticəyə gəlirdi ki, 1920-ci illərdən etibarən ədəbi tənqiddə əmələ gələn canlanma, fikir mübadilələri, yeni ədəbi-bədii materialların xüsusiyyətlərinin tədqiqi, yeniliyin dərkinə can atmaq əslində bu istiqamətdə göstərilən səylərin təsdiqidir.

Azərbaycan ədəbi tənqidinin nəzəri və metodoloji problemləri, müxtəlif siyasi-ideoloji şəraitdə onun elmi bazasının formalaşdırılması Şamil Salmanovun diqqətindən yayınmırdı. Şübhəsiz ki, bu problem M.Arif, M.Hüseyn, M.C.Cəfərov, K.Talıbzadə, Y.Qarayev, S.Əsədullayev kimi tənqidçilərin əsərlərində geniş aspektdə öyrənilib. Tənqidçilərimiz hətta ittifaq miqyasında bu sahədəki elmi müzakirələrdə fəal iştirak ediblər. Xüsusən, Seyfulla Əsədullayev Elçinin ədəbi tənqidin və müasir ədəbi prosesin vəziyyəti ilə bağlı fikir və mülahizələrini şərh etmiş, 1980-ci illərdə ittifaq miqyasındakı görüş və tədbirlərdə mühazirələr oxumuş, məqalələr çap etdirmiş, bütün bu materialları kitablarında yerləşdirmişdir. Burada o, tənqidin mahiyyəti, funksiyası, bədii ədəbiyyat, incəsənət və ədəbiyyatşünaslıq sistemində onun yeri və mövqeyi haqqında qiymətli fikir və mülahizələr səsləndirmişdir.

Azərbaycan ədəbi tənqidinin tarixi və müasir vəziyyəti Şamil Salmanovun da tədqiqat sahəsinə daxil idi. "Müasirlik mövqeyindən", "Azərbaycan sovet şeirinin ənənə və novatorluq problemi", "Poeziya və tənqid", "Akademik Kamal Talıbzadə" əsərlərində Azərbaycan ədəbi tənqidinin metodologiyası problemindən, təşəkkül və inkişaf mərhələlərindən geniş şəkildə bəhs olunur. Bu əsərlər Azərbaycan ədəbi tənqidinin nəzəri-metodoloji cəhətdən zənginləşməsi və təkmilləşməsinə imkan yaratmışdır. Tənqidimizin metodoloji axtarışlarında qarşıya çıxan çətinlikləri də Şamil Salmanovun diqqətindən yayınmırdı: *"Azərbaycan ədəbi prosesində ədəbiyyatımızın metodunun necə inkişaf etməsi, zənginləşməsi, onun yeni meyilləri, ideya-estetik konsepsiyaları haqqındakı təsəvvürlərimiz çox məhduddur. Belə məsələlərin işıqlandırılmasının müasir tənqidimizi hələ az düşündürməsinə təəssüflənməmək olmur. Halbuki, ədəbiyyatımızın müasir inkişafı üçün bu məsələlərin xüsusi tədqiq olunmasının əhəmiyyəti böyükdür. Tənqid üçün birinci dərəcəli problemlər cərgəsində xəlqilik, partiyalılıq, müasirlik, tarixilik və s. bu kimi gündəlik*

*tənqidi praktikamızda tez-tez müraciət etdiyimiz kateqoriyaların tədqiq olunmasının da faydasını ayrıca izah etməyə ehtiyac yoxdur"* [104, s. 168-169].

Şamil Salmanova görə hər bir ədəbi mərhələdə milli tənqiddə keyfiyyət dəyişmələri baş verməlidir. Çünki tənqidin təbiəti dinamikliyə meyillidir, daim axtarışdadır və metodoloji bazasını yüksəltməkdədir. Keyfiyyət dəyişmələri üçün isə, birinci növbədə, təhlil mədəniyyətini yüksəltmək vacibdir.

Tənqid konkret əsərlərin təhlilində fəlsəfi, estetik başlanğıcdan faydalanmalı, zamanın sosial və fəlsəfi axtarışlarını özündə ehtiva etməlidir. Ancaq bu halda tənqidin ictimai-sosial mahiyyəti üzə çıxa bilər.

Şamil Salmanov M.Arif, K.Talıbzadə, Y.Qarayev, B.Nəbiyev, B.Vahabzadə, Mir Cəlal, R.Rza və başqa ədəbiyyatşünas-alimlərin, şair və yazıçıların yaradıcılıqlarını elmi ümumiləşdirmələr, nəzəri müddəalarla təhlil edir, qənaətlərini konkretləşdirirdi. Həcmcə qısa və yığcam məqalələrində də Ş.Salmanov tənqidçilik prinsiplərinə və meyarlarına sadiq qalırdı. "Tənqidin və tədqiqatın birliyi" (1995) adlı üç səhifəlik yığcam məqaləsində o, akademik K.Talıbzadənin Azərbaycan milli tənqid tarixinin və nəzəriyyəsinin tədqiqi sahəsində apardığı araşdırmaları sərrast və konkret tezislərlə səciyyələndirirdi. Həmin məqalədə o qeyd edirdi ki, tənqidi tədqiqat obyektinə çevirmək dövrün ictimai-mədəni fikir tarixini, milli təfəkkür tarixini tədqiq etmək deməkdir. Bu baxımdan belə bir nəcib fəaliyyəti ilə K.Talıbzadə tənqidçi özünəməxsusluğunu qoruya bilmişdir.

Ümumiyyətlə, tənqid tarixinin ədəbi-estetik meyarlarını müəyyənləşdirərkən Şamil Salmanov bu tarixin özündən çıxış etməyi düzgün metod hesab edirdi.

Professional ədəbi tənqid ədəbi irsin dəyərləndirilməsində həmişə, bir qayda olaraq, yüksək ədəbi-estetik meyarlardan çıxış edir. Əsərin sənətkarlıq tərəfləri, ideya, məzmun, dil və üslub xüsusiyyətləri tənqiddə qiymətini alır. Yazıçı əsərində yüksək bədii meyarlarından çıxış edir, tənqidçi isə yazıçı ideyasına öz tənqid idealından yanaşır, onu tənqidçi idealı ilə birləşdirir.

## 2.2. Tənqidçi üslubunun fərdiliyi

Tənqidçi şəxsiyyəti birbaşa ədəbi proseslə bağlıdır. Ədəbi proses çoxşaxəli, mürəkkəb, ziddiyyətli bir yaradıcılıq prosesidir. Həmin prosesdə yazıçı üslubu, tənqidçi şəxsiyyəti, ictimai mühit, bədii qəhrəman problemi, ictimai-ədəbi və sosial şərait tənqidçi mövqeyi ilə qovuşur, vəhdət təşkil edir. Ədəbi-bədii prosesin öz qanunauyğunluqları, bir sıra spesifik xüsusiyyətləri var. Onu nizamlamaq, sistemləşdirmək, ədəbi təcrübədəki müsbət meyilləri üzə çıxarmaq, yaradıcılıq axtarışlarını ümumiləşdirmək vacib və zəruridir. Bu ədəbi-tarixi prosesin öndə gedəni, yol göstərəni, şübhəsiz, ədəbi tənqidçidir. Tənqidçi şəxsiyyəti, nüfuzu ədəbi prosesdə mühüm amil kimi çıxış edir. Ədəbi tənqid və ədəbiyyatşünaslığımızda kifayət qədər yaradıcı şəxsiyyətlər var ki, xalqımızın ədəbi düşüncəsinin elmi dərkində müstəsna xidmətlər göstəriblər. A.S.Puşkin yaradıcılığını Belinskisiz təsəvvür etmək mümkün olmadığı kimi, S.Vurğun, C.Cabbarlı yaradıcılığını Məmməd Arifsiz, Hüseyn Cavid yaradıcılığını Məsud Əlioğlusuz təsəvvür etmək mümkün deyil. Bütün bunlar söyləməyə imkan verir ki, bədii yaradıcılığın tənqidçinin obyektivliyinə, prinsipiallığına ehtiyacı var.

Şamil Salmanovun "Tənqidçi və ədəbi proses (akademik Bəkir Nəbiyevin ədəbi-elmi fəaliyyəti və tənqidi görüşləri)" monoqrafiyası Bəkir Nəbiyevin elmi-ədəbi və tənqidi irsini üzə çıxarmağa, sistemləşdirməyə xidmət edən sanballı bir araşdırmadır.

Keçən əsrin 60-cı illərində yenilənən tənqid cəbhəsini yaradanlardan biri də B.Nəbiyev idi. Yeni tənqidin strategiyasını açmaq üçün onun tənqidçilik fəaliyyətinin öyrənilməsi açar vasitələrdən biri idi ki, Ş.Salmanov "Tənqidçi və ədəbi proses" adlı tədqiqatında məhz bu işi görmüşdür. *"B.Nəbiyev tənqidi fikri əhəmiyyətli dərəcədə ədəbiyyatın yeni yaradıcılıq xüsusiyyətlərinə və imkanlarına yönəldir, ədəbiyyatın daxili, mənəvi qüvvəsinə, fikri-emosional və psixoloji qatlarına, müasirliyə, müasir insana doğru istiqamətləndirirdi"* [113, s. 101].

Bizim fikrimizcə, bu əsər Bəkir Nəbiyevin elmi-ədəbi irsini əhatə edən fundamental bir tədqiqat əsəridir. Düzdür, indiyə qədər B.Nəbiyevin həyat və

yaradıcılığı ilə bağlı xeyli sayda monoqrafiyalar, məqalələr yazılıb. Onların hər biri bu gün üçün aktual və gərəklidir. Diqqət etsək görərik ki, bu əsərlərdə Bəkir Nəbiyevin yaradıcılığının müxtəlif aspektləri təhlil olunub. Şamil Salmanovun bu monoqrafiyası isə birbaşa ədəbi proseslə bağlıdır, tənqidçinin ədəbi proses daxilindəki fəaliyyətini aydınlaşdırmağa xidmət edir.

Şamil Salmanov mətbuat materiallarına əsaslanaraq, belə nəticəyə gəlir ki, B.Nəbiyev elmi-ədəbi fəaliyyətə 1954-1958-ci illərdən başlayıb. İlk elmi yaradıcılıq nümunələri olan bu məqalələrində O.Sarıvəllinin "Ana", M.Gülgünün "Yadigar ürək", N.Gəncəlinin "Könüllər açılanda" poemaları təhlil olunub. Alimin tələbəlik illərində dərc olunan bu məqalələrini Ş.Salmanov professional, yetkin məqalələr hesab etmir. Lakin bir məsələyə diqqəti cəlb edir ki, bu əsərlər nəzəri-estetik fikrin təcrübəsindən faydalanmaqla, daxili bir ehtiras və ilhamla elmi təhlilə cəlb olunan araşdırmanın nəticəsi kimi meydana çıxmışdı. Ş.Salmanovun qeyd etdiyi bu keyfiyyətlər Bəkir Nəbiyevin tənqidçilik və ədəbiyyatşünaslıq fəaliyyətində öz təsdiqini tapdı.

Bundan sonra B.Nəbiyev 1950-ci illərdə ədəbi tənqidə gələn şəxsiyyətlərin haqqında, o dövrün ictimai-ədəbi mühiti ilə bağlı konkret fikirlər səsləndirmiş, bu dövrdə də tənqiddə ədəbi prosesin marksist-leninçi təhlili əsas prinsip kimi götürüldüyünün fərqində olmuşdur. Bu təsir B.Nəbiyevin 1950-ci illərdəki ədəbi-elmi fəaliyyətində özünü göstərirdi. Bəzən tənqidçi öz əsərində mövzu və ideyanı müəyyən etməklə kifayətlənir, ehkam və yasaqlardan uzaqlaşmağa çətinlik çəkirdi. Şamil Salmanov buna iradlarını bildirməklə yanaşı, əlavə edirdi ki, *"Realist və demokratik tənqidin, estetik fikrin ənənə və dəyərlərinin varisi kimi çıxış edən sovet tənqidinin də özünəməxsus dəyərləri vardır ki, tənqid tariximizi, yaxud bu dövrlərdə fəaliyyət göstərmiş hər hansı tənqidçinin yaradıcılığını, görüşlərini tədqiq edərkən bu dəyərləri mütləq nəzərə almaq və qiymətləndirmək lazımdır"* [113, s. 24].

"Tənqidçi və ədəbi proses" monoqrafiyasında B.Nəbiyevin tənqidin yüksək vəzifələrinə və prinsiplərinə necə yanaşması ədəbi-tarixi və nəzəri planda tədqiqata gətirilib. Araşdırmadan məlum olur ki, o ancaq bədii əsərlərin müsbət cəhətlərini

göstərməklə kifayətlənmir, ədəbi prosesə tənqidi münasibət bəsləyir, mənfi cəhətləri, nöqsanları da aradan qaldırmağın yollarını müəyyənləşdirirdi. Ancaq bu da hələ ədəbi tənqidin öz missiyasını ləyaqətlə yerinə yetirməsi demək deyil. Ola bilsin ki, ədəbiyyat, bədii proses siyasi-ideoloji mahiyyət daşısın, hansısa bir siyasi cəmiyyətin mənafeyinə xidmət etsin. Tənqid isə bütün mənafelərin siyasi hadisələrin fövqündə dayanmalı, ancaq ədəbi siyasətə tərəfkeş olmalıdır. Rahid Ulusel bu cəhətdən doğru qeyd edir: *"Tənqid, çağının ədəbi ideologiyasını yaradaraq, həmin ictimai maraq sferasında yer tuta, ona təsir edə və onun dinamikasını təmin edə bilər. Fəqət tənqid hazırkı durumunda göstərilən funksiyalarının heç birini sanballı səviyyədə yerinə yetirə bilmir. Müəyyən istisnaları nəzərə almaqla demək olar ki, o, sadəcə olaraq, özünün yayğın, tərəddüdlü, oturuşmamış mövqeyində "tənqid" rolunu imitasiya edir. Sanki bu tənqid üçün bütöv Azərbaycan ədəbiyyatı, ədəbi proses, onun dinamikası yox, ayrı-ayrı görüntüləri var. Tənqidinsə başlıca vəzifəsi, öncə qeyd etdiyimiz kimi, ədəbi prosesi - ədəbi orqanizmə çevirməkdən ibarətdir. Bu - o demək deyil ki, ədəbiyyat və onun inkişafı tənqid vasitəsilə qəlibləşdirilir, o deməkdir ki, onun hətta ziddiyyət təşkil edən, müstəviləşməyən tərəflərinin harmoniyası, uyarlığı tapılır, strukturu, morfologiyası müəyyənləşdirilir..."* [132, s. 140]. Rahid Uluselin burada qeyd etdikləri bütövlükdə sovet ədəbi tənqidinə, o cümlədən B.Nəbiyevin tənqid irsinə aid edilə bilər.

Şamil Salmanov yazıçının yaratdıqlarını kompleks şəkildə təhlil etmək və bu yolla onun yaradıcılığına təsir etmək xüsusiyyətlərinin B.Nəbiyevin ədəbi-tənqidi fəaliyyətinin ilk mərhələsi üçün səciyyəvi cəhət olduğunu da unutmur. Fikrini təsdiq etmək üçün həmin illərdə qələmə alınan "Rəsul Rzanın ikicildliyi", "Mir Cəlalın seçilmiş əsərləri", "Şeirimizi günün tələbləri səviyyəsinə qaldıraq" məqalələrini nümunə kimi göstərir. Tənqidçinin qeyd etdiyi kimi, birinci məqalə R.Rzanın 1955-1956-cı illərdə nəşr olunan ikicildliyini əhatə edir. Şairin 25 illik bədii yaradıcılığının yekunu olan bu kitabda R.Rza yaradıcılığının sonradan qüvvətlənəcək, dərinləşəcək yeni meyilləri özünü göstərmişdi ki, Bəkir Nəbiyev bütün bunları tənqidçi fəhmi ilə vaxtında görüb qiymətləndirməyi bacarmışdı. B.Nəbiyevin zəngin və çoxcəhətli

elmi-nəzəri fəaliyyətində bu xüsusiyyətləri həssaslıqla müşahidə edib araşdıran Şamil Salmanov qənaətlərini ümumiləşdirərək, B.Nəbiyevin tənqidçi istedadını bir daha təsdiq edirdi. Professor hələ alimin ilk məqalələrinə münasibət bildirəndə ədəbiyyata, elmə ürəkdən xidmət etməyə gələn istedadlı, bilikli, obyektiv düşüncəli bu gəncin gələcəkdə çox dəyərli elm adamı olacağını xəbər verirdi. Ş.Salmanovun fikrincə, akademikin hələ gənc yaşlarında ədəbiyyatın inkişafını izləməsi, vaxtlı-vaxtında münasibət bildirməsi onun professional vərdişlərinin mükəmməl şəkildə formalaşdığının göstəricisidir.

Monoqrafiyadan məlumdur ki, B.Nəbiyevin ilk irihəcmli elmi işi professional ədəbiyyatşünaslığımızın banisi F.Köçərlinin həyat və yaradıcılığına həsr olunub. Belə ki, B.Nəbiyev bu mövzuya müraciət etməklə, ilk ədəbiyyatşünaslıq ənənələrimizi öyrənməyə çalışmış, bu sahədə isə F.Köçərlinin ədəbi irsi müstəsna mövqedə olduğunu bildirmişdir: *"Həm ədəbiyyat, həm mənəviyyat, həm də ədəbi-nəzəri fikir tariximizin formalaşmasında F.Köçərlinin müstəsna xidmətləri olmuşdur. İlk dəfə olaraq o, xalqın diqqətini öz mənəviyyat, ədəbiyyat tarixinin üstünə yönəltmiş, millətin özünü özünə tanıtmaq cəhdi göstərmişdir"* [137, s. 177]. Şamil Salmanova görə Bəkir Nəbiyevin xidmətləri bir də ona görə yüksək qiymətləndirilir ki, hələ XX əsrin 60-cı illərinə qədər də F.Köçərlinin ictimai-ədəbi fəaliyyəti kifayət qədər öyrənilməmiş, ədəbiyyatşünaslıq irsi tədqiqatdan kənarda qalmışdı. Çünki ədibin topladığı ədəbiyyat tarixi materialları, özünün təhlilləri marksist metodologiyaya uyğun deyildi. Onun "Azərbaycan tatarlarının ədəbiyyatı" əsəri təxminən 1907-1911-ci illərdə yazılmışdı. Burada marksist metodologiya axtarmağın özü belə absurddur. Bütün bunlara baxmayaraq, F.Köçərli irsi məqbul hesab edilmirdi. Düzdür, 1930-cu illərdə M.Quliyev bu əsəri təqdir etmiş, F.Köçərlini əsrin əvvəllərinin yeganə tənqidçisi kimi dəyərləndirmişdir. Lakin bu cür münasibət epizodik xarakter daşıyırdı. Demək olar ki, B.Nəbiyevin "Firidun bəy Köçərli" monoqrafiyası ədibin həyatından və ədəbi irsindən geniş bəhs edən ilk irihəcmli monoqrafiya idi. Ədəbiyyatşünas K.Məmmədov bu monoqrafiyanı yüksək qiymətləndirərək yazırdı: *"F.Köçərlinin ədəbiyyat tariximizdəki mövqeyi də kitabda xüsusi şəkildə təhlil*

*edilmişdir. Müəllif onun ədəbiyyatşünaslıq və ədəbi tənqid sahəsindəki fəaliyyətinin ən qabarıq və səciyyəvi cəhətlərini oxuculara çatdırır. Bu, bir tərəfdən F.Köçərlinin gördüyü vətəndaşlıq işinin mahiyyəti haqqında, digər tərəfdən də ədəbiyyat tariximizin yaradılması yolunda ilk mühüm addımların səmərəsi barədə ciddi təsəvvür yaradır"* [46, s. 6].

"Tənqidçi və ədəbi proses" monoqrafiyasında B.Nəbiyevin bu əsəri bir neçə cəhətdən təqdir olunur. Ona qədər Azərbaycan ədəbiyyatşünaslığında tənqidçi haqqında monoqrafiya mövcud deyildi. 1950-ci illərin axırlarından etibarən bizdə milli tənqidin tarixini yaratmaq kimi çox səmərəli təşəbbüslər meydana çıxdı ki, bu prosesdə Bəkir Nəbiyevin "Firidun bəy Köçərli" monoqrafiyası mühüm rol oynadı. "Tənqidçi və ədəbi proses" monoqrafiyasında bu da xüsusi qeyd olunur ki, F.Köçərlinin həyatını, tənqidçilik və ədəbiyyat tarixçiliyi sahəsindəki fəaliyyətini tədqiq etməklə B.Nəbiyev, ilk növbədə milli ədəbiyyatşünaslığın mənbələrindən, onun əsas ənənələrindən birini tədqiqat predmetinə çevirə bilmişdi.

Şamil Salmanovun monoqrafiyasında B.Nəbiyevin ilk ədəbiyyatşünasımızın ədəbi-tənqidi görüşlərinə münasibəti də xüsusi yer alır. B.Nəbiyev F.Köçərlidən sadəcə olaraq bir ədəbiyyat tarixçisi kimi bəhs etmirdi, həm də dəyərli ziyalımızın tənqid yaradıcılığı ilə maraqlanır, onun ədəbiyyat haqqındakı fikirlərinin bir sistem təşkil etdiyini bildirirdi. Çünki Bəkir Nəbiyev yalnız ədəbiyyat tarixçisi deyildi, hər şeydən əvvəl peşəkar bir tənqidçi, səriştəli ədəbiyyatşünas kimi özünəməxsus elmi üsluba malik idi. Ş.Salmanova görə, bu üslubun aparıcı xəttini çeviklik, müəyyən qədər də tələbkarlıq təşkil edirdi.

Bəkir Nəbiyevin ədəbi tənqidinin müasir ədəbiyyatla, çağdaş ədəbi proseslə sıx əlaqəsini, ədəbiyyatdakı yeni hadisələri və meyarları diqqətlə, səylə izləməsini Şamil Salmanov peşəkarlıq vərdişləri ilə əlaqələndirirdi. Bunu da yüksək dəyərləndirirdi ki, F.Köçərli pedaqoji fəaliyyətində də, ədəbi tənqidi, publisist və ədəbiyyatşünaslıq yönümündəki işlərində də həmişə milli-etnik düşüncədən çıxış edərək, xalqa xidmət etmiş, millətin tərəqqisinə çalışmış, ictimai-mədəni fikrin intibahında xüsusi xidmətlər göstərmişdir. O, F.Köçərlinin "Azərbaycan tatarlarının ədəbiyyatı",

“M.F.Axundov”, “Balalara hədiyyə” əsərləri üzərində dayanaraq, bu əsərləri ilə ədəbiyyatımızın tənqid sahəsini genişləndirdiyini sübut etmişdir.

“Tənqidçi və ədəbi proses” monoqrafiyasının “Ədəbi proses və tənqidçi mövqeyi” fəsli Bəkir Nəbiyevin ədəbi prosesdəki rolu ilə bağlıdır. Burada onun bir tənqidçi və ədəbiyyatşünas kimi fərdi yaradıcılıq manerası, fərdi üslubu tədqiqata cəlb edilir. Burada xüsusi olaraq göstərilir ki, B.Nəbiyev tənqidçi olduğu qədər də ədəbiyyatşünasdır. Bu fikrin ayrıca vurğulanmasının mənası var. Belə ki, ədəbiyyat mütəxəssislərinin demək olar ki, hamısı müəyyən vaxtlarda həm tənqidlə, həm də ədəbiyyat tarixçiliyi ilə məşğul olub. Ancaq onların əksəriyyətinin əsas tədqiqat predmeti bir qayda olaraq ya tənqiddir, ya da ədəbiyyat tarixçiliyi. Bu iki ədəbiyyatşünaslıq sahəsini müvazi şəkildə davam etdirmək hər ədəbiyyatşünasa qismət deyil. B.Nəbiyev isə hər iki sahə ilə eyni səviyyədə, eyni dərəcədə maraqlanıb, qiymətli əsərlər meydana qoyub və özünün zəngin elmi fəaliyyəti ilə tanınıb.

Bəkir Nəbiyev tənqidində müasirlik hissini Şamil Salmanov ayrıca qeyd etməyi lazım bilir. Bu sahədə onu Ə.Nazim, M.Arif, M.Rəfili, M.Cəfər, K.Talıbzadə ənənələrinin davamçısı kimi qəbul edir: *“Həm tənqidçi kimi, həm də ədəbiyyatşünas və tədqiqatçı kimi B.Nəbiyevin ədəbi-estetik təfəkkürünə dərin, üzvi bir müasirlik hissi, müasirlik fəhmi xasdır. Və bunu ilk növbədə B.Nəbiyevin təbiəti etibarilə hər şeydən əvvəl tənqidçi olması, tənqidçi naturası ilə izah etmək istərdik. Tənqid isə, məlumdur ki, ədəbiyyatşünaslığın ədəbiyyat tarixi və ədəbiyyat nəzəriyyəsi ilə bir sırada və eyni səviyyədə üç əsas forma və ya sahəsindən biridir”* [113, s. 48].

Bədii yaradıcılıqda tarixilik prinsipinə əhəmiyyət verdiyi kimi, Bəkir Nəbiyev müasirlik kateqoriyasına da ciddi əməl edirdi. Klassik əsərlərə müraciət edəndə də daim ona müasir gözlə baxır, yeni baxış formalaşdırmağa çalışırdı. Şamil Salmanov “Tənqidçi və ədəbi proses” monoqrafiyasında Bəkir Nəbiyevin “Müasirlik və sənətkarlıq uğrunda” toplusunu geniş təhlil etmiş, toplunu tənqidçinin 1950-ci illərdəki yaradıcılığı ilə müqayisə edərək, burada təhlil səviyyəsinin nəzərə çarpacaq səviyyədə yüksəldiyini etiraf etmişdir. Bunu da əlavə etmişdir ki, toplunun ən mühüm

məziyyəti ədəbi prosesin müasirlik axtarışlarını, daha çox isə müasir mövzu meyillərini izah etməkdən ibarətdir.

Şamil Salmanov bunu da tədqiq edib aydınlaşdırır ki, Bəkir Nəbiyev topluda ədəbi növlərin hamısına – şeirə, nəsrə, dramaturgiyaya eyni səviyyədə müraciət edib, eyni zamanda ədəbi tənqidin mühüm məsələlərinə peşəkar münasibət bildirib.

Topludakı "Poemalarımızın ideya-bədii xüsusiyyətləri" məqaləsini də Şamil Salmanov təqdir edirdi. Belə ki, icmalda 1957-1960-cı illərdə dərc olunan poemalar tədqiqata cəlb olunmuşdur. Tənqidçiyə görə, B.Nəbiyev dərc olunan poemaların mövzu, məzmun və sənətkarlıq keyfiyyətlərini düzgün izah edə bilib, həmin əsərlərin poeziya sahəsindəki mövqeyini müəyyənləşdirib. Bəkir Nəbiyevin ədəbi irsindəki müasirlik hissi kimi vacib tənqid atributunu Şamil Salmanovun düzgün müəyyənləşdirməsini ədəbi tənqidimiz vaxtında görə bilmişdir. Belə ki, elm aləmi Şamil Salmanovun bu kitabını təkcə B.Nəbiyevin elmi fəaliyyətinin yox, eləcə də tənqid tariximizin öyrənilməsi baxımından dəyərli məxəz kimi qiymətləndirmişdilər.

Alim görkəmli Azərbaycan tənqidçisinin zəngin yaradıcılığını bütövlülüyündə və spesifikliyində incələyərək, onun bir tənqidçi və ədəbiyyatşünas kimi fərdi yaradıcılıq xüsusiyyətlərini, tənqid və ədəbiyyatşünaslığın onun fəaliyyətinin üzvi, ayrılmaz hissəsini təşkil etdiyini qeyd edirdi. Onun fikrincə, akademik tənqidçi olduğu qədər həm də ədəbiyyat tarixçisi və nəzəriyyəçisidir. Fikrimizcə, dolğun portretdir. Həm də o mənada diqqətəlayiqdir ki, burada, ümumiyyətlə, tənqidçi fenomeninin əsas cizgiləri, onun şəxsində alimliyin və tənqidçiliyin üzvləşməsi qabarıq cəhətləri ilə Bəkir Nəbiyevin yaradıcı şəxsiyyəti timsalında portretləşdirilmişdir.

Müharibə mövzusu B.Nəbiyevin yaradıcılığında mühüm yer tutur. Bu mövzuda "Böyük Vətən müharibəsi və Azərbaycan ədəbiyyatı", "Süngüyə çevrilmiş qələm" əsərlərini ədəbi ictimaiyyətə təqdim etmişdir. "Böyük Vətən müharibəsi və Azərbaycan ədəbiyyatı" əsəri 25 illik gərgin elmi axtarışların yekunudur. Müəllifin bu əsəri ədəbi ictimaiyyət tərəfindən böyük maraqla qarşılanmış, haqqında müxtəlif qiymətli fikirlər səsləndirilmişdir. Tənqidçi Orucəli Həsənov yazırdı: *"B.Nəbiyev bu*

*kitabı ilə Azərbaycan sovet ədəbiyyatının bütöv bir tarixi dövrünün mənzərəsini yaratmışdır. Doğrudur, ona qədər həmin mövzuda mətbuatda müəyyən ədəbi-tənqidi əsərlər dərc olunmuşdur... Lakin B.Nəbiyevin tədqiqatı əvvəlki ədəbi-nəzəri axtarışların orijinal yekunu və əsaslı inkişafı kimi öz elmi dolğunluğu, əhatəliliyi etibarı ilə diqqəti cəlb edir"* [25, s. 3].

Bütün bu keyfiyyətlərinə görə "Tənqidçi və ədəbi proses" əsərində Şamil Salmanov bildirir ki, müharibə mövzusunda Azərbaycan ədəbiyyatında xeyli əsərlər yazılıb, bu dövrün ədəbiyyatını ədəbi tənqidimiz kifayət qədər işıqlandırıb. Akademik Bəkir Nəbiyevin monoqrafiyasında isə müharibə dövrünün ədəbiyyatı əsas tərəfləri və meyilləri ədəbi prosesin əsas janrları ilə tədqiqata gətirilib. Müharibə dövrü ədəbiyyatı, bu dövrlə bağlı yaranan əsərlərin janrları – poeziya, nəsr, dramaturgiya üzrə hərtərəfli təhlil olunub. Bunun nəticəsidir ki, belə təhlil üsulu problemin qoyuluşunu çətinləşdirmiş, ayrı-ayrı məsələlərin həllində təkrara səbəb olmuşdu. Bu, müharibənin ayrı-ayrı janrlarda bədii təcəssümünün spesifik xüsusiyyətlərini üzə çıxarırdı.

Tənqidçi əvvəlki illərdə də müharibə mövzusunda yazılan əsərlərə toxunub, onların əhəmiyyətinə kölgə salmadan bildirib ki, *"B.Nəbiyevə qədərki tədqiqatlarda müharibə illərinin ədəbiyyatı bütöv bir ədəbi-ictimai proses kimi tədqiq olunmurdu. Ədəbiyyat çoxsaylı motivlərin illüstrasiyası kimi başa düşülürdü və bu şəkildə də təqdim olunurdu. Lakin həqiqətdə isə müharibə və ədəbiyyat problemi çoxlu mənəvi, ümumbəşəri məsələdə (1945-70) ədəbiyyatşünaslığın diqqətindən kənarda qalırdı. B.Nəbiyevin tədqiqatı bu baxımdan əvvəllər həmin mövzuda yazılan əsərlərdən – dissertasiyalardan köklü surətdə seçilirdi. Onu müharibənin bir mövzu olaraq bəşəri, mənəvi tərəfi daha çox maraqlandırırdı ki, bunda da müharibədən sonrakı dövrdə müharibəyə baxışda toplanılan, qazanılan təcrübənin müsbət təsiri açıq hiss olunurdu"* [113, s. 72].

Şamil Salmanovun fikrincə, müharibə və ədəbiyyat mövzusu geniş, çoxşaxəli bir tədqiqat predmetidir. Mövzunu yalnız müharibə dövrü ədəbiyyatı əsasında da ümumiləşdirmək mümkün idi. İlk monoqrafiyalarının biri olan "Süngüyə çevrilmiş

qələm" əsərində B.Nəbiyev bu yolla getmişdi. Ancaq bununla kifayətlənmək artıq mümkün deyildi. Çünki illər keçdikcə, müharibə mövzusuna münasibət yeniləşir, yeni tədqiqatlar, yeni ideyalar meydana çıxırdı. Xüsusən, 1960-cı illərdən etibarən ittifaq ədəbiyyatında da müharibənin tənqiddəki dərki genişlənir, mövzuya yeni nəzərlə yanaşılırdı. Bütün bunlar müharibə mövzusuna müntəzəm olaraq müraciət edən Bəkir Nəbiyevin də qarşısına yeni tədqiqatçılıq vəzifələri çıxarırdı. Şamil Salmanov bütün bunları nəzərə alaraq mövzuya yanaşmada B.Nəbiyevin hansı elmi tədqiqat prizmasından çıxış etməsini xüsusi olaraq diqqətdə saxlamışdır. Bir cəhəti də ayrıca qeyd etmişdir ki, monoqrafiya zəngin ədəbi-tarixi və nəzəri materiallar əsasında yazılıb, kifayət qədər analitik təhlillər və ümumiləşdirmələr aparılıb. İlk olaraq, Bəkir Nəbiyev müharibə dövrü ədəbiyyatını geniş təhlil etmiş, həmin ədəbiyyatın tipoloji xüsusiyyətlərini aşkara çıxarmış, bədii qanunauyğunluqlarını müəyyənləşdirmişdir. Şamil Salmanovun qənaətinə görə müharibə ədəbiyyatı yeni bir mərhələnin başlanğıc nöqtəsi idi. Yeni mərhələ isə yeni yaradıcılıq vəzifələrini meydana çıxarır. O da müsbət bir cəhət idi ki, müəllif dövrün ədəbiyyatın qarşısında qoyduğu vəzifələri sadəcə icra etmir, daha çox bu təxirəsalınmaz vəzifələri həyata keçirərkən söz sənətinin mənimsədiyi mənəvi qüvvəni arayıb üzə çıxarırdı.

"Böyük Vətən müharibəsi və Azərbaycan ədəbiyyatı" monoqrafiyasının təhlilində Şamil Salmanov bir cəhətə də diqqət yetirirdi ki, monoqrafiyada yalnız müharibə dövründə yazılan əsərlər tədqiq olunmurdu, B.Nəbiyev dövrün ədəbi prosesini də sistemləşdirmiş, ümumiləşdirilmiş dərin elmi fikir söyləməyi bacarmışdır. Bu da müharibə dövrü ədəbiyyatının reallıqları ilə bağlı idi. Aydındır ki, müharibə illərində yazılan əsərlərin bəziləri tarixi, bəziləri tarixi-əfsanəvi, bəziləri fantastik və s. mövzularda yazılırdı. Buna görə də B.Nəbiyev müharibə dövrü ədəbiyyatına daha geniş kontekstdə yanaşmış, başqa mövzuda yazılan əsərlərin də icmalını vermişdir.

Ş.Salmanov "Tənqidçi və ədəbi proses" monoqrafiyasında ədəbi proses və tənqidin estetik təbiəti, tənqidin ədəbi prosesdə rolu, tənqidçi şəxsiyyəti və ədəbi proses, estetik meyar və bədii mahiyyət, tənqidin nüfuzu və ədəbiyyatşünaslıq kimi

nəzəri-metodoloji problemləri Bəkir Nəbiyevin elmi-ədəbi irsi kontekstində hərtərəfli tədqiq etmiş, Azərbaycan tənqidinin ədəbi prosesdə rolunu müəyyənləşdirmişdir.

Bundan başqa, Bəkir Nəbiyevin ədəbi prosesdəki rolu əsərdə monoqrafik hüdudlarda araşdırılır, yeni ictimai formasiyaya keçid dövrünün, ziddiyyətli bir epoxanın tənqidi irsi istiqlal məfkurəsi əsasında yeni tədqiqat metodları ilə işıqlandırılır, ədəbi prosesə, bütövlükdə bədii irsə və yaradıcılıq prosesinə siyasiləşmiş bir anlayış kimi, bədii-fəsəfi və poetik-estetik proses kimi yanaşılır, ədəbiyyatın ictimai mahiyyəti-ideyası ilə bərabər, həm də poetik-psixoloji özəlliklər ilə ədəbi tənqidin münasibətləri nəzərdən keçirilir, sənətkar şəxsiyyəti və bədii yaradıcılıq prosesi, eləcə də bədii yaradıcılığın psixologiyası kimi mürəkkəb problemlər ədəbi prosesin təkamülü kontekstində təhlil olunurdu.

Monoqrafiyanın "Tənqidçi mövqeyi" hissəsində Şamil Salmanov Bəkir Nəbiyevdən bir tənqidçi kimi danışıb, onun tənqidçi obrazını tamamlamağa çalışıb. O, çoxcəhətli ədəbiyyatşünaslıq fəaliyyətində Bəkir Nəbiyev yaradıcılığının bir cəhətinə rəğbətini gizlətməyərək, belə qənaətə gəlib ki, alim irihəcmli monoqrafiyalarını yazdığı illərdə belə canlı, cari ədəbi prosesə əlaqəsini kəsməmiş, həmişə müasir ədəbi prosesin mərkəzində dayanmışdır. Bu da təsadüfi deyildi. B.Nəbiyev ömrü boyu cari ədəbi prosesə müntəzəm məşğul olmuş, bir an da olsun belə peşəkar tənqidçi mövqeyindən ayrılmamışdır: *"XX əsr Azərbaycan ədəbiyyatında baş verən bir çox hadisə və proseslərin canlı şahidi və iştirakçısı olan Bəkir müəllim öz taleyi ilə yaşadığı repressiya və ədəbiyyat, müharibə və ədəbiyyat kimi ağrılı mövzulardan da əsil ədəbiyyatşünas həssaslığı ilə söz açmışdır. Monoqrafiya və məqalələrində çağdaş ədəbi həyatın yaradıcılıq problemlərinə diqqət və qayğı ilə yanaşmasının nəticəsidir ki, ədəbiyyatda tarix və müasirlik, roman janrının bu günü və sabahkı taleyi, poeziyamızda sənətkarlıq axtarışları, dramaturgiyamızda milli kimlik probleminin qoyuluşu və s. bu sıradan olan çoxsaylı aktual mövzulardakı nəzəri-estetik dəyərləndirmələri ədəbiyyatımızın və ədəbi tənqidimizin inkişaf dinamikasında hər zaman mühüm rol oynamışdır"* [41, s. 2].

Monoqrafiyanın əvvəlində Şamil Salmanov ədəbi tənqidçi məfhumuna aydınlıq gətirməyə cəhd edir və çox dolğun, məzmunlu fikirlər söyləyir. Müəllifə görə tənqidçi olmaq sözün həqiqi və geniş mənasında mükəmməl bir ixtisas sahibi olmaq deməkdir. Tənqidçi ədəbiyyat tarixini və nəzəriyyəni peşəkar mənimsəməlidir. Ədəbi tənqidin tədqiqat predmeti əsasən cari ədəbi proses olsa da, heç vaxt müasir ədəbiyyatı öyrənməklə kifayətlənmir, ədəbiyyat tarixinin müxtəlif dövrlərinə, ədəbi cərəyanlara, təriqətlərə və s. də öz münasibətini bildirmək imkanına sahibdir. O, öz fikirlərini bu cür izah edir: *"Bu mənada tənqidi, xalis akademik ədəbiyyat tarixçiliyindən fərqləndirən başlıca cəhət tənqidin ədəbiyyatı, ədəbi əsərləri və hadisələri özünəməxsus dərk etməsi və dəyərləndirməsidir. Tənqidi fərqləndirən onun yalnız predmetinin müasir ədəbiyyat olması deyil, ədəbiyyata baxışın, münasibətin müasir olmasıdır"* [54, s. 178].

Göründüyü kimi, müəllif tənqidçinin elmi-ədəbi keyfiyyətləri içərisində onun müasirliyini ön plana çəkir, göstərir ki, tənqidçi klassik ədəbiyyatdan yazanda da heç vaxt müasirlik hissini itirməməlidir. Şamil Salmanov "Tənqidçi və ədəbi proses" monoqrafiyasında Bəkir Nəbiyevin 1960-cı illərdəki ədəbi tənqidi fəaliyyətinin məzmun və sənətkarlıq baxımından daha da gücləndiyi qənaətindədir. Düşünürük ki, bunun obyektiv və subyektiv səbəbləri var. Bədii düşüncədə olduğu kimi ədəbi tənqid və ədəbiyyatşünaslıqda da 1960-cı illərdə müasir düşüncə tərzi əmələ gəlmişdi. Əvvəlki illərə nisbətən sosioloji təhlil az da olsa, mövqeyini zəiflətməyə başlamışdı, sənətkarlıq məsələlərinə, insan mənəviyyatının təhlilinə meyil güclənmişdi.

Şamil Salmanov belə bir fikir bildirir ki, 1970-ci illərdə də Bəkir Nəbiyev milli tənqidin önündə gedirdi, onun səmərəli və geniş fəaliyyəti həmin dövrdə ədəbi tənqid prosesinin özünün yüksək səviyyədə olması ilə bağlı idi. *"Tənqid və ədəbi proses" (1976) kitabında Bəkir Nəbiyevin tənqidçilik fəaliyyətinin bir çox xüsusiyyətlərini müşahidə edirik. Söhbət ədəbiyyatın, mənəviyyatın, ədəbi dəyərlərin taleyindən gedəndə Bəkir Nəbiyev daha həssas, diqqətli və son dərəcə tələbkar olur. Ədəbi prosesi qeyri peşəkar, qeyri obyektiv qiymətdən qorumağa çalışır. Bu cür hallar baş verəndə isə layiqli cavab verir, opponentlərini yerində oturtmağı bacarır"* [51, s. 36].

Tənqidçinin “Akademik Kamal Talıbzadə” monoqrafiyasına da ədəbiyyatşünaslığımızın son nailiyyətləri baxımından yanaşmaq lazımdır. Burada təkcə akademikin elmi-ədəbi fəaliyyətindən bəhs olunmur. Keçən əsrin ilk onilliklərindən bu günə kimi ədəbi tənqid və ədəbiyyatşünaslığımızın keçdiyi inkişaf mərhələləri geniş tədqiqata cəlb edilir. Kitabda akademikin ömür yolu, ədəbiyyatşünaslıq fəaliyyəti, tənqid tariximizin yaradılmasında əvəzolunmaz xidmətləri və onun ədəbi əlaqələrin inkişafında gördüyü işlər müasir ədəbiyyatşünaslığın standartları baxımından izlənilir. Monoqrafiyada Kamal Talıbzadə bir neçə ədəbi nəslin müəllimi, professional tənqidçi kimi təqdim olunur. Onu da qeyd edək ki, K.Talıbzadə özünün tənqidçi olduğunu qəbul etmir və tənqidçi yox, tənqid tarixçisi olduğunu qeyd edirmiş. “Yeni təfəkkür və ədəbi tənqid” kitabında Elnarə Akimovanı da K.Talıbzadənin yox, Ş.Salmanovun mövqeyində görürük: *“Azərbaycan ədəbi tənqidinin tarixi” monoqrafiyası Kamal Talıbzadənin özünü də yalnız ədəbiyyat tarixçisi stixiyası ilə məhdudlaşdırmadı, onun həm də bir tənqidçi kimi formalaşmasına stimul verdi”* [2, s. 191].

Kamal Talıbzadə milli tənqid və ədəbiyyatşünaslıqda bir məktəb yaratmış alimlərimizdəndir. Monoqrafiyada Ş.Salmanov K.Talıbzadənin yetişdiyi ictimai-siyasi və ədəbi mühitə geniş nəzər yetirir, akademikin nəsil şəcərəsi haqqında ətraflı məlumat verir, zəngin arxiv materiallarına istinadən həmin nəslin islam-türk dünyasındakı xidmətlərini üzə çıxarır. K.Talıbzadə yaradıcılığının spesifik cəhətlərini aşkara çıxarmaq üçün müəllif doğru olaraq, A.Şaiq şəxsiyyətini, onun bədii və ədəbi-tənqidi irsini elmi-nəzəri səviyyədə dəyərləndirir və belə qənaətə gəlir ki, bunsuz Kamal Talıbzadənin ədəbi-tənqidi görüşlərini sistemləşdirmək, onun estetik konsepsiyasını müəyyənləşdirmək olmaz.

Monoqrafiyada K.Talıbzadənin “Abbas Səhhət”, “Qorki və Azərbaycan”, “XX əsr Azərbaycan ədəbi tənqidi”, “Azərbaycan ədəbi tənqidinin tarixi” əsərləri haqqında bitkin fikir formalaşdırılır, tədqiqat sferası iki istiqaməti əhatə edir: 1.K.Talıbzadənin ədəbiyyatşünaslıq sahəsindəki fəaliyyəti; 2.Ədəbi tənqidin formalaşmasında K.Talıbzadənin xidmətləri. Hər iki istiqamət “Akademik Kamal

Talıbzadə" monoqrafiyasında diqqətlə tədqiqat predmetinə çevrilir. Professional bir tənqidçi kimi K.Talıbzadənin ədəbi şəxsiyyəti onu daha çox maraqlandırır. Monoqrafiyada Kamal Talıbzadə ədəbi prosesə fəal müdaxilə edən, onun önündə gedən, yaradıcılıq axtarışlarını sistemləşdirən və yüksək elmi-nəzəri səviyyədə ümumiləşdirən, ədəbi tənqidin nəzəriyyəsini yaradan bir ustad, bir elm fədaisi kimi təqdim olunur. Yeri gəlmişkən burada bir cəhətə diqqət yetirməyi lazım bilirik. O da bundan ibarətdir ki, akad. K.Talıbzadə tənqidin başlıca vəzifələrinə xüsusi həssaslıqla yanaşırdı. O, "Tənqidimizin yeni mərhələsi" adlı məqaləsində yazırdı: *"Tənqid ədəbi prosesi təşkil edir, izah edib istiqamətləndirir, xalqın fikri, mənəvi vəziyyətinin ədəbiyyatda necə üzə çıxmasını öyrənir; ədəbiyyatın nailiyyətlərini təbliğ etməklə oxucunun ictimai, bədii şüurunun formalaşmasına təsir göstərir. Bu isə tənqiddən prinsipiallıq, möhkəm, aydın metodologiya, sağlam ideya və elmi mövqe tələb edir"* [128, s. 24].

Şamil Salmanovun uzun illər davam edən zəngin elmi yaradıcılığının arxasında həmişə sabit qalan, monolit özüllü şəxsiyyəti dayanır. Bu amil onun təkcə gündəlik həyatında özünü göstərməklə məhdudlaşmamış, çoxcəhətli və çoxtərəfli ictimai və elmi fəaliyyətinin də mayasına hopmuş, ədəbi fikrimizdəki müstəsna mövqeyini, əxlaqlı qələm sahibi olmasını təmin etmiş, ədəbi dəyərlərə, ədəbi şəxsiyyətlərə münasibətdə obyektiv-tarixi mövqedə dayanmasına şərait yaratmışdır. Klassik ədəbi irsdən, müasir ədəbi prosesdən, tənqid və ədəbiyyatşünaslıq tarixindən yazanda da o, həmişə təmkinli, obyektiv, orijinal ədəbi mövqedə dayanmışdır. Müxtəlif illərdə nəşr olunan "Ədəbiyyatşünaslıq və yeni təfəkkür", "Milli ədəbiyyat tarixi", "Ədəbiyyat nəzəriyyəsi məsələləri", "Ədəbiyyat tariximizə yeni baxış", "XX əsrin sonudur: tənqidçi, nə düşünürsən?...", "Ədəbiyyat tarixi mənəviyyat tarixi kimi" məqalələri ilə o, müstəqillik dövrü tənqid və ədəbiyyatşünaslığımızın metodoloji mövqeyinin müəyyənləşdirilməsində müstəsna xidmətlər göstərmiş, görkəmli tənqidçi və ədəbiyyatşünas obrazını formalaşdırmış, təkcə ədəbi fikrə deyil, həm də ictimai fikrə təsir göstərməyə çalışmışdır.

Çağdaş ədəbi-tarixi prosesin, klassik ədəbi irsin öyrənilməsi, sistemləşdirilməsi, bədii qanunauyğunluğun tarixi təkamülünün izlənilməsi və bu kontekstdə ədəbi-nəzəri kateqoriyalara tarixi baxışın formalaşdırılması milli ədəbiyyatşünaslığın əsas vəzifəsidir. Şamil Salmanovun "Ədəbiyyatşünaslıq və yeni təfəkkür", "Milli ədəbiyyat tarixi", "Ədəbiyyat nəzəriyyəsi məsələləri", "Ədəbiyyat tariximizə yeni baxış" məqalələrində ədəbiyyat tarixçiliyinin müstəqil bir elm kimi yarandığı, ilk təşəkkül mərhələsinə daxil olduğu dövrdən bu günə kimi bədii düşüncənin ədəbi-tarixi istiqaməti, milli təfəkkürün formalaşdırılmasındakı rolu aydınlaşdırılır. Hər bir xalqın ədəbiyyatının, bədii təfəkkürünün, onun milli şüurunun tarixi keçmişindən, müasir vəziyyətindən asılı olduğu müəyyənləşdirilir, ədəbi ənənələrdəki sabitlik, varislik ədəbi-tarixi faktlarla təqdim edilir. Bu mənada bədii yaradıcılığın tarixi mərhələlərini, ədəbi-tarixi nailiyyətlərini üzə çıxaran, sənət dilini elm dilinə çevirən ədəbiyyatşünaslığın xidmətləri də ayrıca olaraq qeyd edilir.

Yeri gəlmişkən qeyd edək ki, ədəbiyyat tarixi təkcə pərakəndə şəkildə səpələnən ayrı-ayrı ədəbi faktlar və elmi-nəzəri ümumiləşdirmələr yığını deyil. Ədəbiyyat tarixi, hər şeydən əvvəl, bədii təfəkkürün tarixi mərhələləri ilə bilavasitə bağlıdır. Milli mədəniyyət və ədəbiyyat tarixi bilavasitə tarixşünaslığın tədqiqatlarından faydalanır. Ayrı-ayrı xalqların keçdiyi tarixi mərhələləri dövrləşdirmədən ədəbiyyat tarixinin mərhələ təsnifatını həyata keçirmək, həmin problemlə bağlı obyektiv-tarixi gerçəkliyi üzə çıxarmaq mümkün deyil.

Azərbaycan ədəbi tənqidinin bir neçə nəsli sovet ədəbi tənqidinin təşəkkülü və inkişafı prosesində fəaliyyət göstərmiş, formalaşmışdır. Şamil Salmanov da bu cür tənqidçilərdən biri idi. O, bir tənqidçi kimi öz vəzifəsini bədii yaradıcılığı normal istiqamətə yönəltməkdə, yazıçıların bədii axtarışlarını vaxtında və obyektiv qiymətləndirməkdə, sənət görüşlərinə təsir etməkdə görürdü. Onun 1960-70-ci illərdə çap olunan elmi məqalələrini nəzərdən keçirdikdə bu cəhət daha aydın nəzərə çarpır. Belə ki, sonrakı onillikdə, 1980-ci illərdə o, tükənməz bir ilham və enerji ilə fəaliyyətini daha da genişləndirdi və öz əsərlərində tənqidin əsas problemlərini –

müasir ədəbiyyatın axtarışlarını və meyillərini təhlil etmək, dəyərləndirmək funksiyasına sadiq qaldı.

Bu prizmadan yanaşanda tənqidçinin "Müasirlik mövqeyindən" (1982) məqalələr toplusunu xüsusi qeyd etməliyik. Kitaba daxil olan bir sıra məqalələrdə, xüsusən, "Ümumsovet ədəbi prosesinin tədqiqi", "Yüksək yazıçılıq borcu", "Roman və müasirlik" məqalələrində nəsrimizdə yeni qəhrəman axtarışlarının ciddi və əhatəli tədqiqi təhlil predmetinə çevrilmişdi. Hər üç məqalədə əsasən, Azərbaycan romanı barədə yazılmış monoqrafik tədqiqatlar yüksək peşəkarlıqla nəzərdən keçirilmiş, roman janrının ideya estetik keyfiyyətləri, mövzu dairəsi, üslub xüsusiyyətləri və s. barədə elmi-nəzəri ümumiləşdirmələr aparılmışdır.

Şamil Salmanov ədəbiyyatşünaslıqda öz izi, orijinal dəst-xətti olan bir alimdir. Nəzəri təfəkkürü, ədəbi faktları ədəbiyyat tarixi predmetinə çevirmək məharəti, analitik təhlilləri və yanaşmaları ilə o, 1960-cı illərin sonu, 1970-ci illərin əvvəllərindən başlayaraq ədəbi fikrimizə yeni nəfəs və yeni elmi ruh gətirdi.

Ş.Salmanov elmi-ədəbi fəaliyyətində yalnız bədii yaradıcılıq məsələləri üzərində deyil, həm də ədəbi tənqid problemləri üzərində araşdırmalar aparmışdır. Bu araşdırmalarda o, tənqidçi fərdiyyətindən çıxış edərək, sovet ədəbi tənqidinin yeni mərhələdə bədii fakta yanaşma, təhlil, analiz üsullarının metodoloji əaslarını aşkarlaya bilmişdir.

Şamil Salmanovun ədəbi tənqidi üslubuna xas olan xüsusiyyətlərdən biri də budur ki, o, ədəbi hadisəyə ayrı-ayrı epizodlar, bədii parçalar əsasında qiymət vermirdi, həmişə mahiyyətdən, yazıçı ideyasından çıxış edirdi. Onun formalaşmış sənət və ədəbiyyat konsepsiyası, ədəbi-estetik zövqü bədii əsərlərin təhlilinə bir sanbal, elmi məzmun gətirirdi. Bədii prosesin estetik dərkinə istiqamətlənən bu ədəbi tənqidi yaradıcılıq üslubu təkcə Şamil Salmanov yaradıcılığında özünü göstərmirdi, eyni zamanda, Yaşar Qarayevin, Məsud Əlioğlunun, Qulu Xəlilovun yaradıcılıqlarında bütövlükdə dövrün ədəbi-estetik fikrinin aparıcı istiqamətinə çevrilmişdi. Ədəbi tənqidi prosesin bu axarında Şamil Salmanovun da özünəməxsus rolu, missiyası böyük idi.

Bəlli bir tarixi yol keçməklə özünəməxsus elmi siması formalaşmış Azərbaycan ədəbi tənqid tarixində Məmməd Arif, Məmməd Cəfər, Əkrəm Cəfər, Seyfulla Əsədullayev, Kamal Talıbzadə, Əziz Mirəhmədov, Bəkir Nəbiyev, Əkbər Ağayev, Asif Əfəndiyev, Qulu Xəlilov, Yaşar Qarayev, Akif Hüseynov, Elçin Əfəndiyev və başqa alimlərlə yanaşı, 1960-90-cı illər mərhələsində öz fərdi tənqidçi üslubu ilə fərqlənən Ş.Salmanov imzası da seçilməkdədir. Ədəbiyyatşünas-tənqidçi qələminə məxsus sadə təhkiyə üsulu ilə, "şair ruhlu tənqidçi" (E.Akimova) kimi də tanınan professor Şamil Salmanov ədəbi tənqidinin janr və mövzu dairəsi genişdir. Bu ifadə heç də təsadüfi səslənməmişdir. Çünki alim yaradıcılığa məhz şeirlə başlamış, onun ilk şeiri "Yeni il" 1954-cü ildə "Azərbaycan pioneri" qəzetində dərc olunmuşdu. Bundan sonra isə 1966-cı ildə onun "Sabahınız xeyir, insanlar" adlı ilk və çox təəssüf ki, son şeirlər kitabı işıq üzü görmüşdür. Alim müasir Azərbaycan ədəbiyyatının müxtəlif nəzəri-metodoloji problemlərini araşdırmış, nəsr, poeziya, dramaturgiya, tənqid və ədəbi proses haqqında ədəbiyyatşünaslıq elmi üçün gərəkli mülahizələr söyləmişdir.

Elmi araşdırmalarında obyektivliyi və prinsipiallığı ilə fəqlənən, tənqidçi və ədəbiyyatşünas təfəkkürü ilə seçilən, yazı üslubunda emosionallıqla elmiliyin vəhdəti müşahidə olunan Şamil Salmanovun ikicildlik "Azərbaycan sovet ədəbiyyatı tarixi" (1967) kitabına yazdığı "Poeziya" fəsli, "Ədəbi proses" kitablarında yer alan "Tənqid və ədəbiyyatşünaslıq", "Poeziya" icmalları, "Azərbaycan sovet şeirinin ənənə və novatorluq problemi (1920-1932-ci illər)" monoqrafiyası (1980), "Müasirlik mövqeyindən" (1982), "Poeziya və ədəbi tənqid" (1987) kitablarındakı məqalələr, portret-oçerklər elmi ictimaiyyət tərəfindən Azərbaycan ədəbi-tənqidi fikrinin, ümumən ədəbiyyatşünaslığımızın nailiyyətləri kimi dəyərləndirilmişdir.

Onu ədəbi tənqidin yalnız tarixi ilə deyil, eyni zamanda nəzəri problemləri ilə məşğul olan ilk alimlərimizdən sayan Arif Səfiyev "Azərbaycan sovet şeirinin ənənə və novatorluq problemi (1920-1932-ci illər)" monoqrafiyası haqqında yazır: *"Əlamətdar məziyyətlərdən biri məhz budur ki, müəllif ənənə və novatorluq problemini tədqiq etdiyi tarixi dövrün poeziyasına tənqidin münasibəti əsasında*

*araşdırsa da, onu bütövlükdə ədəbi prosesin hadisəsi kimi alıb həll etməyə çalışır. Məsələnin bu cür qoyuluşu və həlli, ümumiyyətlə həmin problemin tənqidin materialında araşdırılması ədəbiyyatşünaslığımızda yeni bir tədqiqat ideyası kimi özünü göstərirdi"* [125, s. 5].

Belə nəticəyə gəlmək olar ki, Məmməd Arif və Məmməd Cəfər məktəbinin mənəvi varisi Şamil Salmanov ədəbiyyatşünaslıq tariximizdə elmi araşdırmaları ilə özünəməxsus yeni tədqiqat üsulunu əyaniləşdirmiş, özündən sonrakı alim cığırdaşlarına və xələflərinə də örnək olmaqla yol göstərmişdir.

Şamil Salmanovun mühüm xidmətlərindən biri də Azərbaycan tənqidinin təşəkkül və inkişafında xidmətləri olan İ.Hikmət, Ə.Nazim, H.Zeynallı, M.Quliyev, M.Ələkbərli, M.Arif, M.Rəfili, M.Hüseyn, M.Cəfər, K.Talıbzadə kimi tənqidçilərin yaradıcılıqlarındakı özünəməxsusluqları təhlilə cəlb etməklə ədəbi-tənqidi fikir tariximizdə onların mövqeyini, üslubunu, mövzu dairəsini müəyyənləşdirmiş, bir növ "tənqidin tənqidini" yaratmışdır. Tənqid yaradıcılığında obyektivliyi əsas tutan, tənqidçi əxlaqına malik alim yeri gəldikcə yanlış, birtərəfli fikirlərə elmi-ədəbi faktlara istinad etməklə öz etirazını bildirmiş, qoyulan problemin həlli yolunu göstərmişdir.

Tənqidçi Şamil Salmanov Əli Nazimin "Yeni həyat və yeni ədəbiyyat" (1924) məqaləsində klassik ədəbiyyat, bədii irs haqqında "Əski ədəbiyyatın qayəsi yalnız insanların hissiyyatını qıcıqlandırmaq, onların qəlbində bədii bir həyəcan oyandırmaq idi", "Əski ədəbiyyatda əxlaqdan, həqiqətdən, məntiqdən bəhs olunmurdu" və s. kimi fikirlərinin birtərəfli olmasının xüsusi sübuta ehtiyac olmadığını deyir və tənqidçinin nə üçün bu fikrə gəlmə səbəbini belə izah edir: *"O da budur ki, Ə.Nazimin, o cümlədən 20-ci illərin digər tənqidçilərinin sənətin spesifikası, onun həyati idrak xüsusiyyəti haqqında görüşləri kifayət qədər dərin deyildi. Elə buna görə də onlar bir müddət klassik ədəbiyyatı bir növ fikirsiz ədəbiyyat, ancaq bədii həyəcan oyada bilən sənət adlandırırlar, həyatla əlaqəsi olmadığını zənn edirlər. Yeni ədəbiyyatda isə klassik ədəbiyyat üçün səciyyəvi keyfiyyətlərin olmamasını arzulayırdılar"* [73, s. 47].

Şamil Salmanov göstərir ki, hələ 1920-ci illərin yeni ədəbiyyatı klassik ədəbiyyatdan Əli Nazimin göstərdiyi əlamətlərlə fərqlənmirdi. Öz üzərinə düşən tarixi

vəzifəsini yerinə yetirmiş köhnə ədəbiyyatı cəmiyyəti tərbiyələndirməməkdə, gələcəyə hazırlamamaqda təqsirləndirməyi ədalətsizlik hesab edən tənqidçi alim belə fikirlərə qarşı Azərbaycan xalqının inqilabi şüurunun formalaşmasında Mirzə Ələkbər Sabir poeziyasını arqument göstərir, 1920-ci illər tənqidçilərinin bəzilərini Sabir ədəbi hadisəsinə əhəmiyyət verməməkdə qınayırdı.

Şamil Salmanov Əli Nazimin Fransa inqilabı kimi Böyük Oktyabr inqilabının da ədəbiyyata təsiri məsələsi ilə bağlı mövqeyi, "həyatdakı yenilik ədəbiyyatdakı yeniliyin mənbəyidir" tezisi ilə razılaşdığı halda, "Yeni ədəbiyyat nə deməkdir, onun məqsədi nədən ibarətdir?", "Yeni qollar və təzə axımlar yaratdı" fikirləri ilə tam razılaşmır. Alim haqlı olaraq qeyd edir ki, 1924-cü il üçün bu suallara cavab vermək hələ tez idi. Çünki yeni ədəbiyyatşünaslığın yaranma, təşəkkül prosesi də ədəbiyyatın özü kimi yenicə başlayırdı. Fikrimizcə, Əli Nazimin yeni ədəbiyyatla bağlı fikirlərini bir qədər irəliyə yönəlikli mülahizələr kimi dəyərləndirmək doğru olardı. Elmi ictimaiyyət 1920-ci illərin tənqidçiləri tərəfindən onun "yeni qollar və təzə axımlar yaratdı" fikri "yeni qollar və təzə axımlar yaranacaq" şəklində başa düşülməli idi. *"Yeni dövrün sənət və ədəbiyyat metodunun dialektik materializm olduğunu deyən marksist ideoloqlar keçid mərhələsinin Aprel ədəbiyyatını öz sxematik nəzəriyyələri ilə böhran həddinə çatdırdıqları kimi, klassik irsin öyrənilməsində də sistemli, bitkin və aydın konsepsiya irəli sürə bilmirdi"* [52, s. 66].

Digər bir məsələyə də - Əli Nazimin "Günəşi içirik… günəşlənirik" (1928) məqaləsində "Günəşi içənlərin türküsü" müəllifinin, yəni Nazim Hikmətin türk şeirində yaratdığı dönüşü izah edərkən heca vəzni haqqında səslənən "mürəkkəb fikirləri ifadə etməyə yaramır", "yalnız musiqi aləti oldu", "kədərləri, hıçqırıqları və könül sızıntılarını ifadəyə yarardı", "coşqun hisləri, həyəcanları, dalğalı hücumları ifadə üçün yaramayırdı" kimi birtərəfli fikirlərə də öz alim-tənqidçi münasibətini bildirən Şamil Salmanov məhz bundan sonra ədəbi-ictimai fikirdə sərbəst şeir mübahisələrinin qızışdığını və daha kəskin məcraya yönəldiyini yazırdı.

Qeyd edək ki, Əli Nazimlə razılaşmadığı məqamlara baxmayaraq, Şamil Salmanov onun tənqidçi cəsarətini qiymətləndirir, Mehdi Hüseynin bu istedadlı tənqidçi

haqqında "onun indiyə qədər yazdığı bütün məqalələrini nəzərdən keçirərkən hər birində yeni bir səhv, yeni bir təsir, yeni bir uçurum görəcəyiz" fikri ilə heç cür razılaşmır, qeyd edirdi ki, bu dövrün əsas tənqidçilərinin, o cümlədən Mehdi Hüseynin də məqalələrində müəyyən səhvlərə, mübahisəli fikirlərə rast gəlmək mümkündür. Professorun fikrincə, Ə.Nazim üçün əlamətdar cəhət onun tənqidi məqalələrinin yeni ədəbiyyatın novatorluğu uğrunda mübarizə əhvali-ruhiyyəsi ilə aşılanmasıdır və bu, onun tənqidinin ən müsbət cəhətlərindəndir.

Azərbaycan sovet tənqidinin banilərindən sayılan Məmməd Arifin milli və dünya ədəbiyyatının ən gözəl və qabaqcıl ənənələri əsasında yetişdiyini qeyd edən Şamil Salmanov belə nəticəyə gəlmişdir ki, onun elmi yaradıcılığında Azərbaycan sovet ədəbiyyatşünaslığının bütün əsas istiqamətləri, meyil və problemləri mərkəzləşmişdir. Alim Məmməd Arifin sovet teatr tənqidimizin təşəkkülündə xidmətlərini, 1960-70-ci illər nəsrinin köklü problemlərini qaldırmasını, ədəbiyyatşünaslıq irsində ədəbi əlaqələr, dünya ədəbiyyatı, ədəbiyyat nəzəriyyəsi məsələləri haqqında araşdırmalarını yüksək dəyərləndirir. Məmməd Arifin "Azərbaycan sovet ədəbiyyatının inkişaf yolları", "Azərbaycan ədəbiyyatı tarixi (qısa oçerk)", "Azərbaycan ədəbiyyatı" kimi əsərləri haqqında Şamil Salmanov razılıqla danışırdı. O hesab edirdi ki, M.Arif bu əsərlərində ədəbiyyatımızın bu dövrünün vahid elmi konsepsiyaya əsaslanan dolğun elmi tarixini yaratmağa müvəffəq olmuşdur. Onun 1943-1944-cü illərdə nəşr olunan "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi" əsərinə daxil olan "Sovet ədəbiyyatı" bəhsi bu cəhətdən son dərəcə qiymətli bir tədqiqat əsəri hesab edən alim tənqidçi Məmməd Arifin sonrakı ədəbiyyat tarixi əsərlərinin öz elmi və metodoloji başlanğıcını məhz bu bəhsdən götürməsi fikrində idi.

Şamil Salmanovun elmi-tənqid aparatında Mikayıl Rəfilinin də adı keçir. Tənqidçi alim 1920-ci illər tənqidinin milli bədii irsə məlum yanlış meyillərdə yalnız M.Rəfilinin məzəmmət olunmasına, milli irsə nihilist münasibətə onun şəxsi səhvi kimi baxılmasına təəssüf etmişdir. Yalnız ədəbiyyat deyil, incəsənətin digər sahələrində də milli ənənələrə sərt, nihilist münasibətin olduğunu göstərən Şamil Salmanov M.Quliyevin "Azərbaycan musiqi mədəniyyətinin inkişaf yolları" məqaləsində "Hazırkı musiqimizin formaları,

şəkli və məzmunu gündən-günə tərəqqi edən iqtisadiyyatımızla uyğun gəlməyir” mülahizəsini, tarın rədd edilməsi və onun “dərəbəylik mirası”, “ali cəmiyyətlərin zövqünü oxşayan bir musiqi vasitəsi” kimi inkarını, “tar öz-özünə həyat səhnəsindən çıxacaqdır”, “muğamat bədbinlik motivləri ilə doludur” fikirlərini, muğamatın aciz bir qulun əhvali-ruhiyyəsi, mərsiyə, qul, kölə havaları kimi qiymətləndirməsini Şərq bədii təfəkkürü haqqında birtərəfli təsəvvürlərdən qidalandığını yazır: *“Belə qeyri-elmi konsepsiyanı doğru hesab etdiklərinə görə bəzi tənqidçilər yeni, işıqlı, mədəni, inqilabi nə varsa, hamısının Qərbə məxsus olduğunu söyləyir; Şərqi isə bütün işıqlı cəhətlərdən məhrum bir aləm şəklində düşünürdülər”* [73, s. 54]. Alim M.Quliyevin də öz məqaləsində müəyyən mənada belə bir mövqedən çıxış etməsini, mədəni irsə vulqar münasibətin ədəbi gəncliyin yaradıcılığına da sirayət etməsini vurğulayırdı.

Mikayıl Rəfilinin istər bədii yaradıcılığı, istərsə də klassik və müasir ədəbiyyatı paralel olaraq tədqiq edən ədəbiyyat tənqidçisi və alimi kimi çoxcəhətli fəaliyyətini dəyərli hesab edən Şamil Salmanov onu böyük yaradıcılıq erudisiyasına malik alim kimi təqdir edirdi. N.Gəncəvi, M.Ş.Vazeh, A.Bakıxanov, M.F.Axundov, N.Nərimanov, S.Ə.Şirvani, X.Natəvan, N.Hikmət, V.Höte, V.Şekspir, J.B.Molyer, C.Bayron, O.Balzak, V.Hüqo, A.Barbüs, U.Uitmen, P.Beranje, A.S.Puşkin, M.Qorki, A.Çexov, V.Q.Belinski, F.Dostoyevski, L.Tolstoy, M.Lermantov, A.V.Ostrovski, V.Mayakovski, İ.A.Krılov və başqalarının onun elmi yaradıcılığında təhlilini tapması Mikayıl Rəfilinin milli və dünya ədəbiyyatını nə dərəcədə zəngin bilməsindən xəbər verirdi. Şamil Salmanov Mikayıl Rəfilini öz xalqının bədii mədəniyyətinə, ictimai fikir tarixinə həssaslıqla yanaşan bir alim kimi dəyərləndirməklə yanaşı,*“... onun ilk məqalələrində ədəbi irsə yanlış münasibət bəslədiyini də inkar etmək olmaz... C.Məmmədquluzadə və Sabir barədə ənənəvi təsəvvürlə ziddiyyət təşkil edən mülahizələr olmuşdur. Lakin o, bu sənətkarların yaradıcılıq dühasını inkar etməmişdir”* [98, s. 180-181] fikirlərini də dilə gətirirdi.

Alim belə halları bütövlükdə onun ədəbiyyatşünaslıq fəaliyyəti üçün səciyyəvi cəhət saymamışdır. Mikayıl Rəfilinin az vaxt içərisində sərbəst şeirin ilk nümunələrini yaratmasını, onun nəzəriyyəsini təbliğ etməsini (“Sərbəst şeir haqqında ilk söz”,

"Mədəni ədəbiyyat yolunda", 1929), bir sözlə, bu istiqamətdə axtarış və təcrübələrini Şamil Salmanov inqilabın bütün sahələrdə yaratdığı yeniliklə, inqilabi dəyişikliyin bədii təsdiqi üçün poeziyada yeni forma axtarışları zərurətindən irəli gəlməsi səbəbi ilə izah edirdi. Çünki novatorluq, novator olmaq, novator kimi hərəkət etmək inqilabın – dəyişmənin qarşıya qoyduğu ən başlıca, təxirəsalınmaz tələblərdən idi. Yaradıcı gənclər Mayakovskiyə müraciət edir və elə bu ərəfədə Nazim Hikmətin "Günəşi içənlərin türküsü" (1927) Azərbaycan mətbuatında geniş yayılır, böyük əks-səda yaradır. Tənqidçi Şamil Salmanov Mikayıl Rəfilinin sərbəst şeirlə bağlı "Sərbəst şeir haqqında ilk söz", "Mədəni ədəbiyyat yolunda" məqalələrində məhdud, yanlış cəhətlərlə yanaşı, sağlam və cəsarətli fikirlərə də önəm verməyi lazım bilir, bunsuz sərbəst şeirimizin tarixini qeyri-obyektiv izah etmiş olacağımızı deyirdi. Alim Mikayıl Rəfilinin "sərbəst şeir" və "sərbəst nəzm" ifadələrini ayrı-ayrı anlamlarda, "sərbəst şeir"in müəyyən bir məfkurənin bədii ifadəsi, estetik aktı kimi başa düşməsinə, onu milli zəmindən ayırmaq təşəbbüsünə təəssüflənir: *"Əsl həqiqətdə isə sərbəst şeir daha geniş məzmunu – proletar şeirinin mündəricəsini, varlığa inqilabi münasibətin mündəricəsini ifadə edirdi. Nazim Hikmətin şeirləri bunun ən yaxşı nümunəsi idi ki, M.Rəfili bu cəhətə diqqət yetirmirdi"* [98, s. 186].

XX əsr Azərbaycan ədəbi-tənqidi fikir tariximizin önəmli tənqidçi simalarından olan Şamil Salmanovun çoxşaxəli irsindən, qaldırdığı və həllinə nail olduğu elmi-nəzəri problemlərdən də aydın olur ki, onun tənqidinin öz fərdi üslubu var. Bu da alimin məsələlərə təktərəfli baxmaması, tənqidi subyektiv düşüncədən, təhqirdən ayırd etməyi bacarması, obyektivliyi ilə bağlı idi.

Şamil Salmanov iti tənqidçi zəkasıyla təkcə müasirlərinin yox, özündən əvvəl iz buraxmış sənətkar və ədəbiyyatşünasların əsərlərinə obyektiv qiymət verməyi bacardı ki, bu da onun tənqidçi şəxsiyyətinin fərdiliyindən xəbər verirdi.

İkinci fəslin məzmununu əks etdirən nəticələr iddiaçının aşağıdakı məqalə və məruzələrində öz əksini tapmışdır: [147; 148; 149; 150; 151].

# III Fəsil
# ŞAMİL SALMANOVUN ELMİ İRSİNDƏ ƏDƏBİ TƏNQİDİN NƏZƏRİ, ESTETİK PROBLEMLƏRİ

## 3.1. Şamil Salmanovun elmi irsində ədəbi tənqidin metodoloji problemləri

Ədəbi tənqidin ədəbiyyatşünaslıq sistemində ən mühüm vəzifəsi ədəbi-nəzəri fikrin metodologiyasını hazırlamaqdır. Ədəbi-tarixi proses daim yeniləşir, bədii-estetik dəyərlər yenidən formalaşır, ədəbi cərəyanlar bir-birini əvəz edir. Yeniləşən bədii sözə çatmaq üçün tənqidin də metodologiyası yenilənməlidir. Tanınmış rus tənqidçisi Y.Borevin qeyd etdiyi kimi *"Bədii təcrübənin ümumiləşdirilməsi bədii praktikadan nəzəriyyəyə, ondan metodologiyaya, sonra isə ədəbi-tənqidi təhlilin təcrübəsinə yönəlir"* [162, s. 38]. Odur ki, müstəqillik dövrünün ədəbi prosesini sovet dövrü tənqidinin metodologiyası ilə araşdırmaq mümkün deyildir. Çağdaş dönəmin ədəbi tənqidi qarşısında duran vacib məsələlərdən biri də özünün metodoloji əsaslarını tapmaq idi. Keçən əsrin sonlarından başlayaraq dünyada gedən bir sıra ictimai-siyasi proseslər, sovetlər ittifaqının parçalanaraq dağılması cəmiyyətin bütün sahələrində olduğu kimi elmə, ədəbiyyat və incəsənətə də güclü təsir göstərdi. Kommunist rejiminin iflasa uğraması humanitar fikirdə marksist-leninçi metodologiyanın tənəzzülü ilə nəticələndi. Bu tənəzzül həmçinin, ədəbiyyatşünaslıq və ədəbi tənqidin qarşısında duran problemlərə də öz təsirini göstərdi. Ədəbi-nəzəri düşüncənin aktual problemlərini sosialist realizmi prinsiplərindən deyil, çağdaş dünya ədəbiyyatşünaslığı kontekstində, qarşılıqlı əlaqələr daxilində araşdırmaq zərurəti yarandı. Ən əvvəl ədəbi tənqid ədəbiyyatdakı yeniliklərə fəal reaksiya verdi, ədəbiyyatşünaslığın metodologiyasını müəyyənləşdirdi. Bütün bu proseslər tənqidçi və yazıçı münasibətlərində özünü göstərdi. Qürbət Mirzəzadənin şərhində bu prosesin mahiyyəti öz analizini belə tapır: *"...bədii fikir və düşüncə tərzi inkişaf etdikcə, özünün yeni forma, üsul və vasitələrini tapdıqca, tənqid də öz nəzəri təhlil, özünüifadə yollarını axtarıb-arayır, özünütəsdiq imkanlarını reallaşdırır"* [50, s. 6].

Problemə bu aspektdən yanaşdıqda məlum olur ki, ədəbi tənqid sənətin yaratdığı əsəri araşdırır, təhlil və izah etməklə onun mahiyyətini açır.

Qeyd etdiyimiz kimi, cəmiyyətin hər bir dövründə tənqid və özünütənqid maddi və mənəvi tərəqqinin əsas qüvvəsi olmuşdur. Ədəbiyyatın inkişafında tənqidin rolu çox önəmlidir. Cəmiyyətin həyatında bədii ədəbiyyatın rolu ədəbi prosesə aydın, prinsipial və obyektiv münasibət bildirməyi, bədii əsərləri dəqiq və tələbkar meyarlarla təhlil edib qiymətləndirməyi zəruri edir. XX əsrin əvvəllərindən formalaşmağa başlayan ədəbiyyatşünaslıq elmimizin yaradıcıları və əsas aparıcı qüvvələri olan alimlərimiz bunu unutmamış, tənqid tariximizi yaradaraq inkişaf etdirmişdirlər. Düzdür, o zaman ədəbiyyatşünaslıq elminin sahələrinin sərhədləri tam müəyyən edilməsə də, H.Zeynallı, M.Cəfər, M.Arif, Ə.Mirəhmədov, K.Talıbzadə, Y.Qarayev və başqaları bu elmi yaratmağa və inkişaf etdirməyə nail oldular.

Ötən əsrin son 30 ilində ədəbi tənqid sahəsində yorulmaz fəaliyyət göstərən alimlərimizdən biri də Şamil Salmanov olmuşdur. Xüsusilə, 80-ci illərdə çıxan "Ədəbi proses" toplularında 70-ci illərin sonu, 80-ci illərin əvvəllərində Azərbaycan ədəbi-nəzəri fikrində və ədəbi tənqiddə baş verənlərə fəal münasibət göstərməsi, tənqidin metodologiyasının hazırlanmasında əvəzsiz xidmətləri, məsələlərə obyektiv baxışı bu gün də onun ədəbi-tənqidi düşüncələrini əhəmiyyətli və aktual edir.

Məlum olduğu üzrə, tənqid ədəbiyyat və incəsənətin simasını əks etdirir. Bunu nəzərə alan Sov.İKP MK 1972-ci ildə "Ədəbi-bədii tənqid haqqında" qərar imzaladı. Bu da ədəbiyyatşünasların qarşısına bir sıra prioritet məsələlər qoydu. Onlardan birincisi və önəmlisi ədəbi nümunələrə yerində və obyektiv münasibətin ifadə olunması idi, təbii ki, sosializm realizmi çərçivəsində. Şamil Salmanov bu dövrün ədəbi prosesində ən çox poeziya sahəsinə münasibət bildirmişdir. Poeziya həmişə ədəbi prosesin lokomativi olmuşdur. Buna görə də dövrün poeziyası haqqında tənqidi fikir söyləmək, ona obyektiv münasibət bildirmək ədəbiyyatşünasdan geniş dünyagörüşü, erudisiya tələb edirdi. İldə çap olunan əsərlərə nəzər saldıqda bunun böyük qisminin şeir olduğunu düşünsək, bu işin nə qədər ağır olduğunun fərqinə varmış olarıq. O dövrdə böyük tirajla çap olunan "Azərbaycan", "Ulduz"

jurnallarında, "Ədəbiyyat və incəsənət" qəzetində külli miqdarda poeziya nümunələri çap olunurdu. Elə bu gün olduğu kimi, o illərdə də heç bir ictimai-siyasi tədbiri şeirsiz təsəvvür etmək mümkün deyildi. Bu bir tərəfdən yaradıcı insanların sayının artması demək idisə, digər tərəfdən də şeirin bədiilik meyarlarının aşağı düşməsinə gətirib çıxarırdı. Bu vəziyyətlə qəti barışmaq istəməyən Ş.Salmanov yazırdı: *"Şeir çətin və şərəfli yaradıcılıq işidir; ona qarşı yüngül, qeyri-yaradıcı, qeyri-ciddi münasibət ilə amansızcasına mübarizə aparılması bütün ədəbi ictimaiyyətimizin, o cümlədən tənqidimizin borcudur"* [17, s. 155-156].

Azərbaycan sovet ədəbiyyatşünaslığı əsrin sonlarında yeni ideya-metodoloji əsaslar zəminində mürəkkəb və çətin bir təşəkkül mərhələsini başa vurmaq üzrə idi. Belə ki, ədəbiyyatşünaslıq milli ədəbiyyatın marksist tarixini yaratmaq vəzifəsini həyata keçirmiş, bu məqsədlə külli miqdarda material toplanmış, klassik irsi nəşr etmək sahəsində çox qiymətli və əhəmiyyətli işlər həyata keçirilmişdir. Bununla yanaşı, ədəbiyyatşünaslığın bir elm kimi formalaşması üçün mühüm olan metodoloji konsepsiyalar, ideyalar işlənib hazırlanmışdır. Doğrudur, bu proses öz mürəkkəbliyi və çətinliyi ilə xarakterizə olunurdu. Çoxlu məhdudiyyətlər, qadağalar, köklü ədəbi-tarixi hadisələrin təhrif olunması, bir çox sənətkarların yaradıcılığının bu tədqiqatlardan kənarda qalması, onların yaradıcılığını tədqiq edənlərin təzyiqlərə məruz qaldıqları üçün yanlış meyillərə qapılmaları, səhvlərə yol vermələri dövrü xarakterizə edən amillərdir. Lakin bütün bunlara baxmayaraq, ədəbiyyatşünaslar öz sağlam, qabaqcıl ideyalarını ortaya qoyaraq elmin inkişafına öz töhfələrini verirdilər. Professor Ş.Salmanov yaradıcılığa məhz bu dövrdə - köhnəliklə yeniliyin mübarizəsi, qeyri-elmi baxışların yerini daha sağlam və elmi əsaslara dayanan fikirlərə verdiyi bir vaxtda gəlmişdi. Buna görə də onun ədəbiyyat elmi haqqında düşüncələri öz orijinallığı ilə seçilirdi.

Azərbaycan ədəbi tənqid tarixinin yaranmasında, təşəkkül tapmasında əvəzsiz rolu olan Şamil Salmanov tənqid tarixini ədəbiyyat tarixinin ayrılmaz hissəsi kimi qəbul edərək yazırdı: *"Tənqidin tarixi, məlum olduğu kimi, ədəbiyyat tarixinin ayrılmaz hissəsidir; lakin o, ədəbiyyat tarixi ilə tamamilə eyniləşdirilə bilməz. Tənqid*

*tarixinin öz spesifik tədqiqat predmeti və istiqaməti vardır. Tənqid tarixi – milli ədəbiyyatın özünüidrak tarixidir. Tənqid tarixini yaratmaq – milli ədəbbiyyat haqqında fikrin tarixini izləmək, sistemə salmaq və ümumiləşdirmək deməkdir"* [77, s. 7].

Tənqid bədii yaradıcılığın ümumi qanunauyğunluqları əsasında müasir bədii prosesin nəzəriyyəsini yaradır, onu tədqiq etməyin yollarını açır. Buna görə də hər şeydən öncə tənqidçi fəal və həssas olmalı, sənətkara, onun meyillərinə və xarakterinə diqqətcil yanaşmalıdır. Şamil Salmanov tənqidin əsas işinin ədəbiyyatı üzdən yox, hadisələrini sadəcə qeydə almaq yox, onun daxili keyfiyyətlərini, meyillərini, dialektikasını göstərmək olduğunu yaxşı bilirdi. Bir-birinə bənzəyən, sovet rejiminin tərifini göylərə çıxardan, bir sözlə, ideologiyanın marağına xidmət edən şeirlərin çoxluğunun da ədəbiyyatın inkişafına heç bir təsir etmədiyinin fərqində olan tənqidçi, bu "ruhsuz" şeirlərin yaranmasındansa, olmamasının tərəfdarı idi. Ona görə də münasibət bildirdiyi hər əsərə dərindən bələd olmağa çalışır, yazıçının, şairin mövqeyini tam şəkildə öyrənirdi. Bu səbəbdən ədəbiyyatın qocaman nəslinə də, yeni yaradıcılığa başlayan gənclərə də dövrün tələbləri səviyyəsində, ayrıcalıq qoymadan obyektiv münasibət ifadə etməyə çalışırdı: *"Son illərdə olduğu kimi, ötən ildə də "Azərbaycan" və "Ulduz" jurnallarında cavan poeziyamızın yaxşı, geniş təmsil olunması təqdirəlayiqdir. Bu onu göstərir ki, poeziyamızda yeni, yaradıcı qüvvələrin toplanması prosesi davam etməkdədir. Lakin o da etiraf olunmalıdır ki, son vaxtlarda cavan poeziya, məsələn, 70-ci illərin ortalarında olduğu səviyyədən xeyli dərəcədə aşağıdır..."* [17, s. 156-157]. Təbii ki, Ş.Salmanovu yaradıcılığa gələn gənclərin sayının azlığı narahat etsə də, əslində dövr üçün şeirdə sovet ideologiyası daxilində deyiləcək yeni söz, yeni nəfəs, yeni ruh qalmamışdı, yaradıcı insanlar bunu yaxşı dərk edirdilər. Lakin bu məqamda qeyd etmək yerinə düşər ki, professorun yaradıcılığının ən parlaq illərinin təsadüf etdiyi əsrin son 30 ili təzadlılığı ilə seçilirdi. 1960-cı illərdən başlayan Stalinin sərt qayda-qanunlarının yumşalması, repressiya qurbanlarının əhv edilməsi, 1970-80-ci illərdə nisbətən azad sözə yer verilməsi bu dövrdə Azərbaycan ədəbiyyatına Anar, Elçin, F.Qoca, B.Vahabzadə, İ.Hüseynov

kimi nəhəngləri qazandırdı. Onların yaradıcılığı ədəbiyyatımız üçün yenilik, novatorluq idi.

Ş.Salmanov hər bir dövr üçün ədəbi tənqidi ədəbiyyata təsirin başlıca metodu hesab edirdi. Çoxlu sayda elmi-publisistik məqalələrin, dərs və metodik vəsaitlərin yazılmasına baxmayaraq, ədəbi tənqidin funksiyasının sonuna qədər dərk olunmaması da onun nəzərindən yayınmamışdır: *"Lakin bəzən tənqidin işində öz-özünə xüsusi bir aludəçilik də hiss olunur ki, bu, bizcə, tənqidin səyini əsas işindən qayğısından, ədəbiyyatı və həyatı izah etmək, dərk etmək və qiymətləndirmək vəzifəsindən ayırır. Tənqid ədəbiyyatla, həyatla canlı əlaqədən, təmasdan yaranır, doğulur"* [18, s. 97].

Tənqidçi dünya və Azərbaycan ədəbiyyatının incəliklərinə yaxşı bələd idi. Bu səbəbdən müasirlərinin yaradıcılığına dünya və milli ədəbi-tarixi proses kontekstində qiymət verməyi bacarırdı. Bəlkə elə buna görə də bir qədər ötkəmlik, sərtlik onun tənqidinin xarakterik xüsusiyyəti idi. Düzdür, sovet ittifaqında əsərin çap olunması günümüzdəki qədər sadə deyildi. Əsər çoxsaylı "prosedurlar"dan keçərək çap olunmaq hüququ qazanırdı. Hər çap olunan əsərə görə redaksiya heyəti ağır yük daşıdığı üçün çap olunan ən kiçik bir şeir belə dəfələrlə oxunur, müzakirə edilir, dövrün tələbinə cavab verib-vermədiyi yoxlanılır, bir neçə dəfə düzəliş üçün müəllifə geri qaytarılırdı. Bütün bu prosesə baxmayaraq, mətbuat səhifələrinə heç də həmişə kamil ədəbi nümunələr yol tapmırdı. Ş.Salmanov dövrün ədəbi orqanlarında çıxan əsərlərlə tanış olur, hər bir ədəbi məhsulu analitik elmi təhlildən keçirir və qiymətləndirirdi.

Şamil Salmanov həm də gözəl şair idi. Onun fərdi üslubunun formalaşmasında bu cəhətin rolunu qeyd etməmək olmaz. O, tənqid etdiyi poeziya nümunəsinə məhz bir şair gözü ilə də baxmağı unutmurdu. Bu da onun tənqidini fərdiləşdirirdi. Xalq şairi Rəsul Rza haqqında yazılarının birində tənqidçi yazırdı: *"R.Rzanın müharibə dövr lirikası həm də kövrək, həzin, dərin insan hisslərinin təkrarsız ifadəsidir. Müharibə insanların bir-birindən ayrılmasıdır, müharibə həsrət və iztirabdır. Müharibə mövzusuna toxunarkən R.Rza lirikasında insanın bu hisslərinə geniş yer*

*verirdi. Lakin bundan onun lirikası qətiyyən bədbinlik qazanmırdı. Əksinə, bu lirikada insan öz mənəvi gözəlliyi, ucalığı ilə müharibəni inkar edirdi”* [80, c. 1, s. 12]. Bu sətirlərdən də görmək olar ki, tənqidçi hər hansı bir fikri söyləmək üçün ədəbi materialı dərindən öyrənir, şairliyinin də verdiyi istedadla müqayisələr aparır və yekun fikrini qələmə alırdı.

Yuxarıda da qeyd etdiyimiz kimi, Şamil Salmanovun elmə gəldiyi illərdə ədəbiyyatşünaslıq elminin sahələrinin sərhədləri dəqiq müəyyən edilməmişdi. Ona görə də Şamil Salmanovu həm ədəbiyyat tarixçisi, həm ədəbiyyat nəzəriyyəçisi, həm də ədəbi tənqidçi adlandırmaq olar. Onun çoxşaxəli elmi irsi bizə bu fikri deməyə əsas verir. İstər “Azərbaycan sovet şeirinin ənənə və novatorluq problemi” adlı namizədlik, istərsə də müstəqillik illərində ərsəyə gətirdiyi “Müasir Azərbaycan ədəbi tənqidinin təşəkkülü və inkişaf meyilləri” adlı doktorluq dissertasiyasında, publisistik, yaxud elmi məqalələrində, kitablara yazdığı ön sözlərdə, resenziyalarda, monoqrafiyalarında Şamil Salmanov işini dərindən bilən, yüksək intellektli, geniş dünyagörüşlü, öz işinin məsuliyyətinin fərqində olan vicdanlı bir alim idi.

Şamil Salmanov ədəbi tənqidə gələndə orada M.Arif, M.Cəfər, Ə.Mirəhmədov kimi nəhənglər var idi. Onunla paralel ədəbiyyatşünaslıq elminə Mir Cəlal, P.Xəlilov, K.Talıbzadə, Y.Qarayev, B.Nəbiyev, A.Hüseynov, S.Əsədullayev, Ə.Ağayev, Ə.Cəfər, K.Məmmədov, A.Zamanov, Q.Xəlilov, F.Qasımzadə, X.Əlimirzəyev, E.Əfəndiyev, O.Həsənov, M.Əlioğlu, A.Əfəndiyev, İ.Həbibbəyli, Ş.Alışanlı, A.Səfiyev, K.Əliyev kimi görkəmli ədəbiyyatşünas alim və tənqidçilər gəlmişdilər. Belə simalarla eyni vaxtda fəal elmi çıxışlar etmək heç də asan məsələ deyildi. Lakin o həm ustadlarından, həm də yaşıdlarından bəhrələnməkdən çəkinməmiş, öz elmi dünyagörüşünü daim inkişaf etdirmişdir. O, onların hər birinin yaradıcılıq üslubuna yaxından bələd olduğu üçün özünün fərdi dəst-xəttini yaratmağa nail olmuşdu. Onun tənqidi aydınlığı, ardıcıllığı, səlisliyi və konkretliyi ilə seçilirdi. Bu da bizə əsas verir deyək ki, professor Ş.Salmanov dövrünün ən görkəmli tənqidçilərindən biri idi.

Qədirşünaslıqla xatırlamaq lazımdır ki, 1920-30-cu illər ədəbi tənqidimizin mərhələ xüsusiyyətlərini ilk dəfə Şamil Salmanov ümumiləşdirib. Tənqidimizin bu

mərhələsini yaxşı öyrənmədən onun sonrakı mərhələlərinin tipologiyasını müəyyənləşdirmək mümkün deyil. Çünki marksist estetikanın əsasları məhz bu illərdə qoyulub. Həm də milli ədəbi tənqidin ədəbi prosesə fəal qoşulması, ədəbiyyatşünaslığın müstəqil bir sahəsi kimi meydana çıxması bu illərdə daha çox özunü göstərirdi. Ədəbi prosesin və ədəbi tənqidin inkişaf qanunauyğunluğundan bəhs edən K.Talıbzadə yazır: *"Ədəbiyyatın başqa janrları kimi tənqid də zamandan-zamana, mərhələdən-mərhələyə ədəbi prosesə müdaxilə etmək yollarını, taktikasını, şəkillərini dəyişir və dəyişdirməlidir... İnkişafın nəticəsi olan yeniləşmənin qarşısını almaq isə mümkün deyil"* [128, s. 13].

Şamil Salmanovun "Azərbaycan sovet şeirinin ənənə və novatorluq problemi (1920-1932-ci illər)" əsərinin əhəmiyyəti bunda idi ki, burada həmin illərdə poeziyada özünü göstərən ənənə və novatorluq problemləri ilə yanaşı, həm də eyni dövrün ədəbi-tənqid mərhələsi bütövlükdə tədqiqata gətirilir, ittifaq ədəbi-nəzəri fikri kontekstində Azərbaycan ədəbi-tənqidinin yaranması, təşəkkülü hərtərəfli təhlil olunur, milli tənqidin genezisi aşkarlanırdı. Ş.Alışanlı yazır: *"Ş.Salmanov Azərbaycan sovet ədəbi tənqidinin təşəkkülü və nəzəri-metodoloji axtarışlarını onun poeziya ilə "münasibətlərin"də izləyir. Tənqidi fikirlə 20-ci illər Azərbaycan poeziyasının qarşılıqlı əlaqə və münasibətlərinin, poeziyanın məzmun və forma axtarışlarını şərtləndirən mühüm ideya-estetik amillərin şərhində müəllifin elmi-nəzəri hazırlığının geniş rolu aydın görünür"* [3, s. 268-269].

Məlumdur ki, sovet hakimiyyəti dövründə, o cümlədən 1920-30-cu illərdə marksist estetikasının əsasında ideoloji-siyasi prinsiplər dayanır, cəmiyyətin, ictimai quruluşun sinfi mübarizə metodu ədəbiyyatda, ədəbi-nəzəri fikirdə əsas yer tutur, bədii yaradıcılıqla yanaşı, tənqid və ədəbiyyatşünaslıq da proletar diktaturasının mənafeyinə xidmət etməli olurdu. Maraqlısı burasındadır ki, bu dövrün ədəbi tənqidini sistemli şəkildə tədqiq edən Şamil Salmanov ədəbiyyatı, ədəbi-tənqidi yalnız ideoloji bir vasitə kimi qəbul etmir və belə qənaətə gəlirdi ki, ədəbi tənqid cəmiyyətin rəyini də ifadə etməli, cəmiyyət, ədəbiyyat və tənqid qarşılıqlı surətdə bir-birinin normal fəaliyyətini təmin etməlidir.

Şamil Salmanov 1920-ci illər tənqidini fəallığına, dinamikliyinə görə fərqləndirir, eyni vaxtda həm klassik, həm də müasir ədəbiyyatın problemlərinə vaxtında reaksiya verdiyinə görə yüksək şəkildə dəyərləndirirdi. Çünki tənqid klassik ədəbiyyatdan yazanda da müasir ədəbiyyatın mənafeyini qoruyur, onun ədəbi inkişafını istiqamətləndirirdi. Ulu Öndər H.Əliyev ədəbi prosesdə tənqidin başlıca vəzifələrindən bəhs edərkən göstərirdi: *"Müasir ədəbi-bədii prosesi tənqidçilərin, ədəbiyyatşünasların fəal və faydalı işi olmadan təsəvvür etmək mümkün deyildir. Onlar bədii həyatımızın mürəkkəb, bəzən ziddiyyətli proseslərini dərindən təhlil etməyə və ümumiləşdirməyə borcludurlar"* [22, s. 147].

Ulu Öndərin bu dərin mənalı fikirlərini yalnız müasir dövrün ədəbi tənqidinə deyil, ədəbiyyatşünaslığın bütün sahələrinə və mərhələlərinə aid etmək olar. Çünki istənilən dövrün ədəbi mənzərəsini, ayrı-ayrı sənətkarların yaradıcılıqlarını ədəbi tənqidin verdiyi obyektiv qiymət və dərin təhlil vasitəsi ilə dərk etmək mümkündür.

Bu baxımdan Ş.Salmanov doğru olaraq qeyd edir ki, 1930-cu illərdə tənqid artıq öz predmeti ilə məşğul olmağa üstünlük vermiş, 1920-ci illərdə, professional tənqidin ilk təşəkkül mərhələsində ədəbi tənqid ədəbiyyatşünaslıq və ədəbiyyat tarixçiliyinin də funksiyasını həyata keçirmək vəzifəsini öz öhdəsinə götürmüş, bu vəzifəni həyata keçirmək tarixi bir məsələ kimi qarşıya çıxmışdı. Kifayət qədər ədəbiyyatşünas kadrların olmadığı bir şəraitdə tənqid istər-istəməz ədəbiyyatşünaslığın da vəzifələrini icra etməli olmuşdu. Ona görə də keçən əsrin 20-ci illərinin ortalarında bir çox tənqidçilər icmal xarakterli mövzulara daha çox meyil edir, müasir ədəbiyyatı, bu ədəbiyyatın aparıcı istiqamətlərini öyrənir, mövzu problematikasını ümumiləşdirərək, ədəbiyyatşünaslığın sahələri üzrə fikir yürütməyə çalışırdılar.

Şamil Salmanov ədəbi tənqidin inkişafını ictimai fikrin vəziyyəti ilə əlaqələndirmiş, bədii fikrin keyfiyyət dəyişmələrinin ədəbi-nəzəri fikrə təsirini ön plana çəkmişdi. Nəzərə almalıyıq ki, yeni dövrün ədəbiyyatının səviyyəsi necədirsə, eyni proses tənqiddə də özünü göstərir. Belə ki, tənqid müasir ədəbi prosesdən faydalanır, onun kontekstindən çıxış edir. Doğrudan da, ədəbi tənqidin əsas vəzifəsi

müasir ədəbiyyatın gerçəkliklərini aşkara çıxarmaq, onun ədəbi axtarışlarını ümumiləşdirməkdir.

1920-30-cu illərdə isə sovet cəmiyyətində normal fəaliyyət mümkün deyildi. Ona görə də bədii yaradıcılıq öz fəaliyyətini bərpa edə bilmirdi. 1920-30-cu illər ədəbi tənqidinin mövqeyini müəyyənləşdirərkən tənqidçi bütün bunları diqqətində saxlayırdı. 1930-cu illərin əvvəllərində tənqiddə bədii yaradıcılığın təhlilinə meyil gücləndi, ədəbiyyat tarixi, ədəbiyyat nəzəriyyəsi xarakterli problemlər estetik fikrin əsasında dayandı. Buna əsasən, Şamil Salmanov bu qənaətə gəlirdi ki, tənqid bu mərhələdə həm də müəyyən tarixi-metodoloji ənənəyə malik olmadığını daha dərindən dərk etdi. Həmin ideya Ə.Nazimin də fikir və mülahizələri ilə üst-üstə düşürdü. O da öz növbəsində, 1920-30-cu illərdə müasir ədəbiyyatşünaslığın tələblərindən çıxış edir, təəssüf hissi ilə bildirirdi ki, dövrün ədəbiyyatşünaslığı üzərinə düşən vəzifəni kifayət qədər yerinə yetirə bilmir. O, "Oktyabr və tənqidimiz" məqaləsində yazırdı ki, *"məsələ tənqidimizin yoxluğunda deyil, məsələ ondadır ki, bugünkü mövcud tənqidimiz dünənə görə deyil, bu günə, sabaha görə, ədəbi tələbat və vəzifələrimizə cavab verə bilmir, ondan geri qalır"* [57, s. 292].

Şamil Salmanov 1920-30-cu illər ədəbiyyatını təhlil edəndə milli ədəbiyyatda sosialist realizmi metoduna nə dərəcədə əməl olunduğu üzərində də dayanır, realizmin Azərbaycan ədəbiyyatında, incəsənətində müxtəlif mərhələləri, özünəməxsus inkişaf meyilləri haqqında maraqlı fikirlər səsləndirirdi. Eyni zamanda, sosialist realizmi ədəbiyyatının da konkret bir zaman kəsiyində mövcud olduğunu, sovet quruluşunun dağılması ilə başa çatdığını bildirirdi. Onu da qeyd edirdi ki, hətta 1920-30-cu illər Azərbaycan ədəbiyyatında sosialist realizminin qəlibinə sığmayan əsərlər meydana çıxmışdı. Məsələn, Şamil Salmanov H.Cavidin "Peyğəmbər", "Topal Teymur" əsərlərinin, hətta "Azər" poemasının sosialist realizmiylə əlaqəsi olmadığını bildirir, həm mövzusuna, həm də ideya və üslubuna görə ziddiyyət təşkil etdiyini yazırdı. Bu da diqqətəlayiqdir ki, marksist tənqid bu "kənaraçıxmaları" görür və onun izahını verməyə çalışırdı. Məsələn, bir sıra tənqidçilər S.Rəhimovun və Mir Cəlal Paşayevin bəzi əsərlərində "tənqidi realizm"in dirçəldildiyini iddia edirdilər. Bu

mövqedən S.Rəhimovun "Saçlı", "Müharibə" romanları kəskin tənqidə məruz qalmışdı. S.Vurğunun "İnsan" əsəri də "mücərrəd romantizm" kimi səciyyələndirilirdi.

Akademik Məmməd Cəfər S.Rəhimovun "Saçlı" romanında tənqidi realizm meyillərinin gücləndiyi qənaətinə gəlir, sosialist realizmi prinsiplərinə əsərdə kifayət qədər əməl olunmadığını bildirirdi. O, romanın ideya-məzmun xüsusiyyətlərini araşdıraraq, bu nəticəyə gəlirdi ki, S.Rəhimov ədəbi tənqidin ciddi və ardıcıl təhlillərindən sonra romanda müşahidə olunan nöqsan və çatışmazlıqları aradan qaldırmışdı.

Şamil Salmanov bu mövqe ilə müəyyən qədər razılaşsa da, bəzi məqamlara aydınlıq gətirməyə ehtiyac olduğunu bildirirdi. Qeyd edirdi ki, bəzi tənqidi yazılarda ədəbiyyatımızda tənqidi realizmin dirçəlməsindən söhbət getsə də, bunun həqiqətə uyğunluğundan söhbət belə gedə bilməz. Hər bir ədəbi cərəyan konkret bir dövrdə yaranır və müəyyən müddətdən sonra fəaliyyətini dayandırır. Tənqidi realizm də sosialist realizmi yaranandan sonra mövcudluğuna son qoyub. Sosialist-realist ədəbiyyatın özündə də cəmiyyətdəki nöqsanlara kəskin tənqidi münasibət olub və ədəbi fikir bunu vaxtında qeyd edib, dövrdəki neqativ halların açıq tənqidini isə sovet həyatının gerçəkliklərinin təhrifi kimi qəbul etmək olmaz.

Şamil Salmanov bütün bunları nəzərdə tutaraq qeyd edirdi ki, bədii yaradıcılıqdakı bu cür meyillər 1960-cı illərdə daha da gücləndi, Ç.Aytmatovun "Əsrə bərabər gün" əsəri ilə başlayan bu tendensiya Azərbaycan ədəbiyyatında da özünü göstərdi. Azərbaycan ədəbi tənqidi müstəqillik dövrünə möhkəm elmi bazası, nəzəri hazırlığı ilə gəlmişdi. Ancaq müstəqillik dövrü tənqidinin də özünəməxsus çətinlikləri meydana çıxırdı. Keçmiş ittifaqdan qalan siyasi-ideoloji miras tənqidin normal fəaliyyətinə imkan vermirdi. Köhnənin dağılması, yeninin hələ meydana çıxmaması nəticəsində humanitar elm sahələri daha çox çətinliklərlə qarşılaşırdı.

Şamil Salmanov "Ədəbiyyat tarixi mənəviyyat tarixi kimi" adlı məqalədə müstəqillik dövrü ədəbi tənqidinin ideoloji-siyasi mövqeyini müəyyənləşdirməyə çalışmış, azərbaycançılıq ideyasının xalqımızın milli inkişafının əsasında dayanması

fikrini əsaslandırmış, Ümummilli liderimiz Heydər Əliyevin dövlətçilik siyasətinin mayasında dayanan bu prinsipin humanitar siyasətin də əsasını təşkil etməsinin vacibliyini vurğulamışdır. Burada ədəbi tənqidin vəziyyəti, vəzifələri də aydın şəkildə öz əksini tapmışdır. Bildirilirdi ki, onun ən mühüm və əsas vəzifəsi ədəbiyyatın daxili, mənəvi aləmini, bədii idrak yollarını tədqiq və təhlil etməkdir. Bu yolla insanı tərbiyə etmək, onun dünyagörüşünün inkişafına təsir göstərmək, milli yaddaşı formalaşdırmaq olar.

Milli müstəqillik, yeni əsrin reallıqları, insanların özgür yaşamaq həvəsi ədəbi tənqiddə yeni təfəkkürlə düşünməyi tələb edirdi. Şamil Salmanovun "Ədəbiyyatşünaslıq və yeni təfəkkür" əsəri bu vacib problemin həllinə yönəlmişdir. Müəllif sovet dövründə ədəbi tənqidin keçdiyi yola nəzər salır, bürokratik-amiranə, totalitar rejimin və təfəkkürün ədəbi prosesdəki izlərini göstərir və qeyd edirdi ki, keçdiyimiz mürəkkəb, ziddiyyətli və çətin yolda ümumbəşəri sərvətləri dərk etmək, onu fəaliyyətimizin və yaradıcılığımızın əsasına çevirməkdən məhrum olmuşuq. Nəticədə ədəbiyyatımız, sənətimiz az inkişaf edib: *"O sənətkarlar ki, bu həqiqəti dərk ediblər, onlar faciələrə və itkilərə məruz qalıblar. B.Pasternak, M.Bulqakov, A.Axmatova, H.Cavid, M.Müşfiq, Y.V.Çəmənzəminli kimi. Lakin o sənətkarlar ki, bunu bacarmayıblar, yaxud bununla şüurlu surətdə barışıblar, onların yaradıcılıqları ciddi təhriflərə məruz qalıb. Buradan da müasir tənqidin və ədəbiyyatşünaslığın çox mürəkkəb vəzifəsi – bütün bunları tədqiq etmək, yeni fakt və tarixi yaddaş əsasında ədəbi-tarixi prosesin əsil mənzərəsini yaratmaq vəzifəsi meydana çıxır"* [79, s. 173].

Şamil Salmanov məqalədə ədəbi tənqidin keçmiş nöqsanlarını konkret ədəbi-tarixi materiallar əsasında ortaya qoyur, ədəbi tənqidin yeni meyarlarının müəyyənləşdirilməsinə çalışır, ədəbi-nəzəri fikrin bədii yaradıcılıqda sənətkarlıq məsələlərinə önəm verməsini istəyirdi.

Burada bir məsələyə də diqqət yetirməyi məqsədəuyğun sayırıq. Stalinin ölümündən sonra keçmiş sovetlər birliyində ictimai-siyasi hava müəyyən qədər yumşalmağa başladı. Sovet cəmiyyətində baş verən dəyişikliklərlə əlaqədar olaraq ədəbi prosesdə də yeniləşmələr öz ifadəsini tapdı. Bu dövrdə insan mənəviyyatının

zənginliyinin və mürəkkəbliyinin təsviri poeziyada müxtəlif simvol və eyhamlardan, üstüörtülü ifadələrdən istifadə ilə əks olunurdu ki, bu da ədəbi tənqidin yeni tədqiqat istiqamətlərini müəyyənləşdirdi. Soykökə qayıdışın, milli-etnik şüurun ifadəsi həmin dövrdə fəaliyyət göstərən tənqidçilərin üzərinə düşdü. Ədəbi tənqid bu yeniləşmənin sosial-fəlsəfi, bədii-estetik mahiyyətini açmaq üçün milli düşüncənin özünəməxsus meyarlarına arxalandı və bu cəhət ədəbi tənqidin ən istedadlı nümayəndələrinin yaradıcılıqlarında elmi-nəzəri səviyyədə əks olundu.

Müstəqillik dövrü tənqidindən bəhs edərkən 1960-80-ci illər ədəbi tənqidimizin tipologiyasına müraciət olunması təsadüfi deyildi. Bu mənada ki, müəllif ədəbi-nəzəri fikrin 1960-80-ci illər mərhələsini müstəqillik dövrü Azərbaycan tənqidinin nəzəri-metodoloji, ədəbi-estetik və milli-ideoloji prinsiplərinin müəyyənləşməsində başlanğıc mərhələsi qəbul edirdi.

Şamil Salmanov Azərbaycan ədəbi tənqidin yaranması, təşəkkülü və sonrakı inkişaf mərhələlərini geniş aspektdə tədqiqata cəlb etmiş, tənqidin ənənələri və yeni vəzifələri, tənqid və ədəbiyyat tarixi problemləri, tənqid və müasir ədəbiyyatın qəhrəman problemi, ədəbi tənqid və yaradıcılıq problemi kimi fundamental ədəbiyyatşünaslıq məsələlərini hərtərəfli öyrənmişdir. Onun bütün monoqrafiya və məqalələrində sənətin, ədəbiyyatın ümuminkişaf qanunauyğunluqları, ədəbiyyatın daxili təkamülü üzə çıxarılır, milli tənqidin tarixi təcrübəsi təhlil olunurdu. Tədqiqatlarının əsas əhəmiyyəti bundan ibarət idi ki, burada milli ədəbiyyatın tarixinə, ədəbi prosesə yeni baxış ifadə olunur.

Azərbaycan ədəbi tənqidinin tarixi, nəzəri prinsipləri, ədəbiyyatın ədəbi tənqiddə dərk olunması onun əsərlərində tarixilik və müasirlik işığında diqqət mərkəzinə gətirilir, doğru olaraq, sovet dövrü ədəbi tənqidinin bir çox problemlərinin, onun totalitar rejimi şəraitindəki çətinliklərinin aradan qaldırılmasında ədəbi tənqidin rolundan bəhs olunur. Bu məsələlərin diqqətlə öyrənilməsi Azərbaycan ədəbi tənqidinin metodologiyasını, təşəkkül tarixini müəyyən etməyə yaxından kömək edir.

Azərbaycan ədəbi tənqidini Şamil Salmanov daim dinamik inkişafda göstərirdi. Mövzuya aydınlıq gətirmək üçün tənqidin mahiyyətinə, spesifik xüsusiyyətlərinə

münasibət bildirir, Aristotelin, Belinskinin bu barədəki fikir və mülahizələrini tədqiqata cəlb edirdi. Belinskinin "hərəkət edən estetika" hesab etdiyi ədəbi tənqidin vəzifə və funksiyasını müəyyən edən tədqiqatçı, "Müasir Azərbaycan ədəbi tənqidinin təşəkkülü və inkişaf meyilləri" (1998) mövzusundakı doktorluq dissertasiyasında Azərbaycan ədəbi tənqidinin metodoloji əsaslarını, nəzəri və tarixi problemlərini öyrənməyi qarşısına məqsəd qoyub. Əsərdə belə bir elmi istiqamət xüsusi vurğulanırdı ki, ədəbi tənqid üçün ədəbi əsərin təhlili çox vacibdir. Ədəbi tənqidin öyrənilməsi, onun inkişaf təcrübəsinin Şamil Salmanov tərəfindən ümumiləşdirilməsi ədəbi prosesin daha dərindən və hərtərəfli tədqiqinə imkan yaradırdı. O, belə bir fikir irəli sürürdü ki, müasir ədəbi prosesin konkret təzahürlərini təhlil edən ədəbi tənqid bu təzahürlərlə sənətin, ədəbiyyatın ümumi inkişaf uyğunluqlarını meydana çıxarır, ədəbiyyatın daxili təşəkkülünü göstərir. Deməli, tənqidin təcrübəsini təhlil etmək və ümumiləşdirmək, əslində, real ədəbi prosesi izah və təhlil etmək deməkdir.

"Müasir Azərbaycan ədəbi tənqidinin təşəkkülü və inkişaf meyilləri"ndə Şamil Salmanov hər şeydən əvvəl Azərbaycan ədəbi tənqidinin ənənələrini nəzərdən keçirir, onun janr və formalarını araşdırırdı. Haqlı olaraq qeyd olunur ki, bədii əsər haqqında fikir və mühakimə, bədii əsərə bizim münasibətimiz öz ifadəsini ilk növbədə tənqiddə tapır. Buna görə də inkişaf edən müasir ədəbiyyatların heç birini ədəbi tənqidsiz təsəvvür etmək mümkün deyil.

"Müasir Azərbaycan ədəbi tənqidinin təşəkkül və inkişaf meyilləri" mövzusunda doktorluq dissertasiyasında alim yüksək elmi-nəzəri səviyyə və profesionallıqla Azərbaycan ədəbi tənqidinin çox mühüm bir yaradıcılıq mərhələsinin problemlərini həll etməyə çalışmış, zəngin fakt və materiallar əsasında elmi-ədəbi fikrimizin metodoloji əsaslarını müəyyənləşdirməyə nail olmuşdur.

Əslində dissertasiya qarşıya məqsəd kimi qoyulan tədqiqat vəzifələrinə uyğun bir strukturda qələmə alınıb. Burada ədəbi tənqidin bədii prosesin inkişafında rolu, əsas vəzifələri, bir nəzəri sistem olaraq özünəməxsusluğu, spesifik xüsusiyyət daşıması, sənət, elm və yaradıcılıq sahəsi kimi özəllikləri üzə çıxarılır. Müasir tənqidi

fikrə münasibətin obyektiv və subyektiv təzahürlərinə həm milli ədəbi düşüncədə, həm də digər tamam fərqli ictimai-siyasi məzmun hüdudlarında nəzər salınması, tənqidə yeni baxış və dəyərlər sistemində yanaşmanı zərurət kimi ortaya qoyan mülahizələrin irəli sürülməsi, zənnimizcə, dissertasiya işinə xüsusi əhəmiyyət aşılayan keyfiyyət göstəricisi kimi qeyd oluna bilər. Şübhəsiz ki, tədqiqatın elmi-nəzəri əhəmiyyəti təkcə bununla müəyyənləşmir. Şamil Salmanov təşəkkül dövrünün ədəbi təcrübəsini o zamanın nəzəri-estetik təmayülləri, bədii fikir cərəyanları ilə əlaqədə və vəhdətdə araşdırırdı.

Dissertasiyada müəllifin irəli sürdüyü elmi qənaətlər əyani şəkildə təsdiqləyir ki, tənqidlə ədəbi proses arasında yaranan çox kəskin mövqe və fikir ayrılığı bir çox hallarda ədəbiyyatın və nəzəri fikrin daxili qanunauyğunluqlarından və məntiqindən irəli gəlmirdi. Dövrün siyasi-ideoloji diktə və tələbləri mövcud vəziyyətə aydınlıq gətirmək əvəzinə, bəzən qarşıdurma və ziddiyyətin daha da dərinləşməsinə gətirib çıxarırdı. Bu baxımdan tədqiqatda tənqidi fikrin axtarış və hərəkət dinamikasında Plexanov, Pluatov kimi sırf marksist təmayüllü ədəbiyyatşünaslıq təmsilçilərinin nəzəriyyə və metodologiya istiqamətində irəli sürdükləri müddəaların təhlilinə əhəmiyyətli dərəcədə yer ayrılması dediklərimizi təsdiq edir.

XX əsrin 20-30-cu illəri ədəbi tənqidimizin mühüm mərhələsi kimi səciyyələndirilir. Bu dövr milli ədəbi tənqidin "ən böyük və davamlı" mərhələsi kimi qəbul olunur. Belə ki, bu mərhələ Azərbaycan Demokratik Cümhuriyyətinin devrilməsi və proletariat diktaturasının yaranmasından sonra başlayır.

Dissertasiyada 1920-30-cu illərdə marksist estetikanın formalaşması, onun sinfi nöqteyi-nəzərə əsaslanması, bədii yaradıcılığın mahiyyətinin təhrif olunması konkret elmi faktlarla ortaya qoyulur. Aydın olur ki, ədəbiyyatın yeni mərhələsinin, yəni sovet mərhələsinin yaranması və təşəkkülü ilə eyni vaxtda və eyni şəraitdə yeni marksist tənqid ənənələri də yaranırdı. Rəsmi ideoloji sənədlərdə bu marksist tənqid kimi dəyərləndirilirdi.

Marksist ədəbi tənqidin ədəbi meyarları və konsepsiyası, klassik və müasir ədəbi irsi dəyərləndirmə prinsipləri əsərdə tədqiqat predmeti kimi qəbul olunur.

Həmin dövr tənqidindən bəhs edən M.Arifin fikrincə, *sosialist cəmiyyətinin ideoloji prinsiplərini, onun metod və üslubunu təyin etmək, sovet ədəbiyyatının mövqeyini gücləndirmək, partiyanın ədəbi təşkilatlar qarşısında qoyduğu vəzifələri həyata keçirmək sahəsində ədəbi tənqid bir sıra özünəməxsus sənət keyfiyyətləri ilə formalaşaraq mütəşəkkil şəkil alır* [13, c. 1, s. 63].

Azərbaycan ədəbi tənqidinin ənənələrini müəyyənləşdirərkən Şamil Salmanov daha çox 1920-30-cu illər tənqidi üzərində dayanır. Bu da təbiidir. Çünki tənqidin ədəbi prosesin müstəqil bir sahəsi kimi özünü göstərməsi bu iki onillikdə reallaşıb. Milli tənqid və ədəbiyyatşünaslığın 1920-30-cu illər mərhələsi istər məzmun, istərsə də janr, üslub və dil baxımından maraqlı və zəngindir. Eyni zamanda, milli ədəbi-nəzəri fikrin ilk təşəkkül və yaranma prosesini özündə ehtiva edirdi. Ədəbi şəxsiyyət baxımından da bu dövr nümunəvi, diqqətəlayiq idi. Bu dövr ədəbi-tarixi prosesinin, ədəbi tənqid və ədəbiyyatşünaslığının mühüm, aktual problemlərini öyrənmək vacib bir ədəbiyyatşünaslıq vəzifəsi kimi qarşıya çıxırdı.

M.K.Ələkbərli, Ə.Nazim, M.Quliyev, M.Arif, M.Hüseyn kimi tənqidçilər o dövrdə ədəbi prosesi istiqamətləndirir, marksist tənqidin ilk nümunələrini yaradırdılar. Bu dövr Şamil Salmanov tərəfindən "Azərbaycan ədəbi tənqidində yeni bir mərhələ" kimi səciyyələndirilir, əsaslandırılır ki, həmin dövr həm öz miqyası, həm əhatəliliyi, həm də ədəbi prosesdəki iştirakı və mövqeyi nöqteyi-nəzərdən ədəbi tənqid tariximizin ən zəngin və davamlı səhifəsidir. Müəllif "Yeni meyar axtarışı" məqaləsində yazırdı: *"Zaman və ədəbiyyat, bunların qarşılıqlı əlaqələri – tənqidin əsas fikir, qiymət və təhlil predmetidir. 20-ci illərdə də– yeni inqilabi ədəbiyyat təşəkkül tapmağa başladıqda da vəziyyət belə idi. Ədəbiyyatla eyni vaxtda onun tənqid qolu da, tənqid janrı da yaranır və ilk addımlarını atırdı"* [98, s. 21].

Beləliklə, əsərdə Şamil Salmanov 1920-30-cu illər Azərbaycan ədəbi tənqidinin müstəqil Azərbaycan Cümhuriyyətinin devrilməsindən sonra proletar diktaturasının yaranması mərhələsindəki tipologiyasını müəyyənləşdirməyə çalışmış, həmin dövr ədəbi tənqidinin siyasi-ideoloji mahiyyətini aşkara çıxarmışdır.

Şamil Salmanov bu tənqidi marksist konsepsiyasına görə “marksist tənqid” hesab edirdi. Bu da doğrudur ki, tənqidçi 1920-30-cu illər estetik fikrini “marksist tənqid”, “marksist-leninçi tənqid”, “sovet ədəbi tənqidi” kimi şərti adlarla xarakterizə etməkdə heç bir subyektiv münasibət görmürdü.

Şamil Salmanov 1920-30-cu illər ədəbi tənqidinə ədəbiyyatın vəzifələri, yeni cəmiyyətin, yeni ictimai münasibətlərin, sosial-mənəvi əlaqələrin tarixi kimi baxır, tənqidin, estetikanın ədəbiyyat haqqında, bədii yaradıcılıq haqqında təliminin ədəbi-tarixi prosesdə yerini və mövqeyini müəyyənləşdirirdi.

Şamil Salmanov doğru olaraq qeyd edirdi ki, tənqidi, tənqidçini ədəbi prosesdən kənarda təsəvvür etmək mümkün deyil. Odur ki, ədəbiyyatda əsərlər arasında əlaqə və təmas tənqid vasitəsi ilə aşkarlanır, əsərlərin qarşılıqlı təsiri meydana çıxır, ədəbiyyatda ümumi yaradıcılıq meyilləri, inkişaf qanunauyğunluqları yaranır, ədəbi proses formalaşaraq, özünəməxsus meyarlar üzərində möhkəmlənib inkişaf edir. Buna görə də tənqidçi belə düşünürdü ki, ədəbi tənqidi tədqiq edərkən bu mütləq ədəbi prosesi də özündə ehtiva etməlidir.

1920-30-cu illər ədəbi tənqidindən bəhs edəndə Şamil Salmanov daha çox Əli Nazimin xidmətlərini yada salırdı. Bunu da xüsusi olaraq vurğulayırdı ki, o, milli ədəbi tənqidi, fikrin mühüm olan bu hadisə və meyillərini düzgün, obyektiv mövqedən qiymətləndirə bilmir, istər-istəməz milli ədəbi-tarixi prosesdə tənqidin roluna kölgə salırdı. Əli Nazimin F.Köçərli haqqındakı səhv mülahizələri bu cür subyektiv-valyuntarist münasibətdən irəli gəlirdi. O deyirdi: *“Öz metodoloji əsasları etibarı ilə... Köçərli köhnə təzkirəçilikdən çox da uzaqlaşmamışdı ki, bu onun bugünkü şagirdlərinin də əsərlərində özünü göstərir”* [57, s. 291].

Ə.Nazimin bu mövqeyini Şamil Salmanov əsassız hesab etdiyi kimi, onun inqilabdan əvvəlki dövrdə ədəbiyyatımızdakı tənqidi realizm xırda burjua demokratizmindən, burjua cəmiyyəti içərisindən irəli gedə bilməmişdi kimi fikrini də qəbul etmirdi. Əsaslı şəkildə bildirirdi ki, yeni Azərbaycan ədəbiyyatının yarandığı mərhələdə ədəbi tənqid də təşəkkül tapıb müxtəlif ideya-estetik istiqamətlərdə inkişaf etmiş, bədii ədəbiyyatın qanuni və zəruri komponentlərindən birinə çevrilmişdi.

Beləliklə, aydın olur ki, Azərbaycan ədəbi tənqidinin mövqe və prinsiplərinin izahında Şamil Salmanov daima obyektiv mövqedə dayanmağa çalışır, subyektiv, əsassız fikir və mülahizələrə vaxtında münasibət bildirir, bu cəhətdən peşəkar tənqidçi mövqeyində dayanırdı.

1920-30-cu illərdə ədəbi tənqid istər klassik, istərsə də müasir ədəbiyyatın tədqiqində ön plana keçmişdi. Sosialist inqilabının ideoloji istiqamətinin, yeni cəmiyyətin diktatura xarakterinin ədəbiyyat və incəsənətin qarşısına sərt tələblər qoyduğunu qeyd edən Şamil Salmanov bunların həyata keçirilməsində ədəbi tənqidin baş rolda çıxış etdiyini xüsusi vurğulayırdı. Lakin bununla belə inqilabi həyat və ədəbi proses tamam yeni tənqidə, müasir ədəbi-estetik və fəlsəfi əsasları mənimsəmiş tənqidə kəskin ehtiyac duyurdu. O qeyd edirdi ki, keçmişdə bizdə tənqidin olmaması barədə fikir və mülahizələr də bundan irəli gəlirdi.

1930-cu illərdə ədəbi tənqiddə ifşaçılıq əhvali-ruhiyyəsi nisbətən azaldı. Sov. İKP MK-nın "Ədəbi-bədii təşkilatların yenidən qurulması haqqında" 23 aprel 1932-ci il qərarından sonra ittifaq miqyasında ədəbi müzakirələr aparıldı. Ədəbi-bədii təşkilatların yenidən qurulması üçün verilən həmin qərar sovet yazıçılarını vahid yaradıcılıq təşkilatı altında birləşdirdi. Bu qərar sovet ədəbiyyatının sonrakı inkişafına müəyyən təsir göstərdi.

Bəllidir ki, bu qərardan sonra ədəbi tənqidin qarşısında duran vəzifələr konkretləşdirildi, tənqidi fikrin problematikası aydınlaşdırıldı. İttifaq dağılandan sonra bəziləri sovet dövrü ədəbi tənqidinə, xüsusilə, onun 1920-30-cu illər mərhələsinə konyuktur mövqedən yanaşdı, dövrün vulqar-sosioloji mühitini daha qabarıq şəkildə izah etməyə çalışdılar. Şamil Salmanov bu cür ifrat mövqelərə həmişə vaxtında, kəskin reaksiya vermiş və belə nəticəyə gəlmişdi ki, 1920-30-cu illərdə ədəbi tənqidin vəzifəsi mürəkkəb və çətin olmuşdur. Bunu əsas gətirərək bütöv bir ədəbi mərhələnin tənqid yaradıcılığını inkar etmək olmaz. Çünki həmin illərdə "sosialist realizmi" anlayışı ilə ifadə olunan nəzəriyyədə bədii yaradıcılığın təbiətini, xassəsini və sosial-estetik funksiyasını dərk etmək, sxematizmdən və vulqar təhriflərdən yaxa qurtarmaq meyilləri də az deyildi: *"Ədəbiyyatımızın bir çox*

*mürəkkəb, yek mənalı olmayan problemləri və meyilləri məhz 30-cu illərdə meydana çıxmışdır və buna görə bu dövr diqqətlə, hərtərəfli öyrənilməyə layiqdir. Qeyd etmək lazımdır ki, sonrakı mərhələlərdə dərinləşən bir çox nəzəri müddəaların, sovet ədəbiyyatını ümumdünya ədəbi prosesdən təcrid etmək təşəbbüsünün başlanğıcı da bu dövrdə axtarılmalıdır. Sovet ədəbiyyatı haqqında onu "dünyada ən qabaqcıl, ən ideyalı ədəbiyyat" kimi səciyyələndirən aksioma da bu illərdə yaranmışdır"* [96, s. 293].

Doğrudan da, 1930-cu illərin əvvəllərində tənqiddə bədii yaradıcılığın təhlilinə meyil gücləndi, ədəbiyyat tarixi, ədəbiyyat nəzəriyyəsi səciyyəli problemlər estetik fikrin əsasında dayandı. Şamil Salmanovun öz sözləri ilə desək, *"tənqid bu mərhələdə həm də müəyyən tarixi-metodoloji ənənəyə malik olmadığını daha dərindən dərk edirdi"* [96, s. 296].

Şamil Salmanovun elmi-ədəbi irsində ədəbi tənqidin metodoloji problemləri nəzəri və praktiki müstəvidə öz həllini tapmış, ədəbi-nəzəri fikrimizin zənginləşməsində, həmçinin də ədəbiyyat tariximizin doğru istiqamətə yönlənməsində əhəmiyyətli rol oynamışdır.

### 3.2. Tənqid tariximizə müasir elmi baxış

Şamil Salmanovun ədəbiyyatşünaslığımızdakı ən böyük xidmətlərindən biri də tənqid tariximizin yaranması, təşəkkülü və ayrı-ayrı mərhələləri, ədəbi şəxsiyyətləri haqqındakı elmi-ədəbi fəaliyyətidir.

Tənqid tarixinin yaranması işinin əhəmiyyətindən danışarkən bir məsələni qeyd edək ki, tənqidin ayrı-ayrı mərhələlərini öyrənmədən, onun spesifik xüsusiyyətlərini üzə çıxarmadan mükəmməl tənqid tarixi yaratmaq mümkün deyil. Müstəqillik dövründə meydana çıxan ədəbi tənqid tarixləri bunu bir daha təsdiq edir. Onların hamısında tənqidimizin ancaq 1920-30-cu illər mərhələsinin tənqid konsepsiyası öz əsasını tapıb. Sonrakı ədəbi dövrlərin mərhələ səciyyəsinə toxunmağa heç bir ədəbiyyatşünas maraq göstərməyib. Bunun səbəbi aydındır: sadəcə olaraq indiyə qədər ədəbi tənqidimizin 1940-50-ci illər, 1960-80-ci illər, müstəqillik dövrü

haqqında kifayət qədər elmi mənbə mövcud deyil, başqa cür desək, həmin mərhələlərin tənqid axtarışları ümumiləşdirilməyib. Elnarə Akimovanın müstəqillik dövrü ədəbi tənqidi haqqındakı tədqiqatını nəzərə almasaq, bu dövrün ədəbi tənqid arsenalı da kifayət qədər öyrənilməyib.

Şamil Salmanovun tənqid tariximizin öyrənilməsində rolu böyükdür. Onun tənqid tariximizdə izi, mövqeyi olan ədəbi şəxsiyyətlərin həyat və yaradıcılığı ilə bağlı xeyli sayda məqalələri, portret-oçerkləri var. Diqqət etsək görərik ki, bu şəxsiyyətlərin sırasında tənqid tariximizin yaradıcıları və sonrakı inkişaf mərhələlərində müstəsna xidmət göstərənlər xüsusi yer tutur. M.F.Axundov, Ə.Nazim, H.Zeynallı, M.Rəfili, M.Arif, M.C.Cəfərov, K.Talıbzadə, B.Nəbiyev və başqalarının yaradıcılıqlarını o, peşəkar tənqidçi qələmi ilə hərtərəfli, fundamental səviyyədə əhatə edə bilmişdi.

Həmin məqalələr, portret-oçerklər bir neçə yönümdən əhəmiyyətlidir: birincisi, həmin ədəbi şəxsiyyətlərin həyat və fəaliyyəti elmi ictimaiyyətə çatdırılıb, ikincisi, ayrı-ayrı tənqidçilərin elmi-ədəbi irsi kontekstində tənqid tariximizin mərhələləri tədqiqata gətirilib, üçüncüsü, mükəmməl tənqid tariximizin yaranması üçün ilkin şərtlər yerinə yetirilmiş olub.

Bildiyimiz kimi, milli ədəbi tənqidin ədəbi prosesə fəal qoşulması XX əsrin 20-30-cu illərinə təsadüf edir. H.Zeynallı, Ə.Nazim, M.K.Ələkbərli, M.Arif, M.Hüseyn kimi professional ədəbiyyat tənqidçiləri ədəbi prosesdə tənqidin mövqeyini layiqincə təmsil edir, ittifaq miqyasında ədəbiyyatımızın qayğısına qalırdılar. Şamil Salmanov müxtəlif illərdə yazdığı məqalələrində onların ədəbi-tənqidi irsinin spesifik xüsusiyyətlərinə aydınlıq gətirmişdi. O, “Tənqidçinin görüşləri” məqaləsində Hənəfi Zeynallının tənqid irsinə müraciət edib.

Şamil Salmanov belə bir fikir irəli sürür ki, H.Zeynallı XX əsrin əvvəllərində mətbuatda çıxış etsə də, professional tənqidçi kimi fəaliyyəti 1920-30-cu illərə təsadüf edir. Onun yadda qalan məqalələri istedadlı ədib H.Cavidin əsərləri ilə bağlıdır. Belə ki, o, 1923-1926-cı illərdə yazdığı bu məqalələrində H.Cavidin əsərlərindən müasir ədəbiyyatın ən parlaq səhifələri səviyyəsində söz açır, onları

müasirlik təfəkkürü kontekstində təhlilə cəlb edirdi. Bu da maraqlıdır ki, “Peyğəmbər” əsəri istisna olunmaqla onun təhlilə cəlb etdiyi “Şeyx Sənan”, “Maral”, “Şeyda” inqilabdan əvvəl yazılmışdı. Lakin təəssüf ki, dövrün tənqidi bu maraqlı əsərlərə vaxtında qiymət verməmişdi. İlk dəfə idi ki, Hənəfi Zeynallı H.Cavid yaradıcılığına layiq olduğu qiyməti verirdi. Halbuki, bir sıra marksist tənqidçilər dahi şairi burjua sənətkarı hesab edir, onun əsərlərinin təhlilində vulqar-sosioloji təhriflərə yol verirdilər. Amma H.Zeynallı isə bu cür ifrat, volyuntarist meyillərdən yüksəkdə dayanmağı bacarmışdı.

Əsil peşəkar tənqidçi üçün mövzu, janr, üslub məhdudluğu yoxdur. Bu məsələdə tənqidçinin istedadı, ədəbi prosesi necə qavraması və ona yanaşma üsulu, ədəbi meyarları xüsusi rol oynayır. Fikrimizcə, poeziya, nəsr və dramaturgiya tənqidi kimi anlayışlar nisbi və şərtidir, peşəkarlıq burada da özünü göstərməlidir. Yeni yaranan əsərdə ədəbi hadisəyə çevrilə biləcək cəhətlər varsa, poeziya, nəsr, dramaturgiya nümunəsi olsun, fərqi yoxdur, əsil tənqidçi dərhal o yeniliyi görür, bədii sənət nümunəsini elmi təfəkkürün süzgəcindən keçirir, dərhal ona reaksiya verir. Tənqid tariximizə fikir versək görərik ki, M.F.Axundovdan üzübəri M.Hüseyn, Ə.Nazim, M.Arif, M.C.Cəfərov, B.Nəbiyev və başqaları məhz bu cür tənqidçi olublar. Bunların sırasına, şübhəsiz ki, Hənəfi Zeynallını da daxil etmək olar. O, ədəbiyyatşünaslığımızda “poeziya tənqidçisi” kimi tanınsa da, yeri gələndə, nəsr və dramaturgiyamızın da yaradıcılıq axtarışlarına fəal reaksiya vermiş, toxunduğu mövzulara peşəkar tənqidçi mövqeyi ilə yanaşmışdır. Xüsusən, Azərbaycan nəsrinin yaranması, sonrakı inkişaf mərhələləri haqqında vaxtında dəyərli məqalələr, resenziyalar yazmışdır: *“Böyük şair-dramaturqun ayrı-ayrı əsərlərinə həsr olunmuş “Şeyda” xüsusunda qısa bir mülahizə” (1923), “Maral” xüsusunda qısa mülahizə” (1923), “Hüseyn Cavidin yazdığı “Peyğəmbər” haqqında mülahizələrim” (1923, 1926), “Şeyx Sənan” haqqında mülahizələrim” (1926) adlı məqalələr bu cəhətdən yalnız H.Zeynallının tənqidçilik fəaliyyətində yox, mübaliğəsiz demək olar və deməliyik ki, bütövlükdə 20-ci illər tənqidinin tarixində professional elmi tənqidin qiymətli nümunələridir”* [111, s. 2].

Şamil Salmanova görə, H.Zeynallı H.Cavidin dramaturgiyasına ona görə yüksək qiymət verməyi bacarırdı ki, o, dramaturgiyanın fəlsəfi-estetik əsaslarını yaxşı bilirdi, sənətin, ədəbiyyatın ədəbi-estetik mahiyyətini düzgün dərk edirdi. H.Zeynallı H.Cavidin ayrı-ayrı əsərlərini düşüncə süzgəcindən keçirdikdən sonra əsərlərinin poetikası haqqında ümumiləşdirici fikirlərə konkret əsərlərin təhlilindən sonra gəlib çıxırdı. Bu cəhətdən Şamil Salmanov H.Zeynallının tənqidini Abdulla Şaiqin ədəbi-tənqidi irsinə yaxın hesab edirdi. O düşünürdü ki, H.Zeynallının bədii əsərə bu dərəcədə dərin və hərtərəfli marağı əsassız deyildi, bu, onun bədii əsər konsepsiyası ilə, bədii ədəbiyyatın ədəbiyyat tarixində, yaradıcılıq prosesindəki mövqeyi barədə görüşləri ilə bağlı bir məsələ idi. Şamil Salmanov qətiyyətlə bildirirdi ki, bədii əsər öz müəllifinin yaradıcılığında və bütövlükdə ədəbi prosesdə əsas məqamdır, yaradıcılıq prosesinin zəruri nəticəsidir, bədii yaradıcılıqdan kənarda yaradıcılıq prosesi yoxdur.

"Peyğəmbər" və "Şeyx Sənan" haqqında H.Zeynallının məqalələrini Şamil Salmanov xüsusi olaraq bəyənirdi. Bu əsərləri obyektiv mövqedən təhlil etmək o qədər də asan deyildi. Çünki H.Zeynallı şairin daha çox mürəkkəb fəlsəfi-poetik ideya ifadə edən dramlarından bəhs edirdi. Buna görə də Şamil Salmanov tənqidçinin vəzifəsini "miqyaslı", "son dərəcə mürəkkəb" hesab edir, həmin məqalələri yalnız tənqidçinin fəaliyyəti baxımından deyil, həm də bütövlükdə 1920-ci illər tənqidinin səviyyəsi, inkişafı, maraq və problematikası kontekstindən təhlilə gətirirdi.

XX əsr Azərbaycan tənqidinin təşəkkülündə, heç şübhəsiz ki, Məmməd Arif Dadaşzadənin də xidmətləri böyükdür. 1920-ci illərin sonu 1930-cu illərin əvvəllərində ədəbi tənqidə gələn M.Arif tənqidimizin professionallıq keyfiyyətlərinin yüksəldilməsində xeyli iş görüb. Bu səbəbdən ona həsr etdiyi məqaləsini Şamil Salmanov "Əsrin tənqidçisi" adlandırıb, 1920-30-cu illər tənqidinin bu səviyyəyə yüksəlməsində onun müstəsna xidmətlər göstərdiyini təsdiq edib. Lakin eyni zamanda, bir tənqidçinin görkəmli bir ədəbi şəxsiyyət kimi yetişməsini mərhələlərlə izləyib. Bu da tənqidçi haqqında tam təsəvvür əldə etməyə imkan yaradır.

Məqalədə göstərilir ki, M.Arif milli ədəbi tənqidə əsasən, 1920-ci illərin sonu 1930-cu illərin əvvəllərində gəlmiş, həmin illərdə dərc etdirdiyi "Bolşevik şeiri

uğrunda", "Lirikadan eposa doğru", "Əbülhəsənin "Yoxuşlar" romanı", "Yüksəliş yollarında", "Müşfiqin poemaları" adlı məqalələrində dövrün ədəbi prosesinin nəbzini tutmağa çalışmışdı. Belə ki, iti müşahidə qabiliyyətinə malik olan tənqidçi 1930-cu illərin əvvəllərində M.Müşfiqin sürətli yüksəlişini izləyir, onun daha geniş, əhatəli mövzulara müraciət etməsini, lirikadan eposa doğru meyillənməsini müsbət hal kimi qiymətləndirirdi. O, təkcə poeziyanın inkişaf xəttini izləməklə işini bitmiş hesab etmir, 1930-cu illər nəsrinin təhkiyə, üslub yeniliklərinə də münasibət bildirir, görkəmli tənqidçinin Ə.Əbülhəsən nəsrinə müraciətinin əsasında ictimai-ədəbi zəmin dayandığını da yada salırdı. Bu yolla tənqidçi nəsrin təkamül xəttini üzə çıxarırdı. M.Arif yazıçının ayrı-ayrı hekayələrinin təhlilində yeni bir cəhəti üzə çıxarmağı bacarmışdı. "Yoxuşlar" romanının geniş, müfəssəl təhlilini verən M.Arif onun nəsrinə xas olan xüsusiyyətləri açıqlayırdı. Yazıçının hekayələrinə münasibətdə də eyni tendensiya davam olunurdu. Məsələn, "Sofi" hekayəsində psixologizmin spesifikası haqqında konkret fikirlər söyləyirdi. M.Arif Mir Cəlal Paşayev yaradıcılığının təhlilində də orijinal mövqedə dayanmış, "Dirilən adam" romanında nəsrimizin uğurlarını görməyi bacarmışdı.

1920-ci illərin sonu 1930-cu illərin əvvəllərində ittifaq miqyasında yeni yaradıcılıq metodunun əsası qoyulurdu, tənqid və ədəbiyyatşünaslığın yeni nəzəri-metodoloji əsasları müəyyənləşdirilirdi. Bu məqamda tənqidin vəziyyəti və vəzifələri çox çətin idi. Tənqid həm müasir ədəbi prosesi izləməli, həm də klassik ədəbi irsin təhlilinin yeni metodoloji əsaslarını hazırlamalı idi. Bu çətinliyi, mürəkkəbliyi vaxtında görən M.Arif *"...mümkün qədər öz tənqidində, müasir ədəbiyyata münasibətində bədii yaradıcılığın spesifikliyini, sənət hadisəsi olmasını, onun estetik və fəlsəfi mahiyyətini nəzərə alaraq mühakimə yürüdürdü, ədəbiyyatın insana münasibətini ön plana çəkirdi"* [81, s. 138].

Şamil Salmanovun təhlilindən görürük ki, M.Arif ədəbi əsərə münasibətdə qeydçi, məlumatçı bir tənqidçi olmayıb. O, bir mütəfəkkir təhlilçi, yazıçının köməkçisi, xeyirxahı rolunda çıxış edirdi.

Doğrudan da, M.Arif mütəfəkkir, prinsipial bir tənqidçi kimi tanınırdı. O, ədəbiyyatı, söz sənətinin spesifikasını gözəl bilir, bədii əsərin dərinliyinə, psixoloji qatlarına enməyi bacarırdı. Şamil Salmanov bunu da yüksək qiymətləndirirdi ki, M.Arif həmişə ədəbi tənqidin yüksəldilməsinə, müstəqilliyinin qorunmasına çalışıb. O, yaxşı başa düşürdü ki, tənqid bədii yaradıcılığı əvəz edə bilməz. Bu mövqedən çıxış edən bəzi yazıçılar tənqidə barmaqarası baxır, tənqidçinin qeydlərinə əhəmiyyət vermirdilər. Ancaq M.Arif bu mövqe ilə qətiyyən razılaşmır, 1941-ci ildə yazdığı məqalələrinin birində "tənqid də yaradıcılıqdır" fikrini irəli sürür, göstərirdi ki, tənqid dəlil-sübuta əsaslanmalı, yazıçıya kömək etmək məqsədi daşımalıdır. M.Arifin ədəbi-tənqidi irsindən yazmaqla yanaşı, Şamil Salmanov həm də tənqidi düşüncənin metodologiyası, ədəbi konsepsiyası haqqında düşünürdü: *"Tənqiddə indi dərin elmi dünyagörüşü və metodologiya çatışmır ki, bu da bizi tənqid tariximizin böyük, misilsiz ənənələri üzərində düşünməyə vadar edir. Halbuki, tənqid müəyyən dünyagörüşünə, ideya-siyasi təfəkkürə əsaslanmadan üzərinə düşən vəzifəni, qarşısında qoyulan problemləri həyata keçirə bilməz"* [81, s. 138].

Şamil Salmanov ömrü boyu tənqid tarixi, onun nəzəriyyəsi haqqında düşünüb. Ədəbi tənqidin dövrlərinin təhlilində də, ədəbi şəxsiyyətlərin dəyərləndirilməsində də həmişə ədəbi-estetik meyarlardan çıxış edib, birinci dərəcəli, daha aktual ədəbiyyatşünaslıq və ədəbi tənqid problemlərinə toxunub. Şamil Salmanov özü də milli ədəbiyyatşünaslıq tarixinin öyrənilməsi işinin əhəmiyyətini anlamış, buna görə də öz elmi-ədəbi fəaliyyətini bu istiqamətə yönəltmişdir. O, Azərbaycan ədəbi-nəzəri fikrinin inkişafında əhəmiyyətli dərəcədə rol oynamış Kamal Talıbzadə, Bəkir Nəbiyev irsinin öyrənilməsi işinə öz töhfəsini vermişdir.

Tənqidçinin Kamal Talıbzadənin həyatı, elmi irsi ilə bağlı yazdığı məqalələrində, monoqrafiyasında da bu, özünü göstərir. "Tənqidimizin cəfakeşi" məqaləsinə nəzər salanda biz bunu bir daha yəqin etdik. Məqalədə K.Talıbzadə M.Rəfili, F.Qasımzadə, H.Araslı, M.Cəlal, M.Hüseyn, M.Cəfər, Ə.Sultanlı və başqalarından sonra gələn gənc tənqidçilər nəslinə mənsub hesab olunur. Xatırladılır ki, o, ədəbiyyatşünaslığa əsasən, 1950-ci illərdə gələn tənqidçilər nəslinin

nümayəndəsidir. Bu elə bir dövr idi ki, ədəbiyyatşünaslıqda milli ədəbiyyat tarixini yaratmaq zərurəti meydana çıxmışdı. Həmin dövrdə milli ədəbiyyatın mükəmməl tarixini yaratmaq mümkün olmamışdı. XVII-XVIII əsrlərdə Avropada mükəmməl ədəbiyyat tarixlərinin yaranmasına rəğmən, Azərbaycan ədəbiyyatşünaslığında bu vəzifə 1950-ci illərdə hələ də gerçəkləşməmişdi. Çünki ayrı-ayrı sənətkarlar haqqında mükəmməl monoqrafiyalar ortaya qoymadan sanballı ədəbiyyat tarixi yaratmaq mümkün deyildi. Buna görə də 1950-ci illərdə ədəbiyyatşünaslığa gələnlərin əksəriyyəti monoqrafik tədqiqatlara üstünlük verirdi. Kamal Talıbzadə də dövrün ədəbiyyatşünaslığın qarşısına qoyduğu vəzifəni yaxşı dərk edirdi. Odur ki, o da ilk tədqiqatlarına fundamental məsələlərdən başladı. İlk uğuru isə Azərbaycan romantizminin yaradıcılarından birinə həsr olunan "Abbas Səhhət" monoqrafiyası oldu. Şamil Salmanov bildirir ki, buna qədər A.Səhhət yaradıcılığından bəhs edən məqalələr, portret-oçerklər yazılmışdı. Lakin bütün bunlar romantizmin görkəmli simasının ədəbiyyat tariximizdəki mövqeyini dəqiq müəyyənləşdirməyə imkan vermirdi. Bu ədəbi-tarixi missiyanı K.Talıbzadənin "Abbas Səhhət" monoqrafiyası həyata keçirdi.

K.Talıbzadə bir qayda olaraq, hansısa bir sənətkarın yaradıcılığından məqalə və monoqrafiya yazmaqla kifayətlənmir, bununla müvazi olaraq mövzu ilə bağlı məqalələr yazır, kitablar nəşr etdirirdi. Hətta S.Vurğun bu monoqrafiyanı "gözəl bir tədqiqat əsəri" hesab edirdi. Bu da faktdır ki, Ə.Mirəhmədovun "Məhəmməd Hadi", "Abdulla Şaiq", K.Talıbzadənin "Abbas Səhhət" monoqrafiyasından sonra Azərbaycan romantizminin tipologiyası, bədii-estetik sistemi ilə əlaqədar maraqlı, məzmunlu əsərlər yazıldı, bu sahədə boşluqlar müəyyən dərəcədə dolduruldu. Ancaq onu da qeyd edək ki, 1950-ci illərdə romantizmin hərtərəfli, fundamental tədqiqatını obyektivliyə yaxın mövqedən araşdırmağa imkan yox idi. Ə.Mirəhmədovun da, K.Talıbzadənin də monoqrafiyalarında bunu aydın görmək olur. Əgər ədəbiyyatşünaslıq 1950-ci illərin sonunda və 1960-cı illərin əvvəllərində bu vəzifəni görməsəydi, üçcildlik ədəbiyyat tarixinin yaranmasına ciddi bir ehtiyac yox idi. Görünür, o illərin ədəbiyyatşünasları bunu hiss etməmiş deyildilər və 1950-ci illərdə

bir neçə romantik haqqında tədqiqatların, əsərlərin yazılması, nəhayət, bir qədər sonra H.Cavid haqqında məqalələrin və M.Cəfərin monoqrafiyasının meydana çıxması növbəti ədəbiyyat tarixinin yazılmasına stimul verdi. Şübhəsiz ki, 1950-ci illərdə nəşr olunan bu monoqrafiyalarda dövrün ictimai-mədəni mühitindən gələn nöqsanlar da özünü göstərirdi: *"Çünki hətta qeyd olunan əsərlərdə də, o cümlədən K.Talıbzadənin monoqrafiyasının ilk nəşrində də romantizmə köhnə münasibətin müəyyən ünsürlərini görmək olurdu. Ancaq bu cəhətlər monoqrafiyanın əhəmiyyətini qətiyyən azalda bilməzdi. Hər şeydən əvvəl ona görə ki, o, A.Səhhət kimi bir şairin yaradıcılığını hərtərəfli, dövrlə, ədəbi proseslə canlı əlaqədə təqdim etmək yönündə yazılmış ilk tədqiqat idi; ikincisi, burada dövrün romantik ədəbiyyatına, romantik poetikasına münasibəti yeniləşdirmək təşəbbüsü duyulurdu"* [114, s. 160].

Kamal Talıbzadənin ədəbiyyatşünaslığımız qarşısında ən böyük xidməti milli tənqid tarixini yaratmasıdır. Şamil Salmanov "XX əsr Azərbaycan ədəbi tənqidi" əsərini K.Talıbzadənin ən sanballı, fundamental əsəri kimi dəyərləndirir. Onu da unutmur ki, burada əsasən, XX əsr Azərbaycan ədəbi tənqidindən bəhs olunur. Əvvəlki dövrün tənqid tarixlərindən isə ictimai-ədəbi zəmin səviyyəsində söhbət açılır. Sonrakı illərdə K.Talıbzadə tənqidimizin müxtəlif mərhələlərinin tipologiyasını üzə çıxarmış, 1920-30-cu illər tənqidi haqqında isə daha geniş aspektdə tədqiqat aparmışdır.

Şamil Salmanovun müntəzəm elmi-ədəbi irsinə müraciət etdiyi ədəbiyyatşünaslardan biri də M.Rəfili olmuşdur. Məlumdur ki, M.Rəfili yaradıcılığa şeirlə başlamış, 1920-ci illərdə sərbəst vəzndə yazdığı əsərləri ilə milli ədəbiyyatda novator poeziyanın əsasını qoyanlardan biri olmuşdur. Eyni zamanda, o, klassik və müasir ədəbiyyatımızın əsas ədəbi simalarının həyat və yaradıcılığı, milli poeziyanın spesifikası haqqında qiymətli əsərlər yazmışdır. 1920-30-cu illər tənqid və ədəbiyyatşünaslığı ilə bağlı olduğu üçün Ş.Salmanov daim onun elmi-ədəbi fəaliyyətini diqqətdə saxlamış, "Müasirlik mövqeyindən" kitabında "Mikayıl Rəfili" sərlövhəli məqaləsində onun yaddaqalan ədəbi portretini tamamlamış, yeni ədəbiyyat, müasir poeziya, yeni estetik dünyagörüşü ortaya qoymaq baxımından əsərlərini

təhlilə cəlb etmişdir. Şamil Salmanov onun klassik və müasir ədəbiyyatın fundamental problemlərinə daim müdaxilə etməsini tənqidçilik ehtivası ilə əlaqələndirirdi. Bütün bu əsərlərində o, orijinal mühakimələr, ədəbi prosesi təlatümə gətirən tezislərlə çıxış edirdi, ictimai-tarixi hadisələrə yeni mövqedən yanaşırdı. Alim onun N.Gəncəvi, M.F.Axundov, M.Ş.Vazeh, A.Bakıxanov, N.Nərimanov haqqında yazdığı əsərlərini isə xüsusi olaraq fərqləndirirdi. Şamil Salmanov bu qənaətdədir ki, bütün hallarda o, Avropa ədəbiyyatşünaslığı səviyyəsində fikir söyləyir, hər bir ədəbi hadisəyə müasirlik baxımından qiymət verirdi. Xüsusən, N.Gəncəvinin həyat və yaradıcılığını təhlil edən "Nizami Gəncəvi (dövrü, həyatı, yaradıcılığı)" əsəri ümumittifaq miqyasında orta əsrlərin bu humanist şairinin tanınmasına səbəb olmuşdu: *"M.Rəfilinin Azərbaycan klassiklərinin həyatı və yaradıcılıqlarına dair elmi-tədqiqat əsərləri, çoxlu məqalələri, klassik irsimizin problemlərinə həsr olunmuş çıxışları bunu deməyə imkan verir ki, o öz xalqının bədii mədəniyyətinə, ictimai-tarixi fikrinə həssaslıqla yanaşan bir ədəbiyyatşünas olmuşdur"* [98, s. 180].

Şübhəsiz ki, Şamil Salmanov Mikayıl Rəfilinin 1920-30-cu illərdə klassik ədəbi irslə bağlı söylədiyi fikirlərə də münasibət bildirməyi zəruri hesab edirdi. Qeyd edək ki, onun ilk məqalələrində ədəbi irsə düzgün olmayan münasibət də olub. Lakin bu cür münasibət onun ümumi ədəbi irsi üçün səciyyəvi olmayıb, ötəri xarakter daşıyıb, daha dəqiq desək, dövrün ədəbi konyukturasından irəli gəlib. Zaman-zaman M.Rəfili bu cür nihilist münasibətdən uzaqlaşıb. Bu da önəmlidir ki, Ş.Salmanov onun klassik ədəbi irsə yanlış münasibətini nihilist münasibət hesab etmir: *"M.Rəfilinin ədəbi irsi inkar və yaxud onun əhəmiyyətini azaltmaq, kiçiltmək mövqeyindən çıxış etmədiyini cəsarətlə söyləmək olar. O, dəfələrlə klassik irsin müasirlik üçün əhəmiyyətini, böyük sənətkarların yaradıcılığından öyrənməyin faydasını qeyd etmişdir. 1929-cu ilə aid qeydlərinin birində oxuyuruq: "Yeni yüksək mədəniyyətimizi qurmaq üçün əski mədəniyyəti mənimsəmək bizim ilk vəzifələrimizdən biridir"* [98, s. 181].

Şamil Salmanovun ədəbi tənqidimizə, tənqidçi və ədəbiyyatşünaslarımıza verdiyi qiymət obyektiv mövqedən bildirilib. Haqqında bəhs etdiyi şəxsiyyətlərin bir

qismi müəllimləri, digər qismi isə sənət dostları olub. Bütün hallarda o, tədqiqat predmetinə xüsusi həssaslıqla yanaşmış, hər kəsin ədəbiyyat tariximizdəki mövqeyini düzgün müəyyənləşdirmişdir. Bu cəhətdən portret-oçerkləri də bir-birini təkrarlamır, hər bir tənqidçiyə doğru, düzgün, ədəbi irsinə uyğun qiymət verilir. H.Zeynallı, M.Arif, M.Cəfər, Ə.Mirəhmədov, K.Talıbzadə, Y.Qarayev haqqındakı portret-oçerklərində tənqidçinin öz şəxsiyyəti, qiymət vermək bacarığı açıq-aşkar görünür. Burada xatirələr, müxtəlif görüşlərin təəssüratı bir-birini tamamlayır, tənqid tariximizin şəxsiyyətləri, ədəbi mühiti, elmi-ədəbi fəaliyyəti haqqında ətraflı məlumat alırıq.

Bu hələ məsələnin bir tərəfidir. Digər cəhətdən tənqid tariximizin dövrləri, spesifikası, tipoloji keyfiyyətləri haqqında da təsəvvürlərimiz genişlənir, ədəbi-tarixi prosesin mahiyyətinə nüfuz edirik. Bu tənqidçi Ş.Salmanovun elmi-nəzəri fikirlərinin dərinliyini, əhatə dövrəsinin genişliyini nümayiş etdirən mühüm amillər kimi bir daha özünü təsdiqləməyə əsas verir.

### 3.3. Şamil Salmanovun ədəbi-nəzəri fikrində tarixilik və müasirlik

Bəllidir ki, ədəbiyyatşünaslıqda tarixilik və müasirlik kateqoriyası mühüm əhəmiyyət kəsb edir. İctimai fikrin mühüm sahəsi olan ədəbiyyatşünaslıqda tarixilik və müasirliyi gözləmədən klassik və müasir ədəbi düşüncə faktlarını təhlil etmək, dəyərləndirmək mümkün olmaz. Klassik və müasir ədəbi düşüncə faktlarını təhlil etmək, dəyərləndirmək tarixilik və müasirlik kateqoriyalarının vəhdətində reallaşır. Ədəbiyyatşünaslığımızın müxtəlif mərhələlərində tarixilik və müasirlik problemi daim diqqət mərkəzində olmuşdur. İlk professional ədəbiyyat tənqidçimiz M.F.Axundovdan başlayaraq bu günə qədər elmi-nəzəri fikrimizdə tarixilik və müasirlik problemləri ədəbi tənqidi düşündürüb. Şübhəsiz ki, bu problem zaman-zaman yeniləşib, hər bir yeni ədəbi mərhələdə yeni meyarlar qazanıb.

Şamil Salmanov da məqalələrində, çıxışlarında, monoqrafiyalarında bu prinsipə daim əməl edib, hər bir bədii əsərin təhlilində həmin bədii nümunənin

yarandığı tarixi şəraiti nəzərə alıb, eyni zamanda müasir təhlil və tədqiq ideyalarına əsaslanaraq, ümumiləşdirmələr aparıb, nəticələr çıxarıb.

Alimin tədqiqatlarının sərlövhəsində "tarixilik", "müasirlik" sözlərinə sıx-sıx rast gəlinir. "Müasirlik mövqeyindən", "Roman və müasirlik", "Müasirlik diqqət mərkəzində" başlıqları göstərir ki, bu problem, bir qayda olaraq, onun tədqiqatlarının aparıcı istiqamətlərindən birini təşkil etmişdir.

Bunu da qeyd edək ki, prof. Ş.Salmanov tarixilik və müasirlik prinsiplərinə sənətin və ədəbiyyatın bütün sahələrində, bədii təcrübənin müxtəlif janrlarında əməl etməyi bir vəzifə olaraq qarşıya qoyurdu. Bəkir Nəbiyevin "Söz ürəkdən gələndə" kitabına yazdığı ön sözdə tənqidçinin müasirliyə xüsusi fikir verməsini yüksək qiymətləndirir, bunu müsbət tendensiya kimi qəbul edirdi: *"Ədəbiyyatşünas kimi fəaliyyətinin əhəmiyyətini qətiyyən azaltmadan biz Bəkir Nəbiyev istedadının çox gözəl bir keyfiyyətini – müasirlik, canlı ədəbi mərhələyə fəal maraq hissini xüsusi nəzərə çarpdırmaq istəyirik. O, müasir, dinamik, təşəkkül etməkdə olan ədəbi prosesi isti-isti izləməyi, dərk etməyi, əsas, aparıcı tendensiyasını kəşf etməyi xoşlayır və əksər hallarda buna nail olur"* [97, s. 6].

Yalnız ayrı-ayrı əsərlərin təhlili yolu ilə tarixilik və müasirlik prinsipini həyata keçirmək mümkün olmaz. Bütövlükdə ədəbiyyat tarixinin öyrənilməsində də bu prinsip başlıca meyar kimi götürülür. Belə ki, Şamil Salmanov ədəbiyyatımızın bütün dövrlərinə, o cümlədən sovet ədəbiyyatına da, müstəqillik dövrü ədəbiyyatına da bu prinsiplə yanaşır, onun tarixinin və nəzəriyyəsinin mürəkkəb məsələlərini araşdırmağın zəruriliyi məsələsini önə çəkirdi. Belə qənaətə gəlirdi ki, müasir ədəbiyyatşünaslığın indi vacib və aktual nəzəri-metodoloji problemi bu ədəbiyyatın tarixini öyrənməkdir. Bu qeydləri ilə o heç də ədəbiyyatımızın başqa dövrlərinin yeni şəkildə öyrənilməsinin mənasını və əhəmiyyətini qətiyyən azaltmaq niyyətində deyildi. Ədəbiyyatımızın qədim, orta əsrlər, XIX və XX əsrlər dövrünün də yenidən tədqiqinə kəskin ehtiyacın hiss olunduğunu təsdiqləyirdi.

Belə ki, tarixilik və müasirlik prinsipi adi, cari yox, müasir ədəbiyyatşünaslığımızın genişmiqyaslı məsələləridir. Şamil Salmanov qeyd edirdi ki,

son vaxtlarda mətbuatda çıxmış bəzi məqalələrdə islam mədəniyyəti və təfəkkürü kontekstində Azərbaycan ədəbiyyatının zəif, birtərəfli tədqiq olunmasından danışılır. O düşünürdü ki, həqiqətən də bu belədir və əlavə olaraq deyirdi ki, bu son dərəcə ciddi elmi problemdir və çox təəssüf ediləsi haldır ki, bu problemə hələ də səthi yanaşılır, bütün ciddiyyəti ilə tədqiq olunmur. Tədqiqatçının fikrincə, məhz bunun nəticəsidir ki, bəzən mətbuatda bədii ədəbiyyat və din, poeziya və din eyniləşdirilir, Azərbaycan ədəbiyyatının ideyası, fəlsəfəsi, poetikası dinin, dini dünyagörüşün ifadəsi kimi səciyyələndirilir. Aydındır ki, Azərbaycan ədəbiyyatının nəzəri və poetik problemlərini öyrənərkən biz dinin tarixindən, islam dininin əsaslarından və mündəricəsindən imtina edə bilmərik və etməməliyik. Ədəbiyyat elmimiz öz inkişafında bir çox hallarda məhz bu yolla getmişdir. O, qeyri-tarixi yollarla gedərək, Şərq ədəbiyyatının fəlsəfi dünyagörüşünün əsaslarını vulqarcasına başa düşərək, klassiklərimizin tədqiqində islam təfəkkürü amilinin yolunu lazımınca izah etməmiş və nəzərə almamış, klassiklərdə dinə qarşı çıxış ünsürləri axtarmağa meyilli olmuş və bunu onların yaradıcılıqlarının mütərəqqi tərəfi kimi başa düşmüşdür. Ş.Salmanov belə nəticəyə gəlirdi ki, ateizm, dinə qarşı çıxış halları klassik şairi qiymətləndirməyin, onun mütərəqqiliyini təyin etməyin ölçüsü və prinsipi kimi başa düşülmüşdür və nəticədə ədəbiyyat elmimiz belə qeyri-elmi, qeyri-tarixi prinsiplərə məruz qalmışdır. Bunu danmaq mümkün deyil. Etiraf edilməlidir ki, vaxtilə bizim dinə, öz dinimizə münasibətimiz ifrat ideoloji, qeyri-sivilizasiyalı bir münasibət olmuşdur.

Tənqidçi Şərq ədəbiyyatını, islam mədəniyyətini, onun mədəni fikir tarixini, o cümlədən Azərbaycan ədəbiyyatını yalnız dini dünyagörüşlə izah etmirdi. Belə düşünürdü ki, ədəbiyyat, poeziya insan həyatının, insanın fikir və hisslərinin bədii-obrazlı inikasıdır, insanın real düşüncə və duyğularının, psixoloji hallarının, sosial və siyasi görüşlərinin ifadəsidir. İnsanın ruhani və dünyəvi həyatı ədəbiyyatın, poeziyanın əbədi mövzu və idrak predmetidir. Şamil Salmanovun bu fikirləri həqiqətə uyğundur. Doğrudan da, sovet ədəbiyyatşünaslığı M.Füzulinin yaradıcılığını bütünlükdə dini aləmdən təcrid etməklə həqiqəti təhrif edirdi. Onun ədəbi irsi

dünyəvi-sosial hisslərdən, real insani münasibətlərin ifadəsindən kənarda təsəvvür olunurdu.

Şamil Salmanov belə nəticəyə gəlirdi ki, klassik ədəbi irsin tədqiqi sahəsində də ədəbiyyat elmimizin problemləri çoxdur və bu problemlərin həllini reallaşdırmaq üçün ədəbiyyat elminin mütləq yeni, daha perspektivli və geniş imkanlı metodologiya işləyib hazırlaması vacib şərtdir. Yeni yaranan ədəbiyyatşünaslıq metodologiyasında isə tarixilik və müasirlik əsas meyar kimi götürülməlidir. O, belə qənaətə gəlirdi ki, müasir ədəbiyyatşünaslığın bütün bu problemləri içərisində ən mühüm və çətin məsələlərdən biri, bəlkə də başlıcası sovet dövrü ədəbiyyatının tarixini yaratmaq, "sovet ədəbiyyatı" anlayışını tarixi bir anlayış olaraq qəbul etməkdir. Subyektiv münasibətimizdən, bu ədəbiyyatı qəbul edib-etməməyimizdən asılı olmayaraq, belə bir ədəbiyyatın ədəbi-tarixi hadisə olaraq mövcud olmasını inkar etməyin qətiyyən düzgün olmadığını vurğulayan tənqidçinin fikrincə, sovet ədəbiyyatının tarixi hüdudları, özünəməxsus yaradıcılıq prinsipləri və buna uyğun yaradıcılıq təcrübəsi mövcuddur. Bu mənada "sovet ədəbiyyatı" anlayışından imtina etmək elmə fayda gətirə bilməz. Belə olmasa, tarixilik prinsipi pozula bilər. O, belə bir fikri əsaslandırırdı ki, bu uydurma bir anlayış deyil. "Sovet ədəbiyyatı" mövcud quruluşun, sosialist cəmiyyətinin, bu cəmiyyətdə fəaliyyət göstərən insanların həyatının bədii əksidir. Bu ədəbiyyat özünəməxsus tarixi-mədəni, ədəbi-estetik məndəricəyə malikdir. Ona görə də problemə bu aspektdən yanaşmaq lazımdır. Ədəbiyyatımızın digər mərhələlərində olduğu kimi, sovet hakimiyyəti illərində də bir sıra mürəkkəb problemlər mövcud olmuşdur. Həmin problemlərin mürəkkəbliyini, spesifik cəhətlərini nəzərə alaraq, onu tədqiq etmək, geniş miqyasda araşdırmaq lazımdır.

Alim fikirlərinə davam edərək göstərirdi ki, bu dövr ədəbiyyatı yalnız sosialist cəmiyyətinə xas olan mövzuları əks etdirməklə məhdudlaşmır. Bu mərhələdə həm də klassik ədəbi irsimizin öyrənilməsi, onun nəzəri əsaslarının yaradılması istiqamətində geniş miqyaslı araşdırmalar aparılmışdır. Ş.Salmanov sovet ədəbiyyatının ədəbi-tarixi dövr kimi öyrənilməsinin əhəmiyyətini vurğulayarkən olduqca düzgün mövqedə

dayanır. Çünki ədəbiyyat tarixi həm də xalqın yaşadığı tarixin bir hissəsidir, onun tarixinin öyrənilməməsi ümumi tarixin öyrənilməsi işini natamam vəziyyətə sala bilər. Onu da qeyd etmək yerinə düşər ki, bu problem Azərbaycan ədəbiyyatşünaslığında daim diqqət mərkəzində olmuşdur. Professor Q.Qasımzadə "Milli ədəbiyyatların taleyinə dair tədqiqlər" adlı məqaləsində yazır ki, *"Bu mərhələlərdə qazanılan nailiyyətlərdən, eləcə də, yaradıcılıq axtarışlarındakı uğursuzluqlardan çıxarılan nəticələrin öyrənilməsi milli ədəbiyyatların bu günü və sabahı üçün zəruri şərtlərdir"* [42, s. 359].

Sovet dövrünün bütün mürəkkəbliyi və ziddiyyətləri ilə birlikdə milli ədəbiyyat tarixinin konsepsiyasını işləmək, təyin etmək və dərinləşdirmək dövrü olduğu aydındır. Bu dönəm ədəbi-estetik dövr kimi tamamilə donuq olmamış, ədəbi-tarixi düşüncə sistemi müasir səviyyəsini tapana qədər müxtəlif mərhələlərdən keçmişdir. Şamil Salmanov bunu da göstərir ki, sovetləşmədən sonrakı dövr, bütün məhrumiyyətlərə, bütün ədəbi-metodoloji və tarixi əyintilərə, imperiya təfəkkürünün təzyiqi və buxovlarına baxmayaraq, ədəbiyyatımızın öz milli ədəbi irsi və keçmişi ilə qarşılıqlı təsir şəraitində inkişaf etdiyi bir mərhələsidir. Bu dövrdə ədəbiyyat öz keçmişi, tarixi-mədəni qaynaqları ilə əlaqəsini heç vaxt üzməmişdir, hərçənd ki, imperiya təfəkkürü, onun siyasəti bəzən bu əlaqənin bütün dolğunluğunu dərk etməyi məhdudlaşdırırdı.

Rus ədəbiyyatşünaslığında belə bir fikir mövcuddur: *"Sovet ədəbiyyatının çoxmillətli ədəbiyyat kimi (yeri gəlmişkən göstərməliyik ki, sovet ədəbiyyatı məhz çoxmillətli ədəbiyyat kimi tədqiqata cəlb edilməlidir; çünki bu ədəbiyyat vahid bir proses halında meydana çıxmış və inkişaf etmişdir) öyrənmək üçün tamamilə yeni yanaşma üsulu işlənilməlidir. Elmimizdə sabitləşən beynəlmiləlliyi millilikdən kənar başa düşməkdən ibarət kök salmış xürafatı aradan qaldırmaq lazımdır"* [159, s. 87].

Göründüyü kimi, bu vəzifə çox mürəkkəb və çoxyönümlüdür. Bunu da nəzərə alaq ki, ədəbiyyatşünaslığın vəzifəsinin bu şəkildə müəyyən edilməsi mürəkkəb, keşməkeşli və təbəddülatlı bir dövrə aiddir. O vaxtdan indiyədək ötən illər ərzində keçmiş SSRİ ərazisində öz tarixi mənası və miqyası etibarı ilə qeyri-adi hadisələr baş

vermiş, SSRİ dağılmış, onun ərazisində yeni, müstəqil milli dövlətlər təşəkkül tapmış, mənəvi sahədə, onun strukturunda əsaslı dəyişikliklər əmələ gəlmiş, vahid mədəni məkan aradan qalxmış, ədəbiyyat sahəsində də ümumittifaq ədəbi-prosesi daha əvvəlki səviyyəsində və formasında mövcud olmamış, SSRİ Yazıçılar İttifaqı da bir yaradıcılıq təşkilatı kimi öz fəaliyyətini başa vurmuşdur. O halda bu vəzifənin daha mürəkkəb, çoxcəhətli bir məzmun və miqyas aldığını təsəvvür etmək çətin deyildir. Yaranmış yeni şəraitdə mənəvi-ideoloji fəaliyyətin başqa sahələri kimi, tənqid və ədəbiyyatşünaslıq da indi daha ümumittifaq məcrada yox, öz milli reallığı məcrasında vəzifələrini və problemlərini işləməli və hazırlamalı, onların həlli metodlarını və yollarını müəyyənləşdirməlidir. Sovet dövrü ədəbiyyatına gəldikdə isə, heç şübhəsiz, bu problemin tədqiqində başqa xalqların irsinin ədəbi təcrübəsinə laqeyd qalmaq düzgün olmaz.

Ədəbiyyat tarixinə yeni baxışı nəzəri sistem səviyyəsində işləmə prosesində öncə "sovet ədəbiyyatı" anlayışının nə dərəcədə qanunauyğun olmasını izah etmək lazımdır. Şamil Salmanov qeyd edir ki, 1917-ci ildən, sosialist inqilabı çevrilişindən sonra bütün keçmiş ittifaqda yaranan ədəbiyyatı biz uzun müddət ərzində "sovet ədəbiyyatı" adlandırmışıq. Bu qəbildən sovet adamı, sovet ölkəsi, sovet ordusu, sovet torpağı, sovet xalqı, sovet kolxozu, sovet kəndi, sovet şəhəri, sovet ticarəti, sovet kosmonavtı kimi yüzlərlə belə söz birləşmələri kimi "sovet ədəbiyyatı", "sovet incəsənəti", "sovet mədəniyyəti" anlayışlarını da işlətməyə adət etmişik, bu anlayışlar şüurumuza möhkəm daxil olmuşdur. Hətta sovet ədəbiyyatının müasir dünya ədəbiyyatında fenomen, bəşəriyyətin bədii tərəqqisində yeni mərhələ və hadisə olması ideyası şüurlarda özünə möhkəm yer tutmuşdu. Sovet imperiya siyasəti, sovet imperiya təfəkkürü öz real təzahürlərindən birini məhz bu anlayışda tapmışdır. Halbuki, ədəbiyyat mənəvi yaradıcılıq sahəsidir və onu heç bir siyasi qurumla, siyasi sistemlə və təfəkkürlə birləşdirmək olmaz. Belə eyniyyət hansı şəkildə olursa olsun, qüsurlu və elmilikdən uzaqdır. Lakin biz bunu istəsək də, istəməsək də ölkədə, keçmiş SSRİ-də mövcud olmuş ədəbiyyat məhz "sovet ədəbiyyatı" adı altında yaranmışdır və onu bu adın əhatəsindən kənarda dərk etmək sadəcə mümkün

deyildir. Qeyd edək ki, bu ədəbiyyat 1920-ci illərdə daha çox proletar ədəbiyyatı, 1930-cu illərdə isə birdəfəlik olaraq "sovet ədəbiyyatı" adlandırılmışdır. Əslində bu ədəbiyyatı başqa cür adlandırmaq düzgün olmaz, çünki o, məhz bu əlamətin altında meydana çıxmış və bu əlamətlə də müxtəlif mərhələlərdən keçmiş, inkişaf etmişdir. Əgər bu amili biz nəzərə almasaq, sovet ədəbiyyatının nə güclü tərəflərini, nailiyyətlərini, nə də müəyyən məhdudluqlarını, estetik normativliyini doğru göstərə və izah edə bilmərik.

Şamil Salmanov belə bir fikir irəli sürürdü ki, Azərbaycan ədəbiyyatının sovet dövrü tarixi konsepsiyasını formalaşdırarkən biz uzun müddət ədəbi prosesin bu kimi məqamlarını və spesifik tərəflərini nə ədəbi tənqiddə, nə də ədəbiyyatşünaslıqda qənaətbəxş səviyyədə nəzərə almamışıq, ədəbi inkişafın mürəkkəbliyini sadələşdirmişik, hətta bir çox məsələləri bəsit və yekmənalı şəkildə izah etməklə kifayətlənmişik. Buna görə mahiyyətcə mürəkkəb, dialektik olan ədəbi prosesə verdiyimiz təhlillər həm məzmun cəhətdən, həm də metodologiya nöqteyi-nəzərindən birtərəfli və qüsurlu çıxmışdır.

Bu da bir həqiqətdir ki, müharibədən sonra 1946-1948-ci illərdə kommunist partiyasının bədii yaradıcılıq və onun nəzəriyyəsi sahəsində ideoloji-siyasi xətti-hərəkətini özündə əks etdirən məlum qərar və sənədlərindən irəli gələn vəzifələrin müzakirəsi gedişində ədəbiyyatşünaslıqdan, onun vəziyyətindən söhbət gedərkən, Azərbaycan ədəbiyyatşünaslığının şiddətli tənqid olunan əsərlərindən biri "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi" (1943-1944) idi. O vaxt mətbuatda Azərbaycan ədəbiyyatşünaslığı "marksizm-leninizmin kobudcasına təhrif edilməsi", "ədəbiyyat tarixini öyrənmək işində burjua millətçiliyi qalıqlarına qarşı lazımi qədər sayıqlıq" göstərilməməsi, "Azərbaycan ədəbiyyatının "vahid axın" şəklində inkişaf etdiyinin təbliğ olunması", "ədəbi hadisələri zaman və məkan xaricində, tamamilə sinfi mübarizə prosesindən təcrid edilmiş bir halda" tədqiqi üstündə məzəmmət və ittiham olunurdu və göstərilirdi ki, bu nöqsanlar ikicildlik "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi"ndə açıq bir şəkildə öz ifadəsini tapmışdır. Burada Azərbaycan ədəbiyyatşünaslığı kommunist ideologiyasının prinsiplərindən uzaqlaşmaqda

təqsirləndirilir, sinfi mübarizənin mahiyyətinin kölgədə qaldığı göstərilirdi.

Bədii sənətdə tarixilik və müasirlik prinsipini Şamil Salmanov təkcə ədəbi tənqidi məqalələrinin məzmununda ifadə etmirdi, yeri gələndə, hətta eyni məzmunu sərlövhəyə də çıxarırdı. “Müasirlik mövqeyindən” kitabındakı “Roman və müasirlik” məqaləsində müəllif müasir Azərbaycan romanında xarakter probleminə aydınlıq gətirir. Sübut edir ki, *“müasirlik bu dövrdə romanın başlıca ideya-bədii ləyaqətidir. Həm də belə bir cəhət səmərəlidir ki, romanın indiki zamanla bağlılığı müasirliyin yeganə meyarı kimi çıxış etmir; hər şeydən əvvəl, romanın fikri istiqaməti, bədii siqləti, milli xarakterin yeni tərəflərinin estetik kəşfi və tətbiqi müasirliyin əsas məzmununu təşkil edir”* [98, s. 119-120].

Bədii yaradıcılığın müasirlik axtarışlarının dərkində Şamil Salmanovun dönə-dönə müraciət etdiyi problem, şübhəsiz, qəhrəman problemidir. Bu da təbiidir, çünki qəhrəman problemi geniş mənada incəsənətdə insan konsepsiyası məsələsidir. Bəzən qəhrəman anlayışına birtərəfli münasibət onun dəyişməz, donuq təsəvvür edilməsindən qaynaqlanmışdır, halbuki, qəhrəman kateqoriyasına belə bir xüsusiyyət tamamilə yaddır. Zaman dəyişdikcə, cəmiyyətin sosial-mənəvi strukturu inkişaf etdikcə qəhrəman anlayışı da dəyişir, təkmilləşir, yeni ideya-fəlsəfi məzmunla zənginləşir. Şamil Salmanova görə 1970-ci illərin ədəbi prosesi bu mənada diqqəti xüsusilə cəlb edir. O, bizim qəhrəman haqqında anlayışımızı, bu qəhrəmanın estetik təbiəti və özünəməxsusluğu barədə təsəvvürlərimizi yeniləşdirmişdir. Xüsusilə, müasir nəsr bu baxımdan ədəbiyyatın digər janrlarına nisbətən daha aparıcı mövqedədir. Onun fikrincə, Anar, S.Əhmədov, Elçin, İ.Məlikzadə, M.Süleymanlı və başqa nasirlərin əsərlərinə insanın mürəkkəb sosial-əxlaqi konfliktlər mühitində, cəmiyyətin vacib mənəvi sərvətlərinə dərin, şəxsi münasibətdə təsviri üçün qəhrəmanın bədii həllinin, bədii təsvirinin müxtəlifliyi xarakterikdir.

Şamil Salmanov Şərq və Azərbaycan ədəbiyyatı klassiklərinin yaradıcılığı ilə bağlı çoxsaylı araşdırmalar aparmışdır. Məlumdur ki, o, klassik ədəbiyyatın bir çox görkəmli simalarının – N.Gəncəvinin, Y.Əmrənin, M.Füzulinin, İ.Nəsiminin yaradıcılığı haqqında da professional fikirlər söyləmişdir.

Hüseyn Cavid yaradıcılığına ədəbi tənqidin uzun müddət vulqar sosioloji mövqedən yanaşmasını Şamil Salmanov tarixilik və müasirlik kateqoriyasına diqqət yetirilməməsi ilə əlaqələndirirdi. Eyni münasibəti biz H.Cavidin 1920-ci ildən sonra yazdığı əsərlərinə də aid edirik. Şamil Salmanovun fikrincə, mütəfəkkir şairin "Peyğəmbər", "Topal Teymur" kimi tarixi mövzulardakı əsərləri ona görə proletar ədəbiyyatından kənar əsərlər olaraq qarşılanırdı ki, bu pyeslərin poetik-fəlsəfi məndəricəsi, onlarda ifadə olunan sənətkar şəxsiyyəti və dünyagörüşü həqiqətən proletar ədəbiyyatının ideya-estetik görüşlər sistemindən geniş və əhatəli idi, bu əsərlərin poetik-fəlsəfi məğzi daha ümumbəşəri və deməli, daha humanist mahiyyətli idi, onlar inqilabın, proletar diktaturasının totalitar siyasi tələblərinin çərçivəsinə sığmırdı.

Tarixilik və müasirlik estetik kateqoriya kimi bədii söz sənətinin qiymətini müəyyənləşdirir. Sənət həmişə sabaha, gələcəyə münasibət bildirməyə, insanlığın sabahına işıq salmağa çalışır. Bu, sənətkarın müasirlik duyğularını nə dərəcədə mənimsəməsi ilə birbaşa əlaqədardır. Yazıçı süjetin qurulmasında, ideyanın müəyyənləşdirilməsində müasir baxışlara, insanların yeni həyat haqqında düşüncələrinə əsaslanmaya bilməz. Ancaq keçmişdə baş verənləri sadəcə olaraq bir hadisə kimi ədəbiyyata gətirməklə ədəbi ictimaiyyətə nəsə təqdim etmək mümkün deyil. Yaradıcı şəxsiyyət qələmə aldığı hadisəyə müasirlik donu geyindirməsə, əsəri uzunömürlü olmaz, öz ədəbi-estetik dəyərini itirər. Bir tənqidçi kimi Şamil Salmanov da müasirliyi sənətin, ədəbiyyatın əsas meyarı kimi qəbul edirdi.

Bütün dövrlərdə ədəbiyyatın başlıca vəzifəsi insanların əxlaqi-mənəvi tərbiyəsinə təsir göstərməkdir. Maarifçilik bütün dövrlərdə Azərbaycan ədəbiyyatının əsas mövzularından biri kimi özünü göstərib. Maarifçilik eyni zamanda müasirliklə, cəmiyyətin gələcəyi ilə bağlıdır. Şamil Salmanov sənətkarın maarifçi nöqteyi-nəzərdən çıxış etməsini müsbət hal kimi dəyərləndirir, bu cəhətdən S.Vurğun, R.Rza, F.Sadıq, N.Həsənzadə, Anar, Elçin, V.Səmədoğlu yaradıcılığını örnək kimi qəbul edirdi. Ümummilli liderimiz Heydər Əliyev Azərbaycan yazıçılarının X qurultayında deyirdi: *"Gənclərimizin düzgün tərbiyə olunması və Azərbaycana, müstəqilliyimizə*

*sədaqət, hesab edirəm ki, sizin yaradıcılığınızın əsas mövzusu olmalıdır. Bu mövzu heç vaxt köhnəlmir. Bu, elə bir mövzudur ki, heç vaxt tükənmir. Çünki biz nə qədər yaşayırıq, o qədər də gərək müstəqilliyimizi möhkəmləndirək. Mən bir daha deyirəm: XX əsrin sonunda Azərbaycan xalqının dövlət müstəqilliyini əldə etməsi tarixi nailiyyətdir, əvəzsiz bir töhfədir. Bizim borcumuz bunu möhkəmləndirmək, yenilməz etmək, əbədi, dəyişməz etməkdir. Biz müstəqilliyimizi yenidən əldən verə bilmərik"* [22, s. 440].

Şamil Salmanovun tarixilik və müasirlik anlayışlarına münasibəti dövri mətbuatda dərc etdirdiyi məqalələrində, monoqrafiyalarında öz əksini tapıb. "Azərbaycan sovet şeirinin ənənə və novatorluq problemi" (1980), "Müasirlik mövqeyindən" (1982), "Poeziya və tənqid" (1992) kitablarında, onlarca elmi məqalələrində sənətdə, ədəbiyyatda müasirlik anlayışına aydın münasibət bildirir. "Azərbaycan sovet şeirinin ənənə və novatorluq problemi" (1980) monoqrafiyasında müasirlik prinsipinə sənətin və ədəbiyyatın bütün sahələrində, bədii təcrübənin müxtəlif janrlarında əməl etməyi bir vəzifə olaraq qarşıya qoyurdu. Tənqidçi R.Rzanın əsərlərini ona görə yüksək qiymətləndirirdi ki, bu əsərlərdə dövrün nəbzi döyünür, müasirlərimizin arzu və istəkləri, düşüncələri poetik dillə ədəbiyyata gətirilirdi.

Xüsusən, müstəqillik illərində tənqidçinin sənətdə müasirlik axtarışları xeyli gücləndi. "Milli ədəbiyyat tarixi", "Ədəbiyyat nəzəriyyəsi məsələləri", "Ədəbiyyat tariximizə yeni elmi baxış", "XX əsrin sonudur: tənqidçi, nə düşünürsən?..." və başqa məqalələrində müasir ədəbi tənqidin istiqamətləri müəyyənləşdirilir, tənqidin bədii təfəkkürdəki müasirlik kateqoriyasına münasibəti yeni estetik mövqedən qiymətləndirilirdi.

Şamil Salmanov bədii sənətdə müasirlik prinsipini təkcə ədəbi tənqidi məqalələrinin məzmununda ifadə etmir, yeri gələndə, hətta eyni məzmunu sərlövhəyə də çıxarır. "Müasirlik mövqeyindən" monoqrafiyası bu cəhətdən səciyyəvidir. Kitabda 1960-cı illər nəslinin uğurlarından bəhs olunur, onları nəsil səviyyəsində formalaşdıran ictimai-tarixi şəraitə nəzər salınır və bu kontekstdə R.Rzanın,

Ə.Kərimin, F.Qocanın, İ.Hüseynovun, Anarın, Elçinin bədii irsi müasirlik prizmasından təhlilə cəlb edilir.

R.Rzanın poeziyasının bütün türk dünyasında, ümumtürk, ümummüsəlman miqyasında şöhrət qazanmasını Şamil Salmanov şairin tarixilik və müasirlik prinsipinə əməl etməsi ilə bağlayırdı. Bəzi tədqiqatçılar klassik şeir üslubunun artıq vaxtının keçdiyini iddia edirdi. Ancaq R.Rza yaradıcılığı göstərdi ki, klassik şeir məktəbi heç də iddia olunduğu kimi potensial imkanlarını tükətməyib. Şamil Salmanov həmin məsələyə qayıdır, "Dədə Qorqud" şeir ənənələri üslubunun bu gün R.Rza yaradıcılığındakı davamını təbii bir hal kimi qəbul edir. Belə düşünür ki, ədəbi ənənə heç vaxt qırılmır, o daim inkişaf edir, hər yeni dövrdə imkanlarını genişləndirir. Hər şey sənətkarın istedadından və müraciət etdiyi janrı günün tələbləri səviyyəsinə qaldırmasından asılıdır. Tənqidçinin fikrincə, R.Rzanın sərbəst vəzndə yazdığı şeirləri ona görə rəğbətlə qarşılanır ki, şair milli şeir üslubuna yeni çalar verib, onun imkanlarını genişləndirib. Şamil Salmanov "Rəsul Rza haqqında üç məqalə" əsərinin birincisi olan "Yeniliyin bədii təsdiqi" (1965) adlı məqaləsində yazırdı: *"Həqiqi mənada novator sənətkar təkcə yeniliyi həyatda, insanların düşüncə və hisslərində axtarıb tapmaqla kifayətlənmir, o poeziyanın özündə də kəşfiyyat aparır, onun açılmamış qatlarını, yeni, müasir vasitələrini, imkanlarını axtarıb tapır... Xalq şairi Rəsul Rza da bu yolla gedir, təkcə həyatın yeni qatlarını yox, poeziya sənətinin də yeni, naməlum hüdudlarını axtarmağa, kəşf etməyə gərgin əmək sərf edir"* [98, s. 135-136].

Göründüyü kimi, Ş.Salmanov R.Rza şeirinin Azərbaycan poeziyasının zəngin ənənələri ilə bağlı olduğuna, novator-poetik amillərdən qidalandığına görə onun müasir səciyyəsinin geniş vüsət aldığını əsaslandırmaqla yanaşı, şairin yaradıcılığındakı ekspressivliyi, lakonikliyi, mənəvi proseslərə həssaslığı yüksək qiymətləndirir.

Maraqlıdır ki, bu məsələlərlə bağlı R.Rza özü də peşəkar tənqidi fikirlər söyləyirdi. Ədəbiyyatşünas alim R.Yusifoğlu haqlı olaraq qeyd edirdi ki, *"əsil nəzəriyyəçi alim kimi qənaətlərini əsaslandırmağı bacaran Rəsul Rza ənənələri,*

*koloriti və dili inkişafdan məhrum olan, dəyişməyən cansız bir şey kimi qəbul etməyi düzgün saymır, nəzəri fikrini, estetik qənaətlərini öz bədii yaradıcılığında ustalıqla tətbiq etmək nümunəsi göstərməyi bacarırdı"* [137, s. 239].

N.Gəncəvi, İ.Nəsimi, M.Füzuli, M.F.Axundov yaradıcılıqları ona görə əsrlərin sınağından keçə bilib ki, onların əsərləri dövrün real gerçəkliklərini əks etdirməklə yanaşı, eyni zamanda, yeni məzmun və forma yenilikləri ilə də fərqlənib. Odur ki, tənqid və ədəbiyyatşünaslığımız bədii irsə qiymət verərkən, müasirlik kateqoriyasına daim diqqət yetirib. Bu cəhətdən Şamil Salmanovun tənqidçilik fəaliyyətini ayrıca qeyd etməliyik.

"Müasirlik mövqeyindən", "Tənqidçi və ədəbi proses", "Azərbaycan sovet şeirinin ənənə və novatorluq problemi" əsərlərinin sərlövhələri və buradakı mətnlərin məzmunu göstərdi ki, tənqidçi müasirliyi bədii yaradıcılığın başlıca tələblərindən biri kimi dərk edir. "Müasirlik mövqeyindən" monoqrafiyasının müqəddiməsində Arif Səfiyev yazır: *"Ş.Salmanovun məqalələrində tənqidi fikrin dəqiqliyi elmi ümumiləşdirmənin dərinliyi ilə təmin olunur. Burada ədəbi hadisə və əsərlərə yüksək nəzəri baxış, müasir elmi-metodoloji münasibət aydın hiss olunur. Həmçinin, tənqidi fikrin orijinallığı, tənqidçi mövqeyinin fəallığı, tənqidçi münasibətinin özünəməxsusluğu, fikir və ehtirasın vəhdətinə təzahür edən fərdi üslubun müəyyənliyi onun məqalələrinin diqqətəlayiq cəhətləridir"* [126, s. 5].

Şamil Salmanov həm tənqidçi, həm də ədəbiyyat tarixçisi kimi fəaliyyət göstərib. Ancaq bu iki elmi istiqamətdən ədəbi tənqidlə daha çox təmasda olub. Onun elmi irsi, əsasən, poeziya tənqidi ilə əlaqədardır. XX əsrin ilk onilliklərindən bu günə kimi milli poeziyanın elə bir müasir problemi və təmayülü yoxdur ki, Şamil Salmanov ona münasibət bildirməsin. S.Vurğun, R.Rza, O.Sarıvəlli, M.Dilbazi, H.Arif, M.Araz, X.Rza yaradıcılığı ona görə tənqidçinin diqqətini cəlb edib ki, onların şeir və poemalarında müasir həyatın gündəlik problemləri tərənnüm olunub, müasir insanlar, onların fikir və düşüncələri poeziyanın nəbzində döyünüb.

"Poeziya-79" məqaləsində tənqidçi poeziyanı daim fəaliyyətdə və hərəkətdə olan bir yaradıcılıq kimi qiymətləndirir, ədəbi ənənələrin 1970-ci illərdə davam

etdirildiyini bildirməklə yanaşı, bu illərdə meydana çıxan əsərlərdə müasirlik duyğularının da güclü olduğunu göstərirdi. Müəllifin fikrincə, yeni mərhələyə,1980-ci illər mərhələsinə daxil olan Azərbaycan poeziyası ədəbi prosesin dinamik bir qolu kimi zaman qarşısında özünün mənəvi-intellektual potensialı ilə yeni yaradıcılıq axtarışı yollarına qədəm qoyur: *"Başa çatdığı məqamda 70-ci illər Azərbaycan poeziyası ümumittifaq sovet poetik prosesinin canlı, dinamik inkişaf edən bir qolu olaraq səciyyələnir. Poeziya zaman qarşısında sosial funksiyasını geniş dərk edərək irəliləyir, yeni hüdudlarını, yeni struktur imkanlarını axtarır və bu da təbiidir ki, bu axtarış heç də həmişə uğurla, mütləq kəşflə, tapıntı ilə, ənənəyə nə isə mühüm, yeni əlavə gətirməklə nəticələnmir"* [16, s. 16]. Lirik elementlərin müasir poeziyada daha çox üstünlük təşkil etdiyini qeyd edən alim göstərirdi ki, lirikada zaman anlayışı, insan və zaman münasibətləri mürəkkəb məzmunu, zəngin cizgiləri ilə poetik strukturun başlıca mündəricəsinə çevrilir. Şeirimizdə ideya-poetik ənənələr, üslub əlvanlığı, janr müxtəlifliyi xalqın ictimai-siyasi və mənəvi-əxlaqi həyatının təsvir və tərənnümündə yeni imkanlar açır.

Tənqid müxtəlif onilliklərdə bədii yaradıcılıqda müasirlik axtarışlarını davam etdirib. M.Arif, M.Cəfər, K.Talıbzadə, Ə.Mirəhmədov, K.Məmmədov, Y.Qarayevin tarixiliklə bağlı maraqlı fikirləri var. Yaşar Qarayev "Tənqidin nüfuzu" (1971) adlı məqaləsində ədəbi prosesin ədəbi tənqiddəki mənzərəsinin tənqidçi inamı ilə sıx bağlı olduğunu göstərir və birmənalı şəkildə qeyd edirdi ki, həyatın gerçək mahiyyətinə nüfuz etməyən tənqid mənəvi mükafat qazana bilməz. Görkəmli tənqidçi həmin məqalədə öz qənaətlərini ümumiləşdirərək yazırdı: *"Özünün üslubi yekrənglik və forma mühafizəkarlığı kimi zəifliyini dəf etmədən, müasirliyə və yeniliyə tənqidi təfəkkürün öz ritmində və tərzində nail olmadan tənqid bu vəzifəni ədəbiyyat miqyasında da öhdəsinə götürə və həyata keçirə bilməz"* [37, s. 123].

Ümumiyyətlə, Y.Qarayev tənqidçi şəxsiyyətini, tənqidçi sədaqətini ədəbi tənqid müstəvisinin ən önəmli göstərici, xüsusi meyarı hesab edir və müasirlik duyğusunun, tarixi həqiqətə müasir don geyindirməyin tənqidçi şəxsiyyətinin tamlığının və bütövlüyünün əlaməti olduğu qənaətinə gəlirdi.

Müxtəlif onilliklərdə ədəbi tənqid ədəbiyyat və sənətdə müasirlik kateqoriyasına düzgün mövqedən yanaşmamış, Ə.Cavad, H.Cavid, A.İldırım kimi şairlərimiz əsassız yerə tənqid olunmuş, əsərləri ədəbi dövriyyədən çıxarılmışdır. Bu cəhətdən 1920-30-cu illərdə H.Cavid yaradıcılığına daha çox vulqar, volyuntarist mövqedən yanaşmalar olmuşdur. 1930-cu illərin tanınmış tənqidçisi Hənəfi Zeynallı H.Cavidin "Peyğəmbər" əsərini ona görə kəskin tənqid etmişdir ki, bu əsərdə böyük tarixi şəxsiyyətlərin obrazına daha çox diqqət yetirilib, adi insanların taleyi və xalqın mübarizəsi "Peyğəmbər"də görünmür. Şair böyük şəxsiyyətləri qəhrəman seçir, onların fəaliyyətini tərənnüm etməklə kifayətlənir.

Hənəfi Zeynallının həmin mülahizələri əslində siyasi prinsiplərə, sosialist realizm yaradıcılıq metodunun, marksist estetikanın tələblərinə hesablanıb. Şamil Salmanov tənqidçinin bu cür vulqar sosioloji dəyərləndirməsini qəbul etmir, H.Cavidin bəşəri mövzuları müasir dövrün tələbləri ilə əlaqələndirdiyi qənaətini müdafiə edərək, Cavidin böyük bəşəri mövzular şairi, bu böyük mövzular vasitəsi ilə böyük fikir və ehtiraslar ifadə etməyə qabil sənətkar olduğu qənaətinə gəlirdi. Buradan aydın olur ki, Şamil Salmanov müasirliyi zahiri əlamət, formal xüsusiyyətlərlə eyniləşdirmir, o, müasirliyi milli və bəşəri dəyərlər kimi dərk edirdi.

Şamil Salmanov monoqrafiyalarında və məqalələrində bu prinsipə daim əməl edib, hər bir bədii əsərin təhlilində həmin bədii nümunənin yarandığı tarixi şəraiti nəzərə alıb, eyni zamanda, müasir təhlil və tədqiq ideyalarına əsaslanıbdır. Şübhəsiz ki, onun ədəbi əsərlərin təhlilindəki bu mövqeyi uzun bir yol keçib, tarixin sınaqlarında yeniləşib. Ədəbi tənqid həmişə müasirdir və daim müasirliyə can atır. Müasirliyin bədii-estetik axtarışlarında tənqidin özünün də mənəvi dəyərləri, təsir gücü və nüfuzu üzə çıxır. Əxlaqi-mənəvi sərvətlər real həqiqətə çevriləndə tənqid özü də dövrün mənəvi sərvətləri sırasına daxil olur. Bu mənada Şamil Salmanovun tənqidçi üslubu daim yeni və müasirdir. O, 1960-cı illərdən üzübəri sənətin, ədəbiyyatın mənəvi kamilliyi üçün qarşısına böyük ədəbi-tarixi missiya qoyub, daim sənətin əbədi və əzəli prinsiplərinə sadiq qalıb.

Şamil Salmanov əsasən, müasir ədəbi-tarixi prosesin problem və qayğılarından yazıb, ədəbi proseslə nəfəs alıb. Fikir versək görərik ki, ildən-ilə tənqid arsenalını genişləndirib, hər dövrdə ədəbi tənqid bazasını yeni elmi konsepsiyalarla möhkəmləndirib, tənqidçi nüfuzunu qoruyub saxlamağı bacarıb. Bütün bunlar onun tənqidçi istedadının gücünü göstərir. Şamil Salmanov klassik ədəbiyyatdan da, müasir ədəbi-tarixi prosesdən də yazanda həmişə çağdaş ədəbi-estetik prinsiplərdən çıxış edir. Müasir həyat, onun problemləri və bütün bunların bədii ədəbiyyatdakı dərki Şamil Salmanovun tənqidində mühüm aktuallıq qazanır. Onun tənqidi yazıları indi ədəbiyyatşünaslığımızın klassik nümunələri sırasına daxil olub. Bu da tənqid və ədəbiyyat tarixi, ədəbiyyat nəzəriyyəsinin qarşılıqlı əlaqəsi, bir-biri ilə zənginləşməsi, bütövləşməsi prosesinin nəticəsidir.

Məlumdur ki, ədəbi tənqiddə baş verən sosial-ictimai yeniliklər çox keçmədən ədəbiyyat tarixində də özünü göstərir. Belə olmasa, ədəbiyyatşünaslıq klassik ədəbi irsin qiymətləndirilməsində öz müasir nəzəri-estetik bazasından məhrum olar. Şamil Salmanov N.Gəncəvidən də, M.Füzulidən də, Y.Əmrədən də, İ.Nəsimidən də söhbət açanda obyektiv tarixi mövqedən çıxış edir, ölçülü-biçili fikirlər səsləndirir, tənqidçi şəxsiyyətinə sadiq qalır, tarixlə müasirlik arasında dialoqu tapır, yeni minilliyin, yeni əsrin təfəkkür faktorundan, klassik ədəbi-mənəvi dəyərlərdən bədii əsərlərə qiymət verməyi bacarır.

Ş.Salmanov yaxşı bilirdi ki, humanitar elmlər zamanın, dövrün reallıqlarına uyğun olaraq öz nəzəri-metodoloji bazasını genişləndirir, o cümlədən də ədəbiyyatşünaslıq müəyyən kateqoriyalarına münasibətdə yeni mövqe ortaya qoyur. Həyatla, cəmiyyətlə, cəmiyyətin sosial-mənəvi prosesləri ilə əlaqədar olaraq bu elmlər çox çəkmədən bu və ya digər dərəcədə dəyişir. Yeniləşmə bu elmlərin öz predmetlərinə, ictimai hadisələrə yanaşma tərzində özünü hiss etdirir, onların fəlsəfi və metodoloji istiqamətləri müəyyənləşir. Bu cür hallarda ictimai elmlərdə baş verən dəyişmə təfəkkür dəyişmələridir, dünyagörüşü prinsiplərinin yeniləşməsi deməkdir. Əsas humanitar elmlər sırasına daxil olan və burada çox mühüm yerlərdən birini tutan, cəmiyyətin mənəvi aləmində fəal və təsirli iştirak edən belə elmlərdən biri

ədəbiyyatşünaslıqdır.

Ədəbiyyatşünaslığın predmeti, tədqiqat materialı bədii ədəbiyyatdır, bədii ədəbiyyatı yaradan, təşkil edən bədii əsərlərdir, bu əsərləri ərsəyə gətirən müəlliflərin həyatı və yaradıcılığıdır, onların görüşləri və şəxsiyyətləridir. Ədəbiyyatşünaslıq öz predmetini izah edir, onun sosial-fəlsəfi, ədəbi-estetik mahiyyətini və tarixi inkişaf qanunauyğunluqlarını öyrənir. Müasir Avropa ədəbiyyatşünaslarından Maks Verli belə hesab edir ki, bu elm, yəni *"ümumi ədəbiyyatşünaslıq bədii ədəbiyyatın mahiyyəti, mənşəyi, ifadə formaları və həyat əlaqələri haqqında elmdir", buna görə də o, eyni zamanda, bu sözün həqiqi mənasında "ədəbiyyatın elmi tədqiqinin prinsipləri və metodları haqqında elmdir"* [156, s. 9].

M.Verlinin ümumi ədəbiyyatşünaslığın predmeti və tədqiq obyekti barədə fikirləri bir qədər akademik olsa da, ədəbiyyatşünaslığın funksiyasını dəqiq aydınlaşdırır. Burada yalnız onu qeyd etmək lazımdır ki, bədii ədəbiyyat haqqında, onun spesifikası və inkişaf qanunauyğunluqları haqqında, o cümlədən bədii ədəbiyyatı tədqiqin prinsipləri və metodologiyası haqqında təlim olmaq etibarı ilə ədəbiyyatşünaslıq daim axtarışdadır. O, daim dəyişir, inkişaf edir, yeni fərziyyələr və məktəblər hesabına öz fəaliyyət sahəsini genişləndirir, tarixilik və müasirliyin vəhdətində özünü, prinsiplərini təsdiq edir.

Şübhəsiz ki, bədii ədəbiyyatda baş verən dəyişikliklər, bədii ədəbiyyatın özünün ideya-estetik və fəlsəfi cəhətdən zənginləşməsi ədəbiyyat tarixinə də münasibəti təbii və qanuni olaraq dəyişdirir, yeniləşdirir, ədəbiyyat tarixində, bundan əvvəlki mərhələlərdə tədqiqatın görə bilmədiyi yeni xüsusiyyətlər, yeni tərəflər axtarmaq və aşkara çıxarmağa imkan yaranır. Şamil Salmanov belə nəticəyə gəlirdi ki, ədəbiyyat tarixi sadəcə ötən dövrlərin ədəbi mənzərəsi, əsərlərin və müəlliflərin, ədəbi hadisə və faktların xronoloji düzümü, silsiləsi və ardıcıllığı deyil, daha mürəkkəb və dialektik bir idrak hadisəsidir. Söz yox ki, ədəbiyyat tarixi, hər bir milli ədəbiyyatın ən mühüm fakt və materialını da əhatə etməlidir. Fakt və materialsız, bu sözün həqiqi mənasında ədəbiyyat tarixini yaratmaq qeyri-mümkündür. Ədəbiyyatşünaslığın bir sahəsini təşkil edən, ona elm olmaq statusu verən ədəbiyyat

tarixi məhz bundan başlanır. Fakt və materialın, sənəd və hadisələrin toplanılması, sistemləşdirilməsi, ədəbi-bədii əsərlərin mükəmməl mətnlərinin hazırlanması ədəbiyyat tarixi üçün zəruri ilkin şərtdir. Bunu ədəbiyyat tarixinin yalnız bir cəhəti kimi qiymətləndirən Ş.Salmanov haqlı olaraq nəzərə çatdırırdı ki, milli ədəbiyyatların tarixi, dövrləri, hadisələri, milli xüsusiyyətlərinin inkişafı müəyyən dünyagörüşü, müəyyən tarixi-ideoloji kontekstdə müəyyən ideya-estetik mövqelərdən dərk olunur və mənalandırılır. Həm də bu proses fakt və material toplanılmasının başa çatmasından yox, bu mərhələ ilə eyni vaxtda özünü göstərir. Çünki ədəbiyyat tarixi ədəbi keçmişin, onun xronologiyasının sadəcə bərpası deyil, o, eyni zamanda, müasirliyin bu ədəbi keçmişə baxışı və münasibətidir. Əgər bu baxış və münasibət olmasa, ədəbiyyat tarixi bir elm kimi öz üzərinə düşən vəzifəni həyata keçirə bilməz. Məhz bu vəzifəni icra etdiyi təqdirdə ədəbiyyat tarixi ədəbiyyatşünaslıq sistemində xüsusi və mühüm bir elmi sahə ola bilir. Onun vəzifəsi milli ədəbiyyatın keçdiyi dövrləri, yolları, mərhələləri təyin etmək, milli ədəbiyyatın tarixi-milli xüsusiyyətlərini müəyyənləşdirmək və bu ədəbiyyata yeni, müasir baxışı ifadə etməkdir. Ədəbiyyat tarixi isə bu vəzifəni o vaxt yerinə yetirə bilər ki, o, dəqiq, dürüst elmi meyarlara əsaslansın, öz predmetinin xüsusiyyətinə dərindən bələd olsun, onun spesifikasından çıxış etsin, elmi dünyagörüşü prinsipləri ilə milli ədəbi-tarixi prosesi öyrənsin və ümumiləşdirməyi bacarsın.

Təəssüf ki, ədəbiyyat tarixinin dərindən və əsaslı öyrənilməmiş dövrləri, problemləri və şəxsiyyətləri hələ də çoxdur. Müəyyən səbəblər üzündən, marksist sovet ədəbiyyatşünaslığının ideoloji ehkamlarının maneəsi nəticəsində bizə ədəbiyyatımızın bir çox dövrlərini, islam və Şərq mədəniyyəti hadisəsi kimi tarixi spesifikasını kifayət qədər müfəssəl öyrənməyə imkan verilməmişdir. Doğrudur, sovet hakimiyyətinin mövcud olduğu 70 il müddətində bu vəzifəni icra etmək üçün müəyyən işlər görülsə də, bunlar kifayət deyildir. Artıq bunun üçün real və geniş imkan yaranmışdır. Bu real imkan ədəbiyyat tarixinə, onun hadisələrinə yeni elmi baxışın ifadəsinə və realizəsinə şərait yaradır. Ş.Salmanov bütün bu incəlikləri diqqətlə araşdıraraq belə nəticəyə gəlirdi ki, ədəbiyyat tariximizin fundamental

məsələlərini, o cümlədən ədəbi şəxsiyyətlərin yaradıcılığını tarixilik və müasirlik mövqeyindən tədqiq etmədən heç bir müsbət nəticəyə ümid edə bilmərik. Alimin fikrincə, ədəbi-tarixi hadisələrə yeni baxış əvvəlki baxışlar sisteminin sadəcə inkarı zəminində formalaşmır. Ədəbiyyat tarixinin dövrlərinə, kateqoriyalarına və hadisələrinə yeni baxışın ifadəsi fundamental prinsiplərə və meyarlara əsaslanmalıdır. Bu prinsiplərin ən əsası isə, heç şübhəsiz, tarixilikdir. Məhz bu prinsip ədəbiyyat tarixinə hərtərəfli yeni baxışın metodoloji bünövrəsidir. Tarixilik tədqiqatı təxminilikdən, subyektiv mülahizələrdən və nəticələrdən xilas edir, onun müvəffəqiyyətini təmin edir.

Bəllidir ki, ədəbiyyatşünaslıqda tarixilik və müasirlik kateqoriyası mühüm əhəmiyyət kəsb edir. Ədəbi-nəzəri fikrin bu kateqoriyasına əməl etmədən milli və ümumbəşəri dəyərlərə qiymət vermək mümkün deyil. İctimai fikrin mühüm sahəsi olan ədəbi tənqid və ədəbiyyatşünaslıqda tarixilik və müasirliyi gözləmədən klassik və müasir ədəbi düşüncə faktlarını təhlil etmək, dəyərləndirmək mümkün olmaz. M.F.Axundovdan başlayaraq bu günə qədər elmi-nəzəri fikrimizdə tarixilik və müasirlik problemləri alimlərimizi daim düşündürüb.

Şamil Salmanov da məqalələrində, çıxışlarında, monoqrafiyalarında bu prinsipə daim əməl edib, hər bir bədii əsərin təhlilində həmin bədii nümunənin yarandığı tarixi şəraiti nəzərə alıb, eyni zamanda, müasir təhlil və tədqiq ideyalarına əsaslanıb. Şübhəsiz ki, onun ədəbi əsərlərin təhlilindəki bu mövqeyi uzun və gərgin axtarış yollarında müəyyənləşib, tarixin sınaqlarından çıxaraq zaman-zaman yeniləşib, hər bir yeni ədəbi mərhələdə tənqidçi obyektiv meyarlara əsaslanan mövqe nümayiş etdirib.

Tarixilik və müasirlik prinsipi təkcə ayrı-ayrı əsərlərin təhlilində həyata keçirilmir. Bütövlükdə ədəbiyyat tarixinin öyrənilməsində də bu prinsip başlıca meyar kimi götürülür. Belə ki, Şamil Salmanov ədəbiyyatımızın bütün dövrlərinə, o cümlədən sovet ədəbiyyatına da, müstəqillik dövrü ədəbiyyatına da bu prinsiplə yanaşır, onun tarixinin və nəzəriyyəsinin mürəkkəb məsələlərini araşdırmağın zəruriliyini önə çəkirdi. Belə qənaətə gəlirdi ki, müasir ədəbiyyatşünaslığın indi vacib

və aktual nəzəri-metodoloji problemi bu ədəbiyyatın tarixini öyrənməkdir. O, bu elmi qənaəti ilə heç də ədəbiyyatımızın başqa dövrlərinin yeni şəkildə öyrənilməsinin mənasını və əhəmiyyətini qətiyyən azaltmaq niyyətində deyildi. Alim ədəbiyyatımızın qədim, orta əsrlər, XIX və XX əsrlər dövrünün də yenidən tədqiqinə kəskin ehtiyac hiss olunduğunu bir çox məqalələrində açıq-aydın göstərirdi.

Azərbaycan ədəbiyyatı tarixinin nəzəri-metodoloji problemləri Şamil Salmanovun həmişə diqqət mərkəzində olub. O, həmin məsələyə fundamental ədəbi mövqedən yanaşmış, ədəbiyyat tarixini mənəviyyat tarixi kimi dəyərləndirmiş, ədəbiyyat tarixində milli təfəkkür amilini başlıca meyar kimi qəbul etmişdir.

Bu fəsildə gəlinən elmi qənaətlər, əsas müddəalar, tezislər iddiaçının aşağıdakı məqalə və konfrans materialları şəklində öz əksini tapmışdır: [139; 143; 146; 158; 166].

# NƏTİCƏ

Azərbaycan ədəbi-nəzəri fikrinin özünəməxsus estetik konsepsiyası, ədəbi dəyərlər sistemi var. Tarixi dövrlərin ən çətin vaxtlarında da ədəbiyyatşünaslıq öz ədəbi-tarixi vəzifələrini gerçəkləşdirməyi bacarmış, milli ədəbiyyat tarixinin yaradılmasında müstəsna rol oynamışdır. Çünki təməli M.F.Axundov ilə qoyulan ədəbiyyatşünaslıq qısa zaman məsafəsində böyük bir yol keçib, bədii təfəkkürə münasibətdə milli dəyərlərin qorunmasına çalışıb.

Bizim milli ədəbi proses daim tənqidçi şəxsiyyətinin nüfuzu və qayğısı altında olub. Düzdür, müəyyən ədəbi dövrlərdə yazıçı şəxsiyyəti tənqidçi varlığını sıxışdırmağa çalışsa da, Ə.Nazim, M.Hüseyn, M.Arif, M.Cəfər, M.Əlioğlu, Y.Qarayev, Q.Xəlilov kimi nüfuzlu tənqidçilərin sayəsində milli ədəbi-nəzəri fikrimiz öz suveren hüquqlarını qoruyub saxlamağı bacarmış, ədəbi prosesdə müstəqil mövqeyini qoruyub mühafizə etmişdir.

Bu cür tənqidçilərin sırasında Şamil Salmanovun da adı və imzası var. Onun monoqrafiyaları, məqalələri, portret-oçerkləri həmişə ədəbi ictimaiyyətin diqqətini cəlb edirdi. Çünki Şamil Salmanovun yeniliyi, müasirliyi, ədəbi prosesdəki sağlam cəhətləri vaxtında görmək, qiymətləndirmək bacarığı güclü idi. Onun qərəzsiz, obyektiv mövqedən yazılan əsərlərində sosioloji qata az təsadüf olunur, daha çox estetik dəyərləndirmələrə üstünlük verirdi. Nəticə olaraq deyə bilərik ki, Şamil Salmanov klassik və müasir ədəbiyyatımızın təhlilində daim obyektiv mövqedən çıxış etmiş, müasirlik və tarixilik kateqoriyalarına əməl edərək ədəbiyyatımızın qayğısına qalmışdı.

Bunu da bir nəticə kimi qeyd edə bilərik ki, Şamil Salmanov ədəbiyyatımızı, ədəbiyyat tariximizi mükəmməl bilirdi. O, ədəbiyyatımızın, ədəbiyyatşünaslığımızın ancaq bir sahəsi üzrə tədqiqat aparmaqla işini bitmiş hesab etmirdi, əsil tənqidçi kimi peşəkarlıq nümayiş etdirir, yeni yaranan əsərin poeziya, nəsr, yaxud dramaturgiya nümunəsi olmasından asılı olmayaraq, dərhal öz münasibətini bildirir, ədəbiyyatdakı yeni meyilləri, orijinal dəst-xətti duya bilirdi.

Bizim fikrimizcə, Şamil Salmanov milli ədəbi ənənələrə, xüsusən, tənqid ənənələrimizə həmişə hörmətlə yanaşmış, ədəbi-tarixi prosesdə müsbət nə varsa diqqətlə öyrənmiş, ümumiləşdirmiş, orijinal, müstəqil ədəbi mövqedən, öz ədəbi konsepsiyası səviyyəsində bədii təfəkkürün həyatda gördüklərini ədəbiyyatşünaslıq elminin predmetinə çevirə bilmişdir.

Belə bir ümumiləşdirilmiş nəticəyə gəlmək mümkündür ki, Şamil Salmanovun özü də həyatının müxtəlif dönəmlərində şeir yazdığına görə bədii yaradıcılığın poeziya tipinə daha çox diqqət yetirir, vaxtaşırı poeziyamızdakı janr, üslub, dil yeniliklərini ədəbi tənqidin təhlil predmetinə gətirirdi. N.Gəncəvidən də, M.Füzulidən də, S.Vurğundan da, R.Rzadan da yazanda ədəbi mətndən çıxış edir, yazıçı idealının bədii yaradıcılıqdakı irslərini axtarıb tapır, şeirimizdəki bədii-estetik sistemin əsaslarını üzə çıxarmağa nail olurdu.

Bu da bir nəticə kimi razılıq doğurur ki, Şamil Salmanovun tənqidçi dili və üslubu zəngin, sadə, ancaq elmi-nəzəri fikir yükü baxımından dərin idi. 1960-cı illərdən ədəbi tənqidimizdə iz qoymağa cəhd edərək, ildən-ilə, onillikdən-onilliyə öz inkişafının qayğısına qalmış, sosioloji təhlil üsulundan analitik dəyərləndirmələrə sürətli keçid etməklə tənqidçilik istedadını nümayiş elətdirmişdir.

Şamil Salmanov ədəbiyyat nəzəriyyəçisi idi. Uzun müddət AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Ədəbiyyat nəzəriyyəsi şöbəsinə rəhbərlik etmişdi. O, burada kadr hazırlığına xüsusi diqqət yetirmiş, xeyli sayda aspirant və dissertantın elmi rəhbəri olmuşdur. Ədəbi-nəzəri fikrimizin qayğısına qalmaq onun həm vəzifə borcu, həm də tənqidçilik vəzifəsi olmuşdur. Nəzəri təfəkkürünün dərinliyi, tənqidçi intuisiyası ona imkan yaratmışdır ki, ədəbiyyatşünaslığımızın janr, üslub, dil, mövzu, ideya problemlərinə aydınlıq gətirməyi bacarsın.

Bu da maraqlıdır ki, Şamil Salmanov tənqid və ədəbiyyatşünaslığımızın metodoloji axtarışlarında həmişə xüsusi həssaslıq, bilik nümayiş etdirib, dövrün, zamanın ədəbi çərçivələrinə məhəl qoymayıb, sosialist realizminin sərt nəzəri-ideoloji prinsiplərindən deyil, ədəbiyyatımızın mövqeyindən çıxış edib.

Keçən əsrin 20-30-cu illərində marksist estetikanın əsasları formalaşır, sosialist realizmi yaradıcılıq metodunun fəlsəfi-ədəbi çərçivələri möhkəmləndirilirdi. Bu dövrdə meydana çıxan vulqar sosiologizmin, klassik irsə nihilist münasibətin, inqilabi və proletar ədəbiyyatın mahiyyətinin geniş aspektdə izahı Şamil Salmanova məxsusdur. O, ədəbi mətbuatı daim izləyərək tənqid və ədəbiyyatşünaslığımızın metodologiyasının hazırlanmasında M.Arif, M.Cəfər, K.Talıbzadə, Y.Qarayev və başqalarının yolunu davam etdirirdi. Xüsusən, müstəqillik dövründə bu işdə xüsusi fəallıq göstərir, milli şüura, milli təfəkkürə əsaslanan ədəbiyyatşünaslığımızın təməl prinsiplərinin formalaşmasında mühüm rol oynayırdı.

Ədəbiyyatşünaslıqda fundamental məsələlərdən biri olan ənənə və novatorluğa Şamil Salmanov bütöv konsepsiya kimi yanaşırdı. Bədii yaradıcılıqda da, ədəbi-nəzəri fikirdə də ənənə və novatorluğu əsas meyar kimi götürən tənqidçi bədii irsi bundan kənarda təsəvvür etmir, bədii yaradıcılıqda müasirliyi başlıca şərt hesab edirdi.

Onun tənqidçiliyini ədəbiyyatşünaslıq fəaliyyətində də görmək mümkün idi. Bu mənada ki, o, ədəbi-tarixi hadisələrə, klassik mətnlərə tənqidçi nəzəri ilə yanaşır, ona müasir, yeni qiymət verməyə çalışırdı. Ədəbi-tarixi fakt və hadisələri şərh etməklə yanaşı, çağdaş ədəbi-nəzəri fikir işığında həmin faktlara yeni təfəkkürdən yanaşırdı. Bu da bir nəticə kimi diqqətəlayiqdir ki, yüksək tənqidçi fəhmi, iti nəzərləri, müasirlik duyğuları ona tənqidimizin önündə dayanmağa imkan vermişdi.

Tənqidi fəaliyyət prinsiplərinə və növlərinə diqqət yetirəndə görürük ki, bu ədəbi-nəzəri fikir arxasınca gedənlər iki qismə bölünür. Birinci qisim tənqidçilər daim ədəbi materialdan asılı olur, ancaq ədəbi fakt və hadisələri qeydə almaqla kifayətlənir, əsərin məzmununu təkrar etməklə işini bitmiş hesab edir. İkinci qisim tənqidçilərin isə özlərinin ədəbi konsepsiyası, bədii yaradıcılığı təhlil etmə, dəyərləndirmə sistemi olur. Bu cür tənqidçilər öz ideyalarını, baxışlar sistemini təsdiqləməyə xidmət edir. Başqa cür desək, onlar öz ideyalarından çıxış edir, bütöv elmi sistem irəli sürür və fikirlərinin təsdiqi üçün ədəbi əsərlərə müraciət edir, ədəbi

fakt və hadisələrlə öz fikir və mülahizələrini yekunlaşdırırlar. Şamil Salmanov da bu cür tənqidçilər sırasındadır.

Şamil Salmanov tənqidçi olmaqla yanaşı, eyni zamanda, ədəbiyyat tarixçisi, ədəbiyyat nəzəriyyəçisi kimi də fəaliyyət göstərirdi. 1960-cı illərdə işıq üzü görən "Azərbaycan sovet ədəbiyyatı tarixi"nin müəlliflərindən biri idi. Alimin M.Füzuli, M.F.Axundov, C.Məmmədquluzadə, H.Cavid və başqa sənətkarlarımızın həyat və fəaliyyətindən bəhs edən məqalələri müasir ədəbiyyatşünaslığın ən yaxşı, mükəmməl əsərlərindən hesab olunur. Bu da bir nəticə olaraq qeyd olunmalıdır ki, Şamil Salmanovun ədəbiyyatşünaslıq fəaliyyəti təkcə klassik ədəbi irsin tədqiqi ilə bağlı deyildi. O həm də tənqid tariximizin yaranması və təşəkkül mərhələsi haqqında sistemli elmi tədqiqatların müəllifidir. Onun "Müasir Azərbaycan ədəbi tənqidinin təşəkkülü və inkişaf meyilləri" mövzusundakı doktorluq dissertasiyası da ədəbiyyatşünaslığın predmeti kimi qəbul edilməlidir. Bu fundamental elmi tədqiqat işində Şamil Salmanov Azərbaycan ədəbi tənqidinin müxtəlif dövrlərini, həmin dövrdə yazıb-yaradan tənqidçilərin fəaliyyətini geniş planda təhlil edib, tənqid və ədəbiyyatşünaslığımızın ümumi mənzərəsinin aydınlaşdırılmasına yaxından kömək edib.

Bütün bunlarla yanaşı, dissertasiyada bir sıra ümumiləşmiş, konkret nəticələrə gəlmişik ki, bunları sistemləşdirməyi vacib sayırıq:

**1.** Şamil Salmanov mütəfəkkir tənqidçidir. O, yalnız ədəbi hadisələrə, faktlara, sənədlərə izah və şərhlər verməklə kifayətlənmir, eyni zamanda ictimai-fəlsəfi nəticələrə gəlir, məzmunçuluğa meyil etmir, fəlsəfi baxışlara söykənirdi. Təriqət ədəbiyyatına da, yeni dövr ədəbiyyatına da, müasir ədəbi prosesə də idrakı ilə baxırdı.

**2.** "Azərbaycan sovet şeirinin ənənə və novatorluq problemi", "Poeziya və tənqid", "Müasirlik mövqeyindən", "Akademik Kamal Talıbzadə" və s. əsərlərində vahid bir ideya ilə, azərbaycançılıq, müstəqil dövlətçilik mövqeyindən çıxış edirdi.

**3.** Tənqidçinin yaradıcılığında milli şüur, milli təfəkkür faktoru çox güclüdür. Bədii yaradıcılığa da, tənqidçi irsinə də münasibətdə bu amillər həmişə diqqətlə

nəzərə alır, tənqid və ədəbiyyatşünaslığımızın fundamental problemlərinə bu kontekstdən qiymət verirdi.

**4.** Şamil Salmanov, hər şeydən əvvəl poeziya tənqidçisi kimi tanınırdı. Poetik duyumu, fitri istedadı, ağıllı və yerində olan mühakimələri ilə poeziya yaradıcılığının əsası istiqamətlərinə diqqətlə nəzər yetirir, poetik axtarışların obyektiv və subyektiv amillərini dəqiqləşdirirdi.

**5.** Biz novator ədəbiyyat deyə bildiyimiz kimi, novator tənqid terminindən də istifadə etməliyik. Şamil Salmanov novator tənqidçi idi. Bədii təfəkkürdəki yeniliyi, müasirliyi vaxtında görür və onun genişlənməsinə yol göstərirdi.

**6.** Ancaq müasirlik prinsipini rəhbər tutan bəzi tənqidçilər bədii əsərlərin, elmi-ədəbi irsin nə vaxt yaranmasını, hansı şəraitdə meydana çıxmasını nəzərə almır, müraciət etdikləri əsərləri dövrün kontekstindən ayıraraq, ona subyektiv notlar əlavə edir, ictimai mühit amilini yaddan çıxarırlar. Buna görə də çox vaxt əsaslandırılmayan fikir və mülahizələr söyləyir, obyektivlikdən uzaqlaşırlar. Şamil Salmanov isə tarixilik və müasirliyi həmişə vəhdətdə götürür, xüsusən, ictimai-mədəni zəmini başlıca şərt kimi dəyərləndirirdi.

**7.** Şamil Salmanov müasir realizm nəzəriyyəçilərindən biri idi. O, realizm haqqında son illərin tədqiqatlarının mühüm nəticələrini təhlil edir, normativ estetikanın sovet ədəbiyyatındakı yerini müəyyənləşdirir, Z.Kedrinanın, S.Əsədullayevin, Y.Qarayevin realizm konsepsiyalarına öz münasibətini bildirirdi.

Son nəticə olaraq, fikrimizi belə yekunlaşdıra bilərik ki, Şamil Salmanov tənqid və ədəbiyyatşünaslığımızda xüsusi yeri, çəkisi olan bir şəxsiyyətdir. Həmişə obyektiv mövqedən çıxış etməyə üstünlük verən tənqidçi heç vaxt subyektivizmə qapılmır, ədəbi irsi seçir, ədəbiyyata olan hədsiz sevgisi və marağı sayəsində tənqidçi şəxsiyyətini uca tutmağa çalışırdı.

## İstifadə edilmiş ədəbiyyat siyahısı

### Azərbaycan dilində


1. Akimova, E.S. Müstəqillik dövründə Azərbaycanda ədəbi tənqid (90-cı illər): / filologiya üzrə elmlər doktoru dis. / – Bakı, 2006. – 157 s.
2. Akimova, E.S. Yeni təfəkkür və ədəbi tənqid / E.S.Akimova. – Bakı: MBM, – 2012. – 280 s.
3. Alışanlı, Ş.H. Ədəbi-nəzəri fikrin tarixiliyi və müasirliyi / Ş.H.Alışanlı. – Bakı: Elm, – 2013. – 404 s.
4. Alışanlı, Ş.H. Müasir humanitar təfəkkür və Azərbaycan ədəbiyyatşünaslığı / Ş.H.Alışanlı. – Bakı: Elm, – 2011. – 376 s.
5. Alışanlı, Ş.H. Sözün estetik yaddaşı / Ş.H.Alışanlı. – Bakı: Elm, – 1994. – 228 s.
6. Azərbaycan ədəbiyyatı tarixi: [3 cilddə] / Red. hey. M.A.Dadaşzadə, Ə.M.Mirəhmədov. – Bakı: Azər. SSR Elmlər Akademiyası Nəşriyyatı, – c. 3. – 1957. – 562 s.
7. Azərbaycan ədəbiyyatının tarixi poetikası. II kitab. Poetik fikrin təkamülü / Red.: Ş.H.Alışanlı. – Bakı: Elm, – 2006. – 496 s.
8. Babayev, N.Ş. Ədəbi mübahisələr əhatəsində // Ədəbiyyat və incəsənət. – 1980, 19 sentyabr. – s. 6
9. Bayramov, Q.F., Qurbanqızı, J. Müasir dövrdə tənqidçi-ziyalı faktoru: filologiya elmlər doktoru professor Şamil Salmanov haqqında // Azərbaycan. – 2004, 6 fevral. – s. 7
10. Cəfərov, C.H. Əsərləri: [2 cilddə] / C.H.Cəfərov. – Bakı: Azərnəşr, – c. 2. – 1968. – 403 s.
11. Cəfərov, N.Q. Ədəbiyyatın müstəqilliyindən müstəqilliyin ədəbiyyatına / N.Q.Cəfərov. – Bakı: Elm və təhsil, – 2016. – 348 s.
12. Dadaşlı,Y.B. Azərbaycan ədəbi tənqidinin tarixi (sovet dövrü) / Y.B.Dadaşlı. – Bakı: Elm və təhsil, – 2019. – 472 s.

13. Dadaşzadə, M.A. Seçilmiş əsərləri: [3 cilddə] / M.A.Dadaşzadə. – Bakı: Azər. SSR Elmlər Akademiyası Nəşriyyatı, – c. 1. – 1967. – 620 s.
14. Elçin. Azərbaycan ədəbi tənqidinin və ədəbi prosesin problemləri / E.İ.Əfəndiyev. – Bakı: Çinar-Çap, – 2003. – 302 s.
15. Əbilov, A.Ə. Modern şair, tənqidçi, ədəbiyyatşünas Şamil Salmanov // – Bakı: Azərbaycan jurnalı, – 2007. №10, – s. 147-150
16. Ədəbi proses – 79 / Red. hey.: M.Z.Cəfərov, K.A.Talıbzadə, Q.X.Qasımzadə, Y.V.Qarayev. – Bakı: Elm, – 1983. – 164 s.
17. Ədəbi proses – 81-82 / Red. hey.: M.Z.Cəfərov, Ə.M.Mirəhmədov, K.A.Talıbzadə, Q.X.Qasımzadə, Y.V.Qarayev. – Bakı: Elm, – 1987. – 304 s.
18. Ədəbi proses – 83-84 / Red. hey.: Ş.M.Salmanov, M.Z.Cəfərov, Y.V.Qarayev, K.A.Talıbzadə, Q.X.Qasımzadə. – Bakı: Elm, – 1994. – 312 s.
19. Ədəbi proses–2014 / Red. hey.: İ.Ə.Həbibbəyli, Ş.K.Sadıqov, M.P.Qasımlı, B.B.Əhmədov, V.Ə.Yusifli. – Bakı: Hədəf, – 2015. – 400 s.
20. Ədəbiyyat söhbəti. Yaşarın xalq yazıçısı Elçin ilə müsahibəsi // Bakı: Azərbaycan jurnalı, – 2012, – № 1, – s. 100-122
21. Əhmədov, B.B. XX yüzil Azərbaycan ədəbiyyatı: mərhələlər, istiqamətlər, problemlər / B.B.Əhmədov. – Bakı: Elm və təhsil, – 2015. – 552 s.
22. Əliyev, H.Ə. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar) / H.Ə.Əliyev. – Bakı: Ozan, – 1999. – 496 s.
23. Əsgərli, Z.Ş. Poetika: izahlı sözlük / Z.Ş.Əsgərli. – Bakı: Elm, – 2014. – 262 s.
24. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı / Red.: B.Ə.Nəbiyev. – Bakı: Şərq-Qərb, – 2009. – 248 s.
25. Həsənov, O.Y. Böyük Vətən müharibəsi və Azərbaycan ədəbiyyatı // Bakı. – 1978, 1 fevral. – s. 3
26. Humanitar elmlərin müasir durumu və ədəbiyyatşünaslığın nəzəri-metodoloji məsələləri, (Beynəlxalq elmi konfransın materialları) / Red. hey.: M.K.Kərimov, Y.B.Borev, Ş.H.Alışanlı [və b.] – Bakı: Elm, – 2010. – 554 s.

27. Hüseyn, M.Ə. Ədəbiyyat və sənət məsələləri / M.Ə.Hüseynov. – Bakı: Azərnəşr, – 1958. – 612 s.
28. Hüseyn, M.Ə. Əsərləri: Ədəbi-tənqidi məqalələr (1948-1954): [10 cilddə] / M.Ə.Hüseynov. – Bakı: Yazıçı, – c. 10. – 1979. – 268 s.
29. Hüseynov, Ə.Ş. Tənqid və ədəbi proses / Ə.Ş.Hüseynov. – Bakı: Nurlan, – 2009. – 416 s.
30. Qarayev, Y.V. Poeziyanın kamilliyi / Y.V.Qarayev, Ş.M.Salmanov. – Bakı: Yazıçı, – 1985. – 193 s.
31. Qarayev, Y.V. Seçilmiş əsərləri: [5 cilddə] / Y.V.Qarayev. – Bakı: Elm, – c. 1. – 2015. – 668 s.
32. Qarayev, Y.V. Seçilmiş əsərləri: [5 cilddə] / Y.V.Qarayev. – Bakı: Elm, – c. 2. – 2015. – 632 s.
33. Qarayev, Y.V. Seçilmiş əsərləri: [5 cilddə] / Y.V.Qarayev. – Bakı: Elm, – c. 3. – 2015. – 908 s.
34. Qarayev, Y.V. Seçilmiş əsərləri: [5 cilddə] / Y.V.Qarayev. – Bakı: Elm, – c. 4. – 2016. – 776 s.
35. Qarayev, Y.V. Seçilmiş əsərləri: [5 cilddə] / Y.V.Qarayev. – Bakı: Elm, – c. 5. – 2016. – 728 s.
36. Qarayev, Y.V. Təbrik edirik! Şamil Salmanov – 50 // Ədəbiyyat və incəsənət. – 1983, 26 avqust. – s. 6
37. Qarayev, Y.V. Tənqid: problemlər, portretlər / Y.V.Qarayev. – Bakı: Azərnəşr, – 1976. – 212 s.
38. Qarayev, Y.V., Salmanov, Ş.M. Canlı müasirimiz: Səməd Vurğunun anadan olmasının 75 illiyi // Bakı. – 1981, 20 mart. – s. 3
39. Qarayev, Y.V., Salmanov, Ş.M. Sənətkarın kamilliyi: Bəxtiyar Vahabzadənin 60 yaşı // – Bakı: Azərbaycan jurnalı, – 1985. № 8, – s. 146-153
40. Qarayev, Y.V., Salmanov, Ş.M. Tarixiliyin və müasirliyin vəhdəti: Əziz Mirəhmədov – 70 // Ədəbiyyat və incəsənət. – 1990, 30 noyabr. – s. 3
41. Qasımlı, M.P. Müdriklik ona yaraşır // Ədəbiyyat. – 2005, 24 iyun. – s. 2

42. Qasımzadə, Q.X. Ədəbiyyatımız, mənəviyyatımız / Q.X.Qasımzadə. – Bakı: Yazıçı, – 1988. – 408 s.
43. Qəhrəmanov, S.A. Ədəbi-tarixi prosesin problemləri və istiqamətləri (XX əsrin 20-30-cu illəri): / filologiya üzrə elmlər doktoru dis. avtoreferatı. / – Bakı, 2018. – 26 s.
44. Qurban, T.Y. Alimliyin təsdiqi. Filologiya elmlər doktoru Şamil Salmanovun 65 illiyi münasibətilə // Bakı. – 1998, 7 avqust. – s. 3
45. Qurban, T.Y. Elə bil dünən idi tələbəlik illəri // Ekspress. – 2013, 17-19 avqust. – s. 12-15
46. Məmmədov, K.D. İlk ədəbiyyat tarixçimiz // Ədəbiyyat və incəsənət. – 1985, 18 yanvar. – s. 6
47. Məmməd, T.Q. Ənənə və novatorluq: anlayışın dinamikası / Salmanov, Ş.M. Böyük yaradıcılıq yolu (Seçilmiş məqalə və müsahibələr) – Bakı: Avropa, – 2020. – s. 5-14
48. Mir Cəlal. Ədəbi tənqid (1931-1974) / M.Ə.Paşayev. – Bakı: Zərdabi-Nəşr, – 2018. – 520 s.
49. Mirəhmədov, Ə.M. Ədəbiyyatşünaslıq. Ensiklopedik lüğət / Ə.M.Mirəhmədov. Baş red.: İ.Vəliyev. – Bakı: Azərbaycan Ensiklopediyası Nəşriyyat-Poliqrafiya Birliyi, – 1998. – 240 s.
50. Mirzəzadə, Q.Ə. Tənqidçi dünyası (Əkbər Ağayevin ədəbi-tənqidi görüşləri) / Q.Ə.Mirzəzadə. – Bakı: Azərnəşr, – 2000. – 152 s.
51. Mustafayev, M.B. Ədəbiyyatşünaslığımızın xan çinarı / M.B.Mustafayev. – Bakı: Mütərcim, – 2012. – 200 s.
52. Mustafayev, M.B. XIX əsr ədəbi irsi ədəbiyyatşünaslıqda / M.B.Mustafayev. – Bakı: Xəzər Universiteti, – 2010. – 240 s.
53. Müasir Azərbaycan ədəbiyyatı: [2 clddə] / Red. hey.: C.M.Abdullayev, T.H.Hüseynov, V.S.Sultanlı. – Bakı: Bakı Universiteti, – c. 1. – 2007. – 504 s.
54. Müasirlik problemi və nəsrin axtarışları // Bakı: Azərbaycan jurnalı, – 1977. – № 6, – s. 151-192

55. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı (1990-cı illərdə): [2 cilddə] / Red. hey.: İ.Ə.Həbibbəyli, T.Ə.Mustafayev. – Bakı: Elm və təhsil, – 1. c. – 2016. – 800 s.
56. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı (müasir mərhələdə): [2 cilddə] / Red. hey.: İ.Ə.Həbibbəyli, T.Ə.Mustafayev. – Bakı: Elm və təhsil, – 2. c. – 2016. – 1088 s.
57. Nazim, Ə.M. Seçilmiş əsərləri / Ə.M.Mahmudzadə. – Bakı: Yazıçı, – 1979. – 374 s.
58. Nəbiyev, B.Ə. Poeziya: ənənə, novatorluq // – Bakı: Azərbaycan jurnalı, – 1980. № 9, – s. 192-196
59. Nəbiyev, B.Ə., Salmanov, Ş.M. Bədii sənət və tənqidçi təfəkkürü // – Bakı: Ulduz jurnalı, – 1972. № 3, – s. 58-61
60. Nəbiyev, B.Ə., Salmanov Ş.M. “Ulduz” şölələnir // Kommunist. – 1968, 18 fevral. – s. 3
61. Nəbiyev, B.Ə. Seçilmiş əsərləri: [5 cilddə] / B.Ə.Nəbiyev. – Bakı: Çinar-Çap, – c. 1. – 2009. – 492 s.
62. Nəbiyev, B.Ə. Seçilmiş əsərləri: [5 cilddə] / B.Ə.Nəbiyev. – Bakı: Çinar-Çap, – c. 2. – 2009. – 558 s.
63. Nəbiyev, B.Ə. Seçilmiş əsərləri: [5 cilddə] / B.Ə.Nəbiyev. – Bakı: Çinar-Çap, – c. 3. – 2009. – 616 s.
64. Nəbiyev, B.Ə. Seçilmiş əsərləri: [5 cilddə] / B.Ə.Nəbiyev. – Bakı: Çinar-Çap, – c. 4. – 2009. – 556 s.
65. Nəbiyev, B.Ə. Tənqid və ədəbi proses / B.Ə.Nəbiyev. – Bakı: Azərnəşr, – 1976. – 186 s.
66. Novruzov, T.C. Poeziya və tənqid tədqiqatçısı // Xalq qəzeti. – 2003, 27 sentyabr. – s. 8
67. Rəfili, M.H. Sərbəst şeir haqqında ilk söz // Maarif işçisi qəzeti. – 1929, №1, – s. 70-78

68. Salamoğlu, T.S. Ədəbi tənqid tarixinə dair portret-oçerklər / T.S.Cavadov. – Bakı: Azərbaycan Dövlət Pedaqoji Universiteti, – 2011. – 264 s.
69. Salmanov, Ş.M. Akademik Kamal Talıbzadə / Ş.M.Salmanov. – Bakı: Ozan, – 1998. – 108 s.
70. Salmanov, Ş.M. Anarın ədəbi-tənqidi görüşləri // Yeni Azərbaycan. – 2003, 11 may. – s. 8
71. Salmanov, Ş.M. Arzumuz budur ki... // Ədəbiyyat və incəsənət. – 1978, 20 may. – s. 6
72. Salmanov, Ş.M. Azad torpaq haqqında nəğmələr // – Bakı: Azərbaycan jurnalı, – 1961. № 5, – s. 211-214
73. Salmanov, Ş.M. Azərbaycan sovet şeirinin ənənə və novatorluq problemi (1920-1932-ci illər) / Ş.M.Salmanov. – Bakı: Elm, – 1980. – 186 s.
74. Salmanov, Ş.M. Bir az da obyektiv tənqiddən danışaq // – Bakı: Müxbir jurnalı, – 1988. № 8, – s. 8-11
75. Salmanov, Ş.M. Böyük yaradıcılıq yolu (Seçilmiş məqalə və müsahibələr) / Ş.M.Salmanov. – Bakı: Avropa, – 2020. – 460 s.
76. Salmanov, Ş.M. Ədəbiyyat tariximizə yeni baxış (Tarix və müasirlik) // Xalq. – 1993, 7 may. – s. 4
77. Salmanov, Ş.M. Ədəbiyyatı idrak / Talıbzadə, K.A. Tənqid və tənqidçilər. – Bakı: Yazıçı, – 1989. – s. 3-10
78. Salmanov, Ş.M. Ədəbiyyatla yaşayırdı // Ədəbiyyat. – 1998, 18 sentyabr. – s. 4
79. Salmanov, Ş.M. Ədəbiyyatşünaslıq və yeni təfəkkür // – Bakı: Azərbaycan jurnalı, – 1990. № 3, – s. 173-179
80. Salmanov, Ş.M. Əsrin novator poeziyası // Rza, R.İ. Seçilmiş əsərləri: [5 cilddə] – Bakı: Öndər, – c. 1. – 2005. – s. 4-24
81. Salmanov, Ş.M. Əsrin tənqidçisi: Məmməd Arif-100 // – Bakı: Azərbaycan jurnalı, – 2004. № 6, – s. 136-139
82. Salmanov, Ş.M. Görkəmli şair, vətəndaş: Əhməd Cəmil-70 // Ədəbiyyat və incəsənət. – 1983, 28 oktyabr. – s. 7

83. Salmanov, Ş.M. Həmişə müasir sənətkar. Cəlil Məmmədquluzadə-125 // Bakının səsi. – 1995, 4 yanvar. – s. 4
84. Salmanov, Ş.M. Hünərli illərin vəsfi // Azərbaycan gəncləri. – 1981, 30 aprel. – s. 4
85. Salmanov, Ş.M. İlhamlı yaradıcılıq yolu: Qasım Qasımzadə-70 // Ədəbiyyat. – 1993, 9 iyul. – s. 3
86. Salmanov, Ş.M. İnqilab və ədəbi tənqid // Ədəbiyyat və incəsənət. – 1980, 25 aprel. – s. 6
87. Salmanov, Ş.M. İnsaniliyin qələbəsi // Ədəbiyyat və incəsənət. – 1989, 24 fevral. – s. 6
88. Salmanov, Ş.M. XX əsrin sonudur: tənqidçi, nə düşünürsən?... // – Bakı: Azərbaycan jurnalı, – 1998. №1-2, – s. 179-182
89. Salmanov, Ş.M. Qəribə mülahizələr // Ədəbiyyat və incəsənət. – 1968, 2 mart. – s. 14-15
90. Salmanov, Ş.M. Lirikanın imkanı // – Bakı: Ulduz jurnalı, – 1990. № 7, – s. 79-83
91. Salmanov, Ş.M. Məndə Məcnundan füzun.... M.Füzuli-500 // Bakının səsi. – 1994, 23 noyabr. – s. 3
92. Salmanov, Ş.M. Mən tənqidi seçdim və sevdim // Xalq. – 1993, 3 sentyabr. – s. 4
93. Salmanov, Ş.M. Mətbuat və ədəbiyyat: “Ədəbiyyat qəzeti”ni vərəqlərkən. // Ədəbiyyat qəzeti. – 1996, 5 iyul. – s. 1-2
94. Salmanov, Ş.M. Mətnşünas alimin xatirəsi // Azərbaycan müəllimi. – 1975, 24 sentyabr. – s. 4
95. Salmanov, Ş.M. Milli ədəbiyyat tarixi: problemlər, mülahizələr // – Bakı: Ulduz jurnalı, – 1992. №3-4, – s. 52-62
96. Salmanov, Ş.M. Müasir Azərbaycan ədəbi tənqidinin təşəkkülü və inkişaf meyilləri: / filologiya üzrə elmlər doktoru dis. / – Bakı, 1996. – 389 s.

97. Salmanov, Ş.M. Müasirlik hissi ilə / Nəbiyev, B.Ə. Söz ürəkdən gələndə (ədəbi tənqidi məqalələr) – Bakı: Yazıçı, – 1984. – s. 5-8
98. Salmanov, Ş.M. Müasirlik mövqeyindən (məqalələr) / Ş.M.Salmanov. – Bakı: Yazıçı, – 1982. – 205 s.
99. Salmanov, Ş.M. Mühüm mövzunun tədqiqi // – Bakı: Azərbaycan jurnalı, – 1978. № 8, – s. 197-201
100. Salmanov, Ş.M. Mühüm tarixi sənəd: Ədəbi-bədii təşkilatların yenidən qurulması haqqında qərarın 50 illiyi // Ədəbiyyat və incəsənət. – 1982, 30 aprel. – s. 2
101. Salmanov, Ş.M. Narahat fikirlər arxasınca // – Bakı: Azərbaycan jurnalı, – 1983. № 6, – s. 159-162
102. Salmanov, Ş.M. Novator poeziya uğrunda. Qurultayqabağı söhbət // Bakı. – 1965, 22 dekabr. – s. 3
103. Salmanov, Ş.M. Poeziyamız yüksəliş yollarında // Ədəbiyyat və incəsənət. – 1981, 19 iyun. – s. 5-6
104. Salmanov, Ş.M. Poeziya və tənqid / Ş.M.Salmanov. – Bakı: Yazıçı, – 1987. – 208 s.
105. Salmanov, Ş.M. Sabahınız xeyir, insanlar / Ş.M.Salmanov. – Bakı: Azərbaycan Dövlət nəşriyyatı, – 1966. – 33 s.
106. Salmanov, Ş.M. Sərt illər ədəbiyyatının tədqiqi // Ədəbiyyat və incəsənət. – 1970, 19 sentyabr. – s. 12
107. Salmanov, Ş.M. Sosialist realizmi tədqiq olunur // Ədəbiyyat və incəsənət. – 1976, 19 iyun. – s. 7
108. Salmanov, Ş.M. Şairin tənqidi təcrübəsi // Ədəbiyyat və incəsənət. – 1967, 28 oktyabr. – s. 6-7
109. Salmanov, Ş.M. Şairin zamanla əlaqəsinin tədqiqi // Ədəbiyyat və incəsənət. – 1966, 30 iyul. – s. 2-3
110. Salmanov, Ş.M. Təmənnasız xidmət. M.Rəfilinin anadan olmasının 60 illiyi münasibəti ilə // Ədəbiyyat və incəsənət. – 1965, 30 oktyabr. – s. 2

111. Salmanov, Ş.M. Tənqidçinin görüşləri: Hənəfi Zeynallı-100 // Ədəbiyyat. – 1996, 27 dekabr. – s. 2
112. Salmanov, Ş.M. Tənqidçinin maraq dairəsi // Ədəbiyyat və incəsənət. –1967, 13 may. – s. 6
113. Salmanov, Ş.M. Tənqidçi və ədəbi proses (Akademik Bəkir Nəbiyevin ədəbi-elmi fəaliyyəti və tənqidi görüşləri) / Ş.M.Salmanov. – Bakı: Səda, – 2001. – 155 s.
114. Salmanov, Ş.M. Tənqidimizin cəfakeşi: Kamal Talıbzadə - 75 // – Bakı: Azərbaycan jurnalı, – 1998. № 9, – s. 159-163
115. Salmanov, Ş.M. Tənqidin çətin yolunda // Ədəbiyyat və incəsənət. – 1990, 19 oktyabr. – s. 6
116. Salmanov, Ş.M. Tənqidçi və zaman: M.Arif – 90 // Ədəbiyyat. – 1994, 25 iyun. – s. 5
117. Salmanov, Ş.M. Tənqidin yüksək amalı: Mirzə Fətəli Axundov-175 // Ədəbiyyat və incəsənət. – 1988, 28 oktyabr. – s. 4, 7
118. Salmanov, Ş.M. Tərcümə sənətinin tarixi // Azərbaycan. – 1995, 5 dekabr. – s. 4
119. Salmanov, Ş.M. Uzaqdan gələn qonaq // Ədəbiyyat və incəsənət. – 1976, 20 mart. – s. 2
120. Salmanov, Ş.M. V.V.Mayakovski poeziyasının mübariz ənənələri // – Bakı: Azərbaycan jurnalı, – 1963. № 7, – s. 36-45
121. Salmanov, Ş.M. Yaradıcılıq vəzifələri: Azərbaycan yazıçılarının VII qurultayı qarşısında // Bakı. – 1981, 6 iyun. – s. 3
122. Salmanov, Ş.M. Yeri görünən yazıçı: Mehdi Hüseyn -80 // Kommunist. –1989, 8 dekabr. – s. 3
123. Salmanov, Ş.M. Zamanın məcrasında (Ötən ilin poeziyasına bir nəzər) // – Bakı: Azərbaycan jurnalı, – 1985. № 4, – s. 171-177
124. Salmanov, Ş.M., Yusifli V.Ə. Maraqlı kitab: Yazıçılar, talelər, əsərlər // Kommunist. – 1979, 15 may. – s. 4

125. Səfiyev, A.M. Ön söz / Salmanov, Ş.M. Poeziya və tənqid. – Bakı: Yazıçı, – 1987. – s. 3-7

126. Səfiyev, A.M. Tənqidçi mövqeyinin fəallığı / Salmanov, Ş.M. Müasirlik mövqeyindən (məqalələr). – Bakı: Yazıçı, – 1982. – s. 3-5

127. Şəmsizadə, N.Ş. Əgər onlar olmasaydı... / N.Ş.Şəmsizadə. – Bakı: "Vektor" nəşrlər evi, – 2015. – 270 s.

128. Talıbzadə, K.A. Ədəbi irs və varislər / K.A.Talıbzadə. – Bakı: Azərnəşr, – 1974. – 318 s.

129. Talıbzadə, K.A. Seçilmiş əsərləri / K.A.Talıbzadə. – Bakı: Elm, – 2015, – 352 s.

130. Talıbzadə, K.A. Tənqid və tənqidçilər / K.A.Talıbzadə. – Bakı: Yazıçı, – 1989. – 492 s.

131. Tənqid və yaradıcılıq prosesi (baş məqalə) // Ədəbiyyat və incəsənət. – 1978, 22 aprel. – s. 5, 7-8

132. Ulusel, R.S. Müasir Azərbaycan tənqidi / R.S.Xəlilov. – Bakı: Elm, – 2009. – 184 s.

133. Vahabzadə, B.M. Seçilmiş əsərləri: Düşündürən poeziya Y.V.Qarayev / [2 cilddə] / B.M.Vahabzadə. – Bakı: Azərnəşr, – c. 1. – 1974. – 384 s.

134. Vurğun, S.Y. Seçilmiş əsərləri: [5 cilddə] / S.Y.Vəkilov. – Bakı: Şərq-Qərb, – c. 5. – 2005. – 384 s.

135. Yusifli, V.Ə. Müasirimiz Şamil Salmanov: anadan olmasının 80 illiyi münasibətilə // Ədəbiyyat. – 2013, 30 avqust. – s. 5

136. Yusifli, V.Ə. Tənqid yarpaqları / V.Ə.Yusifli. – Bakı: Gənclik, – 1998. – 112 s.

137. Yusifoğlu, R.Y. Ədəbi-nəzəri fikrin inkişaf mərhələləri / R.Y.Əliyev. – Bakı: Elm və təhsil, – 2016. – 368 s.

138. Yusifoğlu, R.Y. Müasir ədəbi proses və ədəbi tənqid: [Elektron resurs] / – Bakı, 2014, URL: http://anl.az/el/Kitab/2016/2014-14.pdf

139. Zeynalova, R.H. Ədəbi tənqid tariximizin yaradıcılarının elmi irsinə müasir baxış // – Sumqayıt: Sumqayıt Dövlət Universitetinin Elmi xəbərləri, Sosial və humanitar elmlər bölməsi, – 2018. cild 14, №1, – s. 39-42
140. Zeynalova, R.H. Ənənə və novatorluq ədəbi-bədii təcrübənin inkişafında əsas amillərdən biri kimi // Pearson Journal İnternational Conference on Social Sciences&Humanities, – Ankara: – 22-23 yanvar, – 2021, – s. 178-180
141. Zeynalova, R.H. Ənənə və novatorluq ədəbi tənqiddə (Şamil Salmanovun ədəbi irsi əsasında) // – Bakı: Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, – 2016. 4(100), – s. 226-228
142. Zeynalova, R.H. Müasir Azərbaycan poeziyasının klassikləri ədəbi tənqiddə (Şamil Salmanovun yaradıcılığı əsasında) // – Sumqayıt: Sumqayıt Dövlət Universitetinin Elmi xəbərləri, Sosial və humanitar elmlər bölməsi, – 2021. cild 14, №4, – s. 39-42
143. Zeynalova, R.H. Müasirlik bədii estetik dəyər kimi // – Bakı: Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, – 2017. 3 (103 ), – s. 180-182
144. Zeynalova, R.H. Şamil Salmanovun elmi-ədəbi irsində 1970-ci illər poeziyasının tədqiqi // Doktorantların və gənc tədqiqatçıların XIX Respublika elmi konfransının materialları, – Bakı: Azərbaycan Dövlət İqtisad Universiteti, – 7-8 aprel, – 2015, I cild. – s. 449-451
145. Zeynalova, R.H. Şamil Salmanovun ədəbi-nəzəri görüşlərində ənənə və novatorluq // – Sumqayıt: Sumqayıt Dövlət Universitetinin Elmi xəbərləri, Sosial və humanitar elmlər bölməsi, – 2017. №1, – s. 34-37
146. Zeynalova, R.H. Şamil Salmanovun tədqiqatlarında tarixiliyin və müasirliyin vəhdəti // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2021. №4, – s. 235-244
147. Zeynalova, R.H. Şamil Salmanovun tənqidçi üslubunun xüsusiyyətləri // Müasir dilçiliyin aktual problemləri. Beynəlxalq elmi konfransın materialları, –Sumqayıt: Sumqayıt Dövlət Universiteti, – 24-25 noyabr, – 2016, – s. 256-257

148. Zeynalova, R.H. Şamil Salmanovun yaradıcılığında tənqidin tənqidi // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2020. №3, – s. 324-332

149. Zeynalova, R.H. Tənqidçinin estetik mövqeyi // Doktorantların və gənc tədqiqatçıların XX Respublika elmi konfransının materialları, – Bakı: Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, – 24-25 may, – 2016, – s. 129-131

150. Zeynalova, R.H. Tənqidçi şəxsiyyəti Şamil Salmanovun tədqiqat predmeti kimi // – Bakı: Bakı Qızlar Universitetinin Elmi əsərləri, – 2021. №2, – s. 6-9

151. Zeynalova, R.H. Tənqidçi üslubunun fərdiliyi // – Bakı: Kitabşünaslıq və nəşriyyat işi. Elmi-nəzəri və təcrübi jurnal, – 2017. №1, – s. 58-62


**Rus dilində**

152. Асадуллаев, С.Г. Эстетический идеал и социальная активность писателя / С.Г.Асадуллаев. – Баку: Язычы, – 1982. – 306 с.

153. Баранов, В.И. Литературно-художественная критика / В.И.Баранов, А.Г.Бочаров, Ю.И.Суровцев – Москва: Высшая школа, – 1982. – 207 с.

154. Белая, Н.В. Традиция и новаторство как важнейшие составляющие литературного творчества: [Электронный ресурс] / – Майкоп, 2007, URL:http://www.vestnik.adygnet.ru/files/2007.3/528/belaya2007_3.pdf

155. Бочаров, А.Г. Литература и время: Из творческого опыта прозы 60-х–80-х годов / А.Г.Бочаров. – Москва: Художественная литература, – 1988. – 383 с.

156. Верли, М. Общее литературоведение / М.Верли. – Москва: Издательство иностранной литературы, – 1957. – 243 с.

157. Горький, А.М. О литературе / А.М.Пешков. – Москва: Советская Россия, – 1980. – 480 с.

158. Зейналова, Р.Х. Методологические поиски в азербайджанской литературной критике (1960-1990 гг.) // – Одеса: Науковий вісник Міжнародного гуманітарного університету. Серія: філологія. Збірник наукових праць, – 2017. випуск 29, том 2, – с. 42-45

159. Зелинский, К.Л. Литературы народов СССР: Статьи / К.Л.Зелинский. – Москва: Гослитиздат, – 1957. – 406 с.
160. Ковалев, В.А. Проблемы русской советской литературы. 50-70-е годы: [Электронный ресурс] / – Ленинград, 1976, URL: https://digilib.phil.muni.cz/bitstream/handle/11222.digilib/121277/SpisyFF_204-1976-1_4.pdf
161. Луначарский, А.В. Литература нового мира: Обзоры. Очерки. Теория / А.В.Луначарский. – Москва: Советская Россия, – 1982.– 320 с.
162. Методология современного литературоведения (проблемы историзма) / Ред. кол.: Ю.Б.Борев, Н.К.Гей, А.Я.Зись – Москва: Наука, – 1978. –367 с.
163. Понятие о традициях и новаторстве в литературе: [Электронный ресурс] // – URL:http://iessay.ru/ru/writers/other/literatura-xx-veka/stati/raznoe/ponyatie-o-tradiciyah-i-novatorstve-v-literature
164. Современная русская советская литература: литературный процесс 50-80-х годов: [в 2 частях] / Под ред.: А.Г.Бочарова, Г.А.Белой, В.Г.Воздвиженского – Москва: Просвещение, – ч. 1. – 1987. – 256 с.
165. Ференц, Н.С. Основы литературоведения: [Электронный ресурс] / – Kiyev, 2014, URL:https://studbooks.net/17061/literatura/literaturnaya_traditsiya_novatorstvo

## İngilis dilində

166. Zeynalova, R.H. Literary criticism in the creativity of professor Shamil Salmanov // –Уральск: Уральский научный вестник, – 2020. №8, – p. 24-29